MÜƏLLİF, TOPLAYANI VƏ TƏRTİB EDƏNİ
TARİX ELMLƏRİ DOKTORU
SABİR GƏNCƏLİ

# 777 SUAL...

## DÜŞÜNDÜRÜCÜ, ƏYLƏNCƏLİ ENSİKLOPEDİK TOPLU

AZƏRBAYCAN
NƏŞRİYYATI
BAKI - 2008

S23(08)

## Müəllif və tərtibçidən:

Beş il əvvəl xoş gecələrin birində mənalı bir yuxu gördüm. Yuxuda elə bil kimsə mənə bu kitabı yazmağı, uşaqlarımıza bir yadigar qoymağı tövsiyə edirdi. Ayıldım. Yuxum qaçdı. Səhərə kimi yerimdə bu maraqlı işin ətrafında düşündüm. Kitabın adını, mövzusunu, bölmələrini gözümün önünə gətirdim. Ürəyimə elə həvəs gəldi ki, bu işi hər cür çətinliyə baxmayaraq həyata keçirməyi qərara aldım. Allaha çox şükür ki, hər gün bu xeyirxah işlə məşğul olmağa özümdə həvəs, güc tapdım.

İndi bu xəzinənin qapıları Sizin üzünüzə açıqdır. Burada ən qədim dövrdən indiyə kimi kainat, varlıq, tarix, coğrafiya, ədəbiyyat, elm, incəsənət haqqında, elm, mədəniyyət, incəsənət xadimlərinin dəyərli fikirləri, xalqlar və ölkələr, gözəl yurdumuz, bir sözlə, dünyada baş vermiş ən maraqlı hadisələr, müdrik kəlamlar barədə yığcam, ensiklopedik məlumat verilir. Məqsəd uşaqlarımızın və gənclərimizin dünyagörüşünü, biliyini artırmaqdır.

Planetimiz o qədər geniş və zəngindir ki, həmin elmi məlumatları bir topluda ətraflı şərh etmək mümkün deyildir. Bunun üçün qalaq-qalaq kitablar yazmaq gərək olardı. Biz həmin tükənməz xəzinədən yüzlərlə suala cavab verən sirləri açıb oxucularımıza çatdırmağı özümüzə borc bildik.

Bu ensiklopedik toplunu hazırlamaq üçün çoxlu ədəbiyyat, tarixi mənbə, mətbu yazılar oxumaq, toplamaq lazım idi. Minnətdarlıq hissilə qeyd etmək istəyirəm ki, çox çətin, ağır zəhmət tələb edən bu işi görməkdə hörmətli qələm sahiblərinin, onların maraqlı tədqiqatlarının, kitablarının, mətbuatda dərc edilmiş məqalələrinin böyük köməyi olmuşdur. Arı çiçəklərdən şirə çəkən kimi, biz də ağıl, kamal sahiblərinin söz, bilik xəzinəsindən ən maraqlı inciləri toplayıb bu kitaba yığmışıq. Ondan hamı - məktəbli də, valideyn də, müəllim də, krossvord, viktorina, şou oyunlarının həvəskarları da faydalanacaqlar.

Bu əyləncəli ensiklopedik toplu bədii formada tərtib edilmiş gözəl biliklər aləmidir. Ora baş vuran çox şey öyrənə bilər.

## Bu kitab niyə 777 sual... adlanır?

Ulu əcdadlarımız 1, 3, 4, 7, 40 rəqəmlərini müqəddəs hesab etmişlər.

1 rəqəmi vahid Allahın varlığını ifadə edir.

3 rəqəmi "Atalar üçəcan deyiblər" - müdrik kəlamını yadımıza salaq. Müdriklərimiz əxlaq və mənəviyyat məsələlərində üç şeyə fikir verməyi nəsihət etmiş, ailə, məhəbbət, həyat və məişət münasibətlərində sədaqətli, etibarlı, güclü, qüdrətli, namuslu, qeyrətli olmağın 3 əsas şərtini göstərmişlər.

4 və 7 rəqəmləri elm, zəka, müdriklik, təbiət və cəmiyyətin qanunauyğunluğunun rəmzi kimi götürülmüşdür.

4 rəqəmi dünyanın 4 (cənub, şimal, şərq və qərb) cəhətini, qədim türklərin 4 istiqamətdə yürüşlərini bildirir.

Dörd unsür - hava, su, torpaq, od fəlsəfi anlamı həyat çeşməsi sayılmışdır.

Yeddi rəqəmi. Göy 7 qatdan ibarətdir. Rənglər 7 cür olur. Həftə 7 gündən ibarətdir və s.

Üç yeddi rəqəmi yan-yana qoyulduqda çoxluq, sonsuzluq bildirən bir müqəddəs anlam alınır. Professor M.H.Təhmasıb "Koroğlu" dastanının dəlilərinin sayı haqqında fikir söyləyəndə 777 rəqəmini dəlilərin qəzəb, qüvvət və qüdrətinin sonsuzluğu, bitib-tükənməzliyi ilə mənalandırmışdır.

Bu ensiklopedik toplunun mənası da həmin müqəddəs anlamlara əsaslanır.

Sabir Gəncəli
S23(08) 777 sual... (düşündürücü, əyləncəli ensiklopedik toplu)
— Bakı, "Azərbaycan" nəşriyyatı, 2008. — 232 səh.

M $\frac{4803000000 - 023(08)}{M670(08) - 2008}$ Sifarişlə

© SABİR GƏNCƏLİ-MƏMMƏDOV, 2008.

Əziz balalar, mən 50 ildən artıqdır ki, maarif, mədəniyyət, incəsənət, ədəbiyyat tariximiz üzrə tədqiqat işi aparıram. Bu tədqiqatlar, araşdırmalar nəticəsində ötən illər ərzində Azərbaycanın, Sankt-Peterburqun, Moskvanın dövlət arxivlərində, kitabxanalarında, Azərbaycan Əlyazmalar İnstitutunda saxlanılan tarixi sənədlərdən, respublikamızın görkəmli alimlərinin, maarifçilərinin şəxsi arxivlərində olan albomlardan, sənədlərdən, dövrü mətbuatda dərc edilmiş materiallardan, maarif və mədəniyyət xadimləri ilə apardığım müsahibələrdən, söhbətlərdən istifadə edərək 20-dən çox kitab, yüzlərlə tarixi oçerk, sənədli hekayə, iki sənədli povest yazmışam. Azərbaycan, ingilis, rus, ərəb, fars dillərində çap olunmuş bu əsərlər oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Onların arasında 1994-cü ildə "Hər sətirdə bir tarix...", 2001-ci ildə Azərbaycan, ingilis və rus dillərində "Qadın, gözəllik və ülviyyət" adlı ilk qadın ensiklopedik toplular da vardır. Həmin ensiklopedik toplularda ən qədim dövrlərdən bu günədək dünyada və xüsusilə Azərbaycanda qadın məsələsi, qadın azadlığı tarixi, dünya sivilizasiyasında ulu nənələrimizin, analarımızın rolu və fəaliyyəti işıqlandırılmışdır.

Bu maraqlı işlərlə bərabər mən Azərbaycanda və dünyada uşaq hərəkatı tarixi ilə də məşğul olmuşam. 1960-cı ildə "Nəsildən nəslə" adlı kitab və bir sıra məqalə çap etdirmişəm. Uşaqlarımızın, yeniyetmələrimizin bilik və dünyagörüşünü artırmaq, intellektual səviyyəsini inkişaf etdirmək məsələsi məni həmişə düşündürmüşdür. Bu gözəl istəyi həyata keçirmək arzusu ilə mən sizin üçün düşündürücü, əyləncəli ensiklopedik toplu hazırlayıb, indi sizə təqdim edirəm.

> ***"Azərbaycan xalqının milli-mənəvi dəyərləri və ümumbəşəri dəyərlər hər bir gənc tərəfindən mənimsənilməlidir; gənclərimiz milli ruhda tərbiyə olunmalıdır; onlar tariximizi, dilimizi, mədəniyyətimizi və dini dəyərlərimizi bilməlidirlər".***
>
> **Heydər Əliyev**

Uşaqların və gənclərin təlim-tərbiyəsi, biliklərə yiyələnməsi, istirahət və əyləncələri sahəsində dövlət və ictimai təşkilatlar son zamanlar bir sıra işlər görmüşlər. Belə ki, BMT-nin "Uşaq hüquqları" Konvensiyasının ratifikasiyası və "Uşaq hüquqları" haqqında Azərbaycan Respublikasının Qanununun və "Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması" haqqında Dövlət Proqramının qəbulu ölkəmizdə uşaqların vəziyyətinin yaxşılaşdırılmasına öz təsirini göstərmişdir.

Hörmətli Prezidentimiz İlham Əliyevin ömür yoldaşı, respublikamızın birinci xanımı, Heydər Əliyev fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri, millət vəkili, xalqımızın sevimli qızı Mehriban xanım Əliyevanın uşaqlarımızın sağlamlığı, tərbiyəsi, təhsili və istirahəti üçün gördüyü xeyirxah işlər xüsusilə diqqəti cəlb edir.

Doğma yurdumuz Azərbaycan müstəqillik qazanandan sonra respublikamızda mətbuat və nəşriyyat işlərinin latın qrafikasına keçilməsi təlim, təhsil işində əlavə çətinliklər yaratmışdır. Bugünkü məktəblilər sovet dövründə kiril əlifbasında çap olunmuş kitablardan istifadə edə bilmirlər. Bu gün uşaqlar və yeniyetmələr üçün latın qrafikası ilə çap olunmuş kitablar, əyani vasitələr isə çox azdır. Hazırda uşaqlarımızın və gənclərimizin latın qrafikası ilə poliqrafik cəhətdən sanballı, rəngarəng şəkildə nəşr edilmiş maraqlı ensiklopedik ədəbiyyata ehtiyacları vardır.

Sizə təqdim etdiyim bu ensiklopedik toplu möhtərəm prezidentimizin gənclər siyasəti haqqındakı diqqət və qayğısına gözəl bir töhfədir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 30 avqust 2005-ci il tarixli sərəncamında göstərilən fikirlər və "Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009)" nın və xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə



**Məhəmməd (ə) Allahın rəsuludur. Onunla birlikdə olanlar (möminlər) kafirlərə qarşı sərt, bir-birlərinə mərhəmətlidirlər.**

*"Qurani-Kərim"*
*əl-Fəth- surəsi, ayə 29*

### Məhəmməd Peyğəmbərin həyatı haqqında elmi ədəbiyyatda necə məlumat verilir?

Dünyanın və Azərbaycanın görkəmli şərqşünasları, tarixçi alimləri dini rəvayətlərə, qədim mənbələrə əsaslanaraq müsəlman sivilizasiyasının əsasını qoymuş ilahi şəxsiyyət Məhəmməd aleyhissalam haqqında maraqlı fikirlər söyləmiş, məlumatlar vermişlər.

Çoxlu əfsanə və rəvayətdən əldə olan əsas faktlar bunlardır. Məhəmməd Peyğəmbər özünün nəsl şəcərəsi cəhətdən Məkkə şəhərinin banisi ilə əlaqədar idi. O, bu qədər əsil-nəcabətli bir nəsildən olmasına baxmayaraq uşaqlıq və gəncliyində ağır zəhmətə qatlaşmış, öz əməyi sayəsində hörmət sahibi olmuşdu.

Məhəmməd hələ dünyaya göz açmamış atası Əbdüllah 570-ci ildə vəfat etmişdi. Məhəmməd də həmin il anadan olmuşdu. Məhəmməd kiçik yaşında ikən anası Əminəni də itirmişdi. O, babası Əbdül Müttəlibin himayəsində qalmışdı. Babası öləndən sonra tayfanın başçısı olmuş Əbu Talib Məhəmmədə hamilik etmişdi. O, qardaşı oğlunu özü ilə ticarət səfərlərinə aparırdı.

Məhəmməd 25 yaşında Xədicə adlı varlı bir dul qadının yanında onun ticarət işlərilə məşğul olmuşdu. Sonra Xədicə ilə evlənmişdi. Məhəmmədin arxası, köməyi və həyat yoldaşı Xədicə 7 uşaq doğmuşdur. Üç oğlu hələ kiçik ikən vəfat etmişdir. Qızlardan biri - Fatimə - Məhəmmədin ən istəkli balası Əbu Talibin oğlu Əliyə ərə getmiş və bu nikahdan peyğəmbərin bütün nəsli törəmişdi.

### Vəhy nədir? "Qurani-Kərim" Allah tərəfindən neçə il ərzində Məhəmməd Peyğəmbərə nazil olunmuşdur?

"Vəhy" sözünün ərəbcə mənası "Gizli səs", "Gizli danışıq", "Gizli pıçıltı" və "İlham" deməkdir.

"Qurani-Kərim" Allah-təala tərəfindən Məhəmməd Peyğəmbərə (s) tədricən, 23 il ərzində nazil olunmuşdur.

Vəhy Peyğəmbərə (s) üç yolla nazil olur:

1) Allah bu və ya digər fikiri Peyğəmbərin (s) ürəyinə salır, gizli bir səslə ona təlqin edir və ya həmin fikiri ona yuxuda bildirir.

2) Peyğəmbər (s) Allah-təalanı görmədən ondan gələn nidanı eşidir. Arada heç bir vasitə olmadan.

3) Allah-təala öz fikirlərini Peyğəmbərə (s) mələk vasitəsilə göndərir ("Qurani-Kərim", V.Məmmədəliyev, "Ön söz", B. 1992, səh.5)



### Müsəlman tarixinin başlanğıcı nə vaxtdan hesab olunur?

Paris Universitetinin professoru, görkəmli şərqşünas Henri Masse bu haqda özünün "İslam" adlı kitabında "Hicrət" adlı bölmədə yazırdı ki, Məhəmməd aleyhissalam Yəsribdən (Mədinə) gəlmiş tacirlərə rast gəldi. Bu tacirlər yəhudilərlə əlaqə saxladıqlarına görə heç özləri də hiss etmədən təkallahlığı qəbul etməyə hazır vəziyyətdə idilər. Onların Məkkəlilərə qarşı düşmənçiliyi vardı. Bu münasibət onları Məhəmməd Peyğəmbərin tərəfini saxlamağa sövq edirdi. 610-cu illə 620-ci il arasında Mədinə əhalisindən bir neçə nəfər gizli bir yerdə Məhəmməd aleyhissalamla görüşüb ona tərəfdar olacaqlarına and içdilər. Onlara sonralar "ənsar" - "köməkçilər" adı verildi.

Rəvayətə görə Məhəmmədin əmisi və Abbasi xəlifələrinin ulu babası Abbas bu görüşdə əsas rol oynamışdı. Sonra bu andiçmə mərasimi təkrar olundu. Mədinəlilərə güvənib etibar edən Məhəmməd Peyğəmbər şagirdlərindən bir neçəsini Məkkəyə ona beyət edənlərin dalınca göndərdi. Özü isə Mədinəyə köçdü.

Bu hadisə 622-ci il iyulun 16-da müsəlman tarixinin başlanğıcı oldu. Buna hicrət deyilir.

Professor Vasim Məmmədəliyev "Qurani-Kərim"ə yazdığı "Ön söz"də qeyd edir ki, həmin tarixi hadisədən sonra Yəsrib "Mədinət ən-Nəbi" - "Peyğəmbər şəhəri" adlanmağa başladı.





### Müsəlmanların ilk məscidi harada və nə zaman tikilmişdir?

Məhəmməd Peyğəmbər Mədinəyə köçəndən sonra onun evinin yanında ilk məscid tikildi. Burada namaz qılarkən müsəlmanlar hicrətin birinci ili üzlərini Qüdsə tərəf tuturdular. Mədinələrdə yəhudilərin və müsəlmanların etiqadlarının yaxınlığı daha güclü səslənirdi. Lakin Mədinədə yaşayan yəhudilər Məhəmməd (ə)-ın aleyhidarları oldular. Odur ki, hicrətin ikinci ilində qiblə dəyişdirildi. Müsəlmanlar Kəbəni qiblə kimi qəbul edərək namaz qılarkən, dua edərkən üzlərini Məkkəyə, Kəbəyə tərəf tutmağa başladılar. ("İslam: tarix, fəlsəfə. İbadətlər", B.,1994, səh.27-28).

O vaxtdan bütün müsəlmanlar ibadət zamanı üzlərini Kəbəyə tuturlar.

### Əfsanəvi Süleyman Peyğəmbər nə vaxt yaşamışdı?

İsrail hökmdarı Davidin oğlu Süleyman (Solomon) istər din tarixində, istərsə də klassik və el ədəbiyyatında müdrik insan obrazı kimi təsvir edilmişdir. Onun təvəllüd ili məlum olmasa da, vəfat tarixi eramızdan əvvəl 928-ci ilə təsadüf edir. E.ə.965-928-ci illərdə İsrail-Yəhudi padşahlığının hökmdarı olub. Bibliyada yazıldığına görə Süleyman peyğəmbər çox ağıllı, adil, bilikli hökmdar olmuşdur. O, bütün heyvanların, quşların dilini belə bilirmiş. Bibliyanın bir neçə kitabının müəllifi olan bu müdrik insan öz möcüzələri ilə şöhrət qazanmışdır.



### Məkkəyə dönüş nə zaman baş vermişdir?

625-ci ildə məkkəlilər böyük qoşunla Mədinəyə hücum etdilər. Amma şəhərə girmədilər.

627-ci ildə onlar yenə müsəlmanların üzərinə böyük qüvvə ilə hücuma keçdilər. Lakin Məkkədən gəlmiş bütpərəstlər bu döyüşdə müvəffəqiyyət qazanmayıb geri çəkildilər.

Məhəmməd (ə)-ın tərəfdarları qüvvə toplayaraq və onların cərgələrində yeni-yeni islamı qəbul edənlərin sayının artdığı üçün 628-ci ildə Məkkəyə yürüş etdilər. Hübeydiyyə yaxınlığında məkkəlilərlə üzləşdilər və danışıqlar başlandı.

629-cu ildə Məhəmməd (ə) Kəbəni ziyarət etdi.

630-cu ilin əvvəlində isə müsəlmanların qoşunları yenidən Məkkənin həndəvərində göründülər. Bu dəfə məkkəlilərin başçıları müqavimət göstərməməyi üstün tutdular. Onlar axır ki, Məhəmmədə itaət göstərdilər. Müsəlmanlar bu müqəddəs torpaqda bütləri çıxarıb atdılar, öz məbədlərini təmizlədilər.

Beləliklə, müsəlmanların qibləgahı Məkkə əhli islamı qəbul etdi. Burada İslam qayda-qanunu qoyuldu. Kəbə bütün müsəlmanların həcc yerinə çevrildi.

632-ci ildə Məhəmməd (ə) Kəbəyə vida ziyarəti etdi və bir neçə aydan sonra əbədiyyətə qovuşdu.

### Müqəddəs kitabımız "Qurani-Kərim" haqqında nə bilirik? O necə yaranmışdır?

"Quran" ərəb sözüdür. "Qiraət", "ucadan oxu" deməkdir. Quran Allahdan gələn vəhylərin toplusudur. "Quran" 114 surədən, müxtəlif qiraət variantlarına və bölgülərinə görə 6204 yaxud 6236 ayədən, 77934 sözdən ibarətdir. Müsəlmanların təsəvvürlərinə görə, həmin vəhylər "hifz olunan lövhə" - "Lövhi-məhfuz" (əl-lövh əl-məhfuz) üzərində yazılaraq göylərdə saxlanılan kitabın surətidir. Belə hesab olunur ki, bu müqəddəs kitab əvvəllər də peyğəmbərlər vasitəsilə hissə-hissə adamlara göndərilmişdir. Məsələn, Musa (Moisey) vasitəsilə "Tövrat", İsa (İsus) vasitəsilə "İncil" nazil olunmuşdur. Səma hikmətini tam özündə cəmləşdirən mətnin dolğun surəti sonuncu dəfə insanlara Məhəmməd (s) vasitəsilə çatdırılmışdır. ("Qurani-Kərim", V.Məmmədəliyev, "Ön söz", B.1992, səh.9)



Allah və "Quran"ımız doğru yola çağırır.

**Göylərdə və yerdə kim varsa, özləri də, kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edir...**

*"Qurani-Kərim"*
*Ər-Rəd surəsi, ayə 15*

### Dünyada peyğəmbərlərin sayı nə qədər olmuşdur?

Bəşər tarixində Allahın seçib insanların arasına göndərdiyi adil, bilikli, çoxlarından fərqlənən insanlar peyğəmbərlik şərəfinə çatmışlar. Onların sayı 124 min kimi qeyd olunur. Lakin bu müdrik insanların yalnız 315-i Allahın yerdə rəsuludur - elçisidir. İlk peyğəmbər Nuh, son peyğəmbər - Məhəmməd (s)-dır.

### İlahidən gələn müdrik kəlamları müsəlmanlara ilk təlqin edən kim olmuşdur?

Bu mübarək suala tərəddüd etmədən hər bir müsəlman cavab verər ki, Məhəmməd Peyğəmbər (s) İlahidən ona vəhy edilmiş "Qurani-Kərim" büsbütün müqəddəs kəlamlar toplusu, müsəlmanın qanun kitabıdır.

Peyğəmbərimizin hər bir sözü ilahi kəlamıdır. Həmişə insanlara gərəkli olan bu kəlamların bir neçəsini bir daha yada salınq:

- Salam kəlamdan irəlidir.
- İnsanın ən xeyirlisi insanlara ən xeyirli olanıdır.
- Od odunu yediyi kimi, paxıllıq da yaxşılıqları yeyir.
- İnsanların dərdinə acımayana Allah mərhəmət etməz.
- Cənnət anaların ayaqları altındadır.
- Söz verdinsə, borca düşdün.
- Qənaət tükənməz xəzinədir.
- Ataya itaət Allaha itaətdir.
- Əməllərin dəyəri nəticələri ilə ölçülür.
- İgid güləşdə qalib gələn adam deyil; əsl igid qəzəb zamanında hirsini boğmağı bacarandır.

### "Qurani-Kərim"in ayələri və surələri nə vaxt, necə toplanmışdır?

"Qurani-Kərim"in ayələri 23 il ərzində Məhəmməd Peyğəmbərə nazil olmuşdur. Onun vəfatından sonra bütün ayələr və surələr Peyğəmbərin ardıcılları tərəfindən toplanmışdır.

"Quran" ayələri və surələrinin indiki sıra ilə toplanması Peyğəmbər zamanında həzrətin göstərişi ilə olub, ya yox? Bu məsələ müsəlman alimləri və təsfirçiləri arasında mübahisəyə səbəb olmuşdur. Bir qismi bu fikirdə idi ki, "Quran"-da sıralanma və düzüm Peyğəmbərin öz göstərişi ilə olub. Digərləri bu sıralanmanı Peyğəmbərin ardıcılları tərəfindən edildiyini bildirirdilər.

Həqiqətdə isə belədir: İndi milyonlarla müsəlmanın istifadə etdiyi "Qurani-Kərim"də heç bir təhrifə yol verilməyib.

"Quran" surələrinin sıralanma düzümü Peyğəmbər (s) əshabı və əşrəflərin nəzarəti altında edilmişdir.

Peyğəmbərin vəfatından sonra bir dəfə Əbu Bəkr zamanı "Quran"ın pərakəndə olan hissələri bir kitab halında cəmlənmişdir.

Sonralar müxtəlif oxunuşla "Quran"ın nüsxələri yaranmışdı. Bunu görən xəlifə Osman onları bir oxunuşla tərtib etmişdir.

Müsəlmanlar "Quran" ayələrinin öyrənilməsini, yazılışını və düzgün əzbərlənməsini həmişə özlərinin müqəddəs vəzifəsi hesab etmişlər.

### İslam dininin əsasını təşkil edən rüknlər hansıdır?

Rüknlər beşdir: Şəhadət, namaz, oruc tutmaq, zəkat və həccə getmək.

### İmam Əli hansı şəhərdə qətlə yetirilmişdir?

Kufə şəhərində. Kufə İraqın ən məşhur və böyük şəhərlərindən biridir. Bura bir zaman Xilafətin mərkəzi olmuşdur. İmam Əli Kufənin bir məscidində öldürüldüyü və kufəlilər imam övladına kömək edəcəkləri barədə verdikləri vədə əməl etmədikləri üçün Xaqani Şirvani öz eləyhidarlarını "Kufə əhli"nə bənzətmiş, etibarsızlıqda onları qınamışdır.

### Həzrət Əlinin (ə) kəlamlarından

- **Allaha itaət - hikmətlərini qəbul etməkdir.**
- **Yaxşılıq - borcdur.**
- **Bilik - adamı qurtarar.**
- **Nadanlıq - adamı məhv edər.**
- **Günahsız adam sağlam olar.**
- **Ədalət - insafdandır.**
- **Düzlük - başucalığıdır.**
- **Acizlik - adamı məhv edər.**
- **Nəsihət eşitmək - qədr-qiymət artırar.**
- **Dözüm - qələbə gətirər.**
- **İgid imanlı olar.**
- **Ədəbsiz şərəfli ola bilməz.**
- **Ən böyük dövlət - ağıl, ən böyük yoxsulluq - nadanlıq, ən böyük irs - tərbiyə, ən böyük köməkçi - vaxtında verilən məsləhətdir.**

### Əcdadlara sitayiş nə zamandan mövcuddur?

Bu çox maraqlı və geniş mövzudur. Görünür dünyada hələ dinlər, təriqətlər yaranmamışdan əvvəl insanlar öz əcdadlarını müqəddəs saymış, onların ruhlarına, qəbirlərinə and içmişlər. Bu adət hələ də insanlar arasında yaşayır. Onlar belə zənn etmişlər ki, əcdadların qəbrinə, ruhuna sitayiş etməklə gələcək neslin tərbiyəsinə, əxlaqına, mənəvi keyfiyyətlərinin formalaşmasına təsir göstərir. Bu fikirdə də bu düşüncədə də həqiqət vardır. Bununla yeni nəslə böyüyə, ağsaqqala, ağbirçək anaya hörmət, ehtiram hissi aşılanır və nümunə göstərilirdi.

İnsan cəmiyyətinin yarandığı qədim dövrlərdə bu hiss, bu düşüncə qəbilə başçısına, tayfa başçısına pərəstiş etmək, bir başçının arxasınca getmək duyğusunu, istəyini yaratmışdı. Bu dünyagörüşü ən qədim qəbilələrin, tayfaların dinlərində özünü göstərmişdi. Məsələn, Qədim Çində bu, konfutsiçiliyin əsasını təşkil etmişdi. Qədim şumerlərdə, assuriyalılarda - kahinlərə, Misirdə-fironlara, Qədim Yunanıstanda, Romada - ilahilərə sitayiş, pərəstiş bu zəmində meydana gəlmişdi. Elə bizim əcdadlarımıza, onların ruhuna and içmək, pərəstiş etmək eramızdan xeyli əvvəl - minilliklər dövründə yaranmamışdımı? Bunu sübut edən maddi-mədəniyyət qalıqları, daş heykəlləri bir daha əks etdirir.





### Nə üçün səhər-axşam insanların gözləri göyə dikilir?

Bunda dərin bir hikmət var. Bu sualın cavabı böyük bir əsərin mövzusudur. Ancaq biz qısaca bunları söyləmək istərdik.

Qədim ibtidai insanlar gözlərini həyata açanda təbiətin min bir gözəlliyini, rəngarəngliyini görmüşlər. Al-əlvan rənglər: yaşıl meşələr, mavi dənizlər, ağ-pəmbə buludlar, boz səhralar, güllü-çiçəkli dağlar, yamaclar, ayna gözlü bulaqlar, şırhaşırla axan dağ çayları və s. onların təsəvvüründə sirli bir aləm idi. Bunlar necə yaranıb. Onları kim düzüb nizama salıb?

Hələ səhər Günəş boylananda, aləmi öz nuruna qərq edəndə, axşam zülmət qaranlıq çökəndə, göy üzünü qara buludlar örtəndə, şimşək çaxanda, göy gurlayanda, leysan yağışlar yağanda, küləklər tufan qoparanda ibtidai insanlar nə düşünmüşlər?

Gecələr aylı-ulduzlu kainatı seyr edəndə gözlərini göylərə zilləyib nə fikirləşmişlər? Suallar çox, sirlər, möcüzələr çox! Ancaq insan öz zəkasını, ağlını işə salıb get-gedə hər müşkül suala cavab tapmağa, öz fərziyyəsini, həyat, təbiət, kainat haqqında öz fəlsəfəsini yaratmağa başladı. O, dərk etməyə başladı ki, bu dünyanı, bu kainatı yaradan bir varlıq var. Kimi ona Tenqri-Tanrı, kimi Allah, kimi Qod, kimi Boq... deyə əllərini göylərə qaldırıb ondan kömək istədi, yağış istədi, işıq istədi, bol məhsul arzuladı...

Həyatın başlanğıcını ana torpaqda, onun idarəsini, qüdrətini göylərdə axtardı, onlara ad verdi, əfsanələr qoşdu.

Yer kürəsində sivilizasiyanın ilk ocağını yaratmış qədim əcdadımız şumerlər, sonra assuriyalılar, misirlilər, finikiyalılar, yunanlar. Yaxın Şərqin digər xalqların mifologiyasında İştər, İştar, Astarta adlı bir ilahə varlıq yaratdılar. Ən qədim rəvayətə görə İştər ilahə göylərin ənginliklərindən yeddi ilahə ilə birlikdə yer üzərində olan intibahlara başçılıq etmişdir. O, dərk edəndə ki, təbiətdə bütün canlılar arasında ancaq insanlar bir-birinə qənimdir, bir-birini məhv edirlər, düşünüb tapıb ki, bu bəladan qurtarmaq üçün savaşdansa, qırğındansa, qan tökməkdənsə əkib-becərmək, bəşər övladını dünyaya gətirib tərbiyə etmək lazımdır. İştər ilahə ananın ilahə rəfiqələri də dünyanın gələcək taleyi qayğısına qalmış və nəcib işlərlə məşğul olmuşlar. Məsələn, İlahə Səşət uşaqlara yazı və hesab öyrədirmiş. Sərkət ilk dərmanları icad edib hazırlamış, insanlara tibb elmini öyrədirmiş. Maat - gecə-gündüz durna lələyilə insanlar üçün haqq və ədalətin qanunlarını yazırmış. Nayət - müharibədən çəkinib insanlara sənətin sirlərini təlqin edirmiş... Bir sözlə, ilahə qadınlar göylərdən insanları idarə edir, düşdükləri çətin anlarda onları zülmət qaranlıqlardan işığa çıxarırmışlar...

Bax, beləcə uca göylər insanların pənah yerinə çevrilmişdi. Bir olan Allah da əlçatmaz göylərdədir. O insanları haqq-ədalət yoluna çağırır, onlara yer üzündə əmin-amanlıq yaratmaq, sivilizasiyaya çatmaq işində müdrik insanlardan peyğəmbərlər təyin edir, onlara müqəddəs qanunları vəhyi nazil edirdi.

Hələ müxtəlif vaxtlarda başqa planetlərdən sivilizasiyalardan uçan obyektlərdə yerə enənlər də insanları heyrətə salmış, sirri açılmayan əfsanələrin, nağılların, rəvayətlərin yaranmasına səbəb olmuşdu.

Elm də get-gedə izah etməyə çalışır ki, bizi əhatə edən böyük Aləm - Qalaktika möhkəm ilahi bir varlığın qüdrətilə idarə olunur. İnsan da canlı aləmin, təbiətin bir hissəsidir.

Bax, ona görə də insan öz bəxtini, taleyini, ümidini göylərdə axtarır. Neçə min illərdi ki, əllərini göyə qaldırıb ulu Tanrıya öz dualarını edir.

# KAİNAT



*Nə Güneş Aya çatar, nə də gecə gündüzü ötə bilər (Güneş, Ay və ulduzların hər biri göydə öz həlqəsində, öz dairəsində üzür).*

*"Quranı-Kərim", Yasin surəsi, ayə 40*



**Qədim insanların kainat haqqında təsəvvürləri necə olmuşdur? Xəriteyə diqqətlə baxın, düşünün.**





### Güneş sistemi nədir?

Güneş sistemi dedikdə, biz Güneşi, 9 planeti və onların peyklərini (cəmi 62 Kosmik cism) və milyonlarla asteroid və komeli nəzərdə tuturuq. Bunların hamısı Güneşin ətrafında fırlanır.



### Güneşə hansı planet daha yaxındır?

Güneşə ən yaxını Merkuri planetidir. Onun orbitinin Güneşdən uzaqlığı orta hesabla 58 milyon kilometrdir (bizim Yer kürəmizin orbiti Güneşdən 93 milyon km uzaqlıqdadır). Merkuri Aydan bir qədər böyükdür və o Aya bənzəyir. Merkurinin səmti Güneşə tərəfdir və o 400 dərəcə qıza bilir. Sonra Güneşə yaxın olanı Venera və Yer kürəsidir. Sonra Mars, Yupiter, Saturn, Uran və Pluton gəlir.

### Nə üçün Ay Yer planeti ətrafında fırlanır?

Ay Yer planeti ətrafında ona görə fırlanır ki, onlar arasında cazibə qüvvəsi vardır. Ancaq nə Ayın, nə də Yerin fırlanmasını biz adi gözlə görmürük. Əgər bu cazibə qüvvəsi olmasaydı Ay Kosmosa uça bilərdi. Əgər Ay dayansaydı, onda o Yer kürəsinə düşə bilərdi.

### Ulduzlar göydən düşürlərmi?

Əlbəttə yox. Göy cisimləri adlandırdığımız meteorlar Yer atmosferinə yaxınlaşanda onlar yanır, parlaq işıq amələ gətirirlər. Bu zaman adama elə gəlir ki, göydən ulduz düşür.

### Kainatın yaşı nə qədərdir?

Astronomların hesablamalarına görə kainat təxminən 15 milyard il əvvəl "böyük partlayış" nəticəsində yaranmışdır.

### Güneşin ətrafında neçə planet fırlanır?

Doqquz



# BİZİM DOĞMA PLANETİMİZ



### Yer kürəsi necə əmələ gəlmişdir?

Alimlərin fikrincə Yer kürəsi Günəş, Ay və Ulduzlar sistemində eyni vaxtda yanar qaz dumanlıqlarından əmələ gəlmişdir. Güclü yanar qaz hissəcikləri tədricən sıxılaraq böyük yanar kürə şəklinə düşmüşdür. Bu proses milyard illər davam etmişdir. Bir təbəqə o biri təbəqənin üstünə çıxmış, tədricən Yer planeti əmələ gəlmiş, üzərini qaz örtüyü örtmüşdür.

Əvvəl Yer kürəsi bərk közərmiş halda, çox isti olmuşdur. Burada hər şey qaynayırdı. Meteoritlər, nəhəng kometalar aramsız olaraq bu qaynar planetin üstünə düşmüşlər.

Yerin üst qatı tədricən soyumağa başlamış və nəticədə bərk təbəqə əmələ gəlmişdir. Sonralar aramsız güclü yağışlar yağmış, çaylar, göllər, dənizlər, okeanlar yaranmışdır.

### Yer üzərində canlıların inkişafı-təkamülü necə olmuşdur?

Yer kürəsinin 4,6 milyard il yaşı var. Bunun 590 milyon ili haqqında demək olar ki, heç nə bilmirik. Bu geoloji tarixi alimlər üç dövrə bölürlər:

1. Paleozoy,
2. Mezozoy,
3. Kaynozoy.

Paleozoy dövründə 500 milyon il əvvəl dənizlərdə kiçik balıqlar, molyuskalar, meduzalar, ilbizlər əmələ gəlmişdir.

Mezozoy erasında 240-64 milyon illər ərzində gölməçələrin yanında nəhəng dinozavrlar yaşamışlar. Dinozavrların, uçan nəhəng yırtıcıların nəsli kəsiləndən sonra ilk məməli heyvanların erası başlanmışdır. İlk məməlilər əvvəlcə kiçik olmuş, sonralar iriləri meydana gəlmişdir.

Kaynozoy dövründə 65 milyon il əvvəl yer üzündə nəhəng mastodontlar, meymunlar yaşamışlar. Bu dövrün son 1,8 milyon ilində dünyada ilk ibtidai insanlar doğulmuş, böyümüş, yaşamış, inkişaf etməyə başlamışlar.

### Yer kürəsi öz oxu ətrafında neçə saata dövrə vurur?

Yer kürəsi öz oxu ətrafında tam dövrəsini 23 saat, 56 dəqiqə, 4,1 saniyəyə başa vurur. Bu da bir sutka gecə-gündüz deməkdir.

Yerin orbitdə hərəkətinin orta sürəti isə 29,76 km/saniyədir.

### Ozon deşiyi nədir?

Atmosferdə, yuxarıda 20-25 km hündürlükdə ozon təbəqəsi var. Bu ozon təbəqəsi bizi Günəşin ultrabənövşəyi şüalarından qoruyur. Bu, şüaların yer səthinə düşməsinin qarşısını alır. Ancaq Antarktidanın mərkəzində ozon təbəqəsində bir növ açıq qapı-deşik var. Ultrabənövşəyi şüalar bu deşik vasitəsilə yerə yayılır. Atmosferin çirklənməsi nəticəsində bu deşik getdikcə genəlir. Bu da planetimizə fəlakət gətirə bilər.

### Yer kürəsi nə üçün mavi planet adlanır?

Çünki onun ərazisinin 70,8 faizi sudur.







### Yer kürəsindən Günəşə və Aya qədər olan məsafə nə qədərdir?

Günəşə qədər məsafə 149509000 km.-dir.

Yer kürəsindən Ayacan olan məsafə - 384395 km.-dir.

### Coğrafi qütblər nə deməkdir?

Yer oxunun Yer səthi ilə kəsişdiyi nöqtəyə coğrafi qütb-



lər deyilir. İki qütb var: Şimal və Cənub. Bütün coğrafi meridianlar bu qütblərdə birləşirlər. Coğrafi qütblərdə adi cəhətlər yoxdur. Vaxt gecə və gündüzə bölünmür. Günəş burada ilin bir yarısında görünmür. Buna qütb gecəsi deyilir. Digər yarısında günəşin batması olmur. Buna qütb gündüzü deyilir.

Şimal coğrafi qütbü Şimal Buzlu okeanında, Cənub qütbü isə Antarktida materikindədir.



### Bu qütbləri ilk dəfə kimlər fəth etmişlər?

Şimal qütbünü 1909-cu il, aprelin 6-da ABŞ Hərbi Dəniz Donanmasının admiralı, qütb tədqiqatçısı Robert Edvin Piri fəth etmişdir. O, əvvəllər iki dəfə Qrenlandiyaya galib çıxmış (1892 və 1895-ci illərdə). 1898-ci ildən başlayaraq Şimal qütbünə çıxmağa çalışmışdır. O, arzusuna 11 il sonra çatmışdır.

Cənub coğrafi qütbünü isə 1911-ci il, dekabrın 14-də Norveç qütb səyyahı və tədqiqatçısı Rual Amundsen (1872-1928) fəth etmişdir.

### Yer kürəsində neçə qitə var?

Altı qitə.

1. Ən böyüyü Asiya qitəsidir, sahəsi 43475000 kvadrat kilometrdir.
2. Afrika - sahəsi 30132000 kv.km.-dir.
3. Amerika (Şimali və Cənubi Amerika birlikdə, bəzən bunları ayrılıqda da qeyd edirlər). Ümumi sahəsi 41985000 kv.km.-dir.
4. Antarktida - sahəsi 14107000 kv.km.-dir.
5. Avropa - sahəsi 10523000 kv.km.-dir.
6. Avstraliya - sahəsi 7636000 kv.km.-dir.

### Yerin tərkibi nədən ibarətdir?

Yer qatlara - təbəqələrə bölünmüş böyük şara (kürəyə) bənzəyir. Onun mərkəzində yerin nüvəsi yerləşir. Ərinmiş dəmir və nikeldən ibarət olan bu özəyin qalınlığı 1,545 km.-dir. Sonra nüvənin xarici hissəsi gəlir. Onun qalınlığı 1.738 km.-dir. Sonra daş süxurlarından ibarət mantiya (örtük) təbəqəsi başlanır. Bu təbəqə iki hissədən - aşağı və yuxarı mantiyadan ibarətdir. Aşağı mantiyanın qalınlığı 2220 km., yuxarı mantiyanın qalınlığı 618 km.-dir. Yerin səthinə yaxın ən yuxarı təbəqə yer qabığıdır. Onun qalınlığı 50 km.-dir.




Yerin tərkibinin üç əsas hissəsini nüvə, örtük və qabıq təşkil edir.

### Yerin neçə yaşı var?

Bu suala cavab vermək çətindir, ona görə ki, Yer səthinin quruluşu tez-tez dəyişir. Yer kürəsi də Günəş sisteminin bütün planetləri ilə eyni vaxtda yaranıb. Bizə məlumdur ki, qocaman dağların yaşı 4500 milyon il əvvələ aid edilir.

### Materiklər əvvələr bir-biri ilə birləşmiş halda olublarmı?

Materiklər daima hərəkətdədir. 200 milyon il əvvəl onlar bir-birinə bitişik olmuşlar. Bunu materiklərin qıraqlarındakı dağ süxurları, faydalı qazıntıların qalıqları sübut edir. Dünyanın faunası və florasının təxminən eyni olması bunu göstərir.



### Dünyada fəaliyyətdə olan nə qədər vulkan var?

Yer kürəsində hazırda fəaliyyətdə olan 455 vulkan var. 80 belə vulkan da dənizlərin, okeanların dibindədir.

### Qabarmalar və çəkilmələr niyə baş verir?

Ay planeti Yer kürəsində suların hansı meridianda olmasına görə yığılmasına təsir edir. Belə hadisə Yerin əks tərəfində də müşahidə olunur. Ay Yer ətrafına 24 saat 50 dəqiqədə dolanırsa, deməli bu müddət ərzində iki dəfə qabarma və çəkilmə baş verir.

### Təbiətdə rəngli yağışlar yağırmı?

Bəli olur.Bir də görürsən ki, buludlardan qırmızı, qara, hətta qurdlu, xərçəngli yağışlar yağır. Bu, necə olur? Şiddətli küləklər yerdəki qırmızı tozları, dəniz və çay hövzələrindən balıqları, qurbağaları, xərçəngləri sovurub göyə qaldırır, onları bir neçə kilometr uzaqlara aparıb, yağışla birlikdə yerə tökür.

Rəngli yağışlar dəfələrlə Avropada, o cümlədən 1117-ci ildə Lombardiyada, 1608 və 1847-ci illərdə Fransada, 1956-cı ildə Kiyev şəhəri ərafında, 1952, 1956 və 1963-cü illərdə Azərbaycanda müşahidə edilmişdir.

### Dünyada neçə okean var?

Dörd okean.

1. Ən böyüyü Sakit okeandır, sahəsi 179679000 kvadrat kilometrdir.
2. Atlantik okeanı - sahəsi 93360000 kv.km.-dir.
3. Hind okeanı - sahəsi 74917000 kv.km.-dir.
4. Şimal Buzlu okeanı - sahəsi 13100000 kv.km.-dir.

### Hava nədir və onun əhəmiyyəti nədən ibarətdir?

Bizim gözəl planetimiz atmosferin bir neçə qatı ilə əhatə olunub. Bizim nəfəs aldığımız qat trafosfer adlanır. Bu qat stratosfer və Yer üstü səthi arasında yerləşir. Hava həyat üçün lazım olan qazların qarışığından, xüsusilə oksigen və azotdan ibarətdir. Yuxarıda ozon qatı isə bizi Günəşin yandırıcı təsirindən qoruyur.

Hava yaşayışdır, həyatdır, gözəllikdir. Onun sayəsində canlı aləm yaşayır, təbiət əlvan rəngə boyanır.

### Dünyanın ən dərin yerləri okeanlarda necədir?








### Zəlzələlər niyə və harada baş verir?

Zəlzələlər əsasən dağ əmələgəlmə nəticəsində, yer səthinin 20-30 kilometr, bəzən isə yüzlərlə km. dərinliklərdəki süxurlar hərəkət etdikdə baş verir. Bu sahəyə zəlzələnin ocağı deyilir. Burada təkanlar və yer qatlarının tərpənməsi daha güclü olur. Zəlzələ ocağının üstündə olan yer səthi zəlzələnin episentri adlanır.

Zəlzələlər daha çox dağlıq ərazilərdə - Qafqaz, Karpat, Pamır, Kopetdağ, Tyan-Şan, Qərbi və Şərqi Sibir dağlarında, Baykal gölü ətrafında, Kamçatkada, Kuril adalarında, Yaponiyada, İndoneziyada, İranda, Türkiyədə və başqa dağlıq yerlərdə olur.

### Sunami nədir?

Sunami-yapon dilində güclü sualtı zəlzələyə, vulkanik püskürmə nəticəsində okeanda yaranan nəhəng dalğalara verilən addır.

Sunaminin yaratdığı böyük dalğalar bəzən 50-1000 km/s. sürətlə hərəkət edir. Okeanda bu dalğaların hündürlüyü 2-3 metrdirsə, sahillərdə 10-50 metr və daha çox olur.



### Ölü dəniz haradadır? Nə üçün ona Ölü dəniz deyilir?

İordaniya-İsrail dövlətlərinin ərazisində yerləşir. Yer kürəsinin quru hissəsində ən çökək yer olan bu dəniz okean səviyyəsindən 392 metr aşağıdadır. Sahəsi 1050 kvadrat kilometrdir. Heç bir dənizlə əlaqəsi yoxdur. Buna görə də ona ən duzlu göl də deyirlər. Orada heç bir canlı yaşamadığı üçün ona Ölü dəniz deyilir.



### Sibirin Tayqa meşələrinə Tunquska çayı hövzəsinə nəhəng meteorit nə vaxt düşmüşdür? Onun təsirindən nə baş vermişdir?

Bu dəhşətli hadisə 1908-ci ilin iyunun 30-da səhər tezdən baş vermişdir. Meteorit yerə düşəndə 4 dəhşətli partlayış olub. Tunqus meteoriti adını almış bu səma cismi yerə yaxınlaşarkən parlaq işıq saçan bulud müşahidə edilmiş, gurultusu 1000 km radiusda eşidilmişdir. İrkutski rəsədxanasının seysmoqrafı episentri İrkutskdən 700 km. şimalda Tunquska rayonunda güclü zəlzələ qeydə almışdır. Həmin an Avropa və Amerikanın seysmoloji stansiyaları da yer səthinin titrəməsi faktını qeyd etmişlər.

Atmosferdə küllü miqdarda meteorit maddəsinin tozlanması nəticəsində Avropada bir neçə gün anormal işıqlı gecələr müşahidə edilmişdir.

Tunqus meteoritin yerə düşməsi nəticəsində 2150 kv. km meşə sahəsini məhv etmişdir.

Tayqaya muxtəlif vaxtlarda çoxlu elmi ekspedisiya göndərilmişdir. Amma nə meteoriti, nə də onun külünü tapmaq mümkün olmayıb. Lakin həmin ərazidə torpağın tərkibində metal arıntılarının donmuş mikroskopik damcıları aşkar olunmuş və kimyəvi analizlər bu damcıların kosmik sivilizasiyaya aid olduğunu təsdiqləmişdir. Həmin səma cismi yerin atmosferinə saniyədə 40-45 km. sürətlə, təxminən 10 dərəcə bucaq altında daxil olmuşdur. Meteoritin ağırlığı yüz min ton, diametri 30 m. təxmin edilir.



### Dağların, materiklərin, səhraların əmələ gəlməsi və yox olması haqqında nə bilirsiniz?

Yer kürəsinin quruluşu, materiklərin, okeanların, dənizlərin, səhraların, dağların əmələ gəlməsi prosesləri dünyanın görkəmli alimlərini, geoloqlarını həmişə (elə indinin özündə də) düşündürmüş, bu haqda cild-cild əsərlər yazılmış, kəşflər edilmişdir. Toplanmış zəngin faktlar, bilgilər bizə imkan verir ki, vaxtilə qalxıb-enmiş, okeanların, dənizlərin dibinə çökmüş materikləri, dağları, səhraları, çölləri, bir sözlə indiki Yer kürəsinin keçmişini və gələcəyini yaxşı öyrənək. Bu maraqlı elm sahəsinə aid çoxlu, müxtəlif fərziyələr irəli sürülmüşdür.

Böyük Avstriya geoloqu Eduard Züss (1831-1914) bütün ömrünü bu elmi biliklərin öyrənilməsinə həsr edərək, səbr və inadla elmi tədqiqat işləri apararaq maraqlı fikirlər söyləmişdir. O, üç cildlik "Yerin siması" (1883-1909) əsərində Yerin geologiyası sahəsində tədqiq olunmuş bütün bilgiləri ümumiləşdirərək, materiklərin quruluşunu müqayisə edərək belə nəticəyə gəlmişdir ki, Cənubi Amerika və Cənubi Afrika, Ərəbistan yarmadası və Hindistan qədim böyük materik "Hondvan"ın Atlantik və Hind okeanlarına qərq olmuş hissələridir.

Yerin Şimal yarımkürəsinin digər böyük qədim kontinenti-Lavrasiya da vaxtilə Atlantik okeanına çökmüş, onun dağılmış böyük hissəciklərindən Şimali Amerika, Şotlandiyanın bir hissəsi, Hebril adaları əmələ gəlmişdir.

Müasir Asiya qitəsinin əmələ gəlməsini E.Züss Baykal ətrafı Anqar massivi əsasında yarandığını qeyd edir. Bu əraziyə o, "Qədim Asiya" demişdir. Həmin massivə bir sıra ətraf sıra dağlar, sonralar Qafqaz və Balean dağları, Atlantik okeanının Avropa sahillərinə qədər ərazilər birləşmişdir.

Avstraliya qitəsi Sakit okean adaları ilə birlikdə okean dibindən qalxmış, dağ zirvələri adalar əmələ gətirərək indiki materiki yaratmışdır.

Qalxma və enmənin əsas səbəbi isə Yerin sıxılmasıdır. Bu proses də dağların, layların, suxurların əmələ gəlməsinə təsir edir. ("Detskaya ensiklopediya", M. 1962, səh.147-248).

İndi təbiətdə baş verən hadisələr göstərir ki, gələcəkdə də belə qalxma və enmələr, yeni materiklər, dağlar, dərələr, vadilər, yarımadalar, adalar, göllər, körfəzlər... əmələ gələ bilər.





### Axırıncı buzlaşma nə vaxt qurtarıb?

10000 il bundan əvvəl. Dünyanın bir çox yeri-Avropanın, Amerikanın şimal-əraziləri, hətta Cənubi Amerikanın, Afrikanın, Avstraliyanın yüksək dağları buz qatları ilə örtülmüşdü.






Kaynozoy erasının faunası və florası

### 60-70 milyon il əvvəl planetimiz hansı dövrü yaşamış, onun quruluşunda nə dəyişikliklər baş vermişdir?

Kaynozoy erasının ortalarında Yer kürəsinin faunası və florası təxminən bu xəritə-şəkildə əks olunan kimi idi.

Kaynozoy yunanca "kaynos" - yeni, "zoye" həyat deməkdir. 60-70 milyon il dövrü keçirmiş Kaynozoy üç nəhəng poligen, neogen və antropogen mərhələlərindən ibarət idi. 1. Poligen 67 milyon il bundan əvvəl olmuş, 42 milyon ilədək davam etmişdir. Bu dövrdə planetimizin quruluşunda böyük dəyişikliklər, intensiv tektonik hadisələr baş vermişdir. 2. Neogen-yeni yaranma deməkdir. 25 milyon il əvvəl yaranmış bu dövr 23.5 milyon il davam etmişdir. Bu dövrdə Yer kürəsində qapalı su hövzələri, cavan dağlar əmələ gəlmiş, güclü vulkan püskürmələri baş vermiş, müasir dünyamızın konturları və relyef cizgiləri formalaşmağa başlamışdı. 3. Antropogen Yerin geoloji tarixində indiyədək davam edən 1,8 milyon il yaşı olan təkamül dövrüdür. 700 min il əvvəl başlamış bu mərhələni alimlər yer üzündə insanın əmələ gəlməsilə əlaqələndirirlər. Bu mərhələlərdə də planetimizin flora və faunasında böyük dəyişikliklər olmuşdur.

Yer kürəsi bu qocaman yaşında daha nələr görməmişdi?! Kaynozoy erasının ortalarında Yer kürəsində Hondvana (Mərkəzi Hindistanda yer adı) adında fərz edilən nəhəng bir qitə varmış. Bu əraziyə Cənubi Amerikanın böyük bir hissəsi, indiki Afrika, Avstraliya, Madaqasqar adası və çox güman ki, Antarktidanın bir hissəsi daxil imiş. Hondvananın böyük bir hissəsi Hind okeanının suları altında qalmışdır.

Həmin uzaq keçmişdə materiklər və okeanlar ayrılmış, Tetis hövzəsinin yerində Aralıq dənizi yaranmış, Qafqaz sıra dağları ada halında, Qara dənizlə Xəzər bitişik olmuş, cavan dağ sistemlərinin əmələ gəlməsi başa çatmışdır. O vaxt yerin iqlimi indikindən xeyli isti olmuşdur. Şimal yarımkürəsinin orta enliklərində dəfələrlə böyük materik buzlaşmaları baş vermişdi. Cənub ərazilərdə savannalar, tropik və yarımtropik sahələr, şimalda tundralar, iynəyarpaqlı Tayqa meşələri yaranmış, məməlilər, insanabənzər meymunlar, suda-quruda yaşayan nəhəng vəhşi heyvanlar və başqa canlılar əmələ gəlmişdi.

## Yer kürəsi haqqında insanların təsəvvürləri necə dəyişmişdir?



Ən qədim dövrlərdə olan təsəvvürlərdən biri



Eramızın II əsri. Ptolomeyin tərtib etdiyi xəritədə olduğu kimi





Bahaumanın qlobusunda XV əsrdə Yer kurəsi belə təsvir olunmuşdur



Markatorun atlasında dünya xəritəsi bu cür təsvir edilmişdir

Müasir dunyanın xəritədə təsviri belədir





## Planetimizin heyvanlar aləmi



# ASİYA

### Dünyanın ən böyük qitəsi necə adlanır? Onun ümumi sahəsi nə qədərdir?

Dünyanın ən böyük qitəsi Asiyadır. Asiya qədim Assuriya dilində Asu, yəni Şərq sözündəndir. Dünyanın quru hissəsinin 30 faizini təşkil edir. Onun sahəsi adaları ilə birlikdə 43475000 kvadrat kilometrdir. Adalarının sahəsi 2700000 kv.km-dir.



### Xəzər dənizi necə əmələ gəlmişdir?

Xəzər dənizi ulu tariximizin canlı şahididir. Onun adı, yaranması, sahillərində və mavi sularında baş verən hadisələrlə bağlı nə qədər əfsanə, tarixi olaylar var. Xəzər bizim keçmişimizin salnaməsidir. O öz tarixi, təbiəti, gözəlliyi, xasiyyəti etibarı ilə bütün dənizlərdən, göllərdən fərqlənir.

Assuriyalılar onu Şərq dənizi kimi təsəvvür ediblər.

Keqatey Miletski 2400 il əvvəl Xəzəri körfəz kimi təsvir edib, onu "Hirkan" ("Canavarlar ölkəsi" deməkdir) dənizi adlandırıb.

Xəzər, onun sahilləri qədim əcdadlarımızın məskəni olmuşdur. Onun əmələ gəlməsi, sahillərinin dəyişməsi, ətrafında yaşayan xalqların taleyi zəngin bir tarixdir.

Geologiya-minerologiya sahəsində çalışan alimlərimiz Xəzərin əmələ gəlməsini yer üzündə ilk insanın yaranmasından 90-75 milyon il əvvələ aid edirlər.

Xəritədə gördüyümüz indiki Xəzər dənizi Paleogen dövründə, Neogen dövrünün isə Meotis və Pond əsrlərinə qədər, daha doğrusu 53-56 milyon il ərzində Qara dəniz və Aral dənizi ilə əlaqədə olmuşdur. Meotis dövrünün axırında Xəzər Aral dənizindən ayrılmış, lakin Kuma-Manıç boğazı ilə Qara dənizlə olan əlaqəsini saxlamışdı. Bu əlaqə təxminən 8-9 milyon il bundan əvvəl (Pont dövrünün sonunda) kəsilmişdir. O vaxtdan Xəzər sərbəst dəniz olmuşdur. Daha doğrusu nəhəng gölə çevrilmişdir.

Xəzərin gölə çevrilməsinə səbəb, Qafqaz dağlarının qalxması olmuşdur. Kuma-Manıç boğazı da dəniz səviyyəsindən yuxarı qalxmış və nəticədə Qara dəniz Xəzərdən ayrılmışdır.

Xəzər dənizinin ölçüsü vaxtaşırı enib-qalxmış, nəticədə sahillərini su basmışdır. Amma indiki Xəzər xeyli kiçilmişdir. Bunun əyani sübutu Qız qalasıdır. Bu qala vaxtilə dənizin içində olmuşdur.





### Xəzər dənizinin neçə adı olub?

Bir çox tarixi mənbələrdə bu böyük qapalı su hövzəsinin - Xəzər dənizinin onlarca adı olub. Onlardan bir neçəsini qeyd edək: Abaskun, Bakı, Kaspi, Gürkan, Xəzər, Hirkan, Alban, Şirvan, Teylesan və s.

Xəzər - Xas, Kaspi Qas sözlərindən əmələ gəlsə də, eyni adlı tayfa adını bildirir.

### Xəzər dənizi hövzəsini hansı dağlar əhatə edir?

Qərbdən Böyük Qafqaz sıra dağları, Cənub-Qərbdən - Talış dağları, Cənubdan - İran ərazisində olan Elbrus dağları, Şərqdən - Kopetdağ dağları əhatə edir.

### Xəzər dənizinə nə qədər çay tökülür?

Xəzər dənizinə 130-dan çox iri-xırdalı çay tökülür. Onların ən böyüyü Volqa, Emba, Ural, Terek, Sulak, Samur, Kür çaylarıdır.

### Dünyada ən böyük göl hansıdır?

Xəzər. Onun sahəsi 371000 kv.km-dir. Ən dərin yeri 995 metrdir. Xəzər qapalı su hövzəsi olduğu üçün ona göl deyirlər. Vaxtı ilə Xəzər dünya okeanına çıxdığı üçün ona dəniz demişlər. İndi də Xəzər-Kaspi dənizi kimi də adlanır. Xəzər dənizi okean səviyyəsindən 28 metr çökəklikdə yerləşir.

### Dünyada ən çox adaları olan ölkə hansıdır?

İndoneziyaya "Min ada ölkəsi" deyirdilər. Ancaq orada həqiqətdə nə qədər ada vardır? İndoneziyanın coğrafiya alimləri kartoqrafik tədqiqatları başa çatdıranda məlum olmuşdur ki, bu ölkə min yox, on üç mindən çox adadan ibarətdir. Onun 992-də yaşayış var. Bu yaxınlaradək 12 min ada boş idi. Onun 7 mininin adı belə yox idi. İndi görəsən vəziyyət necədir?



### Asiyada adaların ən böyükləri hansılardır?

| Adaların adları | Sahəsi (kv.km.) |
|---|---|
| Kalimantan | 734000 |
| Sumatra | 434000 |
| Xonsyu (Xondo) | 226000 |
| Sulavesi | 179000 |
| Yava | 126000 |
| Luson | 106000 |
| Mindanao | 94600 |
| Xokkaydo | 77900 |
| Saxalin | 76400 |
| Seylon | 65600 |
| Tayvan | 36000 |
| Kyusyu | 35600 |
| Xaynan | 34000 |
| Timor | 33000 |
| Xalmaxera | 18000 |
| Sikoku | 17800 |
| Seram | 17100 |
| Flores | 15200 |
| Sumbava | 13280 |
| Palavan | 11800 |
| Kipr | 9250 |
| Okinava | 1260 |

### Hansı ölkə 3900 adada yerləşir?

Bu gündoğan ölkə adını almış Yaponiyadır. Burada ən böyük ada Xonsyudur. O bütün Yaponiya ərazisinin 61 faizini təşkil edir və əhalinin 80 faizi burada yaşayır. Sonra daha üç ən ada Xokkaydo, Kyusyu və Sikokudur.



### Kamçatka haqqında nə bilirik?

Kamçatka coğrafi yer kimi böyük yarımadadır. Sahəsi 370000 kvadrat kilometrdir. Uzunluğu 1200 km., eni 450 km. olan bu vulkanlar və geyzerlər yarımadası Asiya qitəsinin Şimal-Şərq hissəsində, Oxot dənizinin qərbində, Berinq dənizi və Sakit okean sahillərində yerləşir. Kamçatkada 160-dan çox vulkan vardır. Onlardan 30-u püskürəndir. Yarımadada ən hündür yer 4750 metr olan Kamçatka sopkasıdır.



### Elbrus adında dağ daha haradadır?

Böyük Qafqaz sıra dağlarında Elbrus yüksək zirvədirsə, İranda Xəzərin Cənub sahillərində Qərbdən Şərqə uzanan dağlar silsiləsidir. Uzunluğu 900 km., eni 120 km., ən hündür yeri isə 5604 metrdir.

### Tundra nə deməkdir?

"Tundra" fin dilində "meşəsiz çılpaq yayla" deməkdir. Arktika qurşağında özünəməxsus bitki örtüyünə malik geniş ərazini əhatə edir. Cənubda meşə zonası ilə şimalda Arktika, Şimal dənizləri arasında yerləşir. Skandinaviya, Ural, Sibir, Alyaska, Şimali Kanada dağlarında da tundra zonası vardır. Bu zonada qış 8-9 ay davam edir. Bunun 60-80 günü qütb gecəsi olur. Orta temperatur yanvarda mənfi 5 dərəcədən - 40 dərəcəyə qədər, iyulda müsbət 5-10 dərəcə olur.

Tundrada çoxlu göl və bataqlıqlar var. Bitki örtüyü şibyə, mamır, alçaqboylu otlar, kolluqlardan ibarətdir. Heyvanlar və quşlar aləmi ağ kəklik, tundra kəkliyi, şimal maralı, canavar, tundra tülküsündən ibarətdir.

### Asiya qitəsində nə qədər çay var?

Asiya qitəsinin sinəsindən müxtəlif istiqamətlərə irili-xırdalı minlərlə çay axır. Onların 1000 km-dən çox uzunluğu olanları 25 böyük çaydır. Ən böyük çay Yantsızıdır. Onun uzunluğu 5520 km.-dir. Mənbəyini Tibet dağlıq yayladan götürüb Şərqi Çin dənizinə axır.

### Bu böyük çaylar axıb hara tökülürlər?

Ob çayı - İrtış qolu ilə 5410 km. Axıb Karsk dənizinə tökülür.

**Xuanxe çayı** - 4670 km. Çin ərazisindən axıb Sarı dənizə tökülür.

**Mekonq çayı** - 4500 km. Çin, Laos, Komboca və Vyetnam ərazilərindən axıb Cənubi Çin dənizinə tökülür.

**Amur çayı** - Şilka və Onon qolu ilə, 4416 km. Mənbəyini Yablanovoy dağlarından götürüb Rusiya ərazisi və Rus-Çin sərhəddi boyu axıb Tatar boğazına tökülür.

**Lena çayı** - 4400 km. Baykal gölü ətrafı dağlardan axıb Laptevlər dənizinə tökülür.

**Yenisey çayı** - 4092 km. Mənbəyini Sayan dağlarından götürüb Karsk dənizinə axır.

**Hind çayı** - 3190 km. Mənbəyini Qaraqorum dağlarından götürüb Ərəbistan dənizinə axır.

**Braxmaputra çayı** - 2900 km. Mənbəyini Himalay dağlarından götürüb Benqal körfəzinə tökülür.

**Sır Darya** - Narın qolu ilə 2850 km. Mənbəyini Tyan - Şan dağlarından götürüb Aral dənizinə axır.

**Saluin çayı** - 2820 km. Tibet yaylasından axaraq Andaman dənizinə tökülür.

**Fərat çayı** - 2760 km. Türkiyə, Suriya və İraq ərazilərindən axıb İran körfəzinə tökülür.

**Qanq çayı** - 2700 km. Himalay dağlarından axıb Benqal körfəzinə tökülür.

**Amu Darya** - 2600 km. Pamir dağlarından başlayıb Aral dənizinə axıb tökülür.

**İravadi çayı** - 2300 km. Tibet yaylasından axaraq Birma ərazisi ilə axıb Andaman dənizinə tökülür. İravadi Birma dilində "çox sulu vadi" deməkdir.

**Sitszyan çayı** - 2010 km. Cənubi Çin ərazisindən axıb Cənubi Çin dənizinə tökülür.

**Tarim çayı** - 2000 km. Çinin Uyqur Muxtar ərazisindən axır.

**Dəclə çayı** - 1850 km. Türkiyədə Van gölü ərazisindən axıb İran körfəzinə tökülür.

**Hodovari çayı** - 1500 km. Hindistan ərazisindən axıb Benqal körfəzinə tökülür.

**Kür çayı** - 1364 km. Türkiyənin şimal-şərq dağlıq ərazisindən axıb Gürcüstan və Azərbaycanı keçib Xəzər dənizinə tökülür.

**Krişna çayı** - 1290 km. Hindistanın cənubundan axıb Benqal körfəzinə tökülür.

**Qızıl İrmak çayı** - 1150 km. Türkiyədə ən böyük çaydır. Qara dənizə axıb tökülür.

**Hilmənd çayı** - 1150 km. Başlanğıcını Hindiquş dağlarından götürüb Əfqanıstan və İran ərazisindən axaraq Hamun gölünü su ilə təmin edir və axarsız Sistan çökəkliyində qurtarır.





# AVROPA

### Avropa adı necə əmələ gəlmişdir?

Eramızdan əvvəl IV əsrdə Balkan yarımadasının bir hissəsi Avropa adlanırdı.

Avropa finikiyalılar tərəfindən kəşf edilmişdir. Bu ərazinin Ön Asiyadan günbatan tərəfdə Qərbdə yerləşdiyi üçün ona Ereb və İrib adını vermişlər. "Gurub", "Günbatan" mənasında olan Erib və İrib adı sonralar yazılış formasını dəyişib, Evropa-Avropa kimi işlənmişdir.

### Avropa qitəsində neçə dövlət adalarda məskunlaşıb?

Dörd dövlət.

1. Ən böyüyü İngiltərə dövlətidir. O Böyük Britaniya, Şimali İrlandiya, bir neçə kiçik adalar qrupunda yerləşir.
2. İslandiya dövləti. İslandiya adasında məskunlaşıb.
3. İrlandiya dövlətidir. O İrlandiya adasının böyük hissəsində yerləşir.
4. Malta Respublikası. Malta və bir neçə kiçik adada yerləşir.

### Qərbi Avropada nə qədər dövlət vardır?

Cırtdan dövlətlərlə birlikdə 36 dövlət

| Adları | Paytaxtı |
|---|---|
| Avstriya | Vena |
| Albaniya | Tirana |
| Belçika | Brüssel |
| Bolqarıstan | Sofiya |
| Böyük Britaniya | London |
| Almaniya | Berlin |
| Fransa | Paris |
| İtaliya | Roma |
| İspaniya | Madrid |
| İrlandiya | Dublin |
| İslandiya | Reykyavik |
| İsveçrə | Bern |
| İsveç | Stokholm |
| Yunanıstan | Afina |
| Macarıstan | Budapeşt |
| Danimarka | Kopenhagen |
| Niderland | Amsterdam |
| Norveç | Oslo |
| Finlandiya | Helsinki |
| Polşa | Varşava |
| Portuqaliya | Lissabon |
| Rumıniya | Buxarest |
| Çexiya | Praqa |
| Slovakiya | Bratislava |
| Yuqoslaviya | Belqrad |
| Sloveniya | Lyublyana |
| Xorvatiya | Zaqreb |
| Bosniya-Herseqovina | Sarayevo |
| Makedoniya | Skople |



### Qara dəniz necə əmələ gəlmişdi?

Poleogen dövrünün sonunda əmələ gəlməyə başlamış, Neogen və Antropogen dövrlərində formalaşmışdı. Aşağı Pliosen dövrünün axırlarında Qafqaz dağlarının qalxması ilə Xəzər dənizi Qara dənizdən ayrılmışdı. Hazırda Qara dənizin ümumi sahəsi 423 min kv. km, uzunluğu - 1148 km, eni - 615 km. ən dərin yeri 2211 metrdir.

### Dünyada böyük nüfuza malik olan Vatikan şəhər-dövləti harada yerləşir?

İtaliyanın Roma şəhərinin qərbində cəmi 0,0004 min kv.km. ərazidə yerləşən Vatikan - Papa dövləti, dünya katoliklərinin, Roma - katolik kilsəsinin siyasi-inzibati və ideoloji mərkəzidir. Burada təqriban 1000 nəfər adam yaşayır, fəaliyyət göstərir. Rəsmi dili - latın və italyan dilidir.

Dövlət quruluşu - teokratik monarxiyadır. Bu kiçik dini dövləti katolik kilsəsinin başçısı Roma Papası idarə edir.

Vatikan sözü Tibr çayı sahilindəki Vatikan adlı təpənin adından götürülmüşdür. XIV əsrin sonunda burada tikilmiş kilsə katolik papanın daimi iqamətgahı olmuşdur.

### Avropa ərazisində neçə iri çay axır? Bu çaylardan böyüyü hansıdır?

Ən böyük çay Volqadır. Uzunluğu 3688 km.-dir. Xəzər dənizinə tökülür. Avropa qitəsi ərazisində 9 böyük çay var.

Volqadan sonra ikinci böyük çay Dunay çayıdır. Qara dənizə tökülür. Uzunluğu 2850 km.-dir.

Uzunluğu min kilometrdən çox olan qalan çaylar bunlardır:

| | |
|---|---|
| Ural çayı | - 2530 km |
| Dnepr çayı | - 2201 km |
| Don çayı | - 1870 km |
| Reyn çayı | - 1330 km |
| Elba (Laba) çayı | - 1150 km |
| Visla çayı | - 1090 km |
| Luara çayı | - 1020 km |



### Avropada ən yüksək dağ zirvələri hansı dağlardadır?

Üçü Qafqazda, beşi Alp dağlarındadır.

Ən hündür dağ zirvəsi Böyük Qafqaz dağlarında olan Elbrus zirvəsidir. Onun hündürlüyü 5633 metrdir. Qalan 15 dağ zirvəsi bunlardır:

| Adları | Dağ silsiləsi | Hündürlüyü (metr) |
|---|---|---|
| Kazbek | Qafqaz | 5047 |
| Monblan | Qərbi Alp dağları | 4807 |
| Monte roza | Qərbi Alp dağları | 4634 |
| Yinqfray | Qərbi Alp dağları | 4274 |
| Araqats | Qafqaz | 4090 |
| Bernina | Qərbi Alp dağları | 4049 |
| Qrosqlogner | Şərqi Alp dağları | 3797 |
| Mulasen | Sera Nevade | 3478 |
| Aneto | Pirney | 3404 |
| Musala | Rila | 2925 |
| Korno | Mərkəzi Apennin | 2914 |
| Olimp | Yunanıstan | 2911 |
| Herlaxovski | Qərbi Karpat | 2655 |
| Moldavanı | Cənubi Karpat | 2543 |
| Halxepiqen | Skandinav dağları | 2469 |

### Elbrus dağının nə qədər adı var?

Bu dağ Böyük Qafqaz silsiləsində ən yüksək zirvə və sönmüş vulkandır. Hündürlüyü 5633 metrdir. Elbrusun həndəvərində lap qədimdən çoxlu tayfalar, xalqlar yaşamış və onlar bu zirvəyə öz dillərində adlar vermişlər. Elbrusun 20-yə yaxın adı vardır. Bu haqda N.Nəbiyevin "Coğrafi adlar" kitabında oxuyuruq: "Farslar Elbrusa "Yüksələn", "İşıldayan", İran tayfalarından Zendlər "Hündür dağ", Elbrusun ətəyində yaşayan balkarlar "ətrafı küləkli" adları vermişlər.

Bəzi türkdilli xalqlar bu zirvəyə "Cinlər şahı", abxazlar "Xoşbəxtlik bəxş edən dağ", acarlar və azərbaycanlılar "Yalbuz", kabardalar "Yəhərvari" deyirlər.

Əfsanəyə görə bu ad dağın zirvəsini fəth edən iki qardaşın - Şedokun və Əbunun şərəfinə adlandırılmışdır. Kabardalar indi də Elbrusa "şedokminqe" deyirlər. Kabardalar bu dağı "Günəş dağı", "Xoşbəxtlik dağı" da adlandırırlar. Adıgeylər Elbrusu "Şadlıq dağı" mənasında "Şadlau" kimi tanıyırlar "Elbrus"un qədim gürcü dilindəki "aburtsimi", yəni "səmaya qalxan" sözündən əmələ gəlməsi fikri də var.



# ŞİMALİ AMERİKA

### Şimali Amerikanın ümumi sahəsi nə qədərdir?

Şimali Amerikanın ümumi sahəsi adaları ilə birlikdə 24227000 kv.km-dir.

Adalarının sahəsi 4100000 kv.km.-dir.



### Amerika Birləşmiş Ştatlarının bayrağında olan ulduzlar, qırmızı və ağ zolaqlar nəyi bildirir?

ABŞ dövlət bayrağının yuxarı sol güncündə göy kvadrat çərçivədə beş güşəli 50 ulduz şəkli vardır. Bunlar ABŞ-da 50 ştatın olmasını bildirir. 7 qırmızı və 6 ağ zolaq isə 1777-ci ildə müstəqillik əldə edildəndən bir il sonra deklarasiyaya əsasən qəbul olunmuş bayraqda 13 ulduz, 13 ağ-qırmızı zolaq olmuşdur. Bu, o zaman ABŞ-da olan ştatların sayını göstərir. Sonrakı illərdə ABŞ ittifaqına daxil olmuş ştatların sayı 50-yə çatmış, ulduzlar da 50 qeyd olunmuşdur. Amma qırmızı-ağ zolaqlar olduğu kimi 13 qalmışdır.

### ABŞ hansı dövlətlərlə həmsərhəddir?

Şimalda - Kanada, Şimal Qərbdə Rusiya, Cənubda Meksika, Cənub Şərqdə Kuba.



### ABŞ dövləti neçə ştatdan ibarətdir?

50 ştat, 1 Kolumbiya federal mahalına, ştatlar isə 3133 qraflığa bölünürlər. Paytaxtı Vaşinqtondur. Ştatlar bunlardır.

| Şərqdə | Mərkəzdə | Qərbdə |
|---|---|---|
| Vermont | Missisipi | Arizona |
| Nyu-Kempşir | Missuri | Nevada |
| Men | İllinoys | Aydoho |
| Massaçusets | İndiana | Vaşinqton |
| Konnektikut | Arkanzas | Oreqon |
| Nyu Cersi | Kanzas | Kaliforniya |
| Rod-Aylend | Ayova | Alyaska |
| Merlend | Viskonsi | Havay adaları |
| Delaver | Luiziana | Kolumbiya mahalı |
| Pensilvaniya | Texas | |
| Ohayo | Nebraska | |
| Virginiya | Oklaxoma | |
| Qərbi Virginiya | Şimali Dakota | |
| Kentukki | Cənubi Dakota | |
| Karolina | Kolorado | |
| Şimali Karolina | Nyu-Meksiko | |
| Corciya | Vayominq | |
| Florida | Yuta | |
| Alabama | Montana | |
| Nyu-York | Minnesota | |
| Tennessi | | |
| Miçiqan | | |



***Alyaska haradadır və oranın yerli sakinləri kimlərdir?***

Alyaska yarımadası Amerika qitəsinin şimal-qərbində yerləşir. Buranın yerli sakinlərindən olan aleutların dilində "Alas" sözü "böyük ölkə" deməkdir. Əhalisi çox seyrək olan bu soyuq diyarın sahəsi 1519000 kv.km-dir. Zəngin yeraltı sərvətləri var. Alyaska böyük dövlətlərin - Rusiyanın, İngiltərənin və ABŞ-ın maraq dairəsində olmuş, əvvəlcə, XVIII əsrdə, Rus imperiyası bu ərazini "kəşf" edərək ələ keçirmiş, sonra Amerika, İngiltərə bura yiyələnmək istəmiş, nəticədə Rusiya 1867-ci ildə Alyaskanı ABŞ-na 7,2 milyon dollara satmışdır.

Bu alış-veriş, işğal, istismar yerli Aleut, Eskimos və Hindu adlandırılan əhaliyə heç də ağ gün bəxş etmədi. Dədə-babadan balıqçılıqla, maral saxlamaqla, xəz dəri istehsal etməklə məşğul olan bu kiçik tayfalar böyük kapitalın qaynar qazanında əriməyə başladılar.

Bu yerlərə bəs ilk ayaq açan kimlər olmuşlar? Tarixdən məlumdur ki, hələ 3-4-cü əsrlərdə qədim türklər Sibiri, Kamçatkanı, sonra Çukot yarımadasını tutub oradan boğaz vasitəsilə Alyaska yarımadasına keçmişlər. Bu torpağı da Alas - böyük ölkə deyə adlandırmışlar. Bax, aleutlar, eskimoslar, hindular kimi tanınan yerli adamlar həmin qədim Altay türklərinin nəslləridir. Diqqət edəndə görürük ki, bu yerlərin folklor nümunələri, adət-ənənələri, bəzi mədəni dəyərləri qədim türklərinkinə bənzəyir.

***"Ölüm və ya şeytan üçbucağı" haradadır? Bu nə möcüzədir?***

Hələ bu günədək sirri açılmayan, illər boyu dənizçiləri vahiməyə salan, Atlantik okeanının qərbində, Şimali Amerikadan 900 km. şərqdə, 300-ə yaxın Bermud adaları yaxınlığında dünyada ən müəmmalı hadisə olan Bermud üçbucağı deyilən yerdə nə baş verir? Deyilənə görə burada neçə-neçə gəmi, təyyarə yoxa çıxmış, adamlar izsiz-soraqsız itmişlər. Planetimizin bu möcüzəli yerinə insanlar "Atlantik qəbiristanlığı", "Ölüm və ya şeytan üçbucağı" adı vermişlər.

53,3 kv.km. sahəsi olan bu vulkan mənşəli mərcan adalarını 1522-ci ildə ispaniyalı Bermudes kəşf etmişdir.

Bermud üçbucağı tarixdə çoxlu faciəyə səbəb olmuşdur. Burada ən müəmmalı hadisə ingilis "Meri Selist" gəmisinin yoxa çıxmasıdır. 1872-ci ildə "Deya Qrasiya" ingilis gəmisi təsadüfən "Meri Selist" gəmisinə rast gəlmişdir. Dənizçilər bu gəmidə heç bir həyat əlaməti görməmişlər. Ancaq gəmidə olan bütün əşyalar, ərzaq yerində idi.

Son 30-35 ildə burada 100-ə qədər gəmi və təyyarə itmişdir.

Bunun səbəbi nədir? Alimlər bunu Atlantik okeanında baş verən iliq Holfstrim axını, həmin yerin coğrafi vəziyyəti və havanın şıltaqlığı ilə izah edirlər.

***Avropalıların Amerika qitəsini işğal etməmişdən əvvəl bu ərazidə hansı tayfalar, qəbilələr yaşayırdılar?***

Avropalıların Amerika torpağına ayaq basmalarından əvvəl burada çoxlu yerli tayfalar və qəbilələr yaşayırdı. Onlardan Şimali Amerikada Atapaskları, eskimosları, alqonkinləri, siuləri, krikiləri, komançiləri, apaçiləri, yutları, şoşonları, Mərkəzi Amerikada asteklərı, mayyaları, qayinoları, çibçaları, Cənubi Amerikada aravakları, qaribləri, neçuaları, inkləri, quaranları, tupiləri, çarruaları, texuelçələri göstərmək olar.

***Şimali Amerikanın ən böyük çayları hansılardır?***

1.Missisipi çayı, Missuri qolu ilə, uzunluğu 6225 kv.km.-dir. Hindu dilində böyük çay deməkdir. Meksika körfəzinə tökülür.

2.Missuri çayı, uzunluğu 3970 km.-dir. Meksika körfəzinə tökülür.

3.Makenzi çayı, uzunluğu (Atabas qolu ilə) 4240 km.-dir. Bofort dənizinə tökülür.

4.Yukon çayı, uzunluğu 3180 km.-dir.Berinq dənizinə tökülür.

5.Müqədəs Lavrenti çayı, uzunluğu 3060 km.-dir. Lavrentiya korfəzinə tökülür.

6.Rio-Qrande çayı, uzunluğu 3030 km.-dir. Meksika körfəzinə tökülür.

7.Nelson çayı, Saskaçevan qolu ilə, uzunluğu 2570 km.-dir. Şimalda Hudzon körfəzinə tökülür.

8.Kolorado çayı, uzunluğu 2230 km.-dir. Kolifomiya körfəzinə tökülür.

9.Kolumbiya çayı, uzunluğu 1950 km.-dir. Sakit okeana tökülür.

**Şimali Amerikada iri çayların sayı çoxdur. Təkcə Missuri çayına onlarca çay qovuşur.**



# CƏNUBİ AMERİKA

***Cənubi Amerikanın ümumi sahəsi nə qədərdir?***

Cənubi Amerikanın ümumi sahəsi (adalarla birlikdə) 17757000 kv.km, adalarının sahəsi - 150000 kv.km.-dir.

**O hansı çaydır ki, 500 qolu var?**

Cənubi Amerikada Amazon çayı hövzəsinin sahəsinə (7180 min kv.km) və suyunun çoxluğuna görə dünyada birinci, uzunluğuna görə (6,4 min km) ikinci yer tutur. Amazon sayının 500 qolu vardır. Bunlardan 20-sinin uzunluğu 1500-3500 kilometrə çatır. Ən böyük qolları Ukayali, Jurua, Modeyra, Tarajos, Çinqu və s. Amazon çayında gəmilər rahatca üzürlər. Coğrafiyaşünas N.Nəbiyev yazır ki, bu əzəmətli, heyrətamiz, sularında 2000 balıq növü olan çayı ilk dəfə 1500-cü ildə ispaniyalı Visente Pinson kəşf etmişdir. O, bu nəhəng çayı görəndə heyrətlənərək onu "Müqəddəs Məryəmin şirin sulu dəniz çayı" adlandırmışdı. 1515-ci ildə Pinsonun ekspedisiyası bu adı dəyişdirib ispanca "Meşənin sıx yeri" mənasında "Maranuon" sözü ilə əvəz etmişdi. 1514-cü ildə ispan dəniz səyyahı Orelyanın başçılığı ilə qızıl axtarmaq üçün dənizçilərlə yerli əhali arasında qanlı vuruşma olmuşdu. Vuruşmanı kənardan seyr edən Orelya elə güman etmişdi ki, qədim yunan əfsanəsində deyilən Amazon ölkəsinə gəlib çıxmışdır. "Amazon" sözünün mənası hindu qəbiləsinə mənsub teliquara dilində "böyük dalğa", "şiddətli su qasırğası" deməkdir. Bu təsadüfü deyildir, çayın səviyyəsi 7 ay qalxır, 4 ay düşür. Mənsəb hissəsində 14-15 metr hündürlüyündə qabarma dalğalarla müşayət olunur.



**Merkezi Amerikada neçə dövlet var?**

13 dövlət. Onlar bunlardır:

| Adları: | Paytaxtı: |
|---|---|
| Qvatemala | Qvatemala |
| Beliz | Beliz |
| Qonduras | Tequsiqalpa |
| Salvador | San-Salvador |
| Nikaraqua | Manaqua |
| Kosta-Rika | San Xose |
| Panama | Panama |
| Kuba | Havana |
| Yamayka | Kinqston |
| Haiti | Port-o-Pren |
| Dominakan | Sato Dominqo |
| Meksika | Mexiko |
| Tridinidad vaTobaqo | Port-of-Speyn |

**Cənubi Amerikada olan dövlətlər hansılardır?**

Cənubi Amerikada irili-xırdalı 13 dövlət var. Onlar bunlardır:

| Adları | Paytaxtı |
|---|---|
| Argentina | Buenos-Ayres |
| Braziliya | Rio-de-Janeyro |
| Boliviya | La-Pas |
| Venesuela | Karakas |
| Qayana | Corctaun |
| Qviana | Qayenna |
| Ekvador | Kito |
| Kolumbiya | Baqota |
| Paraqvay | Asunson |
| Peru | Lima |
| Surinam | Paramaribo |
| Çili | Santyaqo |
| Uruqvay | Montevideo |





### Yaşıl cəhənnəm haradadır?

Dünyanın ən böyük cəngəlliklərindən biri - Cənubi Amerikada - Braziliyadadır. Bu böyük ölkənin ərazisinin təxminən yarısını tutan Amazonkanın tropik cəngəlliklərini yerli əhali və səyyahlar "Yaşıl Cəhənnəm" adlandırırlar. Braziliyaya ilk köçənlər və yerli əhali çətin keçilən kolluq və bataqlıqları aradan qaldırmaq, yüksək nəmlikdən və qızdırmadan qurtarmaq üçün bu cəngəlliklərdə özlərinə kiçik əkin sahələri düzəltmişlər. Getdikcə bu "Yaşıl cəhənnəm" insanların əli ilə ram edilməyə başlanmışdır. Qalın, sıx meşələr kəsilərək yolar açılmış, yaşayış məntəqələri yaradılmışdır.

Braziliya alimi R. Karneyrunun dediyinə görə, Amazonka meşələrində gündə bir milon yarımdan çox ağac qırılır. Mütəxəssislərin fikrincə, ölkənin meşə sərvətinin bu qayda ilə məhv edilməsi gələcəkdə Amerika qitəsinin mərkəzində yeni bir səhranın yaranmasına səbəb olar.

### Cənubi Amerika sahillərində hansı adalar var?

Adaların sayı çoxdur. Ən iri adalar bunlardır:

| | | |
|---|---|---|
| 1. Odlu torpaq | (sahəsi) | 48000 kv.km |
| 2. Folklend (Malvin) | -- | 11960 kv.km |
| 3. Qalapaqos | -- | 7430 kv.km |
| 4. Trinidad | -- | 4820 kv.km |
| 5. Kyurasao | -- | 447 kv.km |
| 6. Tobaqo | -- | 300 kv.km |

### And dağlarının uzunluğu nə qədərdir?

Venesueladan başlanan və Cənuba doğru, Çiliyə qədər uzanan, 7 Cənubi Amerika ölkəsindən keçən And dağlarının uzunluğu 7200 km.-dir. Bu, dünyada ən uzun dağ sılsıləsidir.

### Cənubi Amerikada buzlaqların sayı nə qədərdir?

Buzlaqlar çoxdur. Əsas buzlaqlar And dağlarındadır. Onları belə təsnif etmək olar:

| Adları | Uzunluğu (km) |
|---|---|
| Upsala buzlağı | 60 |
| San-Tadeo | 57 |
| Xorxe-Mant | 52 |
| Stefan buzlağı | 50 |
| San-Rafael buzlağı | 45 |
| Piya XI buzlağı | 42 |
| Viedma bulağı | 40 |
| Tindal buzlağı | 30 |
| Tuniyan buzlağı | 20 |
| Rio-Plomo buzlağı | 17 |
| Sipreses buzlağı | 12 |

### Cənubi Amerika çayları ilə də məşhurdur. Ən böyük çayları hansılardır?

| Adları | Uzunluğu (km) |
|---|---|
| Amazonka Ukayali qolu ilə | 6280 |
| Amazonka Maranon qolu ilə | 5510 |
| La-Plata Paranoy qolu ilə | 4700 |
| Madeyra Mamore qolu ilə | 3320 |
| Orinoko | 2740 |
| Tokantins | 2640 |
| Paraqvay | 2410 |
| Maqdalena | 1530 |
| Uruqvay | 1510 |



# AFRİKA

### Afrika qitəsinin ümumi sahəsi nə qədərdir?

Afrika Asiyadan və Amerikadan sonra böyüklüyünə görə üçüncü qitədir. Böyük səhrası, ucsuz-bucaqsız savannaları, yüksək yaylaları, dağları, vulkanları, tropik çölləri, böyük çayları olan bu təzadlı iqlimli qitənin ümumi sahəsi 30132000 kv.km.-dir.



### Afrika qitəsinin adı nə ilə əlaqədardır?

Qərbdə Atlantik okeanı, şərqdə və cənubda Hind okeanı, Şimalda Aralıq dənizi ilə əhatə olunan bu qaralar dünyasında qədim dövrlərdə (eradan əvvəl) bərbəri tayfasına mənsub afrilər (və ya afriqilər) yaşayırdılar. Avropalılar bu qitəni işğal etdikdən sonra bura Afrika demişlər. "Afrika" bərbəri ərəblərin dilində "malqara" deməkdir. Latın dilində bunun "şaxtasız yer", ərəb dilində "tozlu yer" mənasında olması fikri də var.

### Dünyada ən uzun çay hansıdır?

Afrika qitəsində yüksək dağ zirvələrindən, 1130 metr ucalıqda olan Viktoriya, Kyoka və b. göllərdən mənbəyini götürən Nil dünyada ən uzun çaydır. Onun uzunluğu 6671 km.-dir. Nil çayı qolları - Bəhr ül - Fəzal, Asva, Sobat, Mavi Nil və Atabara ilə böyük hövzə yaradaraq Ruanda, Keniya, Tanzaniya, Uqanda, Efiopiya, Sudan və Misir Ərəb Respublikası ərazilərindən keçərək Aralıq dənizinə tökülür.

### Dünyanda ən yüksəklikdə yerləşən şəhər hansıdır?

Afrikanın qədim dövlətlərindən biri, tarixi eradan əvvəl birinci minillikdən başlanan Həbəşistanın - indiki Efiopiyanın paytaxtı Ədis-Əbəbə şəhəri 1887-ci ildə imperator II Menelik tərəfindən Həbəşistan yaylasında əsası qoyulan bu şəhər 2400 metr yüksəklikdə səfalı dağ yamacında salınmış, bir il sonra Efiopiyanın paytaxtı buraya köçürülmüşdür. İmperator xəstə arvadının şəfa tapması məqsədilə dağ yamacında saldığı bu şəhəri Ədis-Əbəbə adlandırmışdır. Ədis-Əbəbə efiop dilində "təzə çiçək" deməkdir.



Ədis-Əbəbə

### İnsanlar nə vaxtdan və harada əkinçiliklə məşğul olmağa başlamışlar?

Əkinçilik insanların həyatına yeni məna gətirmiş, onların yaşayış tərzini dəyişmişdir. Əkinçiliyin başlanmasının tarixi yeni eradan əvvəl IX min illiyə gedib çıxır. İlk dəfə Yaxın Şərqdə, Babilistanda, Azərbaycanda və b. Şərq ölkələrində insanlar əkinçilik mədəniyyətinə yiyələnmişlər.

### Ən qədim mixi yazılar nə vaxt və kimlər tərəfindən icad edilmişdir?

Mismar şəkilli işarələrdən ibarət olan mixi yazıları şumerlər icad etmişlər. Onun yaranma tarixi yeni eradan əvvəl 4-cü minilliyə gedib çıxır. Şumerlər öz tarixlərini, elmi, ədəbi, dini fikirlərini gil lövhələrin üzərinə həmin mixi işarələr vasitəsilə həkk edirdilər. "Mixi" sözü də görünür buradan əmələ gəlmişdir. İlk əvvəllər mixi işarələrin sayı 1000-dən çox idi. Sonralar 600-ə, akkadların, babillərin, assurların dövründə 300-ə qədər azaldılmışdır.

Mixi əlifbadan şumerlər, akkadlar, o cümlədən Yaxın Şərqin bir çox xalqları - hettlər, finikiyalılar, elamlılar, farslar və s. xalqlar istifadə etmişlər.



Şumerlərin mixi yazıları

### Ərəblər Avropaya nə gətirmişdilər?

İslam sivilizasiyanı yaratmış ərəblər ilk hakimiyyətləri dövründə - yüz ildə Orta Asiyanı, İranı, Əfqanıstanı, Qafqazı, Şimali Afrikanı, Avropada İspaniyanı istila etmişlər. Onlar özlərini və tutduqları ölkələrinin mədəniyyətini və elmini Avropaya gətirmişlər. Ərəblərin Avropaya gətirdikləri elmi biliklər bir növ beynəlmiləlçi ruh daşıyırdı. Ərəb elmi dünyagörüşü ensiklopedik mahiyyətdə idi.

Müsəlmanların möhkəm ticarət ən-ənələri, özlərinə görə alqı-satqı qaydaları, mal mübadiləsi, var-dövlətin nəslə ötürülməsi prinsipləri vardır. Bu ənənə Avropaya da yayılmaqda idi. Ərəblər Avropaya İbn-Sina (980-1037) dühasını, Hind say sistemini, riyaziyyat məktəbini, böyük türk alimi Əl-Xarəzminin "Əl-Cəbr"i kitabını, Hind və İran xalqlarının əczaçılıq təcrübəsini, biliklərini, astronomiya və şərq fəlsəfi təfəkkürünü, bir sözlə bütöv bir Şərq sivilizasiyasını gətirmişlər.

Avropada orta əsr əczaçılarn ərəb ənənələri əsasında təşəkkül tapmışdı. Ərəblərin və türk tacirlərinin İrandan, Yaxın Şərqdən, Hindistandan gətirdikləri dərmanlar, kamfora yağları, mixək, cövüz və s. ədviyyatlar Avropada əczaçılığın və onun sonrakı sənaye sahələrinin inkişafında böyük rol oynamışdır.

### Qədim dünyanın ikinci möcüzəsi nə üçün "Semiramidanın Asma bağları" hesab olunurdu?

Babil qədim Şərqin böyük və zəngin şəhərlərindən biri idi. Əfsanəyə görə Assuriya gözəli çariça Semiramida burada bir sıra möhtəşəm tikililərlə yanaşı dillər əzbəri olmuş "Asma bağlar" da salmışdı. Eramızdan əvvəl Assuriya padşahı Navuxodonosorun əmri ilə salınmış Asma bağlar saraya yaraşıq və sərinlik vermək üçün imiş. Bu əsrarəngiz gözəl bağ yerdən altı mərtəbəli bina hündürlüyündə qaldırılmış süni meydança düzəldilmişdi. Bu meydançaya 6 cərgə pilləvarı səki qalxırmış. Bişmiş kərpicdən tikilmiş sıra tağlar üzərində qurulmuş bu səkilərin hər birinin üstünə torpaq tökülmüş, gül-çiçək və ağaclar əkilmişdi. Pilləvarı əmələ gətirən bu səkilər yuxarıdakı sarayla birlikdə yaşıllığa bürünmüş bir dağa bənzəyirdi. Bəs bu bağ necə suvarılırdı? Yüzlərlə qul gecə-gündüz dəri tuluqlar asılmış nəhəng çarxları fırladaraq Fərat çayından Asma bağlara su qaldırırdı.

### Dünyada ilk səsli-hərfli finikiya əlifbasından hansı əlifbalar yaranmışdır?

Finikiya əlifbasından arami, yəhudi, Suriya əlifbaları, arami əlifbasından pəhləvi, ərəb, qədim türk, uyğur, monqol, hind, gürcü və s. xalqların ilk əlifbaları, mənşəcə finikiya əlifbası ilə bağlı olan yunan əlifbasından latın, qot, slavyan, latın əlifbasından isə Qərbi Avropa dillərinin əlifbaları yaranmışdır.



Finikiya əlifbası





### Dünyanın hər tərəfinə səpələnmiş yəhudilərin mənşəyi haradandır, əvvəllər harada yaşamış və taleləri necə olmuşdur?

Yəhudilərin mənşəyi Avraamdan qabağ mövcud idi. Avraam təxminən Aralıq dənizinin Mesopotamiya ilə Xanaan arasında e.ə. 1900-cü ildə anadan olmuşdur. Yəhudi qəbilələrindən bir hissəsi Misirə mühacirət etmişdilər. Misir fironu II Ramsesin vaxtında (1304-1237) yəhudilərin vəziyyəti çox ağır, dözülməz olub. Moisey-Musa peyğəmbər o zaman yəhudiləri öz yurdlarına - Xanaana geri qaytardı. Musa peyğəmbər yəhudiləri təkallahlığa sitayiş etməyə çağırırdı. O zaman bütpərəstlik xalqların sitayiş etdikləri din idi. Yəhudilər getdikcə Moiseyin-Musanın təlimini, "Töhrat"da yazılanları qəbul etməyə başladılar.

Yəhudilərin dövləti David hökmdarın (e.ə.1012-972) dövründə genişləndi. Davidin oğlu Solomon-Süleyman (e.ə. 972-922) peyğəmbərin ölümündən sonra yəhudi dövləti iki hissəyə parçalandı - İsrail və İudey dövlətinə. İudey Avramın kötükcəsi idi. İudey-yəhudi sözü də bununla əlaqədardır.

İsrail dövləti e.ə. 772 ci ildə assuriyalılar tərəfindən işğal olundu. İudeylər də Babil qoşunları tərəfindən sındırıldı. 587-ci ildə (e.ə.) Yerusəlim talan edildi. Yəhudilərin çoxu vətənindən qovuldu, qul halına düşdü. "Babilistan əsirləri" ifadəsi də buradan əmələ gəldi. Bu vəziyyət farsların e.ə. Babil dövlətini məğlub edənədək - 538-ci ilə qədər davam etdi. Cəmi dörd il sonra makedoniyalı İskəndər bu əraziləri tutdu. Eradan əvvəl 63-cü ildə yəhudilər romalıların əsarətinə düşdülər.

### Müsəlman Şərqində ilk kitabxanalar harada olmuşdur?

Tarixi mənbələrdə qeyd olunur ki, 473 və 547-ci illərdə iki nadir kitabxana Nişapurda və Bəsrədə olmuşdur. Digər məşhur kitabxana həmin dövrdə Misirin Qahirə şəhərində idi. Bu kitabxana 18 bölmədən ibarət imiş və bu bölmələrin hər birində 18 min nüsxə kitab olub. Deyilənə görə XI əsrdə müharibələr zamanı bu nadir kitabxananın bir hissəsi Əbdül Fərəc Məqribi tərəfindən qarət edilmiş, bir hissəsi İskəndəriyyə şəhərinə, digər hissəsi isə Afrikaya aparılmışdır.

Ərəb şairi Əbu-Təman İrana səyahət edəndə Həmədanda Əbdül Zeyfə adlı bir varlının evində qonaq olur. Yoluna davam etmək istədiyi gün bərk qar - boran başlayır. Səyahətçi dayanmalı olur. Ev yiyəsi onu əyləndirmək üçün öz kitabxanasına aparır. Abu-Təman bu zəngin kitabxanaya elə aludə olur ki, vətənə dönmək belə yaddan çıxır. Bu xəzinədən istifadə edib o, bir kitab yazır.

### Qədimdə gəmilər haralara qədər üzmüşlər?

Əlbəttə, çox uzaqlara üzə bilməmişlər. Məsələn, 1500 il eramızdan əvvəl ticarət gəmiləri Misirdən Punta (indiki Somali) qədər, cəmisi 2000 km. üzə bilirmişlər. Eramızdan 1000 il əvvəl finikiyalılar Aralıq dənizini gəmi ilə üzüb İngiltərəyə qədər yol qət etmişlər.

### Ərəb əlifbası başqa əlifbalardan nə ilə fərqlənir?

Ərəb əlifbası ilk iki hərfin adı ilə (alif + bey) adlanır. Əlif sözü düz bədən, qəd-qamət mənası verir. Ərəb əlifbasında yalnız samitlər və uzun saitlər bildirən 28 hərf vardır. Ərəb yazıları sağdan sola yazılır. Bir çox hərflər başda, ortada və axırda yazılanlar qrupuna daxildir. Ərəb hərflərinin 4 cür yazılış forması vardır. Yazıda hərfüstü, hərfaltı işarələrdən də istifadə olunur.

Azərbaycanda bu əlifba 1929-cu ildə ləğv edilmiş, latın əlifbasına keçilmişdir.

### Dünyada ən qədim kitabxana harada, necə olub?

Çikaqo Universitetinin professoru A.Leo Oppenheym "Qədim Mesopotamiya (süqut etmiş qədim sivilizasiyanın portreti)" kitabında, qədim şumerlərin hələ eramızdan əvvəlki minilliklərdə yaratdıqları mədəniyyəti bəşər sivilizasiyanın əsası adlandırmış və qeyd etmişdir ki, bizim əlimizdə dünyada, xüsusilə Şərqdə geniş yayılmış "Dünya tufanı" əfsanəsi, "Bilqamıs" eposunun fraqmentləri, qədim şumerlərin allahları və qəhrəmanlarından bəhs edən hekayələr, şerlər vardır. Bunlar şumerlərin yaratdıqları gil lövhələrdə təsvir olunmuşdur.

Bütün bunlar Assuriyanın axırıncı hökmdarı Aşşurbanapalın (e.ə. 668--627) sayəsində hifz edilmişdir. O, bütün gil lövhələri özünün paytaxtı Nineviyaya gətirtdirərək burada, qədim Şərqin sistemləşdirilmiş ilk kitabxanasını yaratmışdır. Burada 300-dən çox gil lövhənin hər birinin üzərində 80-dən 200-dək yazı mətni varmış. Həmin gil lövhələrin kolleksiyasının əksəriyyəti hazırda Britaniya muzeyində saxlanılır.

# MİSİR



## Qədim ehramlar ölkəsi



### Qədim dünyanın "Yeddi möcüzəsi"-ndən birincisi hansıdır?

Bütün dünyanın heyrətinə səbəb olmuş və heç bir qədim tikiliyə oxşamayan Misir ehramları. Nil çayının qərb sahillərində qumlu səhrada yonulmuş, pardaxlanmış nəhəng qaya parçalarından eramızdan 2800 il əvvəl ucaldılmış piramida şəkilli bu möhtəşəm tikililər Misir fironlarının sərdabələridir. Ən qədim piramidalar firon Coserin Sakkarada və firon Snofrun Medumedəki ehramlarıdır. Onlar pilləli idi. Sonrakı Cizədəki həndəsi, düz yonulmuş və cilalanmış ehramlardır. Bunlar firon Xeopsun, Xefrenin və Mikerinin ehramlarıdır. Onlardan ən hündürü Xeops ehramıdır. Hündürlüyü 146 metrdir. Yunan tarixçisi Herodotun verdiyi məlumata görə bu ehramı yüz min adam 20 ilə ucaltmışdır.

Misir ehramlarını böyük qaya parçasından yonulmuş bədəni şir, başı insan təsviri olan Sfinks heykəli qoruyur.

Bu rəqəmlər, faktlar, adlar hələ indiyədək insanları düşündürür. Darın elmi cavabları gözlənilən suallar meydana çıxır. Qumlu səhraya bu nəhəng qaya parçaları necə gətirilib? Onlar hansı texnikanın gücü ilə bir-birinin üstünə qoyulub? Fironlar kimdilər? Bu qeyri-adi abidələr bizə nəyi andırır? Fironun heykəl portretini əks etdirən bu müqəddəs şir başlı fantastik varlıq - sfinks nəyi ifadə edir? Bəs, ehramların daxilindəki sirli, möcüzəli qurğular, labirintlər bizə nə deyir?...

### Qədim misirlilər öz yazı mətnlərini nə üzərində yazırdılar?

Papirus. Beş metrədək hündürlüyü və çətirvari çiçəkləri olan papirus Nil çayının, tropik Afrikada göllərin, sakit axan çayların sahillərində bitir. Papirusun gövdəsindən parça, ayaqqabı və s. hazırlanmasında istifadə olunmurdur. Papirus yazı materialı kimi eramızdan əvvəl 3-cü minilliyin əvvəllərində Misirdə ixtira olunmuş, bu qədim ölkənin tarixinə, ədəbiyyatına, mədəniyyətinə aid əfsanələri, nağılları, əhvalatları xəttadlar papirusun üzərinə yazırmışlar. Bir çox qədim şərq xalqları IX əsrədək papirusdan istifadə etmişlər.

### Mixi yazıların sirrini ilk açmaq kimə nəsib olmuşdur?

Bu, XIX əsrin əvvəlrində yaşamış fransız alimi Şampolona nəsib olmuşdur. XIX əsrdə Misirdə iri qara daş tapılmışdır. Onun üzərinə həm mixi işarələrlə, həm də qədim yunan dilində yazılar həkk edilmişdir. Şampolon hər iki mətnin eyni məzmunda olduğu fikrinə gəlmişdir. Yunan mətnində firon Ptolemeyin və həmin sülalənin sonuncu çariçası Kleopatranın adı qeyd olunmuşdur. Mixi yazısında isə bəzi işarələr çərçivəyə alınmışdır. Şampolon bunu belə izah etmişdir ki, misirlilər hökmdar adlarını nəzərə çapdırmaq üçün Ptolomey və Kleopatra adlarında "p.t.l." işarələri vardır. Deməli hər iki mətndə bu hökmdarın adı həkk olunmuşdur.

Papirus







### Misirin Xator məbədində sensasiya doğuran kəşf nədən xəbər verirdi?

Ötən əsrin 80-ci illərinin əvvəlində tanınmış alim Rayıhart Xabek Misirin Xator məbədində sensasiya doğuran bir kəşf etmişdir. Bu məbəd Cizədən təxminən 500 km. cənuba və Fivadan 50 km. şimala doğru, Nil çayının orta axarı sahilində Tentira şəhərində yerləşir. R.Xabek məbəddə lampa, naqil, generator, elektrik açarının rəsmləri çəkilmiş divarüstü döymələr aşkar etmişdi. O, yazır ki, Xator məbədinə baş çəkən hər kəs daxilində qədim üslubda çəkilmiş ilan şəkilləri olan dalğalı xətlərlə armudaoxşar bir neçə əşya təsvir edilmiş müəmmalı divar relyef rəsmləri ilə tanış ola bilər. Burada şlanq və ya kabel, relyef kompozisiyasında mərkəzi yer tutan şəffaf armudabənzər əşyalara dayaq olan dirəkləri də görmək mümkündür. "Diod çubuqları" adını almış dirəklər mürəkkəb quruluşa malikdirlər. Bütövlükdə relyef mürəkkəb işıqlandırma qurğu təsiri bağışlayır. Çox ehtimal ki, içərisində dalğavari xətlər olan armudabənzər təsvirlər - elektrik çılçırağının lampaları, izalyator üçün olduqca xarakterik quruluşun çox şey dediyi "diod çubuqları" isə yüksək voltlu izalyatordur.

Bu, nədir? Qədim Misirdə elektrik lampalarımıdır?

Avstriya konsernin layihə rəhbəri elektrik mühəndisi Valter Harn Tentira məbədindəki "diod çubuqlarını" görəndə heyrətlənmişdir. Onun fikrincə bu "diod çubuqları" lap müasir yüksək voltlu izolyatorlara oxşayır.

Elektrotexniki biliklərsiz belə bir rəsm yaratmaq, sadəcə mümkün deyildir. Əgər qədim Misir kahinlərinin elektrik lampalarından istifadə etdiklərini fərz etsək, onda ortaya enerji mənbəyi barədə sual çıxır.

V.Harna görə kahinlər görünür nüvə fizikasında istifadə olunan lentvarı elektrostatik generatordan istifadə etmişlər.

Görünür, bir generatordan verilən enerji ilə işləyən gərginlik lampaları və gündüz işığı lampaları ilə yanaşı qədimlərdə güclü və davamlı lümineforlar əsasında aramsız işıqlandırma lampaları da mövcud idi.

Bunlara əsaslanaraq alimlər belə fikrə gəlirlər ki, bu işıq mənbələri yerdənkənar sivilizasiyalarla əlaqədar imiş.

### "Fayum portretləri" nədir və o harada yaradılmışdır?



Fayum Misirdə səhradır. Eramızın I-II əsrlərində bu səhrada dəfn olunan qədim misirlilərin qəbirlərinə həmin mərhumların portretləri çəkilmiş şəkillər qoyularmış. Bu, görünür mərhumları əbədiləşdirmək üçün edilirmiş. Taxta üzərində mum rəngləri ilə çəkilmiş bu portretlərdə ölmüş şəxslərin xarici görünüşü təsvir olunurdu. Arxeoloji qazıntılar zamanı tapılmış bu rəsm nümunələrinə "fayum portretləri" deyilmişdir. Həmin portretlərin nümunələri dünyanın bir çox məşhur, o cümlədən Peterburq, Moskva muzeylərində saxlanılır.

### 3000 il yaşı olan II Ramsesin heykəli Qahirənin vağzal meydanında niyə 32 il dura bilmədi?

Qədim Misirin padşahlarından biri olan II Ramsesin heykəli səhrada təbiətin qoynunda 3000 ildən artıq ömür sürmüşdür. Onu öz yerindən götürüb Qahirənin vağzal meydanına yaraşıq vermək üçün qoymuşlar. II Ramses Misirin paytaxtı Qahirə həyatına 32 il dözə bilmədi. Getdikcə xarab olan heykəli xilas etmək üçün Misir Sivilizasiyası Muzeyinin örtülü salonuna aparmışlar.

Deyilənə görə II Ramsesin heykəli müasir Qahirənin ekoloji vəziyyətinə dözə bilməmişdi. Səbəb, nəqliyyatın işlənmiş qazı havanı korlamış, hətta daş heykəlin aşılanmasına təsir etmişdir.

### İlk gəmini kimlər ixtira etmişlər?

5000 il əvvəl misirlilər Onlar Nil çayının sahillərində bitən papirus ağacının budaqlarını bir neçə qat sıx şəkildə hörərək gəminin gövdəsini düzəltmişlər. Bu ilk gəmilər bir dor ağaclı olmuşlar.



# YUNANISTAN






### Dünyanın "yeddi möcüzəsi" ifadəsi haradan və nə zaman yaranmışdı?

Qədim yunanlar dənizlərdə səyahət etməyi xoşlasalar da, onlar Aralıq dənizi hövzəsindən kənara çıxmamışlar. Aralıq dənizi sahillərindəki ölkələrdə gördükləri möhtəşəm abidələrin sayının yeddi olduğunu güman edib onları dünyanın "yeddi möcüzəsi" adlandırmışlar. Onlar yunanların fikrincə bunlardır: Misir ehramları, Halikarnas məqbərəsi, Rodos nəhəngi, İskəndəriyyə mayakı, Artemidanın məbədi, Olimpli Yupiterin heykəli və Semiramidanın asma bağları. Halbuki, dünyada onlarca belə "yeddi möcüzə"lər var.

### Akropol nə deməkdir?

Akropol iki yunan akros-yuxarı, polis-şəhər sözünün birləşməsindən əmələ gəlmişdir. Akropol Afinanın hündür yerində salınmış qədim istehkam, məbədlər, abidələr, heykəllər şəhəridir. Bura Afinanın hər yerindən görünür. Akropolun ən uca yerində məşhur heykəltəraş Fidiyin düzəltdiyi Afinanın əlləri fil sümüyündən, paltarı və saçları xalis qızıldan heykəli ucalır. Onun solunda Parfenon (qız deməkdir) məbədinin sütunları göz oxşayır.

Afina Akropolu eradan əvvəl V əsrdə yaradılmışdır. Akropol ansanblını Erexteyon, Niki və başqa məbədlər, tikililər, heykəllər tamamlayır.

Vaxtı ilə müharibələr zamanı mühafizə istehkamına çevrilən Akropolda muzey və arxeoloji qoruq yaradılmışdır.

### İlk muzeylər harada yaradılmışdır?

İlk muzeylər eradan əvvəl XVI əsrdə Krit adasında, eradan əvvəl XV-XII əsrlərdə Çində, eradan əvvəl VII əsrdə Nineviyada, Yunanıstan və Romada yaradılmışdır.

Onu da əlavə edək ki, hazırda dünyanın hər yerində müxtəlif profilli muzeylər vardır. Onların sayı 80000-dən çoxdur.

### Yunanıstanın allahları və ilahələri

Poseydon Zevs Aid Gera Artemida Apollon Afina Afrodita







### Tarixin atası kim sayılır?

Herodot. Dünya miqyasında tanınmış qədim yunan tarixçisi Herodot eramızdan əvvəl təxminən 490-480-ci illər arasında kiçik Asiyanın cənub-qərbi Halikarnasda anadan olmuşdur. Haqsızlığa, tiranlığa dözməyən bu elm fədaisi Halikarnası tərk edərək bir müddət Samos adasında yaşamış qonşu ölkələrə səyahət etmiş, Misiri, Finikiyanı, Babilistanı, Qara dənizin sahillərini gəzmiş, uzun müddət Afinada yaşamış. "Tarix" adlı məşhur əsərini yazmışdır. Bu əsərdə Azərbaycana da aid maraqlı faktlar vardır.

Roma hüquqşünası, yazıçısı Mark Tulli Siseron Herodotu tarixin atası adlandırmışdır.

### "Dövləti filosoflar idarə etməlidir" fikrini hansı qədim alim iddia edirdi?

Qədim yunan filosofu Platon. Platon eradan əvvəl 428-ci ildə Afinada anadan olmuş, 348-ci ildə doğma yurdu Afinada da dünyasını dəyişmişdir. Kratilindən və Sokratdan təlim görmüş bu məşhur müdrik insan tarixdə özünəməxsus iz qoymuşdur. O, ilk akademiyanın yaradıcısı, 30 dialoq və məktub adı ilə məşhur olan fəlsəfi əsərlərin müəllifidir. Şərq aləmində Əflatun kimi tanınan Platona görə ideyalar ilkindir, materiya isə törəmədir. Bax, buna görə də onu idealist filosof adlandırırlar.

### Hippokrat kim idi? Nə üçün tibb təhsili almış məzunlar Hippokrat andı içirlər?

Təbabətin atası hesab olunan Hippokrat miladdan əvvəl V əsrdə yaşamış, Yunanıstanın ən böyük təbib alimlərindən olmuşdur. O, eradan əvvəl 460-cı ildə Kos adasında anadan olmuş, eradan əvvəl 377-ci ildə Fessaliya şəhərində vəfat etmişdir. Tibb təhsilini atası Heraklitdən almış Hippokrat tibb elmini məbəd təbabətindən ayırmış, onu dünyəvi elm və fənn kimi inkişaf etdirmişdir. O, təbabət coğrafiyasının əsasını qoymuş, xəstəlikləri törədən amilləri öyrənmiş, diaqnostika məsələlərini aydınlaşdırmış, bir cərrah kimi də məşhur olmuşdur.

Həkimin mənəvi davranış normalarını ali məqsəd kimi irəli sürmüş Hippokratın şərəfinə "Hippokrat andı" meydana çıxmış, bütün ölkələrdə tibb təhsili alan məzunlar bu anda sadiq qalacaqlarına and içirlər.

### Horoskop nədir?

Yunan sözü olan Horoskopun mənası vaxtı müşahidə edən deməkdir. Horoskop orta əsrlərdə münəccimlərin insan anadan olarkən onun taleyini gələcəyini qabaqcadan söyləmək üçün tərtib etdikləri ulduzların düzülüşü cədvəlidir. Buna el arasında ulduz falı da deyilir.

### Rodos nəhəngi nədir?

Rodos Aralıq dənizinin Şərq hissəsində bir adadır. Burada Rodos adında liman şəhər də vardır. Rodos sözü yunanca gül deməkdir. Təbiət gözəlliyi ilə yanaşı qədim yunanlar öz incəsənət abidələri ilə bura sığal vurmuş, adanı daha da yaraşıqlı etmişlər. Eramızdan əvvəl III əsrin sonlarında burada gözəl heykəltəraşlıq məktəbi yaranmışdı. Dünyanın ilk ən istedadlı heykəltəraşlarının yurdu olan Rodosda onlar çoxlu heykəllər yaratmışlar. Onların arasında eramızdan əvvəl 292-280-ci illərdə qədim yunanların Günəş allahı Heliosun şərəfinə ucaldılmış nəhəng tunc heykəldir. Bu heykəl o qədər gözəl o qədər əzəmətli idi ki, görənlər heyrətə gələrək onu möcüzə adlandırmışlar. Ustad sənətkarların yaratdıqları sənət möcüzəsi

### İlk teatr harada tikilmişdir?

Qədim Yunanıstanda ən qədimisi Afinada Dionis teatrıdır. Bu ilk sənət ocağı açıq havada, amfiteatr şəklində olub, daşdan tikilmişdir. Onun 2300 ildən çox yaşı vardır. Teatrın ortasında olan dairədə "Orxestre" adlanan xor oxuyanlar üzü səhnəyə tərəf dururdular. Adamlar daş plitələrin üstündə oturub tamaşaya baxırdılar. Bu teatr 1400 nəfərədək tamaşaçı tuturdu.

Demetra Dionis Hefest Hermes Ares Raiyyət





Sezarın qətli



Kolizey

### Yuli Sezarın qatilləri kimlər olmuşdur?

Tarixdə qulların qiyamı kimi məşhur olan Spartak üsyanı (e.ə. 74-71-ci illər) yatırıldıqdan sonra Roma sərkərdələri M. Krass, Q.Pompey və Yuli Sezar (e.ə. 100-44-cı illər) hakimiyyəti ələ almaq uçün mübarizəyə başlamışdılar. Adlı-sanlı Patrisi nəslindən olan Y.Sezar sadə xalq kütlələrinə arxalanaraq tezliklə şöhrətləndi. Hakimiyyət uğrunda mübarizədə qələbələr qazandı. Kras məğlub oldu. Y. Sezarın nüfuzu getdikcə daha da artdı. O. Qalıyadan Romaya hücum çəkib Pompeyin və onun siyasi müttəfiqlərini darmadağın edib hakimiyyətə sahib oldu. Pompey Balkan yarımadasına qaçdı. Senat Y.Sezarı ömrünün axırına kimi mütləq hakim elan etdi. Gözəl sikkələrin üstündə Sezarın şəkli həkk edildi, heykəli ucaldıldı... Y.Sezarın dövründə Roma respublikası daha da gücləndi. Qərbi Avropanın böyük hissəsi bu dövlətin tərkibinə qatıldı. Romanın gözəl dövrü başlandı. Ancaq Senatda Sezarın gizli düşmənləri də vardı. Onlar Y.Sezarın Brut kimi dostlarını da ələ alıb, sui-qəsdlə hökmdarı qətlə yetirdilər. Respublikanı xilas etmək üçün tərəfdarları Y.Sezarın oğulluğa götürdüyü bacısının nəvəsi gənc Oktavianı hakimiyyətə gətirdilər. O, Y.Sezarın qatilləri Brutu və Kassini məğlub edib, Pompey ilə müharibədə (e.ə. 36-cı ildə) qələbə çaldı. Aksi vuruşmasında Antoni və VII Kleopatriyaya qalib gəldi, Misiri Romanın əyalətinə çevirdi. Misirdən qayıdandan sonra Senat onu Avqust adı ilə şərəfləndirdi (Avqust latınca müqəddəs deməkdir). Avqust Oktavianın vaxtında İspaniyanın Şimal-qərbı, Dunay çayı boyu ərazilər Roma dövlətinə qatıldı və o imperiya adlanmağa başlandı.

### Qladiatorlar kimlər idilər?

Qədim Romada amfiteatr səhnələrində bir-biri ilə və ya heyvanlarla silahlı döyüş üçün xüsusi təlim keçmiş qullar, hərbi əsrlər, məhkum edilmiş cinayətkarlar və b. şəxslərə qladiatorlar deyirdilər. Qladiatorlar Roma, Kapuya və s. şəhərlərdə sərt rejimli xüsusi məktəblərdə öyrədilirdi. Bu vəhşi oyundan, əyləncədən məqsəd "Çörək və tamaşa" istəyən plebeyləri əyləndirmək idi. Bu döyüşlər çox zaman qladiatorların ölümü ilə nəticələnirdi. Eramızdan əvvəl 74-71-ci illərdə qullar üsyanına rəhbərlik etmiş Spartak da qladiator olmuşdur. V əsrdən sonra qladiatorların döyüşləri dayandırılmışdır (ASE.1874-c.III.s 179).

### Qədim Avropa sivilizasiyasının inkişafında romalıların rolunu necə qiymətləndirmək olar?

Çox gözəl.Təkcə bunu qeyd etmək olar ki, Roma imperiyasının sükutundan sonra şəhər salmaq mədəniyyəti, memarlıq, elm, incəsənət, ədəbiyyat və s. sahələrdə Roma səviyyəsinə çatmaq üçün Avropa xalqlarına azı daha min il vaxt lazım olmuşdur. Qədim yunan və etruski mədəniyyətindən bəhrələnmiş romalılar hələ yeni eradan xeyli əvvəl gücIə dövlət qurmuş, bütün Apenin yarımadasında öz təsirini göstərmiş, Karfogen üzərində qələbələrdən sonra Aralıq dənizində hegomonluğu əllərinə almış, qüdrətli Roma imperiyasının əsasını qoymuşlar.





# TÜRK DÜNYASINDAN SORAQLAR



### Türk xalqlarının minilliklərdən xəbər verən tarixində və çağdaş dünyamızda nə qədər dövlətləri olub?

Uzaq Kamçatkadan, Sibirdən, Altay və Ural dağlarından başlayaraq Qərbi Avropanın mərkəzinə, qədim dunyanın sivilizasiyasının ilk beşiyi olan şumerlərə, Mesopotamiya ovalığına qədər ucsuz-bucaqsız ərazilərdə məskunlaşmış, ölkələr fəth etmiş, tarixə qəhrəmanlıq səhifələri yazmış türklərin keçmişdə və indi müxtəlif adlarda çoxlu dövləti olmuş və hazırda da vardır. Bunu onların bayraqları da sübut edir.

### Qədim türk dövlətlərinin bayraqları



Böyük Hun Dövləti



Qərbi Hun Dövləti



Avropa Hunları



Ağ Hunları



Qaraxanlılar



Qəznəlilər



Səlcuk Dövləti



Xərəzmşahlar



Göytürklər



Avarlar



Xəzər Xaqanlığı



Uyğur Dövləti



Altınordu Dövləti



Teymur İmperatorluğu



Babur Dövləti



Osmanlı İmperatorluğu

### Hunlar haqqında nə eşitmisiniz? Onlar tarixdə nə kimi rol oynamışlar?

Hun tayfa birlikləri eramızdan əvvəl III əsrdə təşəkkül tapmışlar. O zaman onların yayıldıqları ərazilər Baykal gölündən Tibet yaylasına, Orta Asiyadan Xuanxeyədək uzanırdı. Hunlar qədim türklərin böyük bir qoludur.

E.ə. I əsrdə Böyük Hun dövləti Şərqi və Qərbi Hun dövlətlərinə ayrılmışdı. Qərbi hunlar Orta Asiyada məskunlaşmışdılar. Onların tərkibinə monqollar, uyqurlar, saklar, massaketlər və b. türk tayfaları daxil idilər.

II əsrdə Qərbi hunlar "qardaş davaları" və müharibələr nəticəsində Asiyadakı torpaqlarını qoyub qərbə doğru hərəkət etdilər. Bu, köçün başlanğıcı oldu. Onlar Balamir xaqanın başçılığı ilə Ural dağlarını İdil (Volqa) çayını keçib, Dnepr çayınadək ərazilərə yayıldılar. Bu geniş ərazidə hunlar peçeneqlərlə, bulqarlarla, qıpçaklarla və başqa türk tayfaları ilə ittifaq yaradıb ildırım sürətilə Avropaya üz tutdular.

Balamir xaqanın qoşunları almanların əcdadları - ostraqot, viziqot və vandalları qabağına qataraq, onları Avropanın içərilərinə qədər qovdular. Beləliklə dünya tarixinin "xalqlar köçü" hərəkətə gəldi. Avropanın bugünkü etnik quruluşu ortaya çıxdı.

Balamir xaqanın hücumları Roma imperiyasını lərzəyə saldı. Bu qüdrətli dövlətin süqutu başlandı. İmperiya Roma və Bizans dövlətlərinə parçalandı. Hunların Avropaya azad fikir, sərbəst həyat, qayda-qanun gətirmələri bu qitənin gələcək taleyində böyük rol oynadı.

### Hunların əfsanəvi qəhrəmanı, böyük sərkərdəsi Atilla Avropa xalqlarına nə gətirdi?

Balamir xaqandan sonra Hun imperiyasının Yıldız xan, daha sonra Rua, Muncuq, Aybars və Oktar qardaşlar dövrü başladı. Atilla əmisi Ruanın yanında yetişmiş, güclü igidə dönmüşdü. Ruadan sonra Hun imperiyasının başçısı Atilla oldu.

Türk adət-ənənəsinə, həyat tərzinə görə Atillanın rəhbərliyində din və vicdan azadlığı vardı.

Atilla Avropa xalqlarına azadlığın nə olduğunu anlatdı, onları quldarların çəngindən azad etdi. Ona görə də zülm, əsarət məngənəsində boğulan xalqlar Atillaya qoşuldular. Atillanın gücü, qüdrəti Roma və Bizans imperatorlarını elə qorxutmuşdu ki, Atillanın qarşısında baş əyməli olmuşdular.

Atilla eyni zamanda türkün tarixində qəhrəmanlıq epopeyası yaratdı. O, Altay dağlarından başlanan böyük xalqlar köçünü başa çatdırdı. Avropanın qapılarını türkün üzünə açdı. Türkün nəyə qadir olduğunu - qüdrətini, gücünü, mədəniyyətini, mənəvi-əxlaqi dəyərlərini Avropaya anlatdı.

Avropalılar Atillanı "Tanrının pisliklər üstünə enən qırmacı" adlandırmışdılar.

Mövlud Uluğtəkin Yılmaz bu haqda obrazlı şəkildə yazırdı: "Atilla Asiyanın Avropada əsən bir açıqlıq küləyi idi. Tərtəmiz bir açıqlıq, çöl küləyi..."

Atilla Avropanı elə dərindən təsirləndirmişdi ki, bu gün uzaq İslandiya adasında belə onun həyatı dastanlarda xatırlanır. Atilla Avropanı hakimiyyəti altına alandan sonra öz ordularını Asiyaya doğru yönəltdiyi bir vaxtda, 60 yaşında vəfat etdi.

### Bəs onun özünün və yaratdığı böyük imperiyanın taleyi necə oldu?

Atilla nə böyük Roma, nə də Avropanın birləşmiş qoşunları qarşısında sarsılmadı, o döyüşdə deyil, 453-cü ildə Roma casuslarının hazırladığı hiylə, sui-qəsd, bir gözəl xanımın əlindən içdiyi zəhər nəticəsində gözlərini əbədi yumdu. Bu qüdrətli sərkərdənin ölümündən sonra elə bil böyük dağ parçalandı, ovulub aləmə töküldü. Hun imperiyası da beləcə dağıldı. Onun yurdunda qalmış oğulları, qızları da bu dağılmaq qarşısında heç nə edə bilmədilər. Çünki başlanan tayfa, qəbilə çəkişmələri, xarici qüvvələrin fitnə-fəsadları imperiyanın xırda dövlətlərə parçalanmasına gətirib çıxardı. Tarixçi Murad Adjinin dediyi kimi "bu qırıntılardan burqundların, çexlərin, xorvatların, bavarların, saksonların, kataloniyalıların, serblərin, bolqarların və b. "kiçik xalqları"nın tarixi başlandı (Murad Adji, "Evropa, törki, Великая Степь", M. 1998, səh.23).

### Hunlar Azərbaycana nə vaxt ayaq basmışlar?

Hunlar IV əsrin 70-ci illərində Şimali Qafqazda alanları məğlub edib Don çayını və Kerç boğazını keçib Qara dənizin sahillərinə çıxdılar. 395-ci ildə hunlar Qafqaz dağlarının Dəryal keçidindən hərəkət edib Güney Qafqaza, Azərbaycana, oradan da Kiçik Asiyaya və Suriyaya qədər yürüş etdilər.

Hun imperiyasında adı çəkilən bir çox tayfalar qədim dövrdən ön Qafqaz ölkələrinin sakinləri olmuşlar. Onlar Azərbaycan xalqının etnogenezində tarixi rol oynamışlar.





### Asiya ilə Avropa arasında ilk ticarət əlaqələri və böyük İpək yolunu kimlər açmışlar?

Qədim türklər. Onlar birinci minilliyin əvvəllərində Asiyada eftalitləri və Şimali Çin dövlətini məğlub etdikdən, öz iqtisadi və siyasi mövqeyini möhkəmlətdikdən sonra Asiya ilə Avropa arasında böyük ipək yolunun açılmasına şərait yaratmışlar. Bu keçmiş böyük karvan yolu türklərin əlində olmuşdur. Bu, o demək idi ki, Çin ipəyi artıq neçə-neçə xalqın həyatına, məişətinə daxil olurdu. Uzaq Şərqi Çin dənizindən Aralıq dənizinə, Romaya qədər uzanan və bir neçə qola ayrılan bu ipək yolu - mədəniyyət, dirçəliş yolu uca dağ yamaclarından, gur axan çaylardan, ucsuz-bucaqsız çöllərdən keçirdi... Minlərlə kilometr bu üzüntülü, çətin yolu qət etmək üçün 200-250 gün tələb olunurdu.

İranda, Turanda, Avropada çin ipəyi ən qiymətli məhsul hesab edilirdi.

Bizans - Şərqi Roma imperatorluğunda ipək hətta qızıla bərabər tutulurdu. İpək parçadan geyimlər, baş örtükləri, hətta dövlət bayraqları hazırlamaq dəb halına keçmişdi. Bu işdə türklər xüsusilə fərqlənirdilər. Lakin ipək parça hamıya müəssər olmurdu. İpəkdən ən çox saray xanımları, əyanlar, dövləti adamlar istifadə edirdilər.



### Beş hissədən ibarət ilk tibb ensiklopediyasını kim yaratmışdır?



Bu monumental abidə qoca, müdrik Şərqin, eləcə də dünyanın dahi loğmanı İbn Sinaya məxsusdur.

İbn Sina Əbu Əli Hüseyn ibn Abdullah (980-1037) Özbəkistanın Buxara şəhəri yaxınlığında Əfşanək kəndində anadan olmuşdur. O, hələ uşaq yaşlarında dünyəvi elmlər haqqında güclü təfəkkürə malik idi. Göydəki bütün bürcləri, ulduzları tanıyırdı. 12 yaşlı bu ağıllı uşağı Buxarada hamı qanunların ən yaxşı bilicisi sayırdı. Min il əvvəl dünyaya göz açan bu müdrik uşaq tezliklə bütün Şərqin və dünyanın ən adlı-sanlı alimi kimi tanındı. Fəlsəfə, ədəbiyyat, astronomiya, xüsusilə təbabət sahəsində kəşflər etdi, insanların sağlamlığı işində çalışdı. "Tibb elminin qanunu" əsərini yazdı. Bu böyük elmi əsər latın dilinə tərcümə olunub Avropaya bir dərslik kimi yayıldı. Dünya təbibləri bir çox məsələləri ondan öyrənməyə başladılar. Adını Avisenna deyə çağırdılar. Onun bu əsəri və beş hissədən ibarət tibb ensiklopediyası bir çox dillərə tərcümə olundu. İbn Sina "Müalicə elmi kitabı", "Danişnamə" (Bilik kitabı), "Məntiq", "Kitab ün-Nicat" kimi mötəbər elmi əsərlər yazıb dünya elmi xəzinəsinə bəxş etdi.

İbn Sinanın 250-dən artıq əsəri qalmışdır ki, bu gün də istifadə olunur. İbn Sina 1037-ci ildə Həmədanda dəfn olunmuşdur. Həmədanda (1957) və Buxarada (1975) İbn Sinaya abidə ucaldılmışdır. Buxaradakı abidəni Azərbaycan heykəltəraşı Fuad Əbdürrəhmanov düzəltmişdir.

### Böyük Moğollar sülaləsinin banisi Babur rəssamlara nə göstəriş vermişdi?



Kabildən Benqal ərazisinədək böyük bir imperiyanın hökmdarı, şair, dünya ədəbiyyatının nadir incilərindən məşhur "Baburnamə" əsərinin müəllifi Babur Zahirəddin Məhəmməd (1483-1530) bir gün rəssamları yanına çağırtdırıb, onlara göstəriş vermişdi ki, onun yeni imperiyasında olan quşların və heyvanların şəkillərini çəksinlər. Ölkədə rəssamlığa verilən bu diqqət Baburun sələfləri tərəfindən də davam etdirilmişdir. 1605-1627-ci illərdə bu ölkəyə başçılıq etmiş Cahangir şahın sevimli rəssamı Mənsur quşları və çiçəkləri beləcə gözəl, təbiətdə olduğu kimi çəkmişdir. Həmin rəsm o dövrdə rəssamlıq sənətinin necə inkişaf etdiyini göstərir.

### Əmir Teymur kim idi? Tarix onun haqqında hansı izləri saxlamışdır?

Əmir Teymur türk dünyasının yetirdiyi qüdrətli cahangir idi. O tarixdə fateh kimi, yıxıb-dağıdan, məhv edən bir şəxs, bir dövlət başçısı kimi qalmışdır. Əmir Teymur on beş il ərzində 35 müharibə aparmış, 27 iri-xırdalı ölkəni özünə tabe etmişdir. Deyilənlərə görə meyidlərin kəllələrindən təpə yaratmışdır. O, böyük Osmanlı Sultanı İldırım Bəyazid kimi qüdrətli hökmdarı məğlub etmişdi.

Teymur-Teymurləng, Tamerlan kimi soyadlarla tarixdə dərin iz qoymuş, özünəməxsus keyfiyyətləri ilə fərqlənən bu böyük şəxsiyyət 1336-cı ildə Özbəkistanın Səbz şəhərinin yaxınlığında, Xoca İlqar kəndində Barlas qəbiləsindən Turzay (Toraqay) soyadlı kiçik bir feodal ailəsində anadan olmuşdur. Buna görə də özünü Cığatay xanın (Çingiz xanın oğlu) varisi elan etmiş, özünün dediyi kimi "Allah məni bu dünyanın hakimi etmişdir" əqidəsi ilə o, hakimlik uğrunda mübarizə apararkən döyüşdə ayağından və sağ qolundan yaralanmış (1362). Böyük Əmir titulu qazanmışdır (1370). Əmir Teymur az vaxtda Türküstanı, Güney Qafqazı, İranı, Bağdadı, Hindistanı və başqa ölkələri fəth etmiş. 1405-ci ildə Çinə hücum zamanı yolda 71 yaşında ölmüşdür. Qəbri Səmərqənd şəhərindədir.

Əmir Teymur haqqında, onun hərbi yürüşləri barəsində çox yazılıb, çox mülahizələr söylənilib. Məşhur şərqşünas Bartold 1918-ci ildə "Kultura musulmanstva" əsərində yazır ki, "Əmir Teymurun tikdirdiyi dağıtdıqlarından çox olmuşdur". Bu nadir fenomenin həyatını, fəlsəfi fikirlərini, əməllərini analiz edəndə qəribə hikmətlərlə üzləşirsən. Onun haqqında düzgün təsəvvür əldə etmək üçün böyük tarixi dəyərə malik olan "Əmir Teymurun vəsiyyətləri" (B.1991) kitabını oxumaq kifayətdir. Əmir Teymur fəth etdiyi ölkələrin xalqlarından, müdrik insanlardan, ağsaqqallardan eşitdiyi, öyrəndiyi ibrətli hadisələri, mənəvi-əxlaqi dəyərləri həyatının qayəsi sayaraq, təcrübəsində sınayaraq, özünün dediyi kimi 12 şərt əsasında dövlətçilik fəaliyyətində tətbiq etmişdir. O, ilk növbədə tutduğu ölkələrdə İslam dinini möhkəmlətməyi, 12 təbəqə və tayfadan olan adamlarla səltənətini idarə etməyi qarşısına məqsəd qoymuşdur. Hər hansı bir işi görmək istəyəndə, yeni yürüşlərə, cəngə hazırlaşanda gənəşiyi-məsləhəti, sayıqlığı, ehtiyatlığı lazım bilmişdir. O, möhkəm qanun-qaydası, intizamı olan qüdrətli hakimiyyət mexanizmi yaratmaq üçün əsli-nəcabətli nəsillərdən, igidlikdə ad çıxarmış, ağıllı, tədbirli sərkərdələrdən seçib 313 əmir təyin etmişdir. Vəzifə adamlarını sədaqətli xidmətlərinə görə fəxri adlarla, hədiyyələrlə mükafatlandırmış, rəiyyəti ədalət və insafla razı salmış, alimləri, sənətkarları, tarixçiləri, seyidləri, üləmaları öz ətrafına toplamış, görəcəyi işi əzmkarlıqla, qətiyyətlə axıra çatdırmış, əhalinin vəziyyətilə maraqlanmış, dostluqda sadiqliyi, mərdliyi sevmiş, qohum-əqrabasına, döyüşçülərinə hər yerdə, hər zaman diqqətli olmuşdur (səh. 46-50).

Əmir Teymurun gücü bunda idi, bir də türk əsgərinin rəşadətində, yenilməzliyində, dərin zəkasında və aman verən ürəyində idi. O, nə qədər zülmkar təsir bağışlasa da, qəlbi nəcib, həssas və kövrək idi. O, İldırım Bəyazidi əsir kimi görəndə gözləri yaşarmış, "mən özüm kimi qüdrətli türk dövlətinə əl qaldırmazdım. Bunu mənə türk ölkəsinin içində olan düşmənlərim məcbur etmişdilər" - demişdi.

Əmir Teymur yalanı, hiyləni, oğurluğu, satqınlığı sevməzdi. O, əxlaqı, isməti, mənəviyyatı üstün tuturdu. Deyir ki, cəzalandırdığı adamlar - satqınlar, əyyaşlar, qadın dəllalları, oğrular, tüfeylilərdir. Əmir Teymur qurucu idi. Elmə, mədəniyyətə böyük rəğbəti vardı.

### Türkdilli xalqların ədəbiyyatında ana dilində ilk "Xəmsə"ni kim yazmışdır?

Dahi Özbək şairi və dövlət xadimi Əlişir Nəvai (1441-1501), Herat şəhərində teymurilər sarayına yaxın olan, zadəgan ailəsində dünyaya göz açmış, böyük mütəfəkkir olan bu insan Herat, Məşəd və Səmərqənd şəhərlərində mükəmməl təhsil almış, kiçik yaşlarından özbək və fars dillərində şeirlər yazmış, 15 yaşında artıq şair kimi tanınmışdır. Hüseyn Baykara hakimiyyət başına çıxdıqdan sonra məktəb yoldaşı Əlişir Nəvaini 1468-ci ildə öz sarayına cəlb etmiş, əvvəlcə möhürdar, 1472-ci ildə isə vəzir vəzifəsinə təyin etmişdir. Ə.Nəvai dövrünün alimlərini, yazıçılarını, sənətkarlarını, rəssamlarını, musiqiçilərini himayə etmiş, təhsil, xəstəxana, mədəniyyət ocaqları açmış, yollar çəkdirmiş, körpülər saldırmışdır.



Əlişir Nəvai

Ə.Nəvainin bədii yaradıcılığı çox zəngindir. O, 6 şeir divanı, 5 poemadan ibarət "Xəmsə"nin müəllifidir.





### Hindistanda sədaqət və məhəbbətin ən gözəl rəmzi hansı abidədir?

Tac Mahal. Mumtaz Məhə-Banu Bəyimin (1591-1632) məqbərəsi. Hindistanın Əqrə şəhəri yaxınlığında ucaldılmış bu abidəni ingilislər Tac Mahal adlandırmışlar. Hindistanda Böyük Moğol hökmdarı Cahan şahın sevimli xanımı Mumtaz Mahal Banu Bəyimin 1632-ci ildə vəfatı Cahan şahı çox məyus etdi. O, istəkli xanımının adını əbədiləşdirmək, onu məhəbbət və sədaqət rəmzinə çevirmək istəyi ilə Şərqin 20 min ustasını, memarını, rəssamını Hindistana çağırdı. Abidə üçün Seylondan və Pamirdən firuzə, Çindən nefrit, İrandan aqıq gətirildi. Cahan şahın elçiləri Şirazda və Buxarada, Səmərqənddə və Bağdadda, Şamda və İstanbulda olub ən yaxşı Şərq memarlığının plan və təsvirlərini Əqrəyə gətirdilər. Neçə-neçə layihə nəzərdən keçirildi. Baş memar türk Məhəmməd İsa əfəndinin layihəsi bəyənildi. 18 il bu nadir tikintidə iş getdi. Tikintinin səmərqəndli Məhəmməd Şərif, İstanbullu Xan Rumi, kitabə və bəzək işlərini Şiraz, Lahor, Təbriz, Dəməşq, Bağdad və Buxara ustaları başa çatdırdılar.

Tac Mahal dedikdə yalnız məqbərə binası nəzərdə tutulmur. O kompleksin yalnız mərkəzidir. Şərqin gözəl sənət abidəsi, möcüzəsi olan bu kompleksə həm üzərində məqbərə ucaldılmış platforma, həm onun künclərindəki 4 minarə, həm qırmızı qum daşından tikilmiş məscid və qalereya daxildir. Bu tikililərin hər biri gözəldir. Lakin memar ağ mərmərdən yox, qırmızı qum daşından tikdirmişdir ki, həmin binalar bir qədər kölgədə qalsın, ikinci planda görünsün.

Cahan şah bu gözəl abidəni görəndən sonra özü üçün də belə bir məqbərə tikdirmək istəmişdi. Ancaq qara mərmərdən. Lakin bu, ona müyəssər olmadı. Aramsız müharibələr, ölkədəki iqtisadi vəziyyətin ağırlığı buna mane oldu. Ancaq sonralar Cahan şah da burada dəfn edildi.

Amma Tac Mahal dünyanın ən yaraşıqlı, gözəl sənət abidəsi kimi, türkün öz qadınına ulu məhəbbətinin rəmzi kimi bu gün də insanları heyran edir.



### Mövlana Cəlaləddin Rumi kim idi və insanları nəyə dəvət edirdi?



Mövlana Cəlaləddin Rumi Şərqin müdrik, bilikli, insanpərvər şəxsiyyətlərindən biri olmuşdur.

O, 1207-ci ildə Əfqanıstanda Bəlx şəhərində ilahiyyat alimi ailəsində dünyaya göz açmış, 1273-cü ildə nurlu ömrünü Konyada (Türkiyə) başa vurmuşdu. Uşaq ikən atası ilə Məkkə ziyarətinə getmiş, bir neçə il Nişapur, Dəməşq, Hələb şəhərlərində yaşamış, 1220-ci ildə ailəsilə Konyaya köçmüşdür. O, burada yazıb-yaratmış, sufi təriqətinin görkəmli nümayəndələrindən biri, türk dünyasının dahi şairi, filosofu kimi məşhurlaşmışdır.

UNESCO-nun qərarı ilə 2007-ci il Mövlana Cəlaləddin Rumi ili elan edilmişdir. Bu yaxınlarda 800 illiyini Bakıda bayram etdiyimiz C.Rumi ömrünün axırlarına yaxın "Məsnəviye-mənəvi" adlı poemasını yazmışdır. Böyük mənəvi-əxlaqi humanist dəyərləri əks etdirən bu fəlsəfi poetik əsərdə o, insanları haqqa, ədalətə, sevgiyə, kamilliyə çağırırdı. Dini etiqadından, milli mənsubiyyətindən asılı olmayaraq böyük cəsarətlə müsəlmanları, xristianlar, yəhudiləri, atəşpərəstləri xeyirxahlığa və ümid dərgahına səsləyir, ürəklərin birliyini dil və din birliyindən üstün tuturdu. Müharibəsiz, zülm və əzabsız, ədalətli dünya arzulayırdı. Görkəmli fars şairi Əbdürrəhman Cami bu mənəviyyat xəzinəsinə yüksək qiymət verərək yazırdı ki: Onun məsnəvisi bəzilərinə "Quran" kimi doğru yol göstərir, bəzilərini də səhv yolundan çəkindirirdi.

S.Rumi deyirdi: "Sevgi və şəfqət insanlığın məhək daşıdır". "Məni öləndən sonra torpaqda deyil, bilikli insanların ürəyində axtarın".

### Osmanlı imperiyası nə zaman yaranıb və onun əsasını kim qoyub?



Kiçik Asiyada Antalyanın şimal-qərbində 1299-1300-cü illərdə türk bəylərinin mülkündə qazı Ərtoğrul bəydən irs qalmış torpaqlarında onun oğlu qazı I Osman gələcək böyük Osmanlı imperiyasının əsasını qoymuşdur. I Osmandan başlanan sülalə 1922-ci ilədək düz 722 il bu imperiyaya başçılıq etmişdir. Qərbdə Adriatik dənizinin sahillərindən Qafqazadək, cənub şərqdə İran körfəzinədək, Aralıq, Qara və Qırmızı dənizlərin sahillərini, Afrikanın şimal ərazilərini əhatə edən nəhəng imperiyanın böyük qəhrəmanlıq tarixi vardır. Qüdrətli Şərqi Roma imperiyasının varisi Bizans dövlətini diz çökdürmüş Osmanlı türkləri Avropanın mərkəzinədək gedib çıxmış, Balkan yarımadasını fəth etmişdilər. 1402-ci ildə Şərqdə daha bir cahangirin - Əmir Teymurun qoşunlarının Anadolu istiqamətində hücumları, bu savaşda Sultan I Bəyazidin (1389-1404) məğlub olması Osmanlı qoşunlarının Avropa üzərinə həmlələrini müvəqqəti olaraq dayandırmışdı.

1453-cü ildə əzəmətli Konstantinopol Sultan II Mehmet (1451-1481) tərəfindən tutuldu. Bu parlaq zəfərə görə o, "Fateh Mehmed" adını qazandı. "Fateh Mehmed" alim və şair olmuşdu. Altı dil bilirdi. O, Konstantinopolun adını dəyişib İstanbul qoymuş və onu imperiyanın paytaxtı elan etmişdi.

### Osmanlı imperiyasının ən çiçəklənmə - qızıl dövrü nə vaxt olub?



Osmanlı imperiyasının qızıl əsri I Süleymanın hakimiyyəti dövründə olmuşdur. Sultan I Süleyman (1520-1586) Osmanlı imperiyasının hüdudlarını daha da genişləndirmiş, Afrikanın Şimal ərazilərini tutmuş, 1526 və 1529-cu illərdə Balkanlarda Moxaça döyüşlərində macarlar üzərində qələbə çalmış, Vyananı fəth etmişdi. Amma tarixi sənədlərdən məlum olduğu kimi, o, müharibəni sevmirdi. I Süleymanın müttəfiqi fransızlar onu "Əzəmətli hökmdar" adlandırmışdılar. O, bu şərəfi həyata keçirdiyi xeyriyyəçilik və mədəni işləri ilə qazanmışdı. I Süleyman İstanbulda yeni memarlıq üslubunda ictimai binalar, məscidlər ucaltdırmışdır. O, Osmanlı sultanları arasında ilk sultandır ki, İstanbulda Topqapıda özünə daimi saray tikdirmişdi. El arasında "Qanunlar verən", "Qanuni" kimi şərəfli adlar qazanmışdı. Əkinçiliyə, təhsilə aid islahatlar aparmış, imperiya sistemində bir sıra dəyişikliklər etmişdir.

İmperiya I Süleymanın ölümündən sonra zəifləməyə, XVIII əsrdə dağılmağa başlamış, Birinci Dünya müharibəsində süqut etmişdi.



Türkiyədə gəzməli, görməli tarixi yerlər çoxdur







Türkiyə

Hazırda çağdaş dünyamızda bayraqları dalğalanan bu dövlətlər var.



Azərbaycan



Qazaxıstan



Özbəkistan



Qırğızıstan



Türkmənistan



Kipr

### Türk Muxtar Cümhuriyyətləri



Tatarstan



Başkırdıstan



Saha (Yakutistan)



Krım türkləri



Tuva



Çeçenistan



Hakasiya



Çuvaş

### Səmərqəndin neçə yaşı var?



Zərəfşan çayının sahilində minarələri, gumbəzləri, qədim tağlı sarayları ucalan, firuzə rəngində bərq vuran ulu Səmərqənd qədim dunyanın ən gozəl şəhəridir. Şərq mədəniyyətini, incəsənətini ayanı surətdə əks etdirən, yuksək memarlıq abidələrinin çoxluğu, rəngarəngliyi ilə seçilən bu qədim şəhərin azı 2500 il tarixi vardır. İran, ərəb, bizans, Çin, hind şairləri, səyyahları, alimləri oz əsərlərində "Yerin bəzəyi", "Qoca Şərqin tacı", "İslam dünyasının qiymətli mirvarisi", "Şərqin Roması", "Ruzu-zəmin" - deyə vəsf etmişlər.

Bu qədim, gozəl şəhərin başına nələr gəlməmişdir?! Eramızdan əvvəl IV əsrdən ta eramızın VI yüzilliyinə qədər bura min il ərzində Soqd dövlətinin paytaxtı olub. Sonra türk xaqanlığı ona Marakanda deyib. Eramızın 329-cu ilində Makedoniyalı İskəndər, VII əsrdə ərəblər onu işğal etmişlər. IX-X əsrlərdə Samanilər, XI əsrdə Qaraxanilər, sonra Səlcuqılar, XII əsrdə qara kitaylar, XIII əsrdə Xarəzmşahlar, XIV əsrin sonu - XV əsrin əvvəllərində Əmir Teymur burada hakimlik etmişlər.

XVI əsrin sonundan Səmərqənd Buxara xanlığının ixtiyarında olub. 1868-ci ildə isə Rus imperiyası Səmərqəndi işğal etmişdir.

Hazırda Səmərqənd müstəqil Özbəkistanın məşhur muzey şəhəridir.

### Səmərqənd kimin vaxtında inkişaf etmiş, gözəlləşmişdir?

Əmir Teymurun vaxtında. Türk tarixində böyük fateh kimi tanınan Teymur 1370-ci ildə hakimiyyəti alınə alan kimi Səmərqəndi özünün paytaxtı elan etdi.

O, öz paytaxtını dirçəltmək üçün zəbt etdiyi ölkələrin memarlarını, alimlərini, şairlərini, bir sözlə müdrik insanlarını Səmərqəndə toplamışdır. Onun fikrincə Səmərqənd dünyanın ən böyük, əzəmətli və yaraşıqlı şəhəri olmalıydı. Belə də olmuşdur. Səmərqənd Şərqin ən böyük elm, mədəniyyət, incəsənət mərkəzinə çevrilmişdi. Burada "Şahı Zində", "Bibixanım", "Qur Əmir", "Runabad", "Ağsaray", "Reqistan meydanı kompleksi" və s. onlarla abidələr, məqbərələr, məscidlər, mədrəsələr, Uluq bəyin rəsədxanası inşa edilmişdir. Bu nadir sənət incilərində Azərbaycan memarlarının, nəqqaşlarının da böyük rolu olmuşdur.



### Dehlinin qədim adı necə idi?

Tarix boyu avropalıların öyrənməyə can atdıqları möcüzələr və sirlər ölkəsi Hindistanın bir çox şəhərləri uzaq keçmişdən xəbər verir. Onlardan biri də Dehli şəhəridir. Əfsanələri, rəvayətləri özündə toplayan məşhur Qanq çayının sağ qolu olan Cama çayının sahilində ucalan, böyük hind xalqının şan-şöhrətli paytaxtı Dehlinin tarixi uzaq keçmişlərə gedib çıxır. Qədimdə onun adı İndraprastha olmuşdur. 736-cı ildə bu qədim yaşayış yerinin yaxınlığında Dhillika şəhəri salındıqdan sonra bu günkü Dehli əmələ gəlmişdir. Dehli şəhərinin adı neçə dəfə dəyişdirilib. Deyilənlərə görə, bu şəhərin adını Dihlu adlı bir hökmdar qoyub. IX əsrdə yerli hakim Anaşqapal yeni şəhər tikdirib, onu Anaşqapalpur ("pur" - qaqa - şəhər deməkdir). Sonralar şəhər "Lal", "Cəvahir" mənasında Pithauraçarp adlanmış, 1303-cü ildə müsəlman hakimi Ələddin bu şəhərə kövşək - Silhi - Alay adını vermiş. 1321-ci ildə Tihlaq adlı bir şəxs şəhəri öz adı ilə Tihlaqabad adlandırmışdır və s.

Dehli 1206-cı ildə Dehli sultanlığının, 1526-cı ildə Böyük Moğolların paytaxtı elan edilmişdir.

1803-cü ildə İngilislər Hindistan ərazisinə qədəm qoyanda bu şəhərin yaxınlığında Nyu-Dehli adlı şəhər salmış və Dehli öz qədim adına qayıda bilmişdir.

Sonrakı əsrlərdə də onun başına müsibətlər gəlmiş, lakin o, qəddini düzəldərək müstəqil ölkənin paytaxtına çevrilmiş və xeyli inkişaf etmişdir.





### Yaxın Şərqin böyük mədəniyyət mərkəzlərindən biri olan Bağdad şəhərinin əsasını kim qoymuşdur?

Bağdad ərəb dünyasının ən gözəl, zəngin, tarix boyu böyük və əfsanəvi mərkəzlərindən biri olub. Əsasını 762-ci ildə Abbasilərin xəlifəsi Mənsur əbu Cəfər Abdullah ibn Məhəmməd (707-775) qoymuş, ona Mədinət əs-Səlam (sülh şəhəri) adını vermişdir. Bağdad Abbasilər xilafətinin paytaxtı idi.

Bağdad haqqında çoxlu rəvayətlər var. Azərbaycan səyyahı H.Z.Şirvani belə söyləyirdi ki, bu şəhərin adı "Ənuşirəvan" tərəfindən salınmış bağla əlaqədardır. Rəvayətə görə Dad müqəddəs bir şəxs olub. "Dad bağı" sonralar Bağdad şəklinə düşüb.

Dəclə çayının hər iki sahilində salınmış bu şəhər möhtəşəm Abbasilər dövründə yüksək mədəniyyət, elm, fəlsəfə, fikir, incəsənət mərkəzi kimi inkişaf etmişdir. Burada mədrəsələr, kitabxanalar, rəsədxanalar olmuşdur. Hələ XII əsrdə Xaqani "Bağdadda hara dillidir" deyərkən, burada türk və ərəb dillərinin yanaşı işlədildiyinə işarə etmişdir.

Lakin Bağdadın tarixində qanlı səhifələr də az olmamışdı. Onu 1055-ci ildə Səlcuqlar, 1258-ci ildə monqollar işğal etmiş, XIV əsrin sonu - XV əsrin əvvəllərində Əmir Teymurun qoşunları iki dəfə dağıtmış, XVI-XVII əsrlərdə türklər, farslar işğal etmişlər.

1917-ci ildən bu torpağa ayaq basmış ingilis qoşunları İraq xalqını əsarətdə saxlamaq istəmiş, lakin iraqlılar müstəmləkə zülmünə qarşı uzun illər mübarizə aparmış, yalnız 1958-ci ildə öz müstəqilliyinə nail olmuşdu.

XX yüzilliyin sonunda və XXI əsrin astanasında - 2003-cü ilin baharında ABŞ, İngiltərə dövlətlərinin yaratdıqları koalisiya qoşunları İraqı və onun paytaxtı Bağdadı müasir hərbi texnikanın gücü ilə işğal etmişlər.



### Avropa ilə Asiyanı qovuşduran Bosfor boğazının zümrüd sahillərində ucalan və dünyanın ən gözəl şəhərlərindən biri olan İstanbulun tarixi nə vaxtdan başlanır?

İstanbul şəhəri də bir neçə adla tarixə düşmüşdür. Onun ən qədim adı Vizantdır. Eradan əvvəl 668-ci ildən məlumdur. Eramızın 330-cu ilində imperator Konstantin bu yaşayış yerində ucaltdığı şəhərə Konstantinopol adını vermişdir. Bu o vaxta təsadüf etmişdi ki, Roma imperiyası parçalanmış. Şərqi Roma torpaqları ərazisində Bizans imperiyası yaranmışdı. 1453-cü ildə türklər Bizans dövlətini məğlub etmiş. Konstantinopol Osmanlı imperatorluğunun paytaxtına çevrilmişdir. 1923-cü ildə türk xalqı yadelli işğalçıları məğlub etdikdən sonra keçmiş imperatorluğun yerində Türkiyə Cümhuriyyəti qurmuş, paytaxtı isə 1923-cü ildən Ankaraya köçmüşdür.



### Afrika qitəsində ən böyük şəhər olan Qahirənin əsası nə vaxt qoyulmuş və mənası nə deməkdir?

Mısır Ərəb Respublikasının paytaxtı Qahirənin əsası 969-cu ildə Fatimilər sərkərdəsi Cövhər-əl-Saqalı tərəfindən qoyulmuşdur. Mənası ərəb dilində "qalib" deməkdir. Ərəblər Aralıq dənizi sahilində yadelli işğalçılara qalib gəldikləri üçün bu şəhərə "Misir əl-Qahirə" ("Böyük qalib Mısır") adı vermişlər. 973-1171-ci illərdə Qahirə Fatimilər xilafətinin paytaxtı olub.



# ELM KORİFEYLƏRİ



### Bir çox elmi kəşflərin, o cümlədən meteorologiyanın əsasını kim qoymuşdur?



Aristotel (eradan əvvəl 384-322) Qədim yunan alimi, filosofu, bir çox elmi kəşflərin müəllifi bütün dünyada Aristotel, Şərqdə isə Ərəstun kimi tanınmışdı. Yəqin ki, Nizami Gəncəvinin "İskəndərnamə" əsərində bu dahi insanın adına rast gəlmisiniz?! Aristotel e.ə. 343-335-ci illərdə Makedoniyalı İskəndərin (Aleksandrın) tərbiyəçisi olmuş, 20 il Platonun akademiyasında iştirak etmiş, e.ə. 335-ci ildə Afinada öz məktəbini yaratmış, elmdə bir çox kəşflər etmiş, bir sıra yeni elmlərin, o cümlədən meteorologiyanın əsasını qoymuşdur. Yerin və Ayın kürə şəklində olması haqqında ilk fikir söyləyən, kəşf edənlərdən biri Aristotel idi. O, küləyin və dəniz axınlarının necə əmələ gəlməsini izah etmiş, məntiq elminin əsasını qoymuşdur. Onun fəlsəfə, məntiq, siyasət, tarix, poeziya, ritorika və s. sahələrə aid yazdığı əsərlər dünyada elmi fikirin inkişafına böyük kömək etmişdir.

Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir, əbədi səadət verilmişdir.

*"Qurani-Kərim"dən*

Elm ağlın çırağıdır.

*Azərbaycan atalar sözü*

Bilikli adamın bir günü nadan adamın bütün ömrünə bərabərdir.

*Ərəb atalar sözü*

Həyata layiq olan ziynət elm gövhərdir.

*Azərbaycanın böyük şairi Mirzə Ələkbər Sabir*

### Səkkiz əsrdən artıq dünyada dərs vəsaiti kimi istifadə olunan "Cəbr" (Alqebra) kitabını kim yaratmışdır?

Türk dünyasının dahi alimlərindən biri, Əl-Xarəzmi kimi məşhurlaşmış Əbu Abdulla Məhəmməd ibn Musa.

Şərqin ən görkəmli riyaziyyatçısı, astronomu, coğrafiyaşünası, ensiklopedik alimi Əl-Xarəzmi (780-850) Orta Asiyada, Xivə şəhərində anadan olmuş, Bağdadda təhsil almış, elmin zirvəsinə yüksəlmişdir. O, bir çox elmi əsərlərin, o cümlədən məşhur "Əl-Kitab əl-müxtəsər fi hisab əl-cəbr va-l müqabilə" (cəbr və müqabilənin hesablanması haqqında qısa kitab), "Kitab əl-hisab əl-hind" (hind hesabı haqqında kitab), "Zic", "Kitab sura al-ard" (Yerin mənzərəsi haqqında kitab) əsərlərinin müəllifidir.

XII əsrdə onun "Əl Cəbr" əsəri latın dilinə tərcümə olunmuş və çox sürətlə bütün tədris ocaqlarında təlim edilmişdir. Bütün Avropa bu əsər vasitəsilə, bu gün də istifadə olunan, Hind say sisteminə keçmişdir.

Əl-Xarəzmi Bağdadda xəlifənin kitabxanaçısı olmuş, bu elm xəzinəsindən istifadə edərək yazıb-yaratmış dünya elminə öz qiymətli elmi sərvətini yadigar qoymuşdur. Bu gün geniş istifadə olunan alqoritm sözü Əl-Xarəzmin latınlaşdırılmış adındandır.





### Yerin Günəş ətrafında hərəkət etməsi haqqında Kopernik nəzəriyyəsindən 500 il əvvəl hansı alim fikir söyləmişdir?



Öz müdrikliyi, ensiklopedik biliyi və elmi kəşfləri ilə dünyanı heyran qoyan Əbu-Reyhan Biruni. Şərqin böyük mütəfəkkiri Biruni 973-cü ildə Orta Asiyada, Kat şəhərində anadan olmuş, 1048-ci ildə Qəznə şəhərində vəfat etmişdir. Biruni tarix, etnoqrafiya, coğrafiya, təbiətşünaslıq, riyaziyyat, astronomiya, fizika, minerologiya və s. elm sahələrinə aid 150-dən çox əsər yazmışdır. Müxtəlif şəhərlərin, kəndlərin yerini dəqiq təyin etmək üçün o, diametri 5 metrə yaxın olan qlobus düzəltmişdir. Biruni "Hindistan" adlı əsərində Kopernikdən 500 il əvvəl Yerin Günəş ətrafında hərəkət etməsi haqqında fikir söyləmişdir. Avropada Alborano adı ilə tanınmış Biruni "Astranomiya və ulduzlara dair Məsud cədvəli" əsərində dünyanın bir çox ölkələrinin şəhərləri ilə yanaşı, Azərbaycanın Naxçıvan (Nəşabə), Urmiya, Ərdəbil, Təbriz, Mərənd, Səlmas, Marağa, Bərdə, Beyləqan, Dərbənd, Şirvan, Bakı və b. şəhərlərin coğrafi koordinatlarını, "Farmokologiya" adlı əsərində isə bitki, mineral və heyvan mənşəli 1116 dərmanın elmi izahını vermişdir.

Bu dahi insan haqqında qısa danışmaq mümkün deyildir. Onun həyatı, fəaliyyəti çox maraqlıdır.

### İnsanların kainat haqqında qədim təsəvvürlərini kim alt-üst etdi?

Görkəmli polyak alimi, astronomu, dünyanın heliosentrik sistemi nəzəriyyəsinin banisi Nikolay Kopernik N.Kopernik (1473-1543) Qorun şəhərində anadan olmuş, Krakovda, Balonıyada universitet təhsili almış, elmi-tədqiqat işinə böyük maraq göstərmişdir. O, XV əsrin 90-cı illərində latın və yunan mətnlərindən öyrənmişdi ki, Heraklit (e.ə. 388-315) Yerin hərəkəti, "Çarxın öz oxu ətrafında hərəkəti haqqında" yazmışdı. N.Kopernik bu nəzəri fikrə əsaslanıb Yerin Günəş ətrafında hərəkət etməsi fikrini söyləmişdir. O, bu nəzəriyyəsini 1543-cü ildə ölüm ayağında olanda "Göy qübbəsinin hərəkəti haqqında" kitabında vermişdi. Bu bəşəriyyət tarixində çox mühüm nəzəriyyə olmuş, insanların kainat haqqında bütün təsəvvürlərini alt-üst etmişdir.



N.Kopernikə qədər insanlar elə zənn edirdilər ki, kainatın mərkəzində Yer kürəsidir. Amma həqiqətdə Yer Günəş sistemində kiçik bir planetdir.

N.Kopernikin bu əsəri 1616-cı ildə inkvizisiyanın qərarı ilə qadağan olunmuş və bu qadağa düz 200 il qüvvədə qalmışdır.




### Qalileo Qalileyin kəşfləri nədən ibarət idi? İnkvizisiya onu nəyə məcbur etmişdir?

Qalileo Qaliley (1564-1642) Böyük italyan fiziki, mexaniki, astronom, filosof. Təbiətşünaslığın banilərindən biri N. Kopernikin davamçısı.



Müasir elmi tərəqqinin əsasını qoymuş Q.Qalileyin əsərləri intibah dövrü elminin yüksək mərhələsi olmuşdur. Əgər Kopernik Günəş sisteminin mexanizmini izah etdisə Q.Qaliley Yer kürəsində cismin hərəkətini tədqiq etmişdi. Qaliley hərəkətin nisbiliyi ideyasını irəli sürmüş, hidrostatik tərəzinin layihəsini vermişdi. O,1609-cu ildə üçqat, daha sonra 32 qat böyüdən teleskop qurmuş, bunun vasitəsilə Yupiterin dörd peykini, Ay səthindəki dağları, Günəşin fırlanmasını və ondakı ləkələri, Venera planetinin uzunu kəşf etmişdi.

Q.Qaliley Aristotelin "ideal qübbəsi"ni alt-üst edərək bildirdi ki, Qalaktika küllü miqdarda ulduzlardan ibarətdir. Bu ixtiralarına görə 1611-ci ildə o Roma Akademiyasına üzv seçildi. Bu böyük alimin kəşfləri, elmi əsərləri inkvizisiyanı çox narahat edirdi. 1633-cü ildə o inkvizisiyanın tələbi ilə Romaya çağrılmış, ona qarşı məhkəmə işi qaldırılmışdır. Onu Kopernik təlimindən imtina etməyə məcbur etdilər.

Dörd ildən sonra, 1637-ci ildə Q.Qalileyin gözü kor oldu.

Q.Qaliley həm də musiqiçi, rəssam, kamil ədəbiyyatçı idi.

# KİM? NƏ? NECƏ? HARADA?




**Yer kürəsində ən böyük ada hansıdır?**

Qrenlandiya adası Şimal Buzlu okeanı ilə Atlantik okeanı arasında yerləşən bu böyük adanın sahəsi 2176000 kv.km.-dir. Ərazinin 1834000 kvadrat kilometri buzla örtülüdür. Danimarka dövlətinin ərazisi olan Qrenlandiyanın təbiətinin sərt olmasına görə burada əhalinin 90 faizi yerli eskimoslardır, sayı çox azdır. Qrenlandiya adasını ilk dəfə 875-ci ildə İslandiya dənizçisi Hunbeyri kəşf etmişdir. 982-ci ildə isə bu soyuq ölkəni islandiyalı Eyrik Rauda tədqiq etmiş, adanın cənub sahillərində yaşıllıqlara rast gəldiyi üçün buranı Qrenlandiya adlandırmışdır. Bu, ingilis dilində "yaşıl yer" deməkdir.

**O hansı dənizdir ki, içində bir neçə dəniz var?**

Aralıq dənizi. Bu böyük dəniz təbiətin yaratdığı ən zəngin, gözəl sənət əsəridir. Öz zəngin təbii sərvətləri, mülayim iqlimi, dünyanın hər yeri, dəniz və okeanlarla əlaqəsi olan Aralıq dənizi Avropa, Asiya, Afrika materikləri arasında yerləşir. Onu qərbdə Cəbəllüttariq boğazı, Atlantik okeanı Şərqdə Dardanel boğazı Mərmərə dənizi ilə, Bosfor boğazı Qara dənizlə, Cənub-Şərqdə Süveyş kanalı isə Qırmızı dəniz və Hind okeanı ilə birləşdirir. Qoynunda bir-birindən gözəl və tarixi olan adalar və yarımadalar Aralıq dənizini müxtəlif hövzələrə - Liqur, Tirren, Adriatik, İoni, Egey dənizlərinə ayırır.



**Aralıq dənizində hansı ada dövlətləri var?**

Kipr Respublikası Aralıq dənizinin şərqində yerləşir. Sahəsi 9251 kv.km.-dir. Həmin adanın şimal hissəsində 1975-ci ildə Kipris Türk Cümhuriyyəti yaradılmışdır. İkinci ada dövlət Aralıq dənizin mərkəzi hissəsində Malta, Qotso və bir neçə kiçik adada yerləşən Malta Respublikasıdır. Paytaxtı Valletta şəhəridir.

**İlk qlobusu kim hazırlamışdır və o harada saxlanılır?**

Qlobus latınca kürə deməkdir. Yer səthinin təsviri modelidir. Avropada elm aləmində ilk qlobusun yaradıcısı alman coğrafiyaşünası və səyyahı Martin Böhaym (1459-1507) sayılır. Onun 1492-ci ildə hazırladığı diametri 0,54 metr olan coğrafi qlobus Nurnberq muzeyində saxlanılır.

Lakin bu qlobusdan 226 il əvvəl Marağa rəsədxanasında Nəsrəddin Tusi ilə birlikdə çalışan azərbaycanlı mühəndis Kənməddin Əbubəkr Mahmud oğlu Səlmasının düzəltdiyi cihazlar arasında içiboş yer kürəsi modeli də varmış. Üzərində iqlimlərin təsviri verilmiş bu model dünyada ilk qlobus idi. Təəssüf ki, elm aləmində elə hesab edirlər ki, ilk coğrafi qlobusu Martin Böhaym hazırlamışdır.

Kartoqrafik məzmununa görə qlobuslar müxtəlif olurlar. Ən çox yayılmış qlobuslar fiziki-coğrafi qlobuslardır. Relyefli qlobuslar da hazırlanır.





**Yer kürəsinin təsviri olan qlobuslarda və xəritələrdə planetimiz dərəcələrə bölünmüş meridian və paralellərdən ibarətdir. Bunlar nə üçündür?**

Meridianlar Yer kürəsinə sarınaraq Şimal və Cənub qütb nöqtələrində kəsişirlər. Bütün meridianlar eyni uzunluqdadır. Alimlər Londondakı Qrinviç rəsədxanasından keçən meridianı başlanğıc meridian qəbul etmişlər (00). Meridianların hesabı buradan başlanır. Meridianlar coğrafi uzunluq dairələrini müəyyən edir.

Paralellər Yer kürəsinə kəmər kimi dolanır. Meridianlardan fərqli olaraq onlar bir nöqtədə kəsişmir. Paralellər müxtəlif uzunluqda olur: qütb nöqtələrindən uzaqlaşdıqca paralellər də uzanır. Ən uzun paralel ekvatordur. Onun uzunluğu 40075704 metrdir. Ekvator Şimal və Cənub qütblərindən bərabər məsafədədir. O yer kürəsini Şimal və Cənub yarım kürəsinə bölür. Paralellər Yerin coğrafi en dairələrini müəyyən edir. Ekvatordan Şimalda Yerin Şimal en dairələri, Cənubda isə cənub en dairələri yerləşir.

Uzunluq və en dairələri yerin səthində istənilən nöqtənin vəziyyətini müəyyən edən coğrafi koordinatlardır.



Bütün bunlar insanların həyatı, fəaliyyəti üçün çox lazım olur. Meridianlarla insanlar yer kürəsinin müxtəlif yerlərində saatların vaxtını öyrənirlər. Paralellərlə ekvatordan şimalda və cənubda isti, soyuq, mülayim qurşaqları müəyyən edirlər. Dənizçilikdə, təyyarəçilikdə və s. işlərdə bunların böyük əhəmiyyəti vardır.

**Su altında olan kosmik mənşəli yeganə krater harada və nə zaman əmələ gəlmişdir?**

Ötən əsrin axırlarında Kanada geoloqları maraqlı bir tapıntını aşkar etmişlər. Bu, dünyada su altında olan yeganə kosmik mənşəli kraterdir. Alimlərin fikrincə bu krateri təxminən 50 milyon il əvvəl yer kürəsinə düşmüş kometa və ya asteroid əmələ gətirmişdir. Həmin kosmik "armağanın" diametri 2-3 km.-dir. Həmin hadisə nəticəsində Atlantik okeanının qərbində, Yeni Şotlandiya yarımadasının 200 kilometrliyində diametri 45, dərinliyi 2,7 km. olan sualtı krater əmələ gətirmişdir.

**Dünyada ən isti hava harada qeyd olunub?**

Kaliforniyada, Ölüm dərəsində. 56,70 dərəcə. Şimali Afrikada Tripoli yaxınlığında 58 dərəcə.

**Ən soyuq hava isə harada qeyd olunub?**

Antarktidada, "Vostok" (keçmiş SSRİ) stansiyasında. 88.3 dərəcə.

**Dünyada ən dərin göl hansıdır?**

Baykal gölü. Şərqi Sibirin cənubunda İrkutski vilayəti və Buryat Muxtar Respublika ərazisində 31,5 min kv.km. sahədə yerləşən bu göl dünyada ən dərin göldür. Dərinliyi 1620 metrdir. Qədim türk sözləri "Bay" və "kol" sözlərinin birləşməsindən əmələ gəlmiş "Baykal" şəklini almışdır. "Baykal" böyük göl mənası verir.

**Qafqaz sözünə ilk dəfə harada, kimin əsərində təsadüf edilir?**

Qafqaz sözünə ilk dəfə qədim yunan dramaturqu Esxilin "Zəncirlənmiş Prometey" faciəsində rast gəlirik.

Qafqaz Qara dəniz və Xəzər dənizinin arasında 440000 kv.km. sahədə yerləşən dağlıq ölkədir. Böyük Qafqaz,Kiçik Qafqaz dağ silsilələri və Talış dağlarından ibarətdir. Şimali Qafqaz və Cənubi Qafqaz hissələrində onlarca xalq yaşayır. Müasir Azərbaycan da Cənubi Qafqazda 86,6 min kv.km. sahədə yerləşir.

**Aralıq dənizinin sahillərində hansı dövlətlər vardır?**

Aralıq dənizinin sahillərində 18 dövlət - qərbdə İspaniya, Fransa, Şimalda - İtaliya, Sloveniya, Xorvatiya, Yuqoslaviya (Çernoqoriya), Albaniya, Şərqdə - Yunanıstan, Türkiyə, Cənub-qərbdə - Mərakeş, Əlcəzair, Cənubda - Tunis, Liviya, Misir, Cənub-şərqində - Suriya, Livan, İsrail, Fələstin dövlətləri var.

### Latın əlifbasından hansı ölkələr istifadə edirlər?

Orta əsrlərdən başlayaraq Avropa xalqları, yeni tarixi dövrdə isə Afrika, Amerika və Asiyanın bir sıra xalqları latın əlifbasından istifadə edirlər.

Azərbaycanda hələ XIX əsrin axırlarında M.F.Axundov əlifba layihəsini latın əlifbası əsasında hazırlamışdı. Lakin o vaxt bu layihə qəbul olunmamışdır. Azərbaycanda latın əlifbasına rəsmi keçid 1929-cu ildə olmuş, 1939-cu iladək işlənmişdir. İkinci dəfə Azərbaycan müstəqillik qazanandan sonra Prezident H.Əliyevin Fərmanı ilə 1998-ci ildən latın əlifbasına keçilmişdir.

### Həyatımızda hər gün işlətdiyimiz rəqəmlərin tarixi haqqında nə bilirsiniz? Rəqəmlər necə cürdür?

Ş.Sadiyevin "Dil haqqında hekayələr" kitabında bu suallara yığcam cavab verilir. Həmin cavabların bu gün də gənc nəsl üçün əhəmiyyətini nəzərə alıb bəzi dəqiqləşdirmə aparıb bu topluya daxil edirik.

Tarixdə ilk dəfə Roma rəqəmləri meydana çıxmışdı. Romalılar rəqəmləri göstərmək üçün sayların miqdarına uyğun olaraq düz xətlərdən və öz dillərində say bildirən sözlərin ilk hərflərindən istifadə etmişlər. (Məsələn, M.D.C.I.X.V.I. işarələri müvafiq olaraq 1000, 500, 100, 50, 5, 1 ədədlərini göstərir).

Belə bir say sistemi yunanlara da məlum idi. Roma (Rum) rəqəmləri yazıda çox yer tutur, iri hesablamalarda çətinliklər törədirdi.

Qədim hindlilər də təqriban V əsrdə xüsusi rəqəm sisteminə malik idilər. Onlar hətta



romalılardan fərqli olaraq, iri rəqəmləri göstərmək üçün dəyirmi nöqtəyə bənzər girdə işarədən istifadə edirdilər. VIII-IX əsrlərdə meydana çıxmış bu işarə ərəblərə keçmişdir. IX əsrdə hind rəqəmləri ilə tanış olan ərəblər öz rəqəmlərində dəyişikliklər aparmışlar. Beləliklə, bizim tanıdığımız sıfır (0) meydana çıxmışdır. Dilimizdəki sıfır sözü ərəb dilindən alınmışdır. Bununla əlaqədar olaraq riyaziyyatın inkişafına geniş yol açılmışdır.

XII əsrdə ispanlar ərəb rəqəmlərini götürüb onlarda bəzi dəyişikliklər aparmaqla istifadə etmişlər. Bundan sonra bu rəqəmlər Avropaya yayılmış, bir çox dəyişikliyə məruz qalmış, indiki şəklini almışdır.

Haşiyə: - ədədləri ifadə edən şərti işarələr olan rəqəmlərin tarixi daha qədimlərə gedib çıxır. Şumerlərin icad etdikləri mixi yazılar, işarələr sonralar Babilistanda, Misirdə mövcud idi. Məsələn, Babilistan rəqəmləri hələ eradan əvvəl II minillikdə məlum idi. 1, 10, 100 ədədlərini göstərmək üçün xətti işarələrdən istifadə olunurdu.

Misirdə heroqlif vasitəsilə nömrələmə aparılırdı. Bu da eradan əvvəl 3000-2500-cü illərdə məlum idi.

### Gerblər hararda istifadə edilir?

Gerb dövlətin əsas atributlarından biridir. Gerblər dövlət bayraqlarının, pul nümunələrinin, möhürlərin, rəsmi sənədlərin blanklarının üzərində həkk edilir.

### Gerb nədir?

Gerb polyak dilində herb, alman dilində erbe kimi səslənir. Gerb hər hansı bir dövlətin, şəhərin, nəslin tarixini, ənənəsini bildirən rəmzi fərqləndirmə nişanıdır, emblemidir. Onun üzərində həkk edilən fiqur və əşyaların rəmzi mənası vardır.



### Gerbin tarixi nə vaxtdan başlanır?

Gerbin tarixi eramızdan çox-çox əvvəllərə gedib çıxır. Qədim tayfalar öz fərqləndirmə nişanlarında, emblemlərində heyvan fiqurlarından - totem kimi istifadə etmişlər. Məsələn, qədim türklər boz qurdu totem olaraq rəmz kimi qəbul etmişlər.

Qədim şumerlər e.ə.III minillikdə öz gerblərində aslan başı, qartal təsvir etmişlər. Aslan da, qartal da güc, qüdrət rəmzidir. Sonralar romalılar bu rəmzlərdən istifadə edib öz gerblərini yaratmışlar.

Bizans dövlətinin gerbində əsas fiqur ikibaşlı qartal təsvir olunmuşdur. Ruslar da ikibaşlı qartalı öz gerblərində dövlət rəmzi kimi götürmüşlər.

Böyük fateh Teymurləngin gerbindəki üç üzük rəmzi böyük məna daşıyır.

Azərbaycan dövlətləri Ağqoyunluların və Qaraqoyunluların bayraqlarında rəmz olaraq qoç təsvir edilmişdir.





### Heraldika nədir və o nə vaxt yaranmışdır?

Heraldika - lüğətdə gerblər və onların tarixini öyrənən - gerbşünaslıq (gerblərin spesifik mənbəyi kimi) köməkçi tarix fənnidir. Heraldika gerbləri olan tarixi abidələrin yaranmasını, mənasını tədqiq edir. Heraldika genealogiya, numizmatika, paleoqrafiya, sfragistika elm sahələri ilə sıx bağlıdır.

Azərbaycan Ensiklopediyasında qeyd olunur ki, heraldika tumirqabağı cəngavərlərin gerbini nümayiş etdirmək üçün yaranmışdır. Qərbi Avropada heraldika üzrə ilk əsərlər XIII əsrin ikinci yarısında heroldların şer və poemaları şəklində meydana gəlmişdir. İlk gerb nizamnaməsi 1320-ci ildə Sürixdə nəşr olunmuş, heraldikanın ilk şərhini isə italyan hüquqşünası Bartolo vermişdir.

Heraldika nəzəriyyəsi XVI-XVIII əsrlərdə sistemə salınmış, 1706-cı ildə Berlində ilk heraldika kafedrası yaradılmışdır.

Amma bir fikir nəzərimizi daha uzaq keçmişlərə aparır. Axı, Şərqdə ən qədim ölkələrdə: Babilistanda, Assuriyada, Misirdə, Çində, Türküstanda, Azərbaycanda tarixi abidələrin üzərində, hətta dövlət bayraqlarının üstündə gerblər, emblemlər, rəmzi nişanlar olmuşdur. Deməli, heraldikanın tarixini daha qədimlərdə axtarmaq, öyrənmək lazımdır.

### Xəzərlər hansı dildə danışırdılar?

Xəzərlərin dili türk dillərinin oğuz-qıpçaq qrupuna daxil edilən ölü dillərdən biridir. Xəzər dili qıpçaq və bulqar dillərinə çox yaxın olmuşdur. Çuvaş dili ilə genetik oxşarlıqları var.

### Qədim metallurgiyanın əsası nə vaxt qoyulmuşdur?

Tunc dövründə mis ilə qalay və ya başqa metalın süni ərintisindən tunc əmələ gətirilmişdir. Ən qədim tunc alətlər eradan əvvəl 4-cü minilllikdə Türkiyə, İran, Mesopotamiya abidələrindən tapılmışdır.

Tunc dövrü mədəniyyəti Misirdə e.ə.4-cü, Hindistanda 3-cü, Çində 2-ci, Avropada 2-ci. Qafqazda, o cümlədən Azərbaycanda 4-cü minilliklərdən məlumdur.

Tunc dövrü mədəniyyəti öz inkişafında 3 mərhələ yaşamışdı.

1. Eradan əvvəl II minilliyin əvvəlləri, e.ə. 1700-cü il, bu mədəniyyətin başlanğıcı;

2. E.ə. 1700-1500-cü illərdə inkişaf mərhələsi;

3. E.ə. 150-cü ildən 2-ci minilliyin sonlarınadək mərhələ.

Güney Qafqazda tunc dövrü e.ə.4-cü minilliyin əvvəlində başlamışdı. O vaxt Kür-Araz mədəniyyəti təşəkkül tapmışdı.

### Altay dilləri ailəsinə hansı dillər daxildir?

Türk, tunqus-mancur və monqol dillərini birləşdirən dil ailəsi. Altay dillərinin demək olar ki, hamısı ahəng qanununa tabedir. Cins kateqoriyası yoxdur. Qramatik quruluşca iltisaqi dildir. Altay dillərində feli sifət və feli isim formaları geniş yayılmışdır. Cümlədə söz sırası sabitdir. Mübtəda əvvəldə, xəbər sonda olur. Tamamlıq mübtədadan sonra, zərflik xəbərdən, təyin təyin olunandan əvvəl gəlir.

### XX əsrdə dünyanın hansı görkəmli alimləri, yazıçıları Nobel mükafatına layiq görülmüşlər?

Böyük ixtiralarına, elmi kəşflərinə, gözəl bədii əsərlərinə görə olan yüzillikdə onlarla alim, yazıçı, dramaturq, şair, sülh və insan hüquqları uğrunda mübariz beynəlxalq Nobel mükafatına layiq görülmüşdür. Onlardan bir qisminin adını, soyadını, mükafat aldığı ili qeyd edirik. Fizika sahəsində: Böyük alman fiziki Vilyam Konrad Rentgen (1901). Böyük alman fiziki Albert Eynşteyn (1921). Danimarka fiziki, kvant fizikasının banilərindən biri Nils Henrix David Bor (1922); Kimya sahəsində Məşhur ingilis fiziki Ernest Rezerford (1908), Fransız fizikləri Pyer Küri (1903) və İren Küri (1935); Ədəbiyyat sahəsində Dünyaşöhrətli hind yazıçısı, ictimai xadim Rabindranat Taqor (1913), məşhur ingilis dramaturqu Corc Bernard Şou (1925), alman yazıçısı Tomas Mann (1919), ingilis yazıçısı Con Qolsuorsi (1932), amerikan yazıçısı Ernest Heminquey (1954), Çili şairi Pablo Neruda (1971), rus yazıçısı Mixail Şoloxov (1965), Sülh sahəsində Norveç okeanoqrafı, Arktikanın tədqiqatçısı Frityof Nansen (1922).

### Qafqaz dillərində neçə xalq danışır?

Qafqaz avtoxton dillərinin ümumi adı - Qafqaz dillərinə 40-a yaxın dil daxildir. Üç əsas qrupa bölünür: kartvel dilləri, abxaz-adıq dilləri, Dağıstan dilləri. Qafqaz dillərindən yalnız gürcü dili qədim yazı ənənələrinə malikdir.

### Qədim dünyanın ən böyük mayakını kim tikmişdi?

Eramızdan əvvəl 280-ci ildə Nil çayının mənsəbindəki Faros adasında bu mayakı memar Knidli Sostrat tikmişdi. Hündürlüyü 120 metr olan bu mayak o dövrə görə ən əzəmətli tikili hesab edilirdi. Onun qülləsinin üstündəki daş köşkdə gəmilərə yol göstərən tonqal yanırdı. Görkəmi və gözəlliyi ilə insanları heyran etdiyi üçün o qədim dünyanın yeddinci "möcüzəsi" sayılırdı.



### Atlantlar, titanlar sözünü eşitmisinizmi? Atlantida tarixdə olubmu? Atlantik okeanının adı haradan əmələ gəlib?

Qədim dünyamızda hələ nə qədər mətləblərin, hadisələrin, möcüzələrin sirri açılmayıb. Nə qədər xalq, ölkə, torpaq sahələri vaxtı ilə dənizlərin, okeanların dibinə çöküblər!

Siz bir çox şəhərlərin binalarının fasadlarını bəzəyən, iri tağlı sütunlar arasında əzəmətli, pəhlivan cüssəli kişi heykəllərini yəqin ki, görmüsünüz. Başını aşağı dikərək çiyinlərində naxışlı iri daş parçasını saxlayan bu kimi heykəllər nəyi əks etdirirlər? Yunan mifologiyasında titanlar allahlara qarşı çıxdıqları üçün baş allah Zevs qəzəblənərək onları göy qübbəsini çiyinlərində saxlamaq əzabına salmışdır. Heykəltəraşlar ağır, sal daşı çiynində saxlayan Atlant obrazını bu rəvayətdən götürmüşlər. Belə gözəl heykəllərdən birini Fransada Tulon şəhərində XVII əsrdə heykəltəraş P.Püje düzəlmiş, onu "Atlant" adlandırmışdır. Bir çox rəssamların, heykəltəraşların mövzusuna çevrilmiş atlantlar-titanlar kim olmuşlar? Rəvayətə görə 10-12 min il əvvəl Cəbəlütariq boğazından Qərbdə bir ada varmış. Burada atlantlar yaşayırmışlar. Onlar bədəncə cüssəli, igid adamlar imişlər. Torpaqları gözəl, məhsuldar imiş. Günlərin birində güclü zəlzələ bu adanı dağıdıb, okean sularına qərq etmişdir.

Qədim yunan alimi Platon (Əflatun) nəql edirdi ki, atlantlar qüdrətli dövlət yaratmışdılar. Böyük qardaş - Atlant adanın hökmdarı idi. Adanın adı - Atlantida və Atlantik okeanın adı da elə bununla bağlıdır.

### Mərkəzi Amerikada min illər boyu özünəməxsus mədəniyyət yaratmış mayyalılar hansı sirlərdən xəbər verirlər?

Mərkəzi Amerikada, indiki Meksika, Qvatemala, Honduras ərazilərində Mayya, Kire, Mam, Sontal, Çol, Huastek və başqa qohum qəbilələr, tayfalar yaşayırdılar. Qırmızı dərililər adlandırılan bu hindu tayfalarının keçmişi, mənşəyi sirlər aləmidir. Bu qəbilə və tayfaların dilləri mayya-sake dillərinə aiddir. Onların bu ərazilərdə olmaları, özünəməxsus mədəniyyət yaratmaları haqqında ilk yazılı məlumatlar eramızdan əvvələ - I əsrə aid edilir. Qədim Amerika sivilizasiyasının əsasını qoymuş mayyalılar və onların qəbilə yurddaşları heroqlif yazılar icad etmişlər. Onların yaratdıqları dördüzlü, pilləvari piramidalar, səmaya istiqamətlənmiş yol işarələri, xətlər və s. düşünməyə əsas verir ki, qədim mayyalıların başqa planetlərlə əlaqələri varmış.

Qədim mayyalılar özünəməxsus, zəngin mədəni və ədəbi irs də qoymuşlar. Onlar öz yazılı abidələrini ağac qabığından hazırlanmış kağıza, yaxud maral dərisinə köçürmüşlər. Bu əsərlər elmi, tarixi, dini-fəlsəfi mahiyyət daşımışdır.

Bu sərvət İspanların XVII əsrdə işğalı zamanı məhv edilmişdir.

Mayye sözünə qədim hind dilində də rast gəlirik. Qədim və orta əsir hind fəlsəfəsində mayya - görüş, illüziya mənası verir və ən mühüm dini anlayış deməkdir. Bu fəlsəfədə dünyanın yaranışı, aləmin çoxcəhətliliyi, Alllahın qüdrəti bildirilir.

Bu, təsədüfdürmü? Hindistan Asiyada, Mayya tayfaları Mərkəzi Amerikada, hindlilər və hindular bir kökdəndirlərmi? Bu haqda düşünməyə, araşdırmağa dəyər.







### Meksikada və Mərkəzi Amerikada qədim tayfaların, qəbilələrin kökünün kəsilməsinə səbəb nə olmuşdur?

Amerikanın bu ərazisində yaşayan qəbilələr bütpərəst olmuşlar. Onlar allahlarına hər il insan qurbanı kəsirdilər. Asteklərdə bu, əsl insan qırğınına çevrilmişdi. Tarixçilərin məlumatına görə burada hər il 20 min adam qurban kəsilirmiş. Bu faciəli, kədərli mərasimi kahinlər məbədlərin pilləli piramidaların üstündə həyata keçirirmişlər. Mərasim zamanı vulkanik şüşədən, obsidiandan və ya xalsedondan hazırlanmış bıçaqla qurbanlıq adam öldürülür, sonra onun ürəyi kəsilirmiş.

Bu adətdən sonralar XVI əsrdə Meksika və Mərkəzi Amerikaya soxulmuş ispan konkistadorları-hərbçiləri istifadə edərək yerli əhalini - bütpərəst asteklərı xristianlığa qurbanlıq etmiş, onları kütləvi surətdə qırmışlar.

İspanların texniki imkanları, odlu silahları və atlıları qarşısında gücsüz olan astekler məğlub olmuş. Tenoçtitlan 1521-ci ildə işğalçılar tərəfindən zəbt edilmişdir.

Asteklərin qan bahasına yaratdıqları imperiya faciəli surətdə süqut etdi.

Bax, bu müharibələr, xəstəliklər və bütlərə sitayiş nəticəsində kəsilən insan qurbanları Mərkəzi Amerikada və Meksikada qədim əhalinin kökünün kəsilməsinə səbəb oldu.

### Ən qədim dövrlərdə təqvimin meydana çıxmasına qədər insanlar illəri necə hesablamışlar?

Müxtəlif xalqlarda müxtəlif cür. Məsələn, qədim Misirdə hər dəfə yeni hökmdar taxta əyləşəndə il həmin vaxtdan hesablanırdı. Hökmdarın hökmranlıq etdiyi il birinci il hesab olunurdu. Sonrakı illər də bu qayda ilə. Hökmdar öləndə onun yerinə gələn şəxsin hökmranlıq etdiyi il yenə birinci il hesab olunurdu.

Romada isə başqa cür idi. Roma şəhərinin salınması ili birinci il kimi sayılırdı. Bu qayda ilə illər hesablanırdı.

Xristian dünyasının istifadə etdiyi miladi təqviminə görə yeni il İsa peyğəmbərin anadan olduğu gündən hesablanır. Bizim era da bu tarixlə adlanır.

### Dünyada ən uzun körpü harada tikilib?

Yaponiyada. Bu gündoğar ölkə öz texniki kəşfləri, yüksək elmi-texniki nailiyyətləri ilə bir çox tərəqqi etmiş ölkələri arxada qoymuşdu. Qədim mədəniyyət mərkəzlərdən biri olan bu ölkədə XX yüzilliyin axırlarında Meysin boğazı yzərində iki mərkəzi - Xonsyu və Sikoku adalarını birləşdirən nəhəng asma körpü quraşdırılmışdır. Körpünün uzunluğu 3910 metrdir. O 333 metr hündüurlüyu olan dayaq üzərində dayanır.

### Qacarlar sülaləsi nə vaxtdan başlanır? Onlardan kimlər şah olmuşlar?

Xalqımızın keşməkeşli tarixində xüsusi yer tutan soyadlardan biri də Qacarlardır. Bu soyadın kökü XIII əsrə gedib çıxır. Azərbaycan etnogenezinin formalaşmasında iştirak etmiş türk dilli qacarlar tayfası XY-XYI əsrlərdə qızılbaşların tərkibində böyük Azərbaycan Səfəvi dövlətinin yaradılmasında mühüm rol oynamışlar. Özgə torpaqlarını utanmadan, həya etmədən özününkü hesab edən ermənilər qoy tarixi mənbələri öyrənib bilsinlər ki, hələ səfəvilər dövründə İrəvan və Qarabağ torpaqları Qacarlar nəslindən olan şahların idarəsi altında idi. İki əsr sonra Qacarlar sülaləsi yüz qırx ilə yaxın Şərqin ən böyük dövlətlərindən biri - İran şahlığına başçılıq etmişlər (1785-1925).

Ağa Məhəmməd şah Qacar (1742-1797). Şahlıq etdiyi illər 1796-1797.

Fətəli şah (1766-1834) Şahlıq etdiyi illər 1797-1834.

Məhəmməd şah Qacar (1807-1848). Şahlıq etdiyi illər 1834-1848.

Nəsrəddin şah Qacar (1831-1896). Şahlıq etdiyi illər 1848-1896.

Muzəffərəddin şah Qacar (1853-1907). Şahlıq etdiyi illər 1896-1907.

Məhəmmədəli şah Qacar (1872-1925). Şahlıq etdiyi illər 1907-1909.

Əhməd şah Qacar. Şahlıq etdiyi illər: 1909-1925.

Bilik insanı bütün bəlalardan qoruyan zirehdir.

*Rudəki Əbu Abdulla Cəfər, fars-tacik şairi.*

Biliyə aparan yeganə yol zəhmətdir.

*Bernad Şou, İngilis yazıçısı.*

### General qadın kim imiş?

General Ceyms Barn Britaniya ordusunda 52 il xidmət etmişdi. Öləndə məlum olub ki, o qadın imiş.

Dahi adamın ən güclü xarakteri onun mənəviyyat çırağının işıq saçmasıdır.

*Cohn Foster*

### 203 kitabın müəllifi öz əsərlərini necə yazırdı?

XVIII əsrdə yaşamış Fransa çapçısı və yazıçısı Retif de la Bretoni 203 kitabın müəllifi idi. Onların 152-si yazılmamışdır. Bretoni kitabı birbaş mətbəədə "başından" yığarmış. Onun barəsində deyərdilər: "O, şriftlər üzərində fikirləşə bilir". Onun kitablarının əksəriyyəti ədəbi cəhətdən qiymətlidir. Həmin kitablar XVIII-XIX əsrlərdə böyük şöhrət qazanmış və dəfələrlə yenidən nəşr edilmişdir.

### İlk krossvordu kim icad edib?

İlk krossvordu XX əsrin əvvəllərində Cənubi afrikalı Viktor Orvill həbsdə olarkən düzəltmişdir. Avtomobil qəzasına yol verməkdə təqsirləndirilib üç il müddətinə həbs olunmuş Orvill darıxmasın deyə, kağız üzərində çəkilmiş kvadratlara hərflər yazıb doldurur. Təsadüfü olaraq bu hərflərdən o, müxtəlif sözlər alındığını görür və öz ixtirasını yerli qəzetlərdən birinə göndərir. Maraqsız çıxan həmin qəzet Orvillin ixtirasını "kvadratlar boyunca ora-bura" başlığı altında dərc etdikdən sonra oxucuların ən çox sevdikləri qəzetə çevrilir. Qəzetin tirajı misilsiz dərəcədə artır. Orvillə isə dünyanın hər yerindən sifarişlər gəlməyə başlayır. Cəzasını çəkib qurtardıqdan sonra Orvill Cənubi Afrika Respublikasının böyük banklarından birində özünün cari hesabında böyük məbləğdə pul olduğunu öyrənir.

### Mif və mifologiya nədir?

Mif-mythos - yunan sözü olub rəvayət, əsatir, dünyanın və həyatın mənşəyi, təbiət hadisələri, qədim ilahələr, qəhrəmanlar, ruhlar haqqında insanların ən qədim təsəvvür və etiqatlarından ibarət rəvayət deməkdir...

Şərq xalqlarının, o cümlədən əcdadlarımızın çox zəngin, mənalı mifləri vardır. Azərbaycan ədəbiyytında xeyir allahı Hürmüz və şər allahı Əhriman əsatiri surətlər kimi məşhurdur. Mifologiya - mifləri öyrənən elm deməkdir. Azərbaycanda XIX əsrdən başlayaraq bu elm sahəsində xeyli iş görülmüş, xalq dastanları, əfsanələri, rəvayətlər, nağıllar və s. folklor nümunələri toplanmış, tədqiq edilmiş, elmi izahları yazılmışdır.

### Dastan nədir və əcdadlarımız nə qədər dastan yaratmışlar?

Dastan şifahı xalq ədəbiyyatında epik janrın ən geniş növüdür. Dastanı qəlib xalq, qüdrətli xalq yaradır. Dastanın mövzusu xalqın qəhrəman oğullarının həyatından, mübarizəsindən, şər qüvvələrə qarşı apardıqları savaşlarından alınır. Onu qədimlərdə ozanlar, sonralar görkəmli aşıqlar düzüb-qoşmuş, yaşatmış, məclislərdə, el şənliklərində şeirlə, musiqi ilə səsləndirmişlər.

Əcdadlarımız 200-ə yaxın dastan yaratmışdır. Bu epik söyləmələr üç qrupa bölünür: qəhrəmanlıq dastanları, məhəbbət dastanları və ailə-məişət əxlaqi səciyyə daşıyan dastanlar.

Qəhrəmanlıq dastanlarının yaranma tarixi ən qədim dövrlərdən başlayaraq müasir dövrümüzə qədər davam etmişdir. Ən qədim qəhrəmanlıq dastanlarına "Bilqamıs", "Kitabi Dədə Qorqud", "Oğuznamə" dastanları aid edilir. "Koroğlu" isə XVI əsrin sonu XVII əsrin əvvələrində Azərbaycanda və Kiçik Asiyada baş verən tarixi hadisələrdən bəhs edən ən çox yayılmış, məşhurlaşmış qəhrəmanlıq dastanıdır. Məhəbbət mövzusunda xalqımız "Qurbani", "Abbas və Gülgəz", "Şah İsmayıl", "Əsli və Kərəm", "Aşıq Qərib" və s. dastanlar yaratmışdır.

Ailə-tərbiyə motivləri zəngin olan "Alıxan və Pəri xanım", "Səlim şah" və s. dastanlar xalqımızın mənəvi dəyərlərini özündə əks etdirən bədii nümunələrdir.







### Gil lövhələrə həkk edilmiş dünyanın ən qədim eposu "Bilqamıs"ın mətnləri haradan tapılmışdır?

"Bilqamıs" (bəzi mənbələrdə "Qilqamış" kimi yazılır) eposu Şumer mədəniyyətinin ən monumental abidəsidir. Onun üç min xətdən ibarət olan gil lövhələrə həkk edilmiş mətnlərində şumerlərin həyat və mübarizə tarixi əks olunmuşdur. Bütün həyatı boyu qurucuculuqla məşul olan, döyüşlərdən qəhrəmanlıqla çıxan, xalqın əfsanəvi qəhrəman oğlu Bilqamıs əbədi həyat, güc, qüvvət arzusu ilə yaşamış, insanlara gərəkli olmağa çalışmışdır. Həmin dastanın beş babil lövhəsi Boğazgöydə, üç lövhəsi Mehiddoda və Uqaritdə tapılmışdır.

Bir çox xalqların nağıl və rəvayətlərində, o cümlədən Azərbaycan xalqının yaddaşında hələ çox qədim zamanlardan yaşayan, bu gün də el ədəbiyyatımızda "Nuh peyğəmbər", "Nuhun tufanı", "Nuhun gəmisi" mifik düşüncələri heç şübhəsiz şumer qaynaqlarından, "Bilqamıs" dastanından gəlir. Professor E.Əlibəyzadə qeyd edir ki, qədim Şumerdə dastanlar musiqinin müşayətilə söylənilirdi. Bu da əsas verir deyək: qədim türk dastanlarında, o cümlədən "Dədə Qorqud" dastanında da belədir. Deməк, bu üslub, bu forma daha qədimlərdən gəlir.

### "Bilqamıs" eposunun quruluşu ilə "Dədə Qorqud" dastanının quruluşunda yaxınlıq varmı?

Bəli, var. "Bilqamıs" eposu 12 lövhə, "Dədə Qorqud" dastanı isə 12 boydur. Hər iki dastanda üslub paralelləri var. E.Əlibəyzadə bu paralelləri şərh edərkən ingilis və dünyanın digər şumerşünaslarının tədqiqatlarını nəzərdən keçirir, Azərbaycan xalqının şifahi və yazılı ədəbiyyatının hələ çox qədimlərdən gəldiyini sübut etməyə çalışır, bu ölməz, zəngin ədəbi irsin ülvi hissləri - dostluğu, mərdliyi, insanpərvərliyi, qəhrəmanlığı tərənnüm etdiyini "Dədə Qorqud" dastanının tədqiqində elmi dəlillərlə şərh edir. Bu nəcib ideya, məna çalarlarını biz sonrakı əsrlərin xalq yaradıcılığında, yazılı ədəbiyyatımızın nümunələrində də geniş, rəngarəng əksini görürük.

### "Yusif və Züleyxa" dastanı hansı xalqın yaratdığı ölməz abidədir? Yusifi görəndə qadınlar niyə barmaqlarını kəsdilər?

Bütün Şərq aləmində gözəllik və məhəbbət rəmzinə çevrilmiş, dillərdə dastan olmuş Yusif və Züleyxa haqqında mənbələrə bir çox xalqların əfsanələrində, söyləmələrində rast gəlmək olur. Dinlər tarixində Yaqub-İakov peyğəmbərlərdən biridir. Onun 11 oğlu olmuşdur. Onun ən kiçiyi Yusif-İosif idi. Yaqub Yusifi çox sevdiyindən qardaşları ona həsədlə baxmış, hətta aradan götürmək, öldürmək qərarına gəlmişlər. Günlərin birində qardaşlar sözləşib Yusifi quyuya atmışlar. Yoldan keçən tacirlər Yusifi quyudan çıxarıb Finikiyadan Misirə aparmış, onu qul kimi Misir padşahına satmışlar. Vəzirin arvadı Züleyxa (yəhudilərdə Rəhil) Yusifin gözəlliyinə aşiq olmuş, məhəbbətini bildirəndə Yusifi həbs etmişlər.

Rəvayətə görə sarayda böyük söz-söhbətə səbəb olmuş bu əhvalatı sovuşdurmaq üçün saray qadınları Züleyxaya irad tutmuşlar. Züleyxa həmin qadınları qonaq çağırıb və Yusifi onlara göstərmək istəyəndə qadınlar Yusifin çox gözəl olduğuna heyran qalmış, çaşıb əllərindəki almanın əvəzinə barmaqlarını kəsmişlər.

Oğlunun həsrətindən gözləri kor olmuş ata dörd yol ayrıcında "Beytülhəzan" adlanan bir mənzil tikdirib oğlunu gözləmişdi.

Yusif xeyirxahlığı, alicənablığı ilə Misir taxtına çıxanda Züleyxanı bağışlayıb onunla evlənmişdi.

Yusif Misirdə hökmdar olduğu zaman Kənanda qəhətlik idi. Qardaşları ianə buğda almaq üçün Misirə gəlmişlər. Yusif kisələrə buğda dolduranda öz köynəyini də kisələrin birinin içinə qoyur. Atası bu köynəkdən Yusifin iyini duyub sağ olduğunu bilir və guya gözləri açılır.

Bu əfsanə, rəvayət harada yaranıb? Onun əhəmiyyəti yoxdur. Fakt budur ki, hadisələr Finikiyada, Misirdə və digər yerlərdə baş verib. Buna görə də bu məhəbbət və gözəllik dastanı qoca, müdrik şərqin möhtəşəm abidəsidir. Bu dastan haqqında "Qurani-Kərim"-də də xatırlanır. Klassik Orta Şərq, Qərb, o cümlədən Azərbaycan ədəbiyyatında - N.Gəncəvi, Ə.Xaqani, Cami, Xətai və b. şairlərin yaradıcılığında bu dastan iz qoyub. Dünya təsviri sənətində (Rembrant və b.) Yusif və Züleyxa obrazı mövzuya çevrilib.

### Budda əfsanəsində nədən bəhs edilir?

"Yaranmışların tarixi", yaxud "Catak" qədim hind ədəbiyyatının abidəsidir. Catakın əsasını nağıllar, təmsillər, əylancələr, tarixi söhbətlər, təşkil edir. Bu qədim hind folklorunun nümunələri eramızdan əvvəlki I minillikdə mərkəzi və şərqi Hindistanda yaranıb.

Budda haqqında dini əfsanədə deyilir ki, nə vaxtsa qədimdə Hautama adında bir şahzadə gözəl sarayda yaşayırmış. Nökərlər onun başı üzərində ağ çalır tutur, onu Günəşin yandırıcı şüasından, yağışdan qoruyurmuşlar. Ona elə gəlirdi ki, hər yerdə həyat belə gözəldir. Qəm-qüssənin, xəstəliyin, ölümün mövcud olmasından bixəbərmiş. Ancaq bir dəfə o üzülüb-əldən düşmüş bir qocaya rast gələndə hiss etdi ki, qocalıq labüddür. Xəstəni görüb başa düşdü ki, ömrü boyu sağlam olmaq mümkün deyil. O, ölüm haqqında düşündü, istədi zahid ola. Uzun müddət tərkidünya olub səyahətə çıxdı, ac qaldı, iztirablar gördü. Bir dəfə iri bir ağacın altında bardaş qurub oturanda dərin fikrə getdi və müdrikləşdi. O vaxtdan ona Budda (işıqlı, müdrik adam) deyildi.

Budda insanlara deyirmiş ki, həyat hər cür çətinlik və iztirablarla doludur. Ancaq insan düz danışmaqla, xeyirxah olmaqla, başqasına əzab verməməklə öz vəziyyətini düzəldə bilər. İnsan daim varlanmaq hərisliyindən əl çəkməlidir... Hər bir varlı, ya kasıb, hökmdar, ya qul, brahma, ya nökər Buddanın şagirdi - buddist ola bilər.

Budda uzun illər Hindistanı gəzib dolandı. Onun çoxlu şagirdi oldu... Eramızdan əvvəl III əsrdə Hindistan birləşdi, Aşok Budda təliminə sadiq olduğunu bildirdi. Canlıları öldürməyi qadağan etdi. Kasıblara, qullara əl uzatmağı, mərhəmətli olmağı söylədi. Beləliklə, buddizm təlimi sərhədləri aşıb dünyaya yayıldı.

Buddanın düşüncələri, səyahətləri, fikirləri şumerlərin "Bilqamıs" dastanındakı bir sıra əhvalatları xatırladır.



### Qədim hind eposu "Mahabharata" nədən bəhs edir?

Böyük hind xalqının qədim qəhrəmanlıq eposu "Mahabharata" bir-biri ilə bağlı 18 dastandan (kitabdan) ibarətdir. Bu böyük epopeyanın kökü eramızdan əvvəl II minilliyin 2-ci yarısına gedib çıxır. Hinduizmdə baş Allah Vişnuya həsr edilmiş bu böyük həcmli epos 100 min beytdən ibarətdir. O məşhur yunan eposu "İliada" və "Odisseya"dan həcmcə 8 dəfə böyükdür. Hind xalqının uzun illər, bəlkə də əsrlər boyu yaratdığı bu epik-poetik əsərdə indiki Dehli üstündə hökmranlıq uğrunda mübarizə aparan iki düşmən - Kauravam və Pandavam tayfaları arasında gedən mübarizə təsvir edilir. Bu mübarizəyə tədricən bütün Hindistan qoşulur. Hindistanın



bütövlüyü uğrunda çarpışan hökmdar Bharat qalib gəlir. Xalq yaradıcılığının bu monumental eposu əsrlər boyu hafizələrdə, dildə-ağızda yaşamış, sonralar qədim hind ədəbi dili - sanskritə çevrilərək bu günə kimi gəlib çatmışdır.

"Mahabharata" Hind-Çin, İndoneziya, Şri-Lanka və Monqol ədəbiyyatının ikişafına güclü təsir etmişdir.

### Nağıllarda rəvayət edilən əfsanəvi Simurq quşunun yaşadığı dağın adı nədir?

Qaf dağı. Güney Azərbaycanda qədimlərdə belə rəvayət edilirdi ki, Simurq quşu Elbrus dağında yaşayıbmış. Elbrus isə Böyük Qafqaz dağ silsiləsində ən uca Zirvə, həm də Güney Azərbaycanda Xəzərin cənubunda uzanan dağ silsiləsinin adıdır. Hər iki Elbrus dağı Qafqaz silsiləsinə daxildir. Bu coğrafi məkan ehtimal etməyə əsas verir ki, deyək: Qaf dağı Qafqaz dağları silsiləsinin adından götürülmüşdür. Bəlkə də Qafqaz sözü Qaf dağı sözündən əmələ gəlib. Xaqani Şirvanının "Tanışam hər otla Qaf dağında mən" mısrası da bunu söyləməyə imkan verir ki, Şamaxı Böyük Qafqazın cənub ətəyində yerləşdiyi üçün Qaf dağı elə Qafqaz dağları deməkdir.





### "Qızıl dana"ya kimlər sitayiş etmişlər?

Yəhudilərin dini kitabı olan "Tövrat"da Musa (Moisey) peyğəmbərin danası əhvalatında deyilir ki, Musa öz icmasını - yəhudiləri Misirin əsarətindən xilas edərək Fələstinə gətirmişdi. İcmanın bir hissəsi tovhidi - monoteizmi (yəni təkallahlığı) unudaraq qızıldan bir dana düzəldib ona bir büt kimi sitayiş etmişlər. Bunu görən Musa peyğəmbər həmin "Qızıl dana" bütünü məhv edərək öz təbəələrini təkallahlığa sitayış etməyə çağırmışdır.

### "Yaşıl çıraq" nədir? Bu haqda nə eşitmisiniz?

Təzə, nurlu, şöləsinin ucu yaşıl parlaq çıraq. Bu fikrə N.Gəncəvinin "Yeddi gözəl" poemasında bu beytdə rast gəlirik:

*Yaşıl çıraq kimi*
*parlaq göründü,*
*Cənnət mələyitək*
*yaşıl büründü.*

Dini rəvayətə görə mələklər yaşıl paltar geyirlər və həmişə yaşıl bağda yaşayırlar. Yaşıl müsəlman aləmində həm də müqəddəs rəng sayılır.

### "Min bir gecə" mövzusunda hansı əsərlər yaranmışdır?

"Min bir gecə" öz müdrik məzmunu, nəsihət və ibrət almalı kəlamları, yüksək bədii ifadə tərzi ilə bütün dünyada məşhurlaşmış. Şərqdə, Avropada, Amerikada həmin hekayətlər əsasında yüzlərlə təmsil və rəvayətlər yazılmış, müxtəlif kitablar nəşr edilmişdir. "Bağdad oğrusu", "Ələddin və sehrli çıraq", "Əlibaba və qırx quldur" nağılları əsasında ayrıca bədii əsərlər yaranmış, kinofilmlər çəkilmişdir. Böyük rus bəstəkarı N.A.Rimskiy-Korsikov 1888-ci ildə "Şəhrizad süitası"nı, Azərbaycanın görkəmli bəstəkarı F.Əmirov "Min bir gecə" kimi gözəl balet əsərlərini yaratmışlar.

### "Min bir gecə"nin sirli dünyası harada yaranmışdır?

Bu suala elmi cəhətdən ən dolğun cavabı görkəmli şərqşünas alimimiz Məmmədağa Sultanov vermişdir. O, "Min bir gecə"nin Azərbaycanca 8 cildlik nəşrinə yazdığı giriş məqaləsində qeyd edir ki, bütün dünyanı heyran qoyan bu ölməz sənət abidəsi haqqında Şərqin və Qərbin alimləri öz tədqiqatlarında müxtəlif fikirlər söyləmişlər. Kimi onun Sasani dövründə, İran mühitində yarandığını qeyd edir, orta fars "Həzər əfsanə"ləri zəminində yaranıb, ərəb dilinə tərcümə olunduğunu deyir, kimi isə "Min bir gecə" hekayətlərinin Bağdad, Misir, İran və Hind nağılları, bəzən də sənətkarlar, tacirlər, div, əcinnə, pəri əfsanələri adı altında qruplaşdırıldığını yazır. Mütəxəssislərin fikrincə, məsələn, Sindibadın hekayələri, heyvanları danışdırma yolu ilə düzələn təmsillər Hindistan, div, pəri iştirak edən nağıllar İran, Harun-ər-Rəşid, Məmun və başqa ərəb xəlifələrinin iştirak etdiyi hekayələr isə ərəb xalqlarına mənsubdur.

Bu fikirlər ağlabatandır. Çünki "Min bir gecə" nağılları nəinki bir ərazidə, bir dövrdə yaranıb nağılların məzmunu, hadisələrin baş verdiyi yerlər, dövrlər fərqlidir. Eradan əvvəlki dövrlərdən başlamış orta əsrlərədək böyük bir zaman ərzində bu hekayətlərin yarandığı məlum olur.

M.A.Sultanov yazır ki, ərəb səyyahları Hind, Çin, İran və Türk xalqları olan yerlərə gedərkən eşitdikləri rəvayət və nağılları toplayıb gətirmişlər və bu vasitə ilə "Min bir gecə" kitabı bir-birinə oxşamayan rəngərəng nağıl və rəvayətlərlə zənginləşmişdir, bəzən də hər nağıl danışan öz fantaziyasını da əlavə etmişdir. Bunu hekayələrin məzmunu da göstərir. Məsələn, Bağdad hekayələrində daha çox bu yazı didaktik məzmun, qadınlara böyük hörmət və ehtiram, Misirdə yaranan hekayətlərdə daha açıqsaçıqlıq vardır. Deməli, "Min bir gecə" bir çox xalqın bədii təfəkkürünün məhsuludur.

### "Min bir gecə"də "Balıqçı" nağılında sehrlənmiş dörd rəngli balıqlardan bəhs edilir. Bunun mənası nə deməkdir?

"Min bir gecə" hekayətləri üzrə tədqiqat aparan şərqşünasların fikrincə bu dörd rəng o zaman mövcud olan 4 məzhəbə inanan adamlara işarədir. Burada müsəlman, yəhudi, xristian və atəşpərəstlik nəzərdə tutulur.





*Məhsəti xanım əri Əmir Əhmədlə şahmat oynayır.*
*Rəssam: Elçin.*

dəki səbətin içinə qoyaq (yəni hər iki piyadanı bir xana irəli oynamaq), qışda da arabalarımızı söküb ağaclarını yandıraq (yəni toplan qurban verməli). Xurşud Dilaramın müəmmalı tərzdə dediyi fikirləri dərhal anlayır, toplan qurban verir, fili irəli oynayır, piyadaları bir xana irəli çəkir və rəqibini udur".

Dilaramın köməyilə oyunu udan Xurşud sevincək ayağa qalxıb rəqibinə qalib gəldiyi ilə fəxr edir. Bu zaman Dilaram ərinə yaxınlaşıb sakitcə deyir: - Əbəs yerə sevinmə, mən özüm-özümü xilas etdim. Sənə qalsaydı, mən başqasının olmalı idim, qumarbaz adamdan hər nə desən gözləmək olar... Xurşud Dilaramın bu sözlərindən sonra qumarbazlığa birdəfəlik nifrət edir.

### Azərbaycanda ilk publisist qadın kim olub?

Şəfiqə xanım Əfəndizadə (1882-1959). Şəfiqə xanım Azərbaycanda ilk jurnalist-publisist, ilk qadın uşaq yazıçısı və ilk ana dili müəllimi kimi tanınıb. Onun "Şərqi-Rus", "Həyat", "Açıq söz" qəzetlərində, "Dəbistan", "Məktəb" uşaq jurnallarında, "Dirilik",



"Şərq qadını" jurnallarında publisistik məqalələri, hekayələri dərc edilmişdir.

Ş.Əfəndizadə 1901-ci ildən 1932-ci ilədək qız məktəblərində, pedaqoji kurslarda, Darülmüəllimatda dərs demiş, 1923-cü ildən nəşrə başlayan "Şərq qadını" jurnalının ilk yaradıcılarından biri olmuşdur.

Ş.Əfəndizadə Bakıda vəfat etmişdir. Bakıdakı 13 saylı məktəbə onun adı verilmişdir.

### Azərbaycanda və müsəlman dünyasında ilk dramaturq qadın kim olmuşdur?

Səkinə xanım Axundzadə (1865-1927). Qubada anadan olmuş. 1901-ci ildən H.Z.Tağıyevin qız məktəbində şəriət müəllimi işləmiş, Bakıda vəfat etmişdir. Səkinə xanımın qismətinə Azərbaycanda və eləcə də müsəlman aləmində ilk dramaturq, yazıçı və maarif xadimi olmaq düşmüşdür. O, H.Z.Tağıyevin qız məktəbində işlədiyi illərdə müəllimə rəfiqələri və şagirdlərin köməyilə bu nümunəvi təhsil ocağında dram dərnəyi yaratmış, pyeslər yazmış, bir sıra ədəbi əsərləri səhnələşdirmişdir. Onun "Elmin mənfəəti" adlı ilk pyesi 1904-cü ildə şagirdlərin və müəllimlərin iştirakilə həmin



məktəb səhnəsində tamaşaya qoyulmuşdur.

Səkinə xanımın təbdil etdiyi digər əsəri "Zülmün nəticəsi" pyesi 1914-cü ildə H.Ərəblinskinin iştirakilə Tiflisdə göstərilmişdir.

1917-ci il yanvarın 26-ı Səkinə Axundzadənin həyatının ən parlaq, ən fərəhli səhifəsi olmuşdur. Həmin gün Bakıda H.Z.Tağıyevin teatrında Səkinə xanımın "Zülmün nəticəsi" pyesi səhnəyə qoyulmuşdur. Tamaşa gecəsi sanki Azərbaycan teatrının bayramına çevrilmişdi. Tamaşaçılar alqışlar altında üçüncü pərdədə "Müəllif, müəllif!" - deyə, Səkinə xanımı səhnəyə çağırdılar. O, sıralar arasından keçib səhnəyə gedərkən gurultulu alqışlar salonu bürüdü. Ayaqları altına çiçəklər səpildi. Üzərində azərbaycanca və rusca "Yaşasın Qafqazda birinci müsəlman yazıçı qadın Səkinə xanım Axundzadə!" sözləri yazılmış əlvan vərəqələr lojalardan salona yağırdı. O, səhnəyə çıxarkən "Yaşa! Yaşa!" səslərindən qulaq tutulurdu.

Səkinə Axundzadə nəsr əsərləri də yazırdı. Onun "Şahzadə Əbülfəzil və Rəna xanım" adlı nağıl-povesti kitab halında 1918-ci ildə nəşr olunmuşdur.





### Azərbaycan səhnəsinin ilk peşəkar qadın artisti kim olub?

Gövhər Göyərçin (1887-1960). Tiflisdə anadan olmuş, teatra, incəsənətə böyük marağı onu Azərbaycan səhnəsinə, peşəkar artistlərin cərgəsinə çəkib aparmışdır. 1910-cu ildə Tiflisdə Rustaveli Teatrında N.B. Vəzirovun "Müsibəti Fəxrəddin" faciəsi göstərilərkən burada Göyərçin xanım haqqında gürcü



qəzeti "Saxalko" özünün 1910-cu il 129-cu sayında "Azərbaycan səhnəsinin tarixi günü" sərlövhəli məqalə vermişdi. Burada deyilirdi: "Biz qardaşlıq hissi və sevinci ilə bildiririk ki, müsəlman teatrının tarixi günü oktyabrın 9-dan başlayırıq, çünki bu gün ilk dəfə Səadət xanım rolunda azərbaycanlı qızı Göyərçin oynamışdır. Müsəlman aləmində irəliyə atılmış bu addım hamını, xüsusilə bizi sevindirir... Bu il baharın ilk göyərçini səhnəyə gələrək Azərbaycan teatrının yeni dövrünü açdı. Təsadüfi deyildir ki, birinci pərdədən sonra gənclər əllərində vərəqələr payladılar. Vərəqələrdə yazılmışdı: "Müsəlman səhnəsinin ilk göyərçini Göyərçin xanıma salam!".

Ü.Hacıbəyov teatr qrupası ilə 1911-ci ildə Tiflisə qastrola gedəndə o yerli artistlərdən istifadə edib "Leyli və Məcnun" operasını, "O olmasın, bu olsun", "Əlli yaşında cavan", "Evlikən subay" operettalarını səhnəyə qoymuş, qadın rollarını Gövhər xanım Göyərçin oynamışdır.

O dövrdə nəşr olunan "Kaspi", "Zaqafkazskaya reç", "Tifliski listok", "Səda", "Baku" və s. qəzetlər onun haqqında tərifli sözlər yazmışdılar.

### Azərbaycanlı ilk elmlər doktoru, professor qadın kim olub?



Azərbaycan qadınları arasından çıxmış ilk professor, tibb elmləri doktoru, əməkdar elm xadimi Sona Vəlixan (1883-1981). Xarkovda gimnaziya təhsili görmüş Sona xanım 1900-cü ildə İsveçrəyə getmiş, Lozanna Universitetinə daxil olmuşdur. 1901-ci ildə Xarkova qayıdıb, sonra Peterburq Qadın Tibb İnstitutunda əla qiymətlərlə oxuyub, ilk azərbaycanlı göz həkimi olmuşdur (1908). 1911-ci ilə kimi Peterburq Göz Xəstəlikləri Müalicəxanasında ordinator, 1915-1924-cü illərdə Xarkov Qadın Tibb İnstitutunun patoloji anatomiya kafedrasında assistent işləmişdir. 1924-cü ildə doğma yurdu Azərbaycana gəlmiş, Tibb İnstitutunun göz xəstəlikləri klinikasında çalışmış, 1928-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmiş, 1931-ci ildə professor vəzifəsini tutmuş, 1938-1970-ci illərdə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasına başçılıq etmişdir.

### Azərbaycanda ilk qadın mətbuatı nə vaxt və kim tərəfindən yaradılıb?



Azərbaycanda qadın mətbuatının tarixi "İşıq" jurnalı ilə başlayıb. "İşıq" jurnalı 1911-1912-ci illərdə nəşr edilib. Redaktoru Xədicə xanım Əlibəyova idi (1884-1958). Onun ömür yoldaşı, hüquqşünas Mustafa bəy Əlibəyov jurnalın nəşrində fəal rol oynayıb. Jurnalın əsas qayəsi qadınları tərəqqiyə, maarif və mədəniyyətə yiyələnməyə çağırmaq olub. Onun müəllifləri əsasən qadınlar idilər. Asya Axundzadə, Xuraman Rəhimbəyzadə, Maral Nəbizadə, Gövhər Şövqiyyə, Səidə Şeyxzadə, Nabat Nərimanova və b. maarifpərvər qadınlar "İşıq"ın səhifələrində təlim-tərbiyə, qadın hüququna, qızların təhsilə işinə cəlb edilməsinin əhəmiyyətinə aid yazılarla çıxış edirdilər.

"İşıq" jurnalının cəmi 68 sayı nəşr olunmuşdur.

Qadın Günəş, cocuq Ay,
nuru Ay Günəşdən alır.
Qadınsız ölkə çapuq,
məhv olur, zavallı qalır.
Qadın gülərsə şu issız
mühitimiz güləcək,
Sürüklənən bəşəriyyət,
qadınla yüksələcək!

*Hüseyn Cavid*

### *Rusiya Elmlər Akademiyasının ilk qadın prezidenti kim olub?*

Yekatırina Romanovna Daşkova (1743-1810) Knyaz R.I Vorontsovun zadagan ailəsində boyumuş Yekatirina Romanovna böyük rus alimi M.V. Lomonosovun istedadlı şagirdlərindən biri, geniş biliyə malik olan alim olmuşdur. O, elmə böyük rəğbət bəsləmiş, 1769-1782-ci illərdə xaricdə yaşamış, Smit, Volter, Didro kimi dövrünün görkəmli alimləri, yazıçıları ilə görüşmüşdür.

Y.Romanovna 1783-cü il yanvarın 24-də Peterburq Elmlər Akademiyasına seçilmiş ilk qadın prezidentidir. O, Akademiyada müxtəlif elm sahələrinə aid jurnalların nəşrinə rəhbərlik etmiş, yüksək ixtisaslı kadrların yetişməsinə çalışmışdır.

Y.R.Daşkova Amerika Filosoflar Cəmiyyətinin, İrlandiya və İsveçrə Elmlər Akademiyalarının faxri üzvü idi. Onun səyi nəticəsində Rusiyada İkinci Akademiya - Rus Dili və Filologiya Akademiyası yaradılmış, rus dilinin izahlı lüğəti buraxılmışdır. O, eyni zamanda bu yeni Akademiyanın da prezidenti olmuş, 1796-cı ilə kimi hər iki akademiyaya rəhbərlik etmişdir.

### *Yaponiyanın ən qədim yazıçı qadını kim olub?*

Murasaki Sıkibu (978-1014). Yaponiyada kişilərin hələ köhnə qaydalara riayət edərək çin dilində yazıb-yaratdıqları bir dövrdə qadınlar ürək sözlərini öz ana dillərində ifadə etməyin bünövrəsini qoymuşlar. Bu söz ustaları arasında Murasaki Sikibu və Sey Senaqon xüsusi yer tutmuşlar. Murasaki Sikibu Fudzivara nəslinin zadəganlar ailəsində anadan olmuşdur. Onun ulu babası Fudzivara Koneska "Tsytsumi tyunaqon monoqatari"nin (hekayələr toplusu) müəllifi kimi tanınmış, atası Tametoki zəmanəsinin məşhur alimi və şairi olmuş, adı "Poeziyanın otuz altı dahisi" antologiyasına düşmüşdür.

Murasaki 22 yaşında ərə getmiş, bir qızı olmuş, lakin əri vaxtsız vəfat etdiyindən dul qalmışdır. O, imperator sarayına qulluğa gələndə artıq tanınmış yazıçı idi. 1005-1013-cü illərdə burada qulluq edərkən o zaman dəbdə olan gündəlik janrına maraq göstərmiş, özünün "Murasaki Sikibu nikki" adlı əsərini yazmışdır.

Yapon və eləcə də dünya ədəbiyyatında əhəmiyyətli yer tutan "Qendzşi monoqatari" ("Qendzai haqqında roman) əsərini yaratmışdır. 70 illik bir tarixi dövrü təsvir edən, iki hissədən, 54 fəsildən ibarət olan bu monumental əsərdə 300 şəxs iştirak edir. (İstoriya vsemirnoy literaturı, t. 2, M. 1984, səh. 176-178.)

### *Xilafət dövrünün ərəb qadınları haqqında nə bilirsiniz?*

İslamiyyətdə ilk vaxtlarda elmə, təhsilə əhəmiyyət verilməsi nəticəsində Ərəbistanda elm inkişaf etməyə başlamışdır.

Bu dövrdə öz ağlı, fərasəti, elmi və intellektual səviyyələri ilə şöhrət qazanmış qadınlar da az olmamışdır.

Abbasilər xəlifəsinin hökmdarı Harun əl Rəşidin arvadı Zibeydə öz ağlı və şairiyi ilə hamını heyran etmişdi. O, Məkkə şəhərinə su kəməri çəkdirmiş, yunanlar tərəfindən dağıdılmış İskəndəriyyə şəhərini bərpa etdirmişdi.

Xəlifə Məhəmmədin arvadı Buran öz gözəlliyi, biliyi və xeyirxahlığı ilə tanınmışdı. O, Bağdadda "Hikmət evi", bir neçə təhsil ocağı və qadınlar üçün xəstəxana yaratmışdı.

XII əsrdə Bağdadda Şeyka Şuhda ədəbiyyat, tarix və ritorikadan mühazirələr oxuyarmış.

Zeynəb Ümmül Müayid hüquqşünaslıq üzrə alimlik adı almışdı.

Harun əl Rəşidin bacısı Aliyə gözəl musiqi bəstələyirdi.

### *Dünyada ilk qadın professor kim olub?*

Görkəmli rus riyaziyyatçısı, yazıçı və publisisti Sofiya Vasilyevna Kovalevskaya. Dünyada ilk qadın professor və Peterburq Elmlər Akademiyasının müxbir üzvü (1889) olub. O, 1850-ci ildə Moskvada dünyaya göz açıb. 1891-ci ildə Stokholmda vəfat edib.

Öz Vətənində ali məktəblərə buraxılmayan Sofiya Vasilyevna uzun müddət Almaniyada, Fransada, İsveçrədə yaşayıb işləmiş olmuşdur. Berlin Universitetinə qadınlar buraxılmadığı üçün 1874-cü ildə Veyerştrass onun üç elmi işini Hottingen Universitetinə təqdim etmiş və burada S.V.Kovalevskayaya qiyabi olaraq yüksək tərifnamə ilə fəlsəfə elmləri doktoru alimlik dərəcəsi verilmişdi. 1884-cü ildə o, ilk dəfə Stokholm Universitetinə professor təyin edilmişdir.



# İNCƏSƏNƏT



### *İncəsənət nədir? O hansı mənəvi dəyərləri özündə birləşdirir?*

İncəsənət bəşəriyyətin min illər boyu yaratdığı mənəvi mədəniyyətin bel sümüyüdür. O gözə görünən, duyulan, dərk edilən gerçəkliyin bədii obrazlarla əks olunmasıdır. Estetik fəaliyyətin xüsusi növüdür.

İncəsənət böyük fransız yazıçısı Emil Zolyanın (1840-1902) fikrincə "insan duyğusunun süzgəcindən keçmiş təbiətdir".

Böyük fransız yazıçısı Onore de Balzak (1799-1850) deyirdi: "Baxmaq heç də görmək deyildir".

Fransız filosofu, yazıçı Deni Didro (1713-1784) incəsənətin mühüm növü olan rəssamlıq sənətinə qiymət verərkən demişdir: "Rəsm çəkməyin əhəmiyyətini savad öyrənmək qədər vacib səviyyəyə qaldıra bilən ölkə incəsənətin bütün növləri üzrə əksər məmləkətləri ötüb keçə bilər".

İncəsənətin mənbəyi əməkdir. İnsan öz hiss və duyğularını, gözəllik haqqında anlayışını, emosionallığını böyük zəhmətli nəticəsində, bədii əsərə çevirir, yazıb-yaradır, bəstələyir. İncəsənətin mahiyyəti həyat həqiqətini, estetik idealını bədii təfəkkür vasitəsilə ortaya qoymaq, insanın estetik tərbiyyəsinə təsir göstərməkdir.

İncəsənətin insanın əxlaqi-mənəvi varlığı ilə möhkəm əlaqəsi vardır.

### *İncəsənətin növləri hansılardır?*

İncəsənət insanın bütün bədii yaradıcılığının növlərini özündə birləşdirir. Bura rəssamlıq, heykəltəraşlıq, musiqi, memarlıq, teatr, kino və s. daxildir. Bu sadaladığımız növlərin özləri də bir çox növlərə və janrlara bölünürlər. Məsələn, rəssamlıqda boyakarlıq, qrafika, dəzgah rəssamlığı, qravüra, estamp, dekorativ və tətbiqi sənət, teatr rəssamlığı, karikatura və s. Musiqidə mahnı, opera, operetta, simfoniya, skripka, fortepiano üçün konsertlər, poemalar, oratoriyalar və s.

### *Rəssamlığın növləri hansılardır?*

Rəssamlıq sənəti qədim olduğu kimi, onun inkişaf yolu da qədim əsrlərdən başlayır. Bu inkişaf yollarında onun çoxlu növü yaranmış, təkmilləşmişdir. Məsələn, bizim Qobustan qayaları üzərində cızma yolu ilə çəkilmiş rəsmləri görmüsünüz. Ən qədim dövrlərdə insanlar özləri haqqında gələcək nəsillərə məlumat vermək üçün qayalara, daşlara, yaşadıqları mağaraların divarlarına küt alətlərlə rəsmlər çəkmişlər. Sonralar daşları, qayaları çaparaq insan fiqurları, heykəllər yonub düzəltmişlər. Beləliklə, heykəltəraşlıq yaranmış, böyük inkişaf yolu keçmişdir.

Sonralar rəssamlığın qrafika, rəngkarlıq (boyakarlıq da deyilir), miniatür, dəzgah rəssamlığı, teatr-dekorativ, monumental-dekorativ, mozaika növləri, karikatura, portret, avtoportret, natürmort, mənzərə, tablo və s. janrları yaranmışdır.



### Dünyanın ən məşhur rəssamları kimlər olmuşlar? Onlar haqqında nə bilirsiniz?

XV əsrin ikinci yarısında İtaliyada mədəniyyətə, elmə həvəs göstərən, onu qiymətləndirən kübar ailələr meydana çıxırdı. Onlardan biri də Florensiyanın Mediçilər ailəsi idi. Onların sarayında görkəmli sənətkarlar - rəssamlar, heykəltəraşlar, memarlar, şairlər, tarixçilər çalışır, ədəbiyyatın və incəsənətin müxtəlif sahələrində gözəl əsərlər yaradırdılar. İntibah dövrü incəsənəti tarixində "Mediçilər mədəniyyəti dövrü" adlanan həmin dövrdə Florensiyada Domeniko Girlandayo (1449-1494), Verokkio (1433-1488), Sandro Bottiçelli (1444-1510) və Filippino Lippi (1457-1504) kimi sənətkarlar fəaliyyət göstərirdilər.



***Mikelancelo Buanarroti (1475-1564).***

İtalyan heykəltəraşı, boyakar, şair və memar, intibah dövrünün ən görkəmli nümayəndəsi kimi dünya mədəniyyəti tarixində xüsusi yer tutur. Onun mərmərdən düzəltdiyi "Madonna pilləkən yanında", "Kentavrların döyüşü" şedevr əsərlərdir. Onun ən möhtəşəm əsərlərindən biri də Vatikandakı Sikstin kapellası adı ilə məşhur olan salonun 500 kv.metrlik tavanının freskalarıdır. Böyük sənətkar 4 il ərzində (1508-1512) arxası üstündə əfsanələrdən götürülmüş mövzular əsasında saysız-hesabsız rəsmlərlə həmin tavanı bəzəmişdir. Burada 343 insan fiquru təsvir olunmuşdur. O, bir memar kimi Romada Kapitoli meydanını layihələşdirmişdi.



***Sandro Bottiçelli (1444-1510).***

İtalyan rəssamı. Florensiyada və Romada yaşamışdır. O, öz rəngkarlıq əsərlərində qədim dünyanın və müasirlərinin bədii əsərlərinə müraciət edirdi. Pliniyin "Böhtan" və Dantenin "İlahi Komediya" əsərlərinə çəkdiyi rəsmlər bu qəbildəndir. "Bahar" tablosu, "Veneranın təvəllüdü", "Madonna" tabloları ona dünya şöhrəti qazandırmışdır.

***El Qreko (1541-1614).***

İspaniyanın böyük rəssamı. Onun yaradıcılığı dünya incəsənəti tarixində parlaq səhifəni təşkil edir. Milliyyətcə yunan olan El Qreko Krit adasının Kandiya şəhərində anadan olub. O, Romada yaşayarkən əsasən portret janrında əsərlər çəkib. Madriddə yaşayanda dini mövzulara müraciət edib. "Müqəddəs üçlük", "Qraf Orqasın dəfn mərasimi", "Müqəddəs ailə" və s. əsərlərini yaratmışdır.



***XVI əsrdə*** Leonardo da Vinçi, Rafael və Mikelancelo kimi intibah nəhənglərinin ardınca İtaliya rəssamlarının daha bir qüdrətli dəstəsi fəaliyyət göstərirdi. Bu dəstədə Romada, Venesiyada, Bolonyada, Neapolda, Milanda və Florensiyada yaşayıb-yaratmış görkəmli rəssamların - Corconenin, Titsianın, Veronezin, Tintorettonun, Korrecconun və Venetonun adlarını çəkmək olar. Bu siyahıya XVI əsrdə Avropanın digər ölkələrində yaşamış, İtaliya İntibahı ənənələrini davam etdirmiş Dürerin, Holbeynin (Almaniya), ***Rodriges de Silva Velaskes,*** Van Eykin və Breygelin (Hollandiya), Koelyonun (İspaniya), Kluanın (Fransa) və b. rəssamların adlarını daxil edə bilərik.



***Van Deyk (1599-1641).***

Görkəmli flamand rəssamı. Van Deyk dünya rəssamlıq sənəti tarixinə görkəmli portretçi rəsam kimi daxil olmuşdur. Bununla belə o, mifik və dini mövzularda da dəyərli əsərlər çəkmişdir.







***Piter Paul Rubens (1577-1640).***

Flamand incəsənəti məktəbinin ən görkəmli nümayəndəsi. Həyatının mühüm dövrü İtaliyada keçmiş, İtalya rəssamlıq məktəbindən öyrənmiş, nəhayət doğma yurdu - Antverpenə qayıtmışdı. Onun burada emalatxanası Flamand incəsənəti mərkəzinə çevrilmişdi. Dünyanın məşhur muzeylərində onun dini, mifoloji, tarixi və alleqorik mövzularda monumental kompozisiyaları, döyüş epizodlarının və ovçuluq səhnələrinin təsvirini verən tabloları, portret təsvirləri və s. yüzlərlə əsəri nümayiş etdirilir.

***Jan Van Eysk***

XV əsrin böyük Niderland rəssamıdır. O, iki əsrdən çox davam və inkişaf edən Niderland rəssamlığının çiçəklənən epoxasını açmışdır. Onun yenilik gətirən sənəti öz ölkəsindən çox-çox ölkələrdə yayılmışdır. Jan Van Eyskin əsərləri İspaniya, Fransa, Almaniya və İtaliya rəssamları üçün kəşf olmuşdur. Avropanın dahi rəssamları onu "yeni dövrün birinci böyük rəssamı" adlandırmışlar. Gözəl portret və tablolar ustası olan Jan Van Eyskin əsərləri dünyanın bir çox məşhur muzeylərində saxlanılır. O, yağlı boyaların təkmilləşdirilməsi və yeni tərkibli rənglərin alınması sahəsində də böyük xidmətlər göstərmişdir.



***İlya Yefimoviç Repin (1844-1930).***

Rus boyakarı və qrafiki. Xarkovda anadan olmuş, Finlandiyada, indiki Repino kəndində vəfat etmişdir. Repin rus rəssamlıq sənətinin ən görkəmli simalarından biridir. O, Peterburq Rəssamlıq Akademiyasında təhsil almışdır. 1893-cü ildə həmin Akademiyanın həqiqi üzvü seçilmişdir. Repin portret, məişət və tarixi boyakarlıq janrında gözəl sənət əsərləri yaratmışdır. Onun "Burlaklar Volqada", "Bədnəzər kəndli", "Tövbədən imtina", "İvan Qroznı və oğlu" tabloları emosional təsir gücünə malik əsl sənət incilərıdir. Moskvada Repinə abidə qoyulmuşdur. "Peterburq boyakarlıq, heykəltəraşlıq və memarlıq" institutu onun adını daşıyır.



***Qoyya Fransisko (1746-1828).***

Görkəmli ispan rəssamı. İspaniyanın Saraqosa şəhərinin yaxınlığında anadan olmuş, burada təhsil almışdır. 1769-cu ildə İtaliyaya getmiş, sonra Madriddə yaşamış, məşhurlaşmışdır. 1786-cı ildən saray rəssamı, 1799-cu ildən isə Kralın birinci rəssamı olmuşdur. Qoyya yaradıcılığı Velaskes, El Qreko, sonralar isə dahi rəsam Rembrandt ənənələrinə yaxın olmuşdur.

1790-cı illərdə Qoyyanın portret yaradıcılığı yüksək inkişaf mərhələsinə çatmış, Avropa rəssamlığına böyük təsir etmişdir. Onun əsərləri Luvr, Paris, London və dünyanın digər məşhur muzeylərinin yaraşığı olmuşdur.

Sənətşünas tarixçilər onu yeni dövr sənətinin bayraqdarı sayırlar.



***Karl Petroviç Bryullov (1799-1852).***

Rus rəssamı. Peterburqda anadan olmuş. Peterburq Rəssamlıq Akademiyasında oxumuşdur. 1823-1835 və 1850-1852-ci illərdə İtaliyada yaşamış, yaratmışdır. 1836-cı ildən Peterburq Rəssamlıq Akademiyasının professorudur. Onun "Pompeyin son günü" tablosu bütün dünyada ən yaxşı rəngkarlıq əsəri kimi şöhrət qazanmışdır. Portret, akvarel rəsmləri, o cümlədən "Türk qadını", "Baxçasaray fəvvarəsi" tabloları məşhurdur.

O, Roma yaxınlığında Marçenoda vəfat etmişdir.

### *Musiqinin coğrafiyası varmı? Bu haqda nə bilirsiniz?*

Bəli, dünyamızın müxtəlif cəhətləri, tarixi-coğrafi əraziləri, ölkələri, xalqları olduğu kimi, dünya musiqisinin də geniş, rəngarəng coğrafiyası vardır. Musiqini yaxşı duyan, ondan zövq alan kamil insanlar əgər coğrafiyanı yaxşı bilirlərsə, o dəqiqə çalınan musiqinin hansı bölgəyə, regiona, xalqa məxsus olduğunu hiss edəcəklər. Məsələn, ərəb musiqisinin İran, Pakistan, tacik musiqisindən fərqli olduğunu görəcək. "türkülər" çalınanda adamın gözləri önündə Altay dağlarından üzü bu yana - Anadolu yarımadasınadək ərazilər canlanacaq. Türk şərqiləri səslənəndə bu yalnız Türkiyəyə məxsus olduğu bilinir. Onun qərb qonşuluğunda yunan xalq musiqisi çalınanda sankı Aralıq və Egey dənizlərinin dalğalarının melodiyası, ritmi hiss edilir. Balkan yarımadasında yaşayan albanların, xorvatların, makedoniyalıların, rumınların, bolqarların musiqisində yaxınlıq olsa da, onları bir-birindən fərqləndirmək də mümkündür. Məsələn, rumın, moldovan və qaraçıların mahnı və rəqsləri təxminən eynidir. Rus, belorus, Ukrayna melodiyalarında bir doğmalıq, yaxınlıq vardır. Uzaq Çin, Vyetnam, Laos musiqisi cingiltili alətlərlə çalındığından o dəqiqə hiss edirsən ki, bu melodiyalar bu xalqlara məxsusdur. Yeri gəlmişkən qeyd edək ki, bu xalqlara məxsus olan mahnıların, musiqinin formalaşmasında dil xüsusiyyətləri də mühüm rol oynayır. Çinə qonşu olan böyük hind yarımadasında yaşayan qədim hindlilərin melodiyaları, mahnıları çox asanlıqla seçilir. Hind musiqisi qonşu Pakistan və Kəşmir xalq havalarına necə də yaxındır, doğmadır.

Afrika qitəsində yaşayan zəncilərin ritmik rəqsləri monotonluğu ilə seçilir. Meksika musiqisi ilə Braziliya və Argentina melodiyalarında az da olsa fərq hiss etmək olur.

Bütün dünya xalqlarının musiqi coğrafiyası haqqında çox danışmaq olar. Qısaca onu deyə bilərik ki, bu xalqların qədim dövrlərdən yaratdıqları özünəməxsus ritmlər, melodiyalar, rəqslər sonralar xalqlar bir-birinə qovuşduqca, əlaqələr yarandıqca musiqidə də müəyyən təsirlər olubdur. Məsələn, çalğı alətlərini nəzərinizə gətirin: Tulumb azərbaycanlılarda da, moldovanlarda da, qədim türklərin yaşadıqları ərazilərdə də mövcud olubdur. Simli alətlər bütün xalqlarda vardır. Dəridən hazırlanmış nağara, qoşa nağara, dəf və s. Asiya, Afrika, Avropa ölkələri xalqlarının musiqi mədəniyyətinə möhkəm daxil olmuşdur.

### *Harmoniya nədir?*

Harmoniyanın əsas mənası ahəngdarlıq, uyğunluq deməkdir. Harmoniya təbiətdə, insan həyatında, təbiət və cəmiyyətin qanunauyğun inkişafında incəsənətin bütün növlərində-rəssamlıqda, heykəltəraşlıqda, memarlıqda, musiqidə mühüm cəhətdir. Harmoniyanın ikinci lüğəti mənası musiqi kompozisiyasında akkordların düzgün qurulması üsullarından bəhs edən musiqi nəzəriyyəsidir. Harmoniya tədris fənni kimi musiqi nəzəriyyəsi təhsilinin əsasını təşkil edir. Bəstəkar Rəşid Şəfəq qeyd edir ki, əgər harmoniya olmasaydı, biz həmişə... bir səsli melodiyaları dinləmək məcburiyyətində qalardıq. Harmoniya bir səsli musiqi melodiyalarını rəngarəng edir, yeni ruhda, yeni formada dinləyicilərə çatdırır.

Bəstəkarlarımız müxtəlif üsullardan istifadə edərək hər hansı bir əsərin harmonik səslənməsinə nail olurlar. Bu zaman əsərin əsas melodiyası olduğu kimi qalır. Əsas melodiyaya uyğun müşahidəçi melodiya və akkordlar isə obrazın dinləyicilərə daha aydın çatdırılmasına kömək edir. Musiqi daha canlı səslənir.

### *Musiqidə "harmoniyanın ulu babası" kim olmuşdur?*



**Iohann Sebastian Bax (1685-1750)**

Bu böyük alman bəstəkarı dünyaya 200 il ərzində çoxlu musiqiçi vermiş, qədim nəsildən idi. Bu soyadı daşıyan bütün musiqiçilər o qədər çox idilər ki, onları doğma vətənləri Tyuringiyada "Baxlar" adlandırırdılar.

İ.S.Bax musiqi mədəniyyəti tarixində zəngin irs qoymuşdur. Onun instrumental əsərləri - klavir, violençel, skripka üçün sonata və süitaları, parlaq və ecazkar "Brandenburq konsertləri", orqan və klavir üçün prelüdiyaları və fiqaları, həmçinin müxtəlif janrlarda bəstələdiyi əsərləri musiqi aləminə yaxşı tanışdır...

İ.S.Bax böyük bəstəkar olmaqla yanaşı, dahi polifonist idi. Bethovenin "harmoniyanın ulu babası" adlandırdığı Bax, həm də "polifoniyanın atası" idi.





### *Reçitativ nədir?*

Reçitativ (italyanca - reçitativo, reçitore - hündürdən oxumaq, deklamasiya demək) vokal musiqisinin xüsusi növü; nitqin (danışıq, söz) intonasiyalı və ritmik oxunması. Reçitativin mənşəyi xalq müğənnilərinin epik musiqili - poetik əsərləri ifa etməsi ilə bağlıdır (məs., dastanların aşıqlar tərəfindən söylənməsi və s.).

Avropa professional musiqisində reçitativ XVI əsrin sonu XVII əsrin əvvəllərində operanın yaranması ilə əlaqədar meydana gəlmişdir. Reçitativ və onun elementlərindən digər musiqi janrlarında (oratoriya, kantata, mahnıda) istifadə olunur (ASE, c. VIII səh. 127, 1984).

### *Kordebalet nə deməkdir?*

Fransızca corps de balet - yeni corps - şəxsi heyət və balet məfhumu ifadə edir.

Kordebalet - balet əsərlərində dəstə ilə oynayan balet artistləri heyətinə deyilir. Kütləvi səhnələrdə kordebaletdən geniş istifadə olunur ki, bu da əsərin canlı və emosional olmasına kömək edir.

### *Uvertüra nədir? Termin kimi ən çox harada istifadə edilir?*

Siz yəqin ki, dahi bəstəkar Üzeyir Hacıbəyovun "Koroğlu" operasının uvertürasını eşitmisiniz. Necə də gözəldir, əzəmətlidir. Həmin uvertüra ayrıca çalınanda da adama ləzzət verir, müstəqil musiqi əsəri kimi xoş təsir edir. Deməli, uvertüra musiqi əsərinə həm müqəddimə, həm də sərbəst musiqi parçası kimi başa düşülür. Uvertüra fransızca ouverture, latınca - apertura - açılış, başlanğıc deməkdir. Uvertüra opera, balet, operetta, kinofilm və s. əsərlərə yazılmış musiqi müqəddiməsidir. Uvertüranın ilk nümunəsini 1607-ci ildə K.Monteverdi "Orfey" operasında yaratmışdır.

### *Balet nədir? O incəsənətin bir növü kimi nə zamandan məlumdur?*

Balet, məzmunu musiqili xoreoqrafiya obrazları canlandırılan teatr sənət növüdür. Balet fransız dilində ballet, italyan dilində balletto, latın dilində ballo - rəqs edirəm deməkdir.

Ensiklopedik ədəbiyyatda balet janrının XVI - XIX əsrlərdə İtaliyada, sonra Fransada, İngiltərədə, İspaniyada və digər Avropa ölkələrində yaranıb yayıldığı göstərilir. Balet əsəri libretto (musiqi əsərinin yazılış mətni) əsasında bəstəkar tərəfindən bəstələnir, sonara teatr artistləri, xoreoqraflar, baletmeystr tərəfindən rəqslər, pantomima, geyimlər və səhnə quruluşu hazırlanıb ifa olunur. Balet teatr incəsənətinin çox sevilən gözəl sənət incisidir. Burada mövzu obrazlı musiqi və rəqslər vasitəsi ilə tamaşaçıya çatdırılır.



**"Jizel" baletindən adajio**

Vaxtı ilə Avropanın və dünyanın böyük teatr səhnələrində oynanılan, dahi bəstəkarların balet əsərləri, zərif, incə musiqisi, balet ulduzlarının klassik rəqsləri bu janrın şöhrətini aləmə yaymışdır. Dünya bu sənətin ocağını Avropada axtarmışdı. Amma bəşər sivilizasiyasının keçib-gəldiyi uzun yola xəyalən nəzər salanda görürsən ki, hər bir sənətin kökü var, binövrəsi var.

Balet - rəqs sənətinin kökü lap qədimlərə gedib çıxır. İnsanlar öz hiss və duyğularını, həyəcan və kədərlərini, sevinc və qələbələrini həmişə mərasimlərdə musiqi və əlvan süjetli rəqslərlə ifa etmişlər. Elə götürək qədim şahların, xaqanların, çarların saraylarında rəqqasələri, xanəndələri. Bunlar məgər balet sənətinin ibtidai şəkli deyilmi? Ulu Şərqin düşündüyü, zövq aldığı saray rəqqasələri bu günün balet ulduzlarının sələfləri deyilmi?

Bu haqda geniş bəhs etmək olar. Ancaq belə fikir söyləsək heç də yanılmarıq ki, Avropa rəqs mədəniyyətini Şərqdən əxz edib, onu daha da inkişaf etdirərək klassik və müasir balet sənəti səviyyəsinə qaldırmışdır.

### *Qədim yunan faciəsində xorun başçısı necə adlanırdı?*

Korifey. Bu söz bir neçə mənada işlədilir: 1) "Koryphaios - rəhbər, başçı, 2) Məna: kordebalet artistləri üçün ən yüksək dərəcə; 3) Məcazi mənada - elm, ədəbiyyat, texnika, incəsənət sahəsində aparıcı yer tutan görkəmli şəxs.

### Məşhur "Sonalar gölü" baletinin müəllifi kimdir?



Pyotr İliç Çaykovski (1840-1893)

Boyuk rus bəstəkarı Peterburq Konservatoriyasında N.İ.Zarembadan musiqi nəzəriyyəsini və A.Q.Rubinşteyndən bəstəkarlıq üzrə dərs almışdır. 1866-cı ildə Moskva Konservatoriyasının professoru olmuş, 1872-ci ildə "Harmoniya dərsliyi"ni yazmışdır.

1866-1877-ci illər P.İ.Çaykovskinin yaradıcılığının çiçəklənmə dövrü idi. O, bu dövrdə 3 simfoniya, "Romeo və Cülyetta" uvertura-fantaziyasını, "Fırtına", "Françeska da Rimini" simfonik fantaziyalarını, fortepiano və orkestr üçün I konsertini, skripka ilə orkestr üçün "Melanxolik serenada"sını, dünya şöhrətli "Sonalar gölü", "Şelkunçik" baletlərini, məşhur "Yevgeni Onegin", "Qaratoxmaq qadın", "Orlean qızı", "Mazepa" operalarını, bir çox simfoniyalarını və s. musiqinin bütün növləri üzrə gözəl əsərlərini yazmışdır.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov P.İ.Çaykovski yaradıcılığı barəsində demişdir ki, Çaykovski bizim üçün ona görə əzizdir ki, bir ovuc seçmə adamlar üçün deyil, geniş xalq üçün ölməz sənət inciləri yaratmışdır. O, bütöv bir nəsl üçün müəllim olmuşdur.

### Dünyanın görkəmli bəstəkarlarının sırasında daha kimlər vardır?

***Frans Şubert (1797-1828).*** Avstriya bəstəkarı. Musiqidə romantizmin ilk böyük nümayəndəsi idi. Onun yaradıcılığında mahnı janrı mühüm yer tutmuşdur. Yüzə qədər şairin şerinə 600 silsilə mahnı bəstələmiş, çoxlu musiqi janrında əsərlər yaratmışdır.

***Friderik Şopen (1810-1849).*** Məşhur polyak bəstəkarı və pianoçu. 7 yaşından konsertlərdə çıxış etmiş, öz əsərlərini çalmışdır. 8 yaşında onu "Polşa Motsartı" adlandırmışlar. Şopen yalnız piano üçün əsərlər bəstələmişdir. O, yeni piano yazısı və ifaçılıq üslubu, fortopiano balladası, 16 polenez, 58 mazurka, 17 vals, 24 prelud, 27 etüd, çoxlu beşik nəğməsi, rondo, mahnı və s. gözəl musiqi əsərinin müəllifi kimi tanınmışdır.

***Ferens List (1811-1886).*** Macar bəstəkarı, pianoçu, musiqi xadimi. 9 yaşından konsertlərdə çıxış etmişdir. 12 simfonik poema, 19 macar rapsodiyası, fortepiano üçün 2 konsert, xor və fortepiano əsərləri yazmışdır. O, yeni musiqi janrının - bir hissəli proqramlı simfonik poemanın yaradıcısıdır.

***A.S.Darqomıjski (1813-1869).*** Rus bəstəkarı. Rus musiqisində tənqidi realizmin banilərindən biridir. Bir sıra opera və simfonik əsərlərin müəllifidir.

***Cuzeppe Verdi (1813-1901).*** Opera janrının klassiki, məşhur italyan bəstəkarı. Yaradıcılığa 15 yaşından başlamış. "Riqoletto", "Kral əylənir", "Trubadur", "Traviata", "Don Karlos", "Aida" kimi dünya şöhrəti qazanmış opera əsərləri yaratmışdır. O, 26 operanın müəllifidir. Onun "Aida", "Riqoletto", "Traviata", "Otello", "Trubadur" operaları dəfələrlə Azərbaycan səhnəsində göstərilmişdir.

***Edvar Qriq (1843-1907).*** Norveç bəstəkarı, pianoçu və dirijor kimi arvadı-müğənni Hagerupla birlikdə Avropanın bir sıra şəhərlərində konsertlər vermişlər. E.Qriq Bergendə "Harmoniya" cəmiyyətinə rəhbərlik etmiş, İsveç, Fransa, Berlin akademiyalarına üzv seçilmiş, Kembric, Oksford universitetlərinin fəxri doktoru adına layiq görülmüşdür. O, Norveç klassik musiqisini dünya klassik musiqisi səviyyəsinə qaldırmışdır.

***M.A.Balakirev (1837-1910).*** Rus bəstəkarı, pianoçu, dirijor, musiqi xadimi. O, rus musiqisi tarixində istedadlı bəstəkarları başına yığıb "Qüdrətli dəstə" dərnəyi yaratmışdır. Bu dəstəyə A.P.Borodin, M.P.Musorqski, Rimski-Korsakov və S.A.Kui daxil idi. M.A.Balakirev "Yeni rus məktəbi", "Balakirev məktəbi"nin də yaradıcısıdır.

***Cakomo Puççini (1858-1924).*** İtalyan bəstəkarı. 10 yaşından kilsədə orqançalan işləmiş, pianoçu, orqançalan kimi konsertlərdə çıxış etmişdir. Yaradıcılığı əsasən opera janrı ilə bağlı olmuşdur. Müasir Avropa operalarında yer tutan orijinal reçitativ-ariozo üslubunu yaratmışdır. "Edqar", "Manon Lesko", "Bohema", "Toska", "Çio-çio-san" operaları dünyanın ən məşhur teatrlarında tamaşaya qoyulmuşdur. "Bohema", "Toska", "Çio-çio-san" operaları Azərbaycan səhnəsində də oynanılmışdır.

**XIX əsrdə yaşayıb-yaratmış görkəmli sənətkarların hər birinin öz yaradıcılıq üslubu, orijinallığı, tapıntısı vardır. Onların bəstələdikləri musiqi əsərləri dünya musiqi mədəniyyətinin qızıl fonduna daxil edilmişdir.**



## AZƏRBAYCAN




### Doğma yurdumuz Azərbaycan haqqında ən əvvəl nəyi bilmək və yadda saxlamaq lazımdır?

Respublikamızın ərazisinin ümumi sahəsi 86.6 min kvadrat kilometrdir.
Quru sərhədlərinin uzunluğu təxminən 2849 kilometrdir.
Dəniz sahili xəttinin uzunluğu 825 kilometrdir.
Xəzər dənizinin Azərbaycan sektoru 80 min kvadrat kilometrdir.
Paytaxtı -Bakı.
Bu gözəl, zəngin ölkədə 8,6 milyon insan yaşayır.
Dövlət dili Azərbaycan dilidir.
Dövlət quruluşu- Respublika.
Milli pul vahidi-Azərbaycan manatıdır.

*("Azərbaycan tarixi atlası", B.2007).*



*Foto H. Hüseynzadənindir*

### Yurdumuzun adı Azərbaycan hansı sözlərin birləşməsindən yaranmışdır? Bu birləşmə nə məna verir?

"Azərbaycan" sözünün tarixi, ölkənin adı kimi formalaşması miladı tarixinin əvvəllərinə aiddir. Dörd sözün birləşməsidir: Az+ər+bay+can. Sözlərin dördü də təmiz türkcədir. Az - qədim, güclü, qüdrətli türk tayfa adıdır; ər - ər, kişi, igid deməkdir; bay - bay, zəngin, böyük mənasını bildirir; can (qan, kan) xan sözünün qədim arxaiq şəklidir. Açılışı belədir: azərilərin, bəylərin və xanların ölkəsi deməkdir.

VI-VII əsrlər yunan tarixçisi F.Simokattanın "Dünya tarixi" əsərində iki-üç yerdə "Adərbeyqan" və "Adərbayqan" şəklində xatırlanır. Ərəb mənbələri bu sözü "Ad(z) - ərbayqan" "Ad(z)-ərbaycan" şəklində yazıblar".

Bu böyük ərlər ölkəsində yaşayan, ulu bir tarix yaradan əcdadlarımız 9-10 min il bundan əvvəl dünyada ilk dini - "Göy Tanrı dinini", atəşpərəstliyi, sonralar "Avesta" adlanan dini, fəlsəfi baxışı Odlar yurdumuzda yaradıb dünyaya yayıblar. Bu müqəddəs din bizim Zərdüşt babamızın, onun davamçılarının zəkasının məhsuludur.

### Azıx mağarası hansı dövrə aiddir, nə vaxt aşkar edilmiş və o neçənci tapıntıdır?

Azıx - qədim türk dilində "ayı" deməkdir. Bu mağaraya bəzən Azıx kahası da deyilir. Füzuli şəhərindən 14 km. Şimal-qərbdə Xocavənd bölgəsi ərazisində olan bu qədim insan dayanacağı 1968-ci ildə aşkar edilmişdir. Azərbaycan arxeoloqlarının aşkar etdikləri bu sirli mağara dünyada 4-cü tapıntıdır. O dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşir. Mağaranın uzunluğu 200, kiçik keçidlərlə 600 metrə çatır. Eni bəzi yerlərdə 50 metr, hündürlüyü 5-7 mərtəbəli bina qədərdir. Mağarada bir-birilə dar keçidlərlə birləşən 6 salon vardır.



"Azıx" Aşağı Paleolit dövrünə aid nadir mağaralardan biridir. Buradan ibtidai insanın çənə sümüyü, daş alətlər, dəhrə, çapacaq, habelə çoxlu miqdarda kərgədan, ayı, maral, at və b. heyvanların xırda sümük qırıntıları və dörd ocaq yeri tapılmışdır ki, bu da vaxtı ilə burada insanın yaşadığını, yaxud insan dayanacağının olduğunu göstərir. Bunlar sübut edir ki, Azərbaycan ərazisində 50 min il əvvəl yaşayış olmuşdur.

### Tarixdə hansı Azərbaycan dövlətləri olmuşdur?

Yurdumuzun tarixi uzaq keçmişlərə gedib çıxır. Beş min illik dövlətçilik tarixi olan Azərbaycan ərazisində xalqımız ən qədim dövrlərdə öz dövlətlərini qurmuş, yaşamış, qurub-yaratmış, vətənini yağılardan qorumuş, böyük inkişaf yolu keçmişdir.

Əcdadlarımız hələ e.ə. III minillikdə müxtəlif adlarda öz dövlət qurumlarını yaratmağa başlamışlar.

İlk Azərbaycan quldar dövləti Arrata olmuşdur. Təxminən e.ə. III minilliyin birinci yarısında.

*Kutium - Qutium dövləti.* III minillikdə Urmiya gölünün qərb və cənub-qərb hissəsində Kuti-Quti tayfa birləşmələri mövcud idi.

*Lullubum dövləti.* E.ə. 2220-2170-ci illərdə.

*Manna dövləti.* E.ə. I minilliyin əvvəlində Urmiya gölü hövzəsində mərkəzləşmiş dövlət səviyyəsinə qalxmışdı.



*Midiya dövləti.* E.ə. IX-VI əsrlərdə mövcud olmuş, paytaxtı Ekbatan - Həmədan idi.

*Atropatan dövləti.* E.ə. IV əsrin 20-ci ilində Atropat tərəfindən yaradılmış, bir əsrdən çox yaşamışdır.

*Alban dövləti.*(Qafqaz Albaniyası). Təqribən e.ə. IV-III əsrlərdə formalaşmağa başlamış, eramızın orta əsrlərinədək davam etmişdir.

*Şirvanşahlar.* Eramızın VI əsrindən 1538-ci ilədək davam etmiş, Azərbaycanda dövlətçiliyin inkişafında böyük rol oynamışdır.

*Sacilər.* Orta əsr feodal dövləti. IX əsrin sonu X əsrin birinci yarısınadək.

*Salarilər dövləti.* Orta əsr feodal dövləti. 941-981-ci illər. Paytaxtı Ərdəbil olmuşdur.

*Rəvvadilər.* Orta əsr feodal dövləti. X əsrin birinci yarısı.

*Şəddadilər.* Orta əsr feodal dövləti. X-XII əsrlərdə mövcud olmuşdur. Gəncə - Divin və Ani əmirliklərə bölünmüşdü.

*Atabəylər dövləti.* Atabəy Eldənizin başçılıq etdiyi bu dövlət (1136-1225) Azərbaycan tarixində böyük rol oynamışdır.

*Qaraqoyunlu dövləti.* Bayraqlarında qara qoyun rəmzi şəkli olduğu üçün belə adlanmışlar. 1378-1468-ci illərdə mövcud olmuşdur.

*Ağqoyunlu dövləti.* 1468-1501-ci illər. Qərbi Azərbaycan, Qərbi İran, Şərqi Gürcüstan və s. əraziləri əhatə edirdi.

*Səfəvi dövləti.* 1501-1736-cı illərdə qüdrətli dövlət olmuşdur.

*Azərbaycan xanlıqları.* XVIII əsr və XIX əsrin əvvəlləri.





### Oğuz kimdir? Onun haqqında "Oğuznamə" eposunda nə deyilir?

Türk rəvayətçilərinin dediyinə görə Yer kürəsinin ilk insanı Nuh peyğəmbər dünyanın bir hissəsini oğulları arasında bölüşdürmüşdü. Böyük oğlu Iafətə - Türküstanı, Olcay xana - Şərq ölkələrini vermişdi. O, böyük çölün sakini idi. Yaylaq və Qışlaq yeri Türküstanda idi.

Onun Dib Yavku xan adlı oğlu olmuşdu. Dib-türkcə xanagah, Yavku isə xalqa yol göstərən mənasını verir.

Dib Yavku xan qüdrətli hökmdar idi. Onun 4 oğlu - Qaraxan, Orxan, Kürxan və Güyzxan vardı. Qaraxan atasının taxtına çıxmışdı. Onun alihəzrət xüsusiyyətlərinə malik bir oğlu dünyaya göz açmış və üç gecə-gündüz anasının döşündən süd əmməkdən imtina etmişdi. Bundan narahat olan ana yuxuda görür ki, oğlu ona deyir: "İstəyirsən ki, mən sənin südünü əmim, onda gərək dünyanın yaradıcısı ulu tanrını qəbul edib ona səcdə edəsən"

Ana üç gecə belə yuxu görmüşdü. Ancaq onun qəbiləsi dinsiz olduğu üçün Allaha inamı qəbul etməkdən çəkinirdi. Oğluna məhəbbət ananı bir gün arından xəlvət əllərini göyə qaldırıb "Ey ulu tanrı, kömək elə, südüm şirin olsun, balam dirçəlsin" deyir. Uşaq o daqiqə anasının döşünə sığınıb əmməyə başladı. Bir yaşı olanda o, ağıllı və xeyirxahlıq əlamətləri ilə seçildi. O, dilə gəlib dedi: "Mən hökmdar çadırında anadan olmuşam. Ona görə məni Oğuz deyə çağırın." Oğuz gözəllikdə, fərasətdə hamını heyran qoydu. Ata sevinib onu böyüyəndə qardaşı Kyuzxanın qızına evləndirdi. Oğuz qızı evə gətirəndə ona dedi: "Sən gərək bir olan Allaha səcdə edəsən". Qız imtina edəndə Oğuz ona yaxın durmadı. Atası ikinci qardaşı Kürxanın qızını ona nişanladı. Oğuz ona da öz şərtini söylədi. Qız imtina etdi. Oğuz ona da yaxın durmadı. Atası üçüncü qardaşı Orxanın qızını Oğuza almağa hazırlaşanda, Oğuz çay qırağında gəzişən bu qıza rast gəldi, onu bəyəndi. "Əgər mənim şərtimə əməl etsən, səni xoşbəxt edərəm". Qız dedi: "Mən sənin bir hissənəm, nə desən sənə tabeyəm".

O biri gəlinlər bundan hirslənib Qaraxana dedilər ki, Oğuz bizdən dünyanın yaradıcısı Ulu tanrını tanımağı tələb edirdi. (F.Rəşidəddin, "Oğuznamə", B.1987, s.26)

Bu rəvayət bizə qədim türkün mənşəyi, dini haqqında məlumat verir. Həm də Ulu Tanrının göylərdə olduğunu, bütün varlıqların yaradıcısı - Allaha inamı ilk qəbul etdiyini bildirir.

### Oğuzlar nə zaman yaşamışlar, hansı ərazilərdə məskunlaşmışlar?

Oğuzlar qədim türkdilli tayfaların birliyidir. Mahmud Kaşqari oğuzların 22, Rəşidəddin isə 24 tayfadan ibarət və Oğuz xan nəslindən olduqlarını göstərirlər. Oğuzlar VII əsrin əvvəllərində Türk xaqanlığı tərkibində "Tokuz oğuz" (doqquz oğuz) tayfa ittifaqı kimi meydana çıxmışlar. Burada uyğurlar üstünlük təşkil edirdilər. Oğuzlar bir çox xalqların, o cümlədən, Azərbaycan xalqının etnogenezində mühüm rol oynamışlar. Onlar Ural dağlarından başlayaraq həmişə hərəkətdə olmuş, Hindistana, Çinə, Orta Asiyaya, Qazaxıstan çöllərinə, Urala, Şimalı Qafqaza, Güney Qafqaza, Kiçik Asiyaya, Suriyaya, İraqa, İrana, Əfqanıstana və başqa ərazilərə yürüşlər etmiş, əvvəlcə qan tökmədən Oğuz elinə birləşməyi, bac verməyi tələb etmişlər. Bundan boyun qaçıran, müqavimət göstərən dövlətlərlə müharibələr aparmışlar.

F.Rəşidəddin "Oğuznamə" əsərində oğuzların bütün şəcərəsi və hərbi yürüşləri, tarixi mədəniyyəti haqqında bəhs edir.

### Oğuz müharibəni necə aparırdı?

"Oğuznamə"ni oxuyanda Oğuzun şəxsiyyəti, sərkərdəlik bacarığı, ağlı, hərbi müdrikliyi, insanpərvərliyi, humanizmi adamı heyran edir. O, şübhəsiz fatehdir. Çoxlu ölkələri özünə tabe etdirib. Amma nahaq qan

ba, Dərbənd, Muğan düzündə - Salyan, Kür və Arazın qovşağında - Cavad, Xəzərin cənub qərbində - Talış. Güney Azərbaycanda - Təbriz, Urmiya, Xoy, Qaradağ, Sərab, Marağa, Maku xanlıqları yaradılmışdır.

Bu parçalanmağın nəticəsi idi ki, həmin əsrin axırlarında, XIX əsrin əvvəllərində Rus imperiyası ermənilərin satqınlığı ilə bu xanlıqları bir-bir əzib Azərbaycan torpaqlarını işğal etdi. 1813 və 1828-ci il müqavilələrinə görə Azərbaycan iki yerə bölündü.



Azərbaycan Demokratik Cümhuriyyətinin liderlərinin Gəncədə görüşü.

Rəssam: A.Məmmədov

### Gəncə üsyanı kimə qarşı idi?

1920-ci ilin may ayının 26-dan 31-dək Gəncədə böyük bir üsyan olmuşdu. Gəncədə XI Qızıl ordunun süngülərinin gücü ilə bir ay idi ki, sovet hakimiyyəti qurulmuşdu. Bu hakimiyyət yarandığı ilk gündən insanların ləyaqətini, şərəfini, qürurunu tapdalayan işlər görürdü. Milli istiqlalı əlindən alınmış əhali çox narazı idi. Şəhərə yeni təyin olunmuş bolşevik məmurlar bir-birinin ardınca adlı-sanlı adamları, milli azadlıq hərəkatının liderlərini təqib edir, həbsə alır, qanlı cinayətlər törədirdilər. Bunlarla barışmayan milli ordunun piyada diviziyasının rəisi general-mayor Cavad bəy Şıxlinski, 3-cü Gəncə piyada alayının komandiri, polkovnik Cahangir bəy Kazımbəyov, sabiq Gəncə komendantı, general-mayor şahzadə Mirzə Kazım Qacar, Azərbaycanın ilk demokratik cümhuriyyətinin yaradıcılarından Nəsibbəy Usubbəyov, Şəfi bəy Rüstəmbəyov, İsmayılxan Ziyadxanov, Qafarağa Rəfibəyov, Gəncənin sabiq polis rəisi Qəmbər Tağı oğlu, partizan dəstəsinin başçısı qaçaq Qəmbər, Sarı Ələkbər və onlarla başqaları ayağa qalxıb milli müstəqilliyi, azad demokratik cümhuriyyəti bərpa etmək üçün silahlı üsyan qaldırmağı qərara aldılar. 1920-ci il mayın 26-a keçən gecə bütün milli qüvvələr ayağa qalxdılar. Üsyan başlandı. Əvvəlcə fövqəladə komissarın binası alındı. Sonra şəhər həbsxanasının qapıları açılıb dustaqlar azad edildilər. Bağmanlar və Şəmkir səmtdən qiyamçılara kömək gəldilər. Şəhərdə əsl müharibə gedirdi. Üsyançılar Gəncə çayının sağ tərəfində ermənilər yaşayan məhəllələrdə dayanmış XI Qızıl ordu hissələrinə və dəmiryol stansiyasına hücuma keçdilər. Bu üsyandan istifadə edən ermənilər yenə satqınlıq edərək, bolşevik əsgərlərlə birləşib silaha əl ataraq Gəncə çayını keçib müsəlman əhalisinin evlərinə soxulub qırğınlar törətməyə, qarətlə məşğul olmağa başladılar.

Erməni xəyanəti, arxadan vurulan zərbə, bolşevik hökumətinin XI Qızıl ordu hissələrini gücləndirməsi və şəhəri dörd tərəfdən mühasirəyə alması nəticəsində üsyan mayın 31-də vəhşicəsinə yatırıldı. Azərbaycan Demokratik Cümhuriyyəti xadimlərinin yazdıqları məlumata görə bu savaşda 8,5 min hökumət əsgəri, təxminən bir o qədər də üsyançı həlak oldu. Lakin bu faciə Gəncənin tarixinə qəhrəmanlıq səhifələri kimi həkk edildi.



## GÖZƏLLİKLƏR DİYARI



Gözəl yurdumuz Azərbaycan öz təbii şəraiti, relyefi, mülayim iqlimi, yeraltı və yerüstü sərvətləri olan qədim, zəngin bir diyardır. Ərazisinin kiçik olmasına baxmayaraq, Yer kürəsinin 11 iqlim zonasından 8-i Azərbaycanda vardır.

Azərbaycanın relyefi çox müxtəlifdir. Uca, sıldırım qayalar, başı buludlara dəyən zirvələr, əcazkar dərələr, yaşıl, gül-çiçəkli alp çəmənlikləri, coşqun dağ çayları, ucsuz-bucaqsız Mil, Muğan, Qarabağ, Şirvan ovalıqları, bərəkətli çöllər bu diyara xüsusi gözəlliklər verir. Azərbaycan ərazisində mütləq hündürlük 4466 metr Bazardüzü zirvəsidir. Ən aşağı səviyyə Xəzər dənizinin sahilləridir. Bura okean səviyyəsindən 28 metr aşağıdır.

Azərbaycan Böyük və Kiçik Qafqaz və Talış dağları qoynunda zəngin bəzənmiş, gül-çiçəyə bürünmüş bir gəlinə bənzəyir. Onun coğrafi xəritəsi qartala oxşayır. Baş Qafqaz silsiləsində bir neçə keçilən aşırım vardır. Onlardan ən ucası Şərqi Salavat aşırımıdır. Hündürlüyü 2900 metrdir. Baş Qafqaza paralel olaraq şimalda Yan silsiləsi, cənubda isə Qovdağ və Niyaldağ silsilələri uzanır. Yan silsilənin ən uca zirvəsi Şahdağdır, hündürlüyü 4243 metrdir. Böyük Qafqazın şərq ətəyində Qusar maili düzənliyi, cənubunda Qobustan alçaq dağlıq massivi öz rəngarəng gözəl mənzərələri ilə insanı valeh edir.

Kiçik Qafqazın hamar suayrıcları, Murovdağ, Göyçə, Qarabağ, Dərələyəz, Zəngəzur silsilələri bu yerlərə xüsusi gözəllik verir. Kiçik Qafqaz dağlarının düzənliyə qovuşan ətəkləri boyu Gəncə, Qazax, Naftalan düzənlikləri al-əlvan xalını xatırladır. Bu yerlərin gözəlliyi haqqında söz-sənət ustaları çox yazmışlar. Azərbaycanın cənub-şərqində olan Talış dağları da yurdumuza bir bəzəkdir. Bu rəngarəng ərazilərdə olan zəngin bitki və heyvanlar aləmi, yurdumuzu daha da gözəlləşdirmiş, xalqımızın şöhrətini bütün dünyaya yaymışdır.







### Azərbaycan ərazisində hansı ən hündür dağ zirvələri var?

| Adları | Dəniz səviyyəsindən hündürlüyü (metr) | Yeri |
|---|---|---|
| Böyük Qafqazda | | |
| Bazar Düzü | 4466 | Baş Qafqaz sıra dağları |
| Şahdağ | 4243 | Yan sıra dağlar |
| Tufandağ | 4191 | Baş Qafqaz sıra dağları |
| Kiçik Qafqazda | | |
| Qapıçıq | 3906 | Zəngəzur sıra dağları |
| Qamışdağ | 3724 | Murovdağ sıra dağları |
| Böyük İşıqlı | 3552 | Qarabağ vulkanik yaylası |
| Talış dağları | | |
| Kömügey | 2492 | Talış sıra dağları |
| Qız yurdu | 2438 | Talış sıra dağları |

### Azərbaycanda hansı göllər var?

| Göllər | Sahəsi ($km^2$) |
|---|---|
| Hacıqabul | 17,5 |
| Sarısu | 15,0 |
| Candar | 12,0 |
| Acınohur | 11,1 |
| Böyükşor | 9,6 |
| Böyük Alagöl | 5,1 |
| Bınəqədi | 4,0 |
| Göy-göl | 0,8 |
| Masazır | 0,8 |
| Qaragöl (Böyük İşıqlı dağda) | 1,80 |
| Ala göllər (Pariçınqılı) | 0,72 |
| Qaragöl (Parinçınqılı) | 0,90 |
| Maralgöl | 0,23 |
| Qaragöl (Tərtər çayı hövzəsi) | 0,06 |

### Xəzər sahilində Azərbaycana məxsus hansı adalar var?

| Adları | Sahəsi (km2) |
|---|---|
| Pirallahı | 14,4 |
| Çilov | 11,5 |
| Xərə-Zirə | 3,5 |
| Nargin (Böyük Zirə) | 1,4 |
| Gil Zirə | 0,5 |
| Səngi Muğan | 0,5 |
| Zənbil (Duvannı) | 0,4 |
| Daş Zirə (Vulf) | 0,1 |

### Göy-göl ətrafının faunasını, gözəlliklərini qorumaq üçün nə işlər görülmüşdür?

Əvvəla onu qeyd edək ki, 1965-ci ildə Göy-göl dövlət qoruğu yaradılmışdır. Bu gözəl, zəngin təbiət muzeyinin - qoruğunun sahəsi 7500 hektardır. Kiçik Qafqaz dağlarının şimal-şərqində, dəniz səviyyəsindən 1100-3065 metr yüksəklikdə yerləşən qoruğun ərazisində Göy-göl, Maral göl, Zalli göl və b. kiçik göllər vardır. Bu qoruğun ərazisində 423 bitki növü - o cümlədən şərq fısdığı, şərq palıdı, Qafqaz vələsi, toz ağacı, ağcaqayın və s. bitir. Heyvanlar aləmi də zəngindir. Burada maral, dağ və meşə dələsi, kəklik, bülbül və s. vardır.

Qoruqda təbiət muzeyi də yaradılmışdır.



### Təbiətin gözəli Göy-Göl nə zaman və necə əmələ gəlmişdir?

1139-cu ildə Murov dağ silsiləsinin şimal yamacında dəhşətli zəlzələ nəticəsində Kəpəz dağının göylərə ucalan qayaları parçalanıb Ağsu dərəsinin qabağını kəsərək Göy-Göl əmələ gəlir. Ağsu çayının billur sulan burada yığılaraq gözəl bir mənzərəli göl yaranmışdır. Sahəsi 0,8 kv.km olan Göy-Göl dəniz səviyyəsindən 1566 metr yüksəklikdə yerləşir.

Dərinliyi 93 metrdir. Göy-Gölün ətrafında daha bir neçə göl, o cümlədən Maral göl, Zəlli göl əmələ gəlmişdir. Bu yerlərin təbii gözəlliklərini şairlərimiz, rəssamlarımız, bəstəkarlarımız vəsf etmiş, gözəl, lirik əsərlər yaratmışlar.





### XVIII əsrin ortalarında Qarabağ xanlığı Azərbaycanın hansı xanlıqları ilə həmsərhəd idi?

Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad, Şamaxı xanlıqları ilə.

### Qarabağ düzü harada yerləşir?

Kür - Araz ovalığının bir hissəsi olan Qarabağ düzü şimal-qərbdən Gəncə - Qazax düzənliyi, qərbdən Kiçik Qafqazın Murovdağ və Qarabağ silsilələri, cənubdan və cənub-şərqdən Mil düzü ilə əhatə olunur. Şirvan düzündən Kür çayı vasitəsilə ayrılır.

### Qarayazı düzü haradadır?

Qarayazı çölü də adlanır. Azərbaycanın Qazax bölgəsində Kür çayının sol sahilindədir. Şimaldan İori yaylası, şərqdən Ceyrançöl ilə əhatə olunur. Qərbdən Gürcüstanın Kartli düzü ilə birləşir. Səthi dalğalı, təpəli olan düzənlik dəniz səviyyəsindən 280-600 metr yüksəklikdədir.

### Qarayazı meşəsi harada yerləşir?

El arasında Qarayazı meşəsi Soyuq bulaq meşəsi də adlanır. Bu meşə Azərbaycanın qərbində Qazax bölgəsində Kür çayının hər iki sahilində yerləşir. Sahəsi 10732 hektardır. Bu meşədə qovaq, söyüd, qarağac, palıd, püstə, armud, iydə, əzgil, alma, alça, tut ağacları və s. bitkilər bitir. Qarayazı meşəsində qırqovul, turac, ağacdələn və s. quşlar, heyvanlar yaşayır.

### Yurdumuzda olan "İncədağ", "İnci su", "İncəçay", "İncəçöl" və s. bir sıra yer adları nə ilə əlaqədardır?

Bir sıra tarixi mənbələrdə, o cümlədən V.Q.Tizenqauzenin Qızıl Orda tarixinə dair əsərində (Sankt Peterburq, 1884), A.İ.Popovun "Qıpçaqlar və Rusiya" elmi məqaləsində (AQU, 1949) qıpçaqlar haqqında yazarkən ehtimal edir ki, qıpçaqların bir qolu olan incilər adlı türk tayfaları XI - XIII əsrlərdə Cənubi Rusiya çöllərindən, Şimali Qafqazdan, Güney Qafqaza gəlmişlər. XIII əsrin birinci yarısında onların bir qismi də Azərbaycanda məskunlaşmış, həmin yer adları da onlarla əlaqədardır. Hazırda Şəki, Qazax, Cəbrayıl, Cəlilabad və s. bölgələrdə incilər toponimi ilə bağlı yer adları vardır.

### Qafqazda ən hündür dağ kəndi hansıdır?

Quba rayonunda, Baş Qafqaz və Yan silsilələri arasında çökəklikdə bir kənd var. Bu, Qafqazda ən hündür dağ kəndi Xınalıqdır. Burada 2070 (1986) adam yaşayır. Bu kəndin özünəməxsus xüsusiyyətləri vardır. Tarixi qədimlərdən gəlir. Kənd əhalisi Xınalıq dilində danışır.



Xınalıq kəndi.
Rəssam: M.Rəhmanzadə

### Hinaldağ haradadır?

Gözəl yurdumuzun cənub-qərb hissəsində göylərə baş vuran Hınaldağı Daşkəsən bölgəsinin ərazisində Tanrıyoxuş aşırımından qərbdə Levçay, Şəmkir çay və Gəncəçayın mənbəyindədir. Yamacları güllü-çiçəkli çəmənliklər olan Hınaldağının hündürlüyü dəniz səviyyəsindən 3367 metrdir.

### Azərbaycanda vulkan varmı?

Azərbaycanda hazırda fəaliyyətdə olan Vezuvi kimi vulkanlar yoxdur. Ancaq bu, o demək deyildir ki, Azərbaycan ərazisində vulkanlar heç olmamışdır.

Kiçik Qafqaz dağlarının bəzi yerlərində vaxtilə güclü vulkan püskürmələri olmuşdur. Məsələn, Kəlbəcər bölgəsində olan şiş təpəli Dəlidağ, Naxçıvanda İlanlı dağ vulkanlarını göstərmək olar.

### Güzey Azərbaycan ərazisində nə qədər palçıq vulkanı vardır?

250-dən çox. Bu vulkanlar həm quruda, həm də Xəzər dənizində suyun altındadır. Qobustanda, Cənub-Şərqi Şirvanda bir çox - Torağay, Boz-



Palçıq vulkanı

# ƏSRLƏRİN YADDAŞNDAN QALAN İZLƏR



### *Qobustanın qaya təsvirlərinin neçə yaşı var?*

Alımlərin verdikləri məlumata görə bu təsvirlərin tarixi XIII minillikdən başlanır. Azərbaycanın qayaüstü rəsmləri Qobustandadır. İti uclu daş ilə qaya üzərində cızılmış bu təsvirlər XIII-X minilliyə aiddir. Təsvirlərin formasına və məzmununa görə belə ehtimal edilir ki, burada uzun illər, əsrlər boyu həyat olmuş, insanlar öz bacarıqlarını, məişət işlərini gələcək nəsillərə çatdırmaq üçün qayaların üzərində ən qədim incəsənət nümunələri olan şəkillər cızmışlar. Burada çoxlu kişi, qadın rəsmləri, vəhşi öküz, keçi, maral, gur, ceyran, şir, it, balıq, ilan və s. heyvan şəkilləri vardır. Qaya təsvirlərində sanki qədim insanların həyatı əks olunmuşdur. 750 qaya üzərində 4000-ə qədər ov etmə,



yallıya oxşar rəqs, qayıqlar, taxıl biçini, şirlərin başqa heyvanlara hücumu, öküz sürüsü, at ilxısı, dəvə karvanı, iki çarxlı araba və s. rəsmləri çəkilmişdir. Qobustanın ən möcüzəli abidəsi Qavaldaşıdır. Bu böyük daş özündən altdakı qayaya yalnız iki nöqtədə toxunur. Ona kiçik əl daşı ilə toxunduqda, vurduqda cingiltili səs çıxarır. Görünür qədim qobustanlılar öz mərasimlərini bu qavaldaşın ətrafında keçirmiş, ilk rəqslərimizin, melodiyalarımızın əsasını qoymuşlar.

Norveç alimi, səyyahı, yazıçısı Tur Heyerdal Qobustan üzərindəki qayıqları görəndə heyrətə gəlmiş öz əcdadlarının bu torpaqdan çıxdığını söyləmişdi.

### *Qobustan qoruğu haradadır və onun mədəniyyət tariximizdəki əhəmiyyəti nədən ibarətdir?*

Qobustan - quru yer deməkdir. Bura dərəli-təpəli, çökəyi, yarğanı olan yerdir. Azərbaycanın ən qədim yaşayış yeri olan Qobustan heç şübhəsiz indiki kimi yalnız qayalıqdan ibarət yer deyildi. Burada qaya üzərində çəkilmiş rəsmlər də bunu sübut edir.

Qobustan Bakıdan 55 km. cənubda, Bakı-Astara yolunun sağ tərəfində yerləşir. Xəzər dənizi ilə Şamaxı rayonu arasında Ceyrankeçməz çayı hövzəsində dağ ətəyi ərazidə yerləşən Qobustan 1966-cı ildə Azərbaycan hökumətinin qərarı ilə Dövlət tarixi-bədii qoruğu elan edilmişdir. Qobustanın tarixi əhəmiyyəti böyükdür. Burada arxeoloji qazıntılar zamanı tapılmış minlərlə maddi-mədəniyyət nümunələri: qaşovlar, kəsərlər, bizlər, bıçaqlar, çapacaqlar, ox ucları, iskənələr, sürtgəclər və s. əmək alətləri, saxsı qab-qaşıqlar, silah nümunələri, heyvan dişindən, çay daşından, sümükdən, balıqqulağından müxtəlif bəzək əşyaları Qobustanın on-on iki min illik tarixindən xəbər verir.

Qobustanı ilk dəfə Azərbaycanın görkəmli alimi, arxeoloq İshaq Cəfərzadə öyrənməyə başlamış, 40 ilə yaxın buranı qarış-qarış gəzmiş, əcdadlarımızın yaratdıqları ilk mədəniyyət, incəsənət nümunələri haqqında fikir söyləmişdir.





### *Avesta nədir?*

Bu sualın cavabını bir çox görkəmli alimlərin əsərlərində, xüsusilə Azərbaycanın gözəl tədqiqatçısı, filologiya elmləri doktoru, professor Elməddin Əlibəyzadənin "Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi", "Avesta" adlı sanballı kitablarında, elmi publisistik məqalələrində tapmaq olar. E.Əlibəyzadə yazır: "Avesta"-zərdüşlüyün müqəddəs kitablar külliyyatıdır. Dini, etik, hüquqi norma və tələblərdən ibarət olan mətinləri, dua xarakterli mahnıları və himnləri, mifləri, rəvayətləri, astranomiya, kainat, təbiət və s. haqqında məlumatları özündə cəmləşdirən kitablar külliyyatıdır. Zərdüştlik dindir, fəlsəfədir, elmdir, bədiyyatdır. Şumer-Babil mədəniyyətindən bağlanıb gələn bu din, fəlsəfə, elm və bədiyyat "Avesta"da ümmana çevrilib, zəngin fikirlər, kəlamlar toplusu olub. Azərbaycan dini-etik görüşləri, fəlsəfi baxışı və bədii fikir dünyasının mayası, qaynağı, əzələ Şumer-Babil mədəniyyəti, "Bilqamıs" dastanı və "Avesta"dır. Oradakı dünyavi fikirlər tarix özü dini inamımızın, fəlsəfəmizin, adət-ənənələrimizin, ədəbiyyatımızın, mənəvi və estetik zövqümüzün ilkin çıxış nöqtəsi, baş xətti olubdur".

"Avesta" qədim Azərbaycanda eramızdan əvvəl IX əsrdə yaranmışdır. "Avesta" əslində qədim Azərbaycan-Midiya dövlətinin qanun kitabı olmuşdur. Farslar Midiyanı süquta uğradandan sonra zərdüştliyi qəbul etmişlər. Tarixi qaynaqlar, xüsusilə qədim yunan mənbələri, arxeoloji tapıntılar təsdiq edir ki, Zərdüşt və onun yaratdığı dinin, atəşpərəstliyin tarixi farslardan xeyli qədimdir.

"Avesta" əslində "Göy Tanrı dini" olub. O Şumer-türk sivilizasiyasının güclü bir qoludur. "Avesta"nın əsli də qədim Şumer-türk dilində və əlifbasında yazılıb. Sonralar qədim fars dilinə çevrilib. Farslarda bu dinin mahiyyəti, məzmunu qalıb, adı isə dəyişilib. "Avesta" "Əvəstə" "Apasti" şəklinə düşüb, belə də məşhurlaşıb. Beləliklə "Avesta" qədim Azərbaycan, İran, Kiçik və Orta Asıya xalqlarının islamdan öncə əsas dini baxışları olmuş və bu günədək yaşamışdır.

### *Zərdüşt Kimdir? Onun haqqında hansı rəvayətlər var?*

Zərdüşt tarixi şəxsiyyətdir. Onun zəkası, ağlı, dini təlimi və elmi ilə nəsillər bəhrələnib, tərbiyə alıblar.

Zərdüştün dünyaya gəlişi və həyat yolu barədə maraqlı dastan və rəvayətlər var.

Türk alimi M.N. Səbətçioğlu yazır ki, "tarixi bir şəxsiyyət olan Zərdüştün doğuluşu, yaşayışı və ölümü dastan ünsürlərilə səslənərək bir əfsanə halını daşımaqdadır". Onun nəşr etdirdiyi rəvayətdə deyilir: "Zərdüşt gülə-gülə dünyaya gəlib. Bu doğuluşdan dünya sevinib. Amma Durasan adlı baş kahin bundan qorxuya düşüb. Zərdüştün yeni din gətirəcəyini öyrənib, onu körpə ikən öldürmək istəmişdi. Kahinin üç sehirbazı uşağı üç dəfə oğurlayıb, əvvəlcə oda atmışlar. Sonra naxırın qabağına qoymuş, nəhayət canavarlara yem etmək və ya acından öldürmək üçün onu mağaraya atmışlar. Oğlunu axtaran ana uşağın odlar içində oynadığını, ikinci dəfə bir inəyin uşağı paçası arasına alıb qoruduğunu görmüş, üçüncü dəfə canavarlar uşağın üstünə gələndə yerıyə bilməmişlər. Uşaq acıb ağlayanda keçi şəklində iki mələk onu əmizdirmişdir.

Zərdüştün ata-anası uşağın fövqəladiliyini başa düşüb, onu ən yaxşı bir müəllimə vermişlər. Zərdüşt hər şeyi öyrənəndən sonra Habovca adlı bir gözəl qızla evlənmişdi. Dünyada pisliyin və yaxşılığın nə olduğunu bilmək üçün Sabalan dağına çəkilmiş, orada illərlə fikirləşmiş və başa düşmüşdür ki, xeyir və şər dünyanı idarə edən iki qüvvədir. Buna inanan Zərdüşt öz inamını - xeyirxahlığı, yaxşılığı yaymağa başlamışdı.

Buna oxşar başqa bir rəvayət "Zərdüştnamə" adlı bir əsərdə deyilir ki, Zərdüşt azərbaycanlıdır. Qədimlərdə Əhrimən dünyanı bərbad hala saldığı zaman Tanrı bir peyğənbər yaratmışdı. Firudin nəslindən olan Pürtasbın bir oğlu olmuş, münəccimin məsləhətilə adını Zərdüşt qoymuşlar. Əhrimanə qulluq edənlər onu oğurlayıb oda atmışlar. Lakin od onu yandırmamışdı. Aparıb mal-qaranın keçdiyi dar bir keçıddə qoymuşlar. Burada da bir qüvvətli öküz uşağı ayaqları arasına alıb qorumuşdu. Bundan sonra Əhrimanın adamları onu dar bir keçıddə ilxı ayağı altına atmışlar. Burada da bir madyan at onu qorumuşdu. Sonra uşağı canavara atmışlar. O uşağı yemək istədikdə ağzı bağlanmışdı. Beləliklə, Əhrimən Zərdüştü məhv etdirə bilməmişdi.

Rəvayətdə Zərdüştə olan xalqın məhəbbəti, inam və ümidləri ifadə olunub.

Qədim Şumer-türk inamı, mənəvi dünyası ilə səsləşən "Oda inam", "Öküz (buğa)", "Qurd totemi", "Atın vəfası" rəvayətdə ön plana çəkilib



### Dərbənd qala şəhərinin neçə qapısı vardı?

Qədim dunyanın mohlaşəm şəhərlərindən olan Dərbənd qala şəhərinin 7 qapısı olub: Bayal qapı, Carçı qapı, Orta qapı, Yengicə qapı, Daş qapı, Qala qapı və Quba qapısı. Bu qapıların hər biri bir məhəlləyə açılırmış. Bu daş tağlı, dəmir qapılı darvazaların, yeraltı yolların böyük strateji əhəmiyyəti vardı. Bu şəhərə gələn hər bir qasid, elçı gözübağlı yeraltı yolların biri ilə saraya aparılırmış. Başqa qapıdan yola salınırmış. Məqsəd qalanın sirrini saxlamaq imiş.

### Dərbəndlilər bu qapılar haqqında nə danışırlar?

Bu qapılar haqqında və qala haqqında neçə-neçə əfsanə var. Bir əfsanədə deyilir ki, bir gün gənc türk xanı öz qoşunu ilə Dərbəndə hücum etmək istəyir. O, şəhərin əzəmətli divarları önündə dayanıb heyrətlə baxır. Bunu görən Dərbənd hakiminin qızı gənc xana vurulur. Tez bir məktub yazıb oxun ucuna bənd edib xana tərəf atır. Məktubda deyilirdi ki, "Atamın qoşunu Sarıyaldadır. Qalaya su da o dağdan gəlir. Oraya getməyin. Qaladan bir qədər aralıdakı dik daşı qaldırın, su tüngü oradan keçir. Suyun üstünü azca açın, yüz qoyun kəsib, qanını suya axıdın. Atam elə biləcəkdir ki, qoşun qırılıb, qan su yerinə axır..."

Xan qızın dediyi kimi edir. Dərbənd hakimi su içəndə elə zənn edir ki, savaşda qoşun qırılıb, vahimə içində ailəsini götürüb saraydan çıxır.

Xan davasız şəhərə daxil olur. O, sözünə sadiq qalaraq hökmdarın qızı ilə evlənir. Sonra qızın ox atdığı Qala bürcünə birlikdə gəlib deyir: Doyunca bax. Bu, sənin son baxışındır. Atasına xain çıxan qız mənə vəfalı olmayacaq. Bunu deyib qızı qala bürcündən atır... (S.Paşayev, "Azərbaycan xalq əfsanələri", B.1985, s.156). Bu əfsanə olsa da, türkün ağlını, qeyrətini göstərən, ibrətli bir həqiqətdir.

Başqa bir əfsanədə isə Dərbənd hakimi Tuti Bikənin mərdliklə vuruşmasından bəhs edilir.

### Əfsanə və həqiqət Mingəçevir haqqında nə deyir?

Mingəçevir haqqında çoxlu rəvayətlər, tarixi həqiqətlər var. Deyilənlərə görə, Kür çayını keçmək istəyən atlılar buradan keçə bilmədikləri üçün atlarını geri çəkib demişlər: "Min-gəl - çevir!"

Akademik Ziya Bünyadov Mingəçevir adının 839-cu ildən məlum olduğu fikrini söyləyərək yazır ki, bu yerin adı ərəb xilafətinə qarşı çıxmış Mingiçevir əl-Fəraqinin adı ilə əlaqədardır. Tarixi mənbələr və burada aparılmış arxeoloji qazıntılar göstərir ki, Mingəçevir ən qədim insan məskənlərindən biri olmuşdur. Boz dağların arasında, Kürün sahillərində əcdadlarımız hələ eradan əvvəl 3-cü minillikdən başlayaraq burada məskunlaşmış, zəngin mədəniyyət yaradaraq yaşamışlar.

Bu gün Mingəçevir yurdumuzun gözəl inkişaf edən şəhərlərindən biridir. Burada yaradılmış "Mingəçevir dənizi", Su Elektrik Stansiyası yurddaşlarımızı dəhşətli daşqınlardan qoruyur və öz işıq seli ilə həyatımıza nur çiləyir.

### Şabran adında şəhər eşitmisinizmi? O hansı ərazidə olmuşdur?

Xarabalığı Dəvəçi bölgəsindəki Şahnəzərli kəndi yaxınlığında olan Şabran şəhərinin bir vaxtlar cah-cəlalı dillərdən düşmürdü. Bu ərazi Şimala və Cənuba gedən karvan yolu üstündə olduğu üçün burada Beşbarmaq yaxınlığında peyğəmbər qalası Bacarvan, indiki Qalagah kəndi yaxınlığında Xursanqala, Dəvəçi çayı boyunca Şirvan, Şabran çay ətrafında Şabran şəhərləri olmuşdur.

Azərbaycan şəhərsalma mədəniyyətinin nadir yadigarı olan, əsası IV əsrdə qoyulmuş Şabran şəhəri haqqında XVI əsrdə holland səyyahı Y.Streys Şabranda vaxtı ilə makedoniyalı İskəndərin qoşunları üçün çörək bişirilən təndirlərin qalıqlarını gördüyünü qeyd etmişdir. XVII əsrin tarixçi və səyyahı Övliya Çələbi soraq verir ki, Şabranda 70 məhəllə və hər məhəllənin də öz məscidi olmuşdur. Şabran havası və suyu ilə Təbrizdən sonra ikinci idı. Burada ucalan Əlşar, Toxmaq xan, Uzun Həsən məscidləri səyyahları heyrətləndirmişdir.

1174-cü ildə Şirvanşah Axsitan tərəfindən həbs edilərək Şabranda zindana salınmış dahi Azərbaycan şairi Ə.Xaqanı məşhur "Həbsiyyə" əsərini burada yazmışdır.

Görkəmli Norveç alimi, beynəlxalq miqyasda tanınmış dəniz səyyahı Tur Heyerdal 1981-ci ildə Şabranda aparılan arxeoloji qazıntı işləri ilə tanış olanda rəy kitabına belə yazmışdır: "Şabran vasitəsilə biz sizin xalqın keçmişinə çox yaxşı səyahət edə bildik". (A.Mirzə, S.Elcanlı, "Dəvəçi" (buklet) B., 1991).

Şabran adı qədim türk tayfalarından Sabirlərlə əlaqədar olması ehtimal edilir. Orta Asiya ərazisində də Şabran toponimi olmuş. "Sabiran", "Sabran", "Şabiran", "Şabran" şəklində işlənmişdir.

Şabranın ən çiçəklənmə dövrü Səfəvilər dövründə olmuş, sonralar tənəzzül etmiş, müharibələr zamanı dağılmışdır.



### "Çıraqqala" haradadır və nə üçün bu qala belə adlanır?



Çıraqqala Dəvəçi bölgəsindəki Qalaaltı kəndi yaxınlığındadır. Ən hündür dağ zirvəsində, böyük qaya üzərində tikilmiş Çıraqqala yadelli işğalçılardan qorunmaq üçün 1600 il əvvəl ucaldılmışdır. O Gilgilçay müdafiə səddi ilə əlaqədardır. Silindirvari bürclərlə möhkəmləndirilmiş qala divarları qapalı quruluşa malikdir. Qayanın zirvəsində qala divarlarına bitişik baş bürc ucalır. Həmin divarlara bitişik yarım dairəvi 12 bürc vardır. Divarlar daşdan tikilmişdir. Bu bürc əsasən gözətçi məntəqəsi idi. Buradan geniş ərazini seyr etmək olurdu.

Hər hansı təhlükə yaxınlaşanda baş bürcün üstündə tonqal yandırılarmış. Bununla əcdadlarımız qonşu şəhərlərə xəbər verərləmmişlər. Bu, bir növ həyəcan çırağı imiş. Ölkənin taleyinə çıraq kimi işıq saçdığına görə ona Çıraqqala demişlər. Deyilənə görə, burada yanan tonqalların işığı Beşbarmaq səddindən başlamış Dərbəndəcən xəbər göndərir, haray salır, elləimizi döyüşə səsləyirdi.

### Muğan sözü necə əmələ gəlmişdir?

Hələ qədimdən Azərbaycanda Muğan adlı həm şəhər, həm də böyük düz olmuşdur. XI əsrdə yaşamış ərəb müəllifi ibn Xordadbah Xəzər dənizi sahilində Dərbəndlə Ərdəbil arasında Muğan şəhərinin adını çəkir. Tarixi ədəbiyyatda Muğan sözünü hələ miladdan qabaq IV yüzillikdə yaşamış Hekatay Miletli və V əsrdə Herodotun qeyd etdikləri myuklar, muğlar soylarının adı ilə bağlayıblar. Onların bu ərazıdə yaşadıqlarını bildirirdilər. Myuk-Muğ sözləri "an" şəkilçinin birləşməsindən Muğan toponimi yaranmışdır.

Tədqiqatçıların bir qismi isə belə hesab edirlər ki, Muğan Azərbaycan dilinə aid toponimdir. Belə ki, muğanlılar Hunların tərkib hissəsi olmuş. IV-V yüzilliklərdə Muğan-Mil düzlərində məskunlaşmışlar. Hazırda Azərbaycan ərazisində Muğan etnonimi ilə bağlı 13 coğrafi ad mövcuddur.

### "Biləsuvar" sözü nə məna verir?

Professor M.İsmayılov "Sənin ulu baban" kitabında belə yazır: "İlk orta yüzilliklərdə Azərbaycanın şimal torpaqlarında məskunlaşmış sabirlər-suvarlar soylarının adı ilə bağlıdır. Onların V-VI əsrlərdə bəlkə də qabaq bu yerlərə gəlmələri güman edilir. Xosrov Ənuşirəvanın (531-579) bu yerlərə on min suvar ailəsi köçürməsi məlumdur. O da məlumdur ki, 576-cı ildə Albaniya ərazısına soxulmuş Bizans qoşunları suvarlarla rastlaşmışdılar".

Azərbaycan ərazısında suvarların adı ilə bağlı bir sıra toponimlər mövcuddur. Adını qeyd etdiyimiz Biləsuvardan başqa Azərbaycanın şimal-şərqində Qala-Suvar, XIX əsrdə isə Suvarlı kəndi də var idı Şəkidə. Baş Köynük kəndinin bir məhəlləsi Suvar adını qoruyub saxlamışdır.

şında, Gəncə qiyamında xalqın birləşdiyi ocaq olub.

Bu müqəddəs ocağın taleyi də xalqımızın taleyi kimi keşməkeşli olub. Dini ocaq olduğu üçün ötən əsrin 30-50-ci illərində gözdən salınmış, onun mədrəsə olan binası, yan-yörəsi sökülmüş. Cavad xanın sümükləri qəbirdən çıxarılıb başqa qəbiristanlığa köçürülmüşdür. Kəhrizin suyu da qurumuşdu.

Şah Abbas məscidi öz əvvəlki əzəmətini itirsə də, müqəddəs ibadət yeri, minarələri tarixi abidə kimi yaşayır.

### Cavad xan kim idi? O, Azərbaycan tarixində və xalqımızın yaddaşında necə qalmışdır?



Cavad xan Ziyad oğlular nəslindən olan Gəncə xanı idi. Məşhur, igid, cəngavər bir hakim kimi tanınmışdır. Anadan olduğu il məlum deyil. 1785-1804-cü illərdə 19 il Gəncə xanlığına başçılıq etmişdi. Onun dövründə Qazax, Borçalı, Şəmsəddil, Şəmkir mahalları Gəncə xanlığı ərazisinə daxil idi.

Gürcüstan Rusiyaya birləşdirildikdən sonra (1801) Gəncə xanlığının üzərini qara buludlar



Cavad Xanın bayrağı

almışdı. Bu zaman o, öz qüvvələrini toplayıb oğlu Hüseynqulu Ağanın başçılığı ilə Şəmsəddilə qoşun çıxardı və 29 kəndi Gəncə xanlığının tərkibinə qatdı. Bu hadisə rus imperatorluğunu qıcıqlandırdı və Cavad xandan tələb olundu ki, öz qoşununu həmin ərazidən çıxartsın. Cavad xan bu tələbi rədd etdikdə çar generalı Lazaryevin başçılığı ilə Şəmsəddilə qoşun göndərdi. Cavad xan da Rusiyadan tələb etdi ki, qoşununu geri çəksin. Bu gərginlik 1803-cü il noyabrında daha qəddar rus generalı P.D. Sisiyanovun komandanlığı ilə Gəncəyə hücumun başlanğıcı oldu. Sisiyanov Gəncəni döyüşsüz zəbt etmək üçün Cavad xana məktublar yazdı. Cavad xan onun hədələyici məktublarına cavab olaraq bildirdi ki, "Sən Şəmsəddilə girən gündən mən müharibəyə hazıram. Savaşmaq istəyirsən, savaşaq. Hədələyirsən ki, təklifini qəbul etməsəm, bəlaya düçar olaram. Əslində bədbəxtlik səni Peterburqdan izləyə-izləyə çəkib buraya gətirib. Bunu zaman, bir də savaşın özü göstərəcək".

Cavad xan qoşununu çəkib Gəncənin yaxınlığında Qobu düzünə gəldi. Döyüş başlandı. Ancaq qüvvələr bərabər deyildi. Çox keçmədi ki, Gəncə rus qoşunu tərəfindən mühasirəyə alındı və çox amansız döyüş oldu. Cavad xan və Gəncə əhalisi bir neçə gün düşmənə müqavimət göstərdi.



Cavad Xan məqbərəsi

### Cavad xan rus generalı, knyaz Sisianova son məktubunda necə cavab verdi?

Gəncəni diz çökdürmək üçün P.D.Sisianov Cavad xana dekabr günlərində bir neçə məktub göndərdi ki, təslim olsun, yoxsa, amansız döyüş olacaqdır. Bu təkəbbürlü generalın ədaları, iddiaları Cavad xanı çox hiddətləndirdi. Axır ki, ona belə bir cavab yazdı: "Nə hədlə belə danışırsan, mən ki, sənə tabe deyiləm. Buyurursan ki, elə bu gün cavab ver! Bu, nə deməkdir? Heç nökərlə də belə rəftar etməzlər. Həddini bil. Məktubu nə vaxt istəsəm, onda yollaram. O ki, qaldı şəhərin təhvil verilməsinə, xam xəyaldan əl çək. Gəncəyə yalnız mənim meyidimin üstündən keçə bilərsən. Bildin?! Mən öləndən sonra. Özgə cür yox".

Bu, əsl igidlik, qəhrəmanlıq idi. Doğma yurdunu, şəhərini böyük məhəbbətlə istəməyin ən gözəl nümunəsidir. Buna görə də Cavad xan ürəklərdə özünə əbədi heykəl ucaldıb.





### Erməni satqınlığına aid daha bir fakt. O Gəncə əhalisinə nə fəlakət gətirdi?

Sisianov Gəncəni asanlıqla ala bilməyəcəyini görüb erməni xislətini yadına saldı. Gəncə ermənilərini öz tərəfinə çəkmək üçün 1803-cü il noyabrın 30-da onlara müraciət etdi.

Erməni satqınlığı Gəncənin süqutuna, rusların xeyrinə səbəb oldu. Sonralar N.Dubrovin adlı bir rus "İstoriya voynı i vladiçestva russkix na Kafkaze" adlı əsərində Gəncə uğrunda döyüşlərdən danışarkən yazırdı: "Şəhərin bir yerində qan lap sel kimi axırdı. Beş yüzə qədər tatar (azərbaycanlı -S.G.) məsciddə gizlənmişdi... Bir nəfər erməni bizim əsgərlərə xəbər çatdırdı ki, onların içində Dağıstan ləzgiləri də var. Bu xəbərə əsasən məsciddə olanların ölümünə işarə verildi".

Həmin vuruş zamanı ermənilər Gəncə döyüşçülərinin gücü, yerləşdiyi yerləri haqqında ruslara xəbər verməklə böyük cinayət törətdilər. Qədim Gəncə - Nizami yurdu xarabalığa döndü, qan su yerinə axdı. Cavad xan, oğlu Hüseynqulu Ağa da Gəncə igidlərinin cərgəsində qəhrəmanlıqla Vətən yolunda şəhid oldular.

1804-cü il soyuq yanvar günlərində Gəncə xanlığına son qoyuldu. Əsrlərin ağır sınaqlarına dözən, dağılan, yenidən dirçələn Gəncə öz adını itirdi. Həmin vaxtdan ulu şəhər rus imperatoru I Aleksandrın arvadının şərəfinə Yelizavetpol adlandırıldı. 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyətinin qərarı ilə Gəncənin adı özünə qaytarıldı.

### Rus generalı Karyagin öz gündəliyində nə yazırdı?

Professor Sadıq Şükürov yazır ki, Sisianovun qoşunu Gəncəni işğal edəndə Cavad xanın arvadlarından biri Bəyim xanım əyninə kişi paltarı geyinib, əlinə qılınc götürüb qalanın baş bürcünün qapısını qoruyurdu. Oğlu Hüseynqulu Ağa və əri Cavad xan öləndə Bəyim xanım onların meyidlərini general Karyaginin xəbəri olanadək gecə ikən döyüş meydanı bürclərdən aşağı-yerə endirmişdi ki, rusların əlinə keçməsinlər. Səhər açılanda əsgərlər Cavad xanla oğlunun meyidlərini görməyib elə zənn etdilər ki, Cavad xan sağdır. Sisianov şəhərə daxil olanda yalnız ağlaşmadan hiss etdi ki, meyidlər haradadır. Sisianov yaxınlaşanda Bəyim xanım onun üstünə cumub qılıncla parçalamaq istədi. Həmin qanlı döyüşün iştirakçısı Karyagin öz gündəliyində yazırdı: "Əgər Pavel Dmitriviçin yanında yavəri olmasaydı, o tatar (Azərbaycan-S.G.) xanın qəhrəman arvadının qılıncından salamat qalmayacaqdı... Mən tatar xanın arvadının əynində çərkəzi paltar, belində xəncər və əlində ərinin qılıncını gördüm..." O qılınc ki, Cavad xan döyüşdə onunla düşməni biçib tökürdü. Cavad xan döyüşdə o qılıncla elə bil rəqs edirdi. Mən döyüşdə onun "Oyununa" dözə bilmədiyimi hər dəqiqə hiss edirdim və buna görə də əsgərlərdən birini məni əvəz etməyə çağırdım, özüm "oyundan" çıxdım.... Biz qalanı zəbt etmişdiksə də, həmin tatar qadını özünü qalib kimi aparırdı və əmr etdi ki, onun otağından çıxaq. Sözlərini başa düşməsəm də, əl işarəsindən işin nə yerdə olduğunu anladım. O, ərinin də oğlunun da meyidləri üstə ağlamırdı. Yanaqlarında bir damla da olsun göz yaşı görmədim. Ağlayanlar saray adamları imişlər.

İgid xanın dəfnindən bir gün sonra biz onun arvadına baş sağlığı verməyə gəldik. O, başdan ayağa qara paltarda idi. Bizə qatil kimi baxırdı. Buna onun haqqı vardı. Biz ona pul təklif etdik. O, cavab verməyə tələsmədi, yanındakı qızı çağırıb nəsə dedi. Qız dərhal yan otağa keçdi. Əlində bir kisə ilə qayıdıb gəldi. Bu, pul kisəsi idi. Xanın arvadı kisəni götürüb generalın qabağında dayandı və düz onun gözlərinin içinə baxıb tatarca (Azərbaycanca-S.G.) nəsə dedi. Birdən dəhşət baş verdi. O, gözlənilmədən pul kisəsini generalın üzünə çırpdı. Qızıl onluqlar Pavel Dmitreviçin alnına, gözünə, burnuna və ağzına dəyib ayaqlarının üstünə töküldü. General başını aşağı əyib yerə tökülmüş qızıl pullara acgözlüklə baxanda, xanım mənalı bir tərzdə nifrətlə gülümsədi. General azdan-çoxdan qafqazlı adətinə bələd olduğu üçün Bəyim xanıma cavab vermədi, əlindəki pulu qaytarıb cibinə qoydu, qapıdan çıxanda nəsə fikirləşib geri qayıtdı, astanada dayanıb həmin pulları cibindən çıxardı, hələ də ayaq üstə dayanan xan arvadının ayaqları altına 60 çervonu səpdi, qadın pullara baxmadı, onları ayaqladı..." (Sitat Ə İsayevin "Gəncə və gəncəlilər" kitabından götürülmüşdür, səh. 95-96)

Budur, Azərbaycan qadınının qüruru, mərdliyi. Bu kiçik əhvalat xalqımızın, onun xanım-xatın qızlarının mənəvi zənginliyini göstərən gözəl bir qəhrəmanlıq himnidir. Bu himnin əzəməti qarşısında qanqan deyən iki rus generalı sarsıldı.

### Binəqədi qəbiristanlığının sirri necə açıldı?

Binəqədi qəsəbəsinin cənub-şərqində Xırda-Qırlar təpəciyinin yanında bitumla zəngin yerlər vardır. Ətraf kəndlərin sakinləri bu asfaltabənzər qarışıqdan evlərinin üstünü örtmək üçün istifadə edirdilər. 1938-ci ildə bu bitumdan apar-mağa gələnlər qəflətən külli miqdarda quş və heyvan sümüklərindən ibarət qəbiristanlıqla rastlaşdılar. Bura gələn alimlər elə bil möcüzə ilə qarşılaşdılar. Bu, obrazlı desək, qəbiristanlıq yox, içi məlumatlarla dolu "sandıq" idi. Təbiət sanki öz keçmiş sirrini açmaq üçün "sandıq"da 80-100 min illər bundan əvvəl Abşeron yarımadasının heyvanat aləmi haqqında qiymətli maddi sübutlar saxlamışdı. Yeri gəlmişkən qeyd edək ki, dünyada ikinci belə mazutlu, sirrli göl Şimali Amerikanın Kaliforniya ştatındakı Ranço - lya - Brea göludür.

### Bəs bu qəbristanlıq necə əmələ gəlmişdir? Bunlar hansı heyvanların və quşların sümükləridir?

Azərbaycanın böyük kimyaçı alimi, akademik Yusif Məmmədəliyev bu sirri açıqlayaraq qeyd etmişdir ki, belə susuz şəraitdə canlılar gec çürüyərək pirollar, porfinlər və başqa piqmentlər verməlidir. Deməli, həmin bitumun tərkibində azotlu birləşmələrin izi olmalıdır.

Tədqiqat zamanı bitum nümunələrinin lüminessensiya spektrlərinin araşdırılması göstərdi ki, doğrudan da, neft mənşəli bitumlardan fərqli olaraq, bu bitumda azotlu üzvi maddələr vardır. Sonda məlum oldu ki, bu sümüklər vaxtilə Abşeronda yaşamış kərkədanın, atın, öküzün, maralın, qabanın, tülkünün, ayının, şirin, canavarın, porsuğun, qartalların, ördəklərin, dumaların və b. quşların sümükləridir.

Bitum heyvanların cəmdəklərinin və bitkilərin neftdə tədricən həll olunmasından çürüyərək əmələ gəlmişdir. İlkin üzvi maddələrdən ibarət olan komponentlər sonralar Günəş şüasının və küləyin təsirinə məruz qalaraq, kondensləşmə və polimerləşmə proseslərinə uğrayıb, indiki tərkibli bitumu əmələ gətirmişdir.

Bəzi alimlər o zaman Yusif Məmmədəliyevin fərziyyələrini qəbul etmək istəmirdilər. Lakin Ranço-lya-Brea gölünün sirrinin açılması Azərbaycan aliminin dəlillərinin düzgünlüyünü təsdiq etdi. (H.Həsənov. "Akademik Yusif Məmmədəliyev", B., 1996, səh. 34-35).

### "Qırx qız burnu" haradadır?

Bakının hər dağı, daşı, qayası özündə bir əfsanə yaşadır. Onlardan biri haqqında H.Sarabski "Köhnə Bakı" kitabında belə yazır:

"Bakının cənub tərəfində dənizə doğru uzanan iki burun vardır. Bunlardan birincisi, Bayıl burnu, ikincisi Bibiheybət burnudur. Bu burnu bakılılar "Qırx qız" adlandırırdılar. Camaat arasında olan əfsanəyə görə, guya orada 40 qız qeyb olmuşdur. Onlar daim ağlayır, səsləri də guya eşidilməkdədir. Qayalar arasından sızılan damcılar da onların göz yaşlarıdır.

Qırx qızlar burnundan bir qədər cənuba tərəf Puta, Badamdar, Şağanbağ, Alacıq deyilən yerlər gəlir. Bu yerlərin daşları məşhurdur. Bakının ali imarətlərinə sərf edilən ağ daş buradan gətirilir. Keçmişdə araba yolu belə olmadığından daşları şəhərə dəvələrlə daşıyırdılar...".

Müasir Bakının tikintisində də bu gün Bakı karxanalarında çıxarılan ağ daşlardan istifadə olunur.

### Bakı xanlığının ilk xanı kim olmuşdur? Bakıxanovlar nəslinin şəcərəsi nə vaxtdan başlanır?

Yurdumuzda hər soyadın bir tarixi var. Bu köklər, soyadlar üzərində pöhrələnmiş nəsillər xalqımızın, millətimizin təşəkkül tapmasında, formalaşmasında özlərinəməxsus nəcib, tarixi rol oynamışlar.

Belə nəsillərdən biri də Bakıxanovlardır. Bu böyük nəsil ağacının kökü XVI əsrdən - Abşeron yüzbaşılarının rəisi Əhməd xandan başlanır. A.A.Bakıxanovun atasının ulu babası Dərgahqulu bəy Abşeronun bir sıra kəndlərinin yüzbaşısı idi. Xanlıqlar yarananda o, Bakının ilk xanı idi. Böyük oğlu, igid dənizçi I Mirzə Məhəmməd xan 20 yaşında atasının vəfatından sonra Bakının xanı oldu. Sonra xanlığın başında onun oğlu Məlikməhəmməd xan (1864-1884) durdu.







Abbasqulu Ağa Bakıxanov

### Azərbaycanda tarixşünaslığın əsasını kim qoymuşdur?

Abbasqulu Ağa Bakıxanov Qüdsi (1794-1846). Akademik Ziya Bünyadov XIX əsrin əvvəllərində yaşamış A.A.Bakıxanovu görkəmli tarixçi, filoloq, ensiklopedik alim adlandırmış, onu "Gülüstani-İrəm" əsəri ilə Azərbaycan tarixşünaslığının əsasını qoyduğunu qeyd etmişdir. Bu həqiqətən belədir. A.A.Bakıxanovun elmi-fəlsəfi, ədəbi irsi bunu bir daha təsdiq edir. Bu əsər Azərbaycan və Dağıstan xalqlarının qədimdən 1813-cü ilə qədər böyük bir dövrünü əks etdirir. A.A.Bakıxanov ərəb, fars, rus və doğma Azərbaycan dillərində əsərlər yazmış, yüksək savada, biliyə malik bir şəxsiyyət idi. O, 12 dil bilirdi.

### Bakıxanovlar nəslindən neçə general çıxmışdır?

Bu nəsildən görkəmli alimlər, maarifpərvər ziyalılar, incəsənət xadimləri, müəllimlər, hərbiçilər çıxmışdır. Təkcə onu göstərmək kifayətdir ki, Bakıxanovlar nəslindən 37 kişi ömrünü hərbi işə həsr etmişdir. Onlardan bir çoxu Qafqaz müsəlman süvari alayında döyüş yolları keçmiş, ali zabit rütbəsinədək yüksəlmişdi. A.A.Bakıxanovun qohumlarından 6 nəfəri Peterburq hərbi dəniz məktəbində oxumuşdu. Onlardan biri P.D.Sisianovu öldürən İbrahim bəy Bakıxanovun nəvəsi İbrahim bəy Aslanbəyov vitse-admiral rütbəsində idi. II Mirzə Məhəmməd xanın 6 oğlundan dördü - Abbasqulu Ağa Bakıxanov general-mayor, Cəfərqulu Ağa - general-leytenant, Mustafaqulu Ağa və Abdulla Ağa - general-mayor rütbəsində idilər. Cəfərqulu Ağanın da 4 oğlundan üçü atalarının yolu ilə getmişdi. Böyük oğlu Həsən Ağa general-mayor, Əhməd Ağa - qvardiya-polkovniki, Hidayət Ağa - kapitan rütbəsi daşımışlar.

### Azərbaycan torpaqlarını işğal edən, general P.D.Sisianovu harada, kim öldürdü?

Cavad xanın sözünün quvvəti, zaman gəldi, Sankt-Peterburqdan Qafqazadək Sisianovu izləyən ölüm, onu Bakının Qoşa qala qapısında yaxaladı. Bu əzazil general Bakı xanlığını da zəbt etmək istəyəndə 1806-cı ildə Bakı xanı Hüseynqulu xan guya Sisianovun şərtlərini qəbul etdiyini və Qala qapılarının açarlarını ona vermək və "bir neçə məxfi söz demək istədiyini" bildirdi. Sisianov buna inanıb, ordunu Qala divarlarından kənarda saxlayıb, mənşəcə erməni olan polkovnik E.Eristovun müşayiəti ilə xanın görüşünə getdi. Hüseynqulu xan at belində, yanında da əmisi oğlu İbrahim bəy və bir neçə əyan İçəri şəhərin Qoşa qala qapısında Sisianovun qabağına çıxdılar. Sisianov elə bildi ki, Bakı xanı danışığa gəlib və açarları verəcək. Elə bu vaxt İbrahim bəy Bakıxanov güllə ilə Sisianovu vurub öldürdü. E.Eristov da qətlə yetirildi. İçəri şəhərin bayırında olan rus əsgərləri çaş-baş qaldılar, geri çəkilib Sara adasında dayandılar.



Cəfərqulu Ağa Bakıxanov



Həsən Ağa Bakıxanov



İbrahim bəy Aslanbəyov




***Şərqdə ilk demokratik parlament harada və nə vaxt yaradılmışdır?***

Görkəmli yazıçı, publisist, ictimai və dövlət xadimi N.Nərimanov çox gözəl demişdir: "Azərbaycan Şərq üçün bir məktəbdir". Bu fikirdə dərin məna vardır. Azərbaycan həqiqətən dünya sivilizasiyasında bir çox yeniliklərin, ilk nümunələrin vətəni olmuşdur. Tarixdən istənilən qədər fakt gətirmək olar. Bu cəhətdən demokratik cümhuriyyət də, parlament də Şərqdə ilk dəfə Azərbaycanda yaradılmışdır.

1918-ci il dekabrın 7-də Bakıda H.Z.Tağıyev adına qız məktəbinin geniş salonunda Azərbaycan parlamentinin ilk təntənəli iclası oldu. Şəhər bayram içində idi. Salon üç rəngli bayrağımız və xalılarla bəzədilmişdi. İclas salonunda



**Fətəli Xan Xoyski**



**Nəsib Bəy Usubbəyov**

Türk Demokratik Federalistlər Partiyası - Müsavatın üzvləri, eləcə də azlıqda olan millətlərin nümayəndələri ortada, hümmətçilər və sosialistlər solda, bitərəf və ittihad partiyasının üzvləri sağda oturmuşdular.

İclasda Azərbaycan hökumətinin üzvləri, xarici ölkə nümayəndələri və qonaqlar da salonda idilər.

Parlamentin ilk iclasını Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə açıb, coşqun bir nitq söylədi.

Həmin tarixi hadisənin iştirakçısı, Üzeyir Hacıbəyov bu əlamətdar tarixi hadisənin ən təsirli anını, siyasi dəyərini "Azərbaycan" qəzetində (1918, 9 dekabr) dərc etdirdiyi "Təəssürat"ında belə qeyd edirdi: "...Məmmədəmin nitqinə başlayanda üç rəngli bayrağımıza işarə ilə "Bir kərə yüksələn bayraq bir daha enməz!" dedikdə bütün salon ayağa qalxıb əl çala-çala milli bayrağımızı salamlarkən bu üç rəngin "türkləşmək,islamlaşmaq və müasirləşmək!" ideyası, amalı məni fövqəladə təsirləndirdi, başımın tükləri biz-biz durdu".

Sonra parlamentin sədri və müavini seçildi. Bitərəf Ə.B. Topçubaşov parlamentin sədri, Müsavat Partiyasının üzvü, hüquqşünas H.B.Ağayev müavin seçildi. Ə.B.Topçubaşov Bakıda olmadığı üçün ilk iclas H.B.Ağayevin sədrliyi ilə davam etdi. Parlamentin ən gənc üzvü R.Vəkilov katib seçildi.

Sonra xitabət kürsüsünə Nazirlər Şurasının sədri Fətəlixan Xoyski qalxıb müvəqqəti hökumətin istefası ilə hakimiyyətin parlamentə təhvil verilməsini təklif etdi.

Parlamentin sonrakı iclaslarında maliyyə-büdcə, fəhlə, qanunvericilik, redaksiya, hərbi işlər, aqrar, sorğu, ölkənin məhsuldar qüvvələrindən istifadə, müəssislər məclisinin çağırılması üzrə komissiyalar yaradıldı.

Parlamentin ilk və mühüm tədbirlərindən biri Azərbaycanın müstəqilliyini tanıtmaq üçün Ə.B.Topçubaşov başda olmaqla, Paris Sülh Konfransına müxtəlif partiyalardan olan parlament üzvlərindən səlahiyyətli nümayəndə heyəti göndərmək oldu.

Azərbaycan parlamenti cəmi 17 aylıq öz fəaliyyəti dövründə 140 ümumi iclas keçirmiş, 300-dən çox qanun layihəsinə baxmış, müzakirə etmişdir. 1919-cu il iyulun 21-də Azərbaycan Cümhuriyyətinin müəssislər məclisinə seçkilər haqqında dörd fəsildən, 116 bənddən ibarət Əsasnamə qəbul edildi. Əsasnaməyə görə cinsindən, dilindən, dinindən, milliyyətindən asılı olmayaraq,



Parlamentin iclası



Ə.B.Topçubaşov



H.B.Ağayev



A.Ziyadxanov

20 yaşına çatmış bütün vətəndaşlar seçki hüququna malik idilər. İslam aləmində ilk dəfə qadınlara seçib-seçilmək hüququ da məhz Azərbaycan parlamentində bəyan edilmişdir.

Bütün bunlar Azərbaycanda demokratiyanın bünövrəsinin qoyulduğunu göstərirdi.

***Azərbaycanın Türkiyədə ilk səfiri kim olub?***

Azərbaycanın görkəmli yazıçısı, publisisti Yusif Vəzir Çəmənzəminli 1919-cu il noyabrı ayından 1920-ci il aprel çevrilişinə qədər Azərbaycan Demokratik Cümhuriyyətinin Türkiyədə ilk fövqəladə və səlahiyyətli səfiri olmuşdur.

Ramiz Abutalıbov Londonda xidməti ezamiyyətdə olarkən Böyük Britaniya Milli Arxivində Azərbaycana aid sənədlərin arasında Yusif Vəzir Çəmənzəminlinin diplomatik fəaliyyətinə aid bəzi sənədlərlə tanış olmuş. Parisdən Azərbaycana göndərdiyi məktubda yazırdı: "O zaman "Tiflis, London və İstanbul arasındakı yazışmalarda aydınlaşır ki, Böyük Britaniya Türkiyə ilə müharibə vəziyyətində olduğu üçün və Azərbaycan Cümhuriyyəti müttəfiq dövlətlər tərəfindən hələ tanınmadığı üçün ingilislər Azərbaycan nümayəndə heyətini Türkiyəyə buraxmaq istəməmişlər.



Y.V.Çəmənzəminli

**Şeyx Məhəmməd Xiyabani (1879-1920). Onun başçılıq etdiyi Azərbaycan milli azadlıq hərəkatı nə vaxt olub?**

1918-1920-ci illərdə Şimali Azərbaycanda, Şərqdə ilk demokratik cümhuriyyət yaranmışdı. Bu, Cənubi Azərbaycanda milli azadlıq mübarizəsinin güclənməsinə səbəb olmuşdur. Bu xalq hərəkatının başında Ş.M.Xiyabani dururdu.



Ş.M.Xiyabani

Bu görkəmli şəxsiyyətin həyatı həmişə azadlıq uğrunda mübarizədə keçib. O, Təbriz yaxınlığında Xamnə kəndində anadan olmuşdur. Təbriz ruhani məktəbində təhsil almış, dini və dünyavi elmlərə yiyələnmiş, rus və fransız dillərini öyrənmişdir. O, Təbrizdəki Talibiyyə mədrəsəsində astronomiyadan dərs demişdir.

Xiyabaninin dünyagörüşünün formalaşmasında 1905-1911-ci illər İran inqilabının, Səttarxan hərəkatında iştirak etməsinin böyük rolu olmuşdur. Xiyabani gizli inqilabi fəaliyyəti dövründə alovlu publisist kimi çıxış etmiş, 1917-ci ildə Azərbaycan demokratik partiyası MK-nın sədri seçilmişdir.

1918-ci ildə tutulub Urmiyaya, sonra isə Kars həbsxanasına salınmışdır.

Həbsdən azad olunandan sonra yenə inqilabi fəaliyyətini davam etdirmişdir. 1920-ci il aprelin 7-də Təbrizdə baş vermiş silahlı üsyana başçılıq etmiş, iyunun 24-də onun rəhbərliyi ilə milli hökumət təşkil olunmuş, bir sıra dövlət tədbirləri, islahatlar həyata keçirilmiş, məktəb, xəstəxana və s. açılmışdır.

Təbrizin ardınca Xoy, Marağa, Ərdəbil və s. şəhərlərdə hakimiyyət üsyançıların əlinə keçmişdir. Güney Azərbaycanda yaradılan "Azadistan" milli hökumət İranı sarsıtmışdı.

Şah bu dəfə də kənar qüvvələrin - ingilis qoşununun əli ilə üsyanı yatırmış, azadlıq fədailərinə divan tutmuşdu. Ş.M.Xiyabani vəhşicəsinə öldürülmüş, 3000 nəfərdən çox adam edam olunmuşdur. Beş aydan çox davam etmiş Təbriz üsyanı Cənubi Azərbaycanda milli hissləri coşdurmuş, xalqın mübarizə əzminin artmasında böyük rol oynamışdır.

**Güney Azərbaycanda milli hökumət nə zaman quruldu və onun rəhbəri kim idi? Pişəvəri Seyidcəfər Cavadzadə (1892-1947).**



II Dünya müharibəsinin dalğaları Sovetlər ölkəsinə yayılanda Sovet dövləti müttəfiqləri ilə müqaviləyə görə İrana qoşun çıxardı. Həmin qoşunların tərkibində Azərbaycan əsgərlərinin, ziyalılarının İrana ayaq basması burada milli hərəkatı gücləndirdi. Az vaxtda burada bir oyanış başladı, ana dilində 300-dən çox məktəb açıldı, qəzetlər nəşr edildi.

1945-ci ildə öz azadlığını, müstəqilliyini əldə etmək üçün xalq şah üsul idarəsinə qarşı mübarizədə qalib gəlmişdi. Həmin il dekabrın 12-də Təbrizdə Azərbaycan Milli Məclisinin ilk yığıncağı çağırıldı. Azərbaycan demokratik firqəsinin tapşırığı ilə Azərbaycan milli hökuməti təşkil olundu. Bu hökumətin baş naziri Seyidcəfər Pişəvəri seçildi.

Xalq sevindi ki, nəhayət öz istiqlalını əldə etdi. Lakin, xəyanət yenə işə düşdü. Azərbaycan xalqının dirçəlməsini istəməyən qara qüvvələr bu gənc cümhuriyyəti beşikdə ikən boğdular. Sui-qəsdlər, hiylələr, şah qoşunlarının qırğınları azadlıq fədailərini pərən-pərən saldı. Pişəvəri də müəmmalı şəkildə avtomobil qəzasının qurbanı oldu.

Bu işıqlı şəxsiyyətin həyatı, taleyi çox keşməkeşli olub. O, Güney Azərbaycanda Xalxalı vilayətinin Zaviyə kəndində dünyaya göz açmış, 1913-1917-ci illərdə müəllimlik etmiş. 1917-ci ilin inqilabi çarpışmaları onu da özünə çəkmiş, "Ədalət" firqəsinə daxil olmuşdu. İranda milli azadlıq hərəkatının vahid cəbhəsini yaratmaq üçün "Ədalət" firqəsi tərəfindən 1920-ci ilin mayında Rəştə gəlmiş, Gilan respublikasının müvəqqəti hökumətinin xarici işlər komissarı təyin edilmişdi. 1920-ci il iyunun 22-də Ənzəlidə partiyanın I qurultayında iştirak etmiş, MK-nın üzvü, məsul katibi seçilmişdi.

O, 1930-cu ildə həbs edilib Tehranın "Qəsr-Qacar" zindanına salınmış, 1940-cı ildə Kaşan şəhərinə sürgün edilmişdir. 1941-ci ildə sürgündən azad olandan sonra "Ajir" qəzetini təsis etmiş, 1945-ci ildə Azərbaycan Demokratik firqəsini yaratmış, bu adda qəzet təsis edib redaktor kimi fəaliyyət göstərmişdir.



# ÜMİDİMİZ, GƏLƏCƏYİMİZ

*"Uşaqlar bizim sevincimizdir, həyatımızın mənasıdır, bizim gələcəyimizdir..."*

*Heydər Əliyev*





Müdrik atalarımız, sevimli müəllimlərimiz demişlər ki, ölkənin, dövlətin tərəqqisi, millətin işıqlı sabahı uşaqların sağlamlığından, mənəvi-əxlaqi tərbiyəsindən, mükəmməl təhsilindən çox asılıdır. Çünki cəmiyyəti ağıllı, bilikli, idrakı olanlar idarə edirlər. İntellektual səviyyənin, bacarığın, işgüzarlığın, istedadın binövrəsi uşaq yaşlarından qoyulur. Bu həqiqəti dərk edən valideynlər öz balalarının xoşbəxt gələcəyi naminə gecəni gündüzə qatıb, hər cür çətinliyə, əziyyətə qatlaşaraq onların qayğısına qalırlar. Fərəhli haldır ki, müasir dövrümüzdə belə valideynlər də, gözəl tərbiyə görmüş, bilikli, savadlı, istedadlı uşaqlarımız da çoxdur. Azərbaycan uşaqları elmə, mədəniyyətə, incəsənətə, texnikaya, idmana böyük maraq və həvəs göstərirlər.



*Heydər babanın fərəhli bu gülüzlü, əziz nəvəsi ilə tarixdə belə iz qoydu. Ulu, qüdrətli öndərimiz Heydər baba yurdumuzun bütün uşaqlarını da beləcə çox sevirdi. Bu sevgiyə cavab olaraq balalarımız onun amal və arzularını yaşadacaqlar.*

Böyük öndərimiz, mərhum prezidentimiz Heydər Əliyev demişdi ki, övladlarını sağlam və tərbiyəli böyütmək, həm ailənin, həm də dövlətin birinci dərəcəli işidir. Bu kəlamı əldə rəhbər tutan dövlətimiz, qeyri hökumət təşkilatları uşaqların sağlam və hərtərəfli inkişafı üçün böyük qayğı göstərirlər. Bu sahədə Ombudsman Elmira Süleymanovanın, qeyri hökumət təşkilatları Alyansının, Respublika Uşaq Təşkilatının sədri, millət vəkili Gülər Əhmədovanın və digər uşaq təşkilatlarının, qurumların işləri diqqəti cəlb edir.

Ölkəmizdə uşaqların intellektual və mədəni səviyyələrinin yüksəlməsi üçün hər cür şərait yaradılmış, çoxlu musiqi və rəssamlıq məktəbləri, incəsənət studiyaları, uşaq yaradıcılıq mərkəzləri, idman-sağlamlıq ocaqları, şahmat məktəbləri fəaliyyət göstərir. Tofiq İsmayılov adına Uşaq Yaradıcılıq Mərkəzində, mədəniyyət evlərində, klublarda, məktəblərdə fəaliyyət göstərən "Cücələrim", "Səyyah", "Kamillər", "Təbəssüm", "Fərid", "Xəzri", "Uşaq ritmləri", "Şərq ulduzları", "Fərəh", "Çiçəklər" və s. adlarda uşaq mahnı və rəqs ansambllarında, dərnəklərdə, ədəbi məclislərdə minlərlə uşaq iştirak edir, öz istedadlarını artırır, respublikamızda və xarici ölkələrdə keçirilən festivallarda, mahnı bayramlarında, müsabiqələrdə uğurla çıxış edir, mükafatlara layiq görülürlər.

Bu bölmədə bu haqda, uşaq hərəkatı, uşaq mətbuatı tarixindən və istedadlı balalarımız haqqında bəhs edirik.

mət verərək qeyd edir ki, bu 17 yaşlı ağdamlı qızın uğurlu gələcəyi var. O, Qarabağ yanğısı ilə oxuyanda bütün vücudu lərzəyə gəlirdi. Kədərli baxışları, yanıqlı səsi dinləyiciləri elə kövrəltmişdir ki, salondakılar durub ayaq üstə onu alqışlamışlar.

Güllü bu il orta məktəbi bitirib. İstərdik ki, konservatoriya təhsili alsın. Amma o, musiqi müəlliminin səyi nəticəsində artıq Asəf Zeynallı adına Musiqi Məktəbinin muğam şöbəsinə qəbul olunmuşdur. Ona təhsildə və gələcək ifaçılıq fəaliyyətində böyük uğurlar, muğam dünyamızın parlaq ulduzlarından biri olmasını arzulayırıq.

Ötən musiqi müsabiqəsində böyük uğur qazanmış balaca Pərviz İbrahimlinin indi 15 yaşı vardır. Həmin müsabiqənin qalibləri artıq tanınmış xanəndələrimizin cərgəsində muğam sənətimizin inkişafına öz töhfələrini verirlər.

Bu müsabiqələr xalqımızın qədim kökə bağlı zəngin mədəniyyətə malik olduğunu bir daha əks etdirdi. 11 yaşlı uşağın muğam kimi mürəkkəb, çətin, çoxgedişli, yüksək, zil və məlahətli səs tələb edən klassik musiqini belə məharətlə oxuması hələ heç bir xalqda görünməyib.


Abgül Mirzəliyev


Nasir Ətapur


Rəvanə Ərəbova


Ehtiram Hüseynov

### Azərbaycan musiqisinin əsasını təşkil edən muğamların sayı nə qədərdir və hansılardır?

Azərbaycan musiqisinin yeddi əsas muğamı vardır: "Rast", "Şur", "Segah", "Şüştər", "Çahargah", "Bayatı Şiraz", "Hümayun".

Üzeyir Hacıbəyov "Azərbaycan xalq musiqisinin əsasları" adlı elmi-nəzəri əsərində bu muğam dəskahlarının dinləyiciyə aşıladığı əhval-ruhiyyəni belə səciyyələndirmişdir: "Bədii-ruhu təsir cəhətindən "Rast" dinləyicidə mərdlik və gümrahlıq hissi, "Şur" şən, lirik əhval ruhiyyə, "Segah" məhəbbət hissi, "Şüştər kədər, "Çahargah" həyəcan və ehtiras hissi, "Bayatı Şiraz" qəmginlik, "Hümayun" isə "Şüştərə nisbətən dərin kədər hissi oyadır..."

Muğamlar öz xüsusiyyətlərinə görə çoxdur. Tanınmış musiqişünas, professor Ramiz Zöhrabov muğamları belə təsnif edir: 1. Muğam dəskahları, 2. Kiçik həcmli muğamlar, 3. Zərb (ritmik) muğamlar. "Rast" ailəsinə mənsub olan dörd dəskah vardır: "Mahur hindi", "Orta mahur", "Bayatı Qacar", "Dilgah". Kiçik muğamlar bunlardır: "Şahnaz", "Qatar", "Bayatı kürd" və "Dəşti".

Zərb muğamları doqquzdur: "Heyratı", "Mənsuriyyə", "Səmai-Şəms", "Heydarı", "Ovşarı", "Manı" (Osmani), "Arazbarı", "Qarabağ Şikəstəsi" və "Kəsmə şikəstə".

Muğamları xanəndələr ifa edirlər. Xanəndələri tarzən, kamançaçı və qavalda ifaçının özü müşayət edir.

Fotolar "TV PLYUS" jurnalından götürülmüşdür.

### Gənc nəslə diqqət, dövlət qayğısı millətin xoşbəxt sabahı deməkdir!

Respublikamızda uşaqlar və onların inkişafı üçün yaradılan imkanlar haqqında Azərbaycan Dövlət Statistika Komitəsinin 2005-ci ilə aid məlumatlarında deyilir:

* Uşaqlara əlavə təhsil verən 384 tədris müəssisəsinə 24413 uşaq cəlb edilmişdir.

* 62 şahmat məktəbində 33693 uşaq məşğul olmuşdur.

* 84 uşaq yaradıcılıq mərkəzində 91268 uşaq və yeniyetmə iştirak etmişdir.

* 66 texniki yaradıcılıq mərkəzində 63 mindən çox uşaq və yeniyetmə məşğul olmuşdur.

* 89 uşaq idman məktəbində 63203 uşaq və yeniyetmə idmanın müxtəlif növləri üzrə məşqlərdə iştirak etmişdir.

* Respublikamızda olan 187 musiqi məktəbində 53899 uşaq və yeniyetmə təhsil alırdı.

* 49 incəsənət və rəssamlıq məktəbində 20 minədək uşaq bu sənətin incəliklərinə yiyələnirdi.

Bu rəqəmlər ildən ilə artır, uşaqlar üçün hər cür şərait yaradılır, dövlət qayğısı göstərilir.

* Respublikamızda 14 yaşınadək uşaqların sayı 2121,0 min olmuşdur.

* Ailələrdə tək uşaqların sayı 1232 min, iki və daha çox olanların sayı 1356 min nəfər olmuşdur.





### Uşaq hərəkatı tarixi haqqında nə bilirsiniz?

Hər dövrün uşaqları cəmiyyət həyatında həmişə iştirak etmişlər. İctimai-siyasi həyata uşaqlar biganə qalmamış, böyüklərin, valideynlərin səhv və doğru işlərinə, əməl və amalına qoşulmuş, haqq-ədalət uğrunda mübarizə aparmış, vətənin dar günündə yadelli işğalçılara qarşı döyüşlərdə atalarının cərgəsində olmuşlar. Böyük fransız yazıçısı V.Hüqonun "Səfillər" romanındakı (1862) Qavroşu xatırlayın. O, inqilabçılara kömək etmək üçün necə igidliklər göstərmiş, güllələboran altında onlara silah daşımışdı.

1942-ci ildə faşistlər Krasnodon şəhərini tutanda yüzə yaxın oğlan və qız Oleq Koşevoyun başçılığı ilə "Gənc qvardiya" gizli təşkilat yaradaraq düşmənlə mübarizə aparmışdı. Bu qəhrəmanların arasında Əli Dadaşov soyadlı bir azərbaycanlı gənc də vardı. Faşistlər 1943-cü ildə bu təşkilatın üzvlərini, o cümlədən Əli Dadaşovu da güllələmişlər.

XX əsrin əvvəllərində xalqımızın milli azadlıq və istiqlal uğrunda apardığı mübarizədə, 1918-1920-ci illərdə Azərbaycan Demokratik Cümhuriyyəti qurulduğu dövrdə, 1989-1990-cı illərdə üç rəngli milli bayrağımızı divarların, damların üzərinə sancan, onu başı üzərinə qaldırıb küçə və meydanlara axışan yüz minlərlə oğlan, qız azadlıq, müstəqillik, Qarabağ deyə haray qoparanda, 1990-cı ilin qanlı 20 yanvar hadisələrində, erməni daşnaklarının törətdikləri müharibə qırğınlarında, Qarabağ uğrunda savaşlarda atalarına, qardaşlarına kömək etmiş yeniyetmələr, uşaqlar əsl vətənpərvərlik nümunələri göstərmişlər.

Bakının dağüstü parkında və yurdumuzun şəhər və qəsəbələrində ucaldılmış, gülə-çiçəyə qərq olmuş şəhidlər xiyabanlarına baş çəkəndə adamın ürəyi ağrısa da, milli qürur hissi də keçirir. Bu şəhid məzarlarında uyuyan minlərlə gənc, yeniyetmə vətən yolunda əbədiyyətə qovuşmuşdur.

Dünyada uşaq hərəkatının izlərinə biz hələ uzaq keçmişlərdə də rast gəlirik. Uşaqların gücündən şər və fitnə-fəsad törədən qara qüvvələr də istifadə etmişlər.

### Uşaq səlib yürüşlərinin aqibəti necə oldu?

XI-XIII əsrlərdə on minlərlə uşağın ölümünə bais olmuş bir tarixi hadisəni qeyd etmək istərdik. Avropanın Fransa, Almaniya, İngiltərə kimi dövlətləri şərqdə Səlcuq türklərinin qüvvətlənməsindən, yeni-yeni əraziləri tutmalarından narahat olduqları üçün dini fanatizmdən istifadə edərək 1096-1270-ci illərdə güya "Həzrət İsanın qəbrini" xilas etmək bəhanəsilə 8 dəfə xaç yürüşləri adı ilə Fələstinə, Qüdsə hücum çəkmişdilər. Əyinlərinə xaç şəkilli paltar geyinmiş yüz minlərlə adam bu fitvanın qurbanı olmuşdur.

Böyüklərin xaç yürüşlərinin uğursuzluqlarını dilə gətirən katolik kilsəsinin və hakim dairələrin öyrətmələri ilə 1212-ci ildə Parisdə 12 yaşlı Eten adlı bir çoban oğlan meydana atılıb, güya Allah tərəfindən göndərildiyini bəyan etdi. O, "Qüdsü uşaqlar azad edəcəklər" şüarı ilə kəndbəkənd gəzib, ətrafına xeyli uşaq topladı. Fransada 10 min uşaq bu hərəkata qoşuldu. Onlar Tur, Lion və başqa şəhərləri keçdilər. Gözləri dumanlanmış bu fanatik uşaqlara elə gəlirdi ki, onların qarşısında Aralıq dənizinin suları çəkiləcək, onlar dənizin dibi ilə Fələstin torpaqlarına çıxacaqlar. Amma belə olmadı. Sardina adasında gəmilərə minib, dənizə çıxan uşaqlar fırtına ilə üzləşdilər. Uşaqlarla dolu iki gəmini dalğalar batırdı...

Fransız uşaqlarla eyni vaxtda Almaniyanın Köln şəhərindən 10 yaşlı Nikolay alman oğlanın ardınca 20 min uşaq Reyn çayı sahili ilə cənuba doğru hərəkət etdi. Çox çətinliklə, əzab-əziyyətlə Alp dağlarını keçdilər. Bu əsl şücaət idi. Ancaq aclıq, yorğunluq onları üzdü. Gənc səlibçilərin üçdə iki hissəsi dağ yollarında həlak oldu. Qalanlar yarımcan halında İtaliyanın liman şəhəri Genuyaya çatdılar. Şəhər hakimi bu qədər uşağın ölkənin düşmənlərinin əlinə fürsət düşəcəyindən ehtiyatlanıb, onların qayıtmalarını tələb etdi. Uşaqlar buradan Brindizi şəhərinə üz tutdular. Burada da uşaqların üzülüb əldən düşdüyünü görənlər onlara yazığı gəlib, geri qayıtmalarını tövsiyyə etdilər. Uşaqların çoxu geri qayıdarkən yollarda acından öldü.

Fanatizmin, işğalçılıq niyyətinin fitvası ilə törədilmiş bu hərəkat tarixdə ən qanlı hadisə kimi qaldı. ("Detskaya ensiklopediya" M 1961, c.7, səh.146-149)


Uşaqlar Alp dağlarını keçirlər

### Dünyada və Azərbaycanda ilk uşaq təşkilatları nə vaxt yaranıb?

Bu hadisə 1920-ci ildə Berlində olmuşdu. Bir neçə uşaq əllərində bayraq "Marselyoza" oxuya-oxuya küçə ilə gedirdi. Dəstə get-gedə öz sıralarını artırırdı. Polis uşaqları qovmağa başladı. Amma uşaqlar bayrağı daha da uca tutub gedirdilər. Polis 13 yaşlı Lyudviq adlı bayraqdarı polis idarəsinə aparanda 60-dan çox uşaq "bizi də tutun" deyə qışqıra-qışqıra polis idarəsinə tərəf yüyürdülər. Polis rəisi bu hadisədən təşvişə düşüb Lüdviqi buraxdı. Çox keçmədi ki, Berlinin başqa məhəllələrində də bir neçə ay ərzində bu hərəkata 30 mindən çox uşaq qoşuldu.

Həmin il Almaniyanın Sulle (Turingiya) şəhərində I Ümumalman uşaq qruplarının konfransı oldu. Almaniyanın fəhlə rayonlarından konfransa gəlmiş nümayəndələr çıxış edib, uşaqların hüquqlarının qorunması, yaşayış şəraitinin yaxşılaşdırılması haqqında tələblər irəli sürdülər.

Uşaqların bu mübarizə hərəkatının sədası tezliklə Avstriyadan, Çexoslavakiyadan, Danimarkadan, İsveçdən, İngiltərədən, Amerikadan da eşidildi. Hər yerdə uşaqlar öz fəhlə atalarının mübarizəsilə həmrəy olduqlarını bildirirdilər.

### Skaut dəstələrinin məramı nə idi?

1922-ci ildə Gəncədə Skaut adlı uşaq dəstələri fəaliyyət göstərirdi. Bunlar hərbi- idman oyunları səciyyəsi daşıyırdı. Skaut dəstələri manqalara bölünürdü. Hər manqanın öz bayrağı vardı. Bu bayraqların üzərində heyvan və quş rəmzləri çəkilmişdir. Skaut adını daşıyan hər bir uşaq çevik olmalı, hər cür şəraitdə tonqal qalamağı, odun yarmağı, duymə tikməyi, çadır qurmağı bacarmalı və yol işarələrini bilməli idi. Skaut dəstələrində aparılan iş kommunist məfkurəsinə uyğun gəlmədiyi üçün Gəncə Qəza Komsomol Komitəsi çox keçmədi ki, onların fəaliyyətini dayandırmaq haqqında qərar verdi. Əvəzində "YUK" (GK) - gənc kommunistlər dəstələri yaradıldı.

### İlk nəfəsli uşaq orkestri necə və harada yaradılmışdır?

1924-cü ilin axırları idi. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri Nəriman Nərimanov Moskvadan Bakıya gəlmişdi. Bakının pionerləri bunu eşidən kimi onun yanına gedib, görüşə dəvət etdilər. N.Nərimanov bu dəvəti məmnuniyyətlə qəbul edib, 400-dən çox uşağın toplantısına gəldi. Maraqlı söhbət oldu. N.Nərimanov uşaqların nədə çətinlik çəkdiklərini öyrəndi. Moskvaya qayıdan kimi uşaqlara nəfəsli orkestr üçün musiqi alətləri göndərdi. Bu Bakıda ilk uşaq nəfəsli orkestr oldu.

1925-1926-cı illərdə Abşeronun bir sıra səfalı yerlərində ilk pioner düşərgələri də yaradıldı. Bu dövrdə Azərbaycanın Hacıkənd, Şəki, Şuşa və b. yerlərində də belə istirahət düşərgələri fəaliyyətə başlamışdır.

### İlk pioner dəstələri

Azərbaycanda uşaq hərəkatının maraqlı tarixi vardır. Məktəblərdə və digər uşaq müəssisələrində yaradılmış pioner təşkilatlarında, uşaq idman və yaradıcılıq ocaqlarında böyük tərbiyəvi işlər aparılırdı.

1923-cü ildə Bakıda 26 pioner dəstəsi vardı. Burada uşaqların sayı 1200 nəfər idi. Onların 900 nəfəri oğlan, 300 nəfəri qız idi. Bu ilk dəstələrdən biri də uşaq ədəbiyyatımızın görkəmli nümayəndələrindən biri, yazıçı, pedaqoq Süleyman Sani Axundovun müdir olduğu 19 saylı məktəbdə idi. İlk təntənəli toplanışda dəstəyə 50 nəfər uşaq qəbul olunmuşdu. Məktəbin ən fəal və bacarıqlı şagirdlərindən Lətif Kərimli dəstə rəhbəri təyin edilmişdi. Pionerlər ilk fəaliyyətə "Qırmızı qalstuk" adlı divar qəzeti çıxarmaqla başladılar. Burada verilən yazılar, şerlər, çəkilən karikaturalar tərbiyəvi iş aparmaqda müəllimlərə kömək edirdi. Qəzetin heyətinə cəlb edilmiş Heydər Hüseynov sonralar görkəmli filosof, akademik olmuşdur. Rüstəm Mustafayev məşhur rəssam (Azərbaycan incəsənət muzeyi indi onun adını daşıyır), Əlimirzə Mehdiyev pedaqokika sahəsində görkəmli alim kimi tanınmışlar. S.S. Axundovun köməyi ilə uşaqlar dram dərnəyi də yaratmışdılar. Sonralar SSRİ xalq artisti adına layiq görülmüş Ələsgər Ələkbərov. Azərbaycan xalq artisti Əjdər Sultanov bu dərnəyin ilk yaradıcılarından olmuşlar. Dərnəyin rejissoru Ağadadaş Qurbanov idi. Azərbaycan səhnəsinin görkəmli sənətkarları İsmayıl Hidayətzadə, Sidqi Ruhulla o zaman uşaq dram kollektivlərinin yaradılması, istedadlı uşaqların meydana çıxmasında böyük səy göstərmişlər. Vaxtilə bu uşaq təşkilatlarında böyüyüb yetişmiş uşaqların çoxu bu gün dövlət qulluğunda, mədəniyyət sahələrində dövlətimizin inkişafında böyük xidmətlər göstərirlər. Uşaqların sağlam böyümələri, intellektual səviyyələrinin inkşafı və istirahəti sahəsində respublikamızda dövlət qayğısı yüksək səviyyədə olmuş, şəhər və qəsəbələrdə uşaq bağçaları, idman məktəbləri, pioner evləri, uşaq şəhərciyi və parklar, uşaq otaqları, gənc texniklər, təbiyətçilər, ekskursiya stansiyaları, dram və kino teatrları, rəsm-sərgi qalereyaları yaradılmışdı. Uşaq ədəbiyyatı və musiqisi böyük vüsətlə inkişaf etmişdir.





### Çağdaş dünyamızda uşaq hərəkatı

Dünyada, o cümlədən Azərbaycanda uşaqların təlim-tərbiyəsi, mədəni istirahəti, intellektual inkişafı, yaradıcılığı, problemləri bu gün də dövlətin, qeyri hökumət təşkilatların və ictimaiyyətin diqqət mərkəzindədir. Uşaqların və gənclərin sağlam, kamil böyüməsi, hüquqlarının qorunması sahəsində BMT-nin nəzdində UNİCEF kimi böyük bir təşkilat fəaliyyət göstərir.

Uşaqların hüquqlarını müdafiə etmək zəruriyyəti ilk dəfə uşaq hüquqları haqqında Cenevrə Bəyannaməsi (1924) ilə elan olunmuşdur.

BMT Baş Məclisi 1959-cu il noyabrın 20-də Uşaq Hüquqları Bəyannaməsi qəbul etmişdir. Bu Bəyannamə irqindən, dilindən, dini, siyasi əqidəsindən, milli mənsubiyyətindən, ictimai mənşəyindən asılı olmayaraq uşaqların tərbiyə, təhsil, təminat, fiziki və mənəvi inkişafı sahəsində hüquqlarını təmin etmək üçün verilmişdir.

Uşaqları müharibə təhlükəsindən qorumaq, onların sağlamlığı, demokratik əsaslarla tərbiyəsi və təhsili qayğısına qalmaq məqsədilə 1949-cu ildə Beynəlxalq Demokrat Qadınlar Federasiyası Şurasının Moskva sessiyasında hər il iyunun 1-i Uşaqları Beynəlxalq Müdafiə Günü kimi keçirilməsi qərara alınmışdır.

1989-cu ildə "Uşaq hüquqları Konvensiyası qəbul olunmuşdur. Burada deyilir ki, hər bir uşaq yaşamaq, inkişaf etmək, müdafiə olunmaq və cəmiyyətdə iştirak etmək və çalışmaq hüquqlarına malikdir.

XX əsrin 90-cı illərində və XXI əsrin başlanğıcında bu konvensiyanın təsiri nəticəsində dünyada uşaq hərəkatı geniş vüsət almışdır. Dünyanın hər yerində uşaqların hüquqlarını qorumaq, onların təhsili və sağlamlığı qayğısına qalmaq üçün dövlət və qeyri hökumət təşkilatları bu hərəkata qoşulub, bir sıra maraqlı işlər görmüşlər. Ümumdünya üzrə keçirilmiş Uşaq Zirvə toplanışında 10 maddədən ibarət sənəd qəbul edilmişdir.

Uşaqlar üçün yararlı dünya yaratmaq amalı daşıyan həmin sənədin bir yerində deyilirdi: "Biz bütün millətlərin vətəndaşları və ailələrin, birliklərin, cəmiyyətlərin üzvləri ümumdünya Uşaq Hərəkatını səfərbər etmək üçün kömək göstərməliyik. Biz çoxlu gənc həyatlarını məhv etmiş kasıblığa, xəstəliklərə, zorakılıqlara və ayrı-seçkiliyə son qoymalıyıq". Bu amalın əks-sədası 2001-ci ilin sentyabrında BMT-nın Uşaqlar üçün Xüsusi Sessiyasından eşidildi. UNİCEF-in bu sahədə gördüyü işlərin sorağı dünyanın hər guşəsindən gəldi. Hər yerdə "Uşaqlara Hə deyin!" təbliğat kompaniyası başlandı. Sorğunun sualları internet saytlarında yerləşdirildi, keçirilən mədəni-kütləvi tədbirlərdə öz canlı əksini tapdı. Onlardan bir neçəsini qeyd edək.

- "Uşaqlara Hə deyin!" kompaniyası Azərbaycanda Beynəlxalq Sərbəst Güləş Yarışında təntənəli şəkil aldı. İlk səsverənlər arasında dünya çempionu Namiq Abdullayev də vardı.

- Bolqarıstanda ölkə prezidenti Stoyanov Sofiyada səsverməni imzaladı və eyni zamanda başqa on şəhərdə həyata keçirdi.

- Minlərlə uşaq və qeyri- hökumət idarələrinin nümayəndələri Haitinin prezidenti Aristide uşaqlar üzrə Xüsusi Sessiyanın iclasında iştirak etdi və 2004-cü ilə qədər bütün uşaqlar üçün təhsili təmin etməyə söz verdi.

- Madaqasqar prezidenti Ramsaka ölkədə uşaq hüquqlarının və ayrı-seçkilik baxımından uşaqlara pis münasibətdən qorunmağı təmin etmək üçün şəxsən and içdi.

- Mərakeşdə bu tədbiri kral ailəsi də alqışladı. Şahzadə Lala Məryəm mayda milli uşaq günündə ölkədaxili səyahətə çıxdı.

- Mərkəzi və Şərqi Asiya, MDB və Baltik ölkələrinin regional tədbiri Türkiyədə-İstanbulda keçirildi. Milli uşaq günündə televiziya ilə çox gözəl tamaşa göstərildi. 410 ölkənin uşaqları dünya rəhbərlərindən uşaqların müdafiəsini ön plana çəkmələrini tələb etdilər.

2001-ci ildə dünyanın hər yerində keçirilən "Hə deyin!" kompaniyasının tədbirləri uşaq hərəkatı tarixində böyük əhəmiyyətli bir hadisə oldu.

***"UNİCEF", Dünya uşaqlarının vəziyyəti", 2002, səh. 43-49***



## "Pioner" - "Günəş" jurnalı nə vaxt nəşr olunub?

Azərbaycan dilində nəşr olunan bu aylıq ədəbi-bədii, ictimai-siyasi, illüstrasiyalı uşaq jurnalı məktəblilərin tərbiyəsi biliyinin artırılması sahəsində böyük rol oynamışdır. Burada elm, texnika, incəsənət, idman haqqında məktəb həyatından, uşaqların yaradıcılığından bəhs edən məqalələr, hekayələr dərc edilirdi. Jurnala pioner-uşaq hərəkatının xadimlərindən N.Muradov, Ə.Bağırzadə, H.Sultanova, M.Məmmədov, Z.Cabbarzadə, N.Süleymanov redaktorluq etmişlər. 1977-ci ildə jurnal 50 illik yubileyi və gənc nəslin vətənpərvərlik ruhunda böyüməsində xidmətlərinə görə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. Həmin illərdə jurnal 165 min tirajla nəşr edilirdi.

1990-cı ildən bu jurnal "Günəş" adı ilə nəşr olunur. Redaktoru V.Quliyevdir. Respublikamızın müstəqilliyi dövründə onun mövzu dairəsi genişlənmiş, çap keyfiyyəti və ideya-bədii səviyyəsi xeyli yaxşılaşmışdır.

## "Azərbaycan pioneri" qəzeti hazırda hansı adda çıxır?

1990-cı ildən "Savalan" adında nəşr olunan bu qəzet də uşaq mətbuatımızın tarixində şərəfli yer tutur. "AZƏRBAYCAN PİONERİ" qəzetinin ilk nömrəsi 1938-ci ilin avqustun 1-də çıxmışdır. Yarandığı gündən uşaqların sevimli qəzeti olmuşdur. Həftədə iki dəfə çıxan bu qəzet uşaqların həyatını, onların təlim-tərbiyəsi sahəsində qazandıqları uğurları əks etdirmiş, xalq maarifi və ictimai təşkilatların iştirakı ilə müxtəlif uşaq tədbirləri, müsabiqələr, idman oyunları, yarışlar keçirmiş, bu haqda öz səhifələrində maraqlı yazılar vermişdir. 80-ci illərdə tirajı 310 minə çatmış "Azərbaycan pioneri" qəzeti uzun illər uşaq mətbuatının inkişafında böyük xidmətləri olmuş yazıçı-jurnalist Eynulla Ağayevin və Əmrah Əmrahovun redaktorluğu ilə çıxmışdır. Hikmət Ziya, Emin Mahmudov, Musa İslamov, Cahid Quliyev, Məmməd Əkbər, Hacağa Cumşüdov kimi istedadlı jurnalistlər, yazıçılar, şairlər burada işləmiş, qəzetin yüksək səviyyədə çıxmasında nəcib xidmətlər göstərmişlər.




## "CİH-CİH" in səhifələrində nədən bəhs edilirdi?

1993-cü ildə Azərbaycan uşaq mətbuatının sıralarına daha bir uşaq qəzeti "Cih-Cih" quşların bahar müjdəsi-civiltisi ilə qoşuldu. Təsisçisi və baş redaktoru, "Şur" nəşriyyatının əsasını qoymuş, şair, gözəl uşaq şeirlərinin müəllifi Qəşəm İsabəyli, ilk məsul katibi yazıçı-jurnalist, tarix elmləri doktoru Sabir Gəncəli olmuşlar. 1000 nüsxə tirajla nəşrə başlayan bu bədii insiklopedik qəzet balalarımızın bədii-estetik zövqünü və dünyagörüşünü inkişaf etdirmək üçün nəzərdə tutulmuşdur. Öz nəcib fəaliyyətində bu amala xidmət edən "Cih-Cih" hər sayında uşaqların vətənpərvərlik ruhunda tərbiyəsinə, biliyinin artmasına kömək edən maraqlı hekayələr, şeirlər, nağıllar, tapmacalar, dünyanın hər yerindən məlumatlar dərc etmiş, onları gözəl, əyləncəli, düşündürücü illüstrasiyalarla öz oxucularına çatdırmışdır. "Cih-Cih"in səhifələrində yazıçılar, alimlər, jurnalistlər fəal iştirak edərək, öz ürək sözlərini, nəsihətlərini, məsləhətlərini çap etdirmişlər.











## "Göyərçin" nə vaxtdan nəşr olunur?

Yarım əsrdən çox fasiləsiz nəşr edilən bu şəkilli, rəngli, ədəbi-bədii mətbu orqan balaca uşaqların sevimli jurnalı olmuşdur. Burada verilən nağıllar, hekayələr, şeirlər, rəsimlər balaların bədii-estetik tərbiyəsinin, biliyinin, dünyagörüşünün artması işində əhəmiyyətli rol oynayır. Respublikamızın tanınmış yazıçıları Yusif Əzimzadə, Xalidə Hasilova, Hüseyn Abbaszadə müxtəlif vaxtlarda jurnalın redaktorları olmuşlar. 1972-ci ildən ömrünün axırına-1997-ci ilə qədər bu faydalı uşaq jurnalına şair və publisist Tofiq Mahmud başçılıq etmişdir. 10 ildən artıqdır ki, bu jurnala şair, filologiya elmləri doktoru Rafiq Yusifoğlu redaktorluq edir.

"Göyərçin" jurnalı gənc nəslin tərbiyəsində xidmətlərinə görə Azərbaycan hökuməti tərəfindən fəxri fərmanla təltif olunmuşdur. 80-ci illərdə jurnalın tirajı 170 mini olmuşdur.

Respublikamız öz müstəqilliyinə nail olduğu 18 il ərzində uşaq mətbuatı aləmində bir sıra çətinliklərlə yanaşı, yeniliklər də olmuş, təzə nəşrlər yaranmışdır. 1998-ci ildə nəşrə başlayan rəngli, əyləncəli və bədii "Balbala" jurnalı təəssüf ki, cəmi bir neçə il işıq üzü görmüşdür. Hazırda nəşr edilən "Elli", "Bala dili", "Yaşıl dünya" uşaq jurnallarını balalarımız maraqla oxuyurlar.

Azərbaycan uşaq mətbuatının səsli, musiqili, görümlü nümunələri də televiziya ekranlarında neçə illərdir ki, fəaliyyət göstərir.

Bütün bunlar gənc nəslin dünyagörüşünün, bədii-estetik zövqünün, bilik səviyyəsinin artmasında və tərbiyəsində böyük rol oynayırlar.





***Fəxri kimyaçı, ixtiraçı, kimya elmələri doktoru, professor, Azərbaycan Respublikası insan hüquqları üzrə Müvəkkil (Ombudsman), Nyu-York Elmlər Akademiyasının üzvü Elmira Süleymanova***



### *Uşaq Hüquqlarının müdafiəçisi*

Əzız balalar, professor Elmıra xanım Suleymanova ömrünün yarım əsrindən çoxunu yurdumuzun tərəqqisi işinə həsr etmişdir. O, görkəmlı alim, ıctimaı xadim, qadın hərəkatının lıderlərındən bırı kimı həmişə Sız gözəl balaları düşünub, qayğısına qalmışdır. O, sızın hüquqlarınızın qorunması, respublikamızda uşaq hərəkatının genişlənməsi işində bu gün də çox çalışır.

Elmıra xanım ölkəmizdə BMT-nin İqtisadı və Sosıal Şurası ilə məsləhətçi statusuna malik Azərbaycan Qadın və İnkişaf Mərkəzinin prezidentı olduğu dövrdə 15 nüfuzlu beynəlxalq təşkilatın - o cümlədən "Qadınlar ınkişafda" Beynəlxalq Assosıasıyanın, Beynəlxalq Sülh bürosunun, Qadınların Sülh və Dostluq üzrə Beynəlxalq Lıqasının üzvu olmuşdur. O, rəhbərlik etdiyi Qadın və İnkişaf Mərkəzində 2000-ci ıldə "Uşaqdan-Uşağa Sülh Şəbəkəsı", onun nəzdində "Liderlik məktəbı", qadın, uşaq və gənclərin hüquqlarının mudafiəsı üzrə QHT-nın Alyansını yaratmışdır.

Elmira xanım Süleymanova uşaq hüquqlarının qorunması, uşaqların sosıal vəzıyyətinin yaxşılaşdırılması ışində yaxşı nəticələrə nail olmaq üçün qanunvericilik aktlarına dəyişikliklərin edilməsi ilə bağlı bir sıra vacib təklıflər irəlı sürmüşdür. Bu nəcıb, xeyırxah fəalıyyətın uğurları olaraq o, uşaq haqları üzrə Millı koordinator seçılmişdır.

E.Suleymanova müharibədən, zorakılıqdan ziyan çəkən uşaqlara, xüsusilə qaçqın, məcburi köçkün, yetim, əlil uşaqlara ərzaq, pal-paltar və psıxoloji reablitasıya üzrə yardım etmək sahəsində, gənc nəslin təlim-tərbıyəsı, təhsılı, maariflənməsı, mənəvı dəyərlərə yiyələnməsi ışində böyük səy göstərir. Onun təşəbbüsü və rəhbərliyi ilə "Uşaqdan-Uşağa Sülh Şəbəkəsi" dünya uşaq hərəkatı və "Uşaqlara Hə deyin!" kompanıyası çərçıvəsində bir çox maraqlı tədbirlər keçirilmişdir. "Sehirli dünya: gələcəklə bağlı ümıd və arzularınız", "Qocalıq uşaqların gözü ilə" və başqa rəsm-foto sərgilərində yüzlərlə ıstedadlı uşaq iştirak etmişdir. Azərbaycanın müxtəlif bölgələrindən olan gənc rəssamların çəkdikləri 444 şəkil toplanıb, 2001-ci ilin sentyabrında BMT-nın əsas binasında Baş Assambleyasının Uşaqlar üzrə xüsusi Sessiyasına həsr olunmuş sərgidə nümayiş etdirilmişdır. "Qocalıq uşaqların gözü ilə" sərgisində 15 yaşınadək uşaqların 250 foto işi 6-cı Madrid (2002,8-12 aprel) Qocalıq üzrə II Ümumdünya sərgisində göstərilmişdir. İstedadlı uşaqlara sertifikatlar verilmişdir.

2002-ci ilin may ayında Nyu-Yorkda keçirilmiş sessiyada iştirak edən Azərbaycan nümayəndələri tərkibində 17 yaşlı Sevinc Mesiyeva və Fərid Dadaşov da vardı. Bu, məclis iştirakçılarının diqqətini cəlb etmişdi. BMT-nin baş katibinin "Uşaqlar müharibə və hərbı münaqişələrdə" problemi üzrə müavininin dediyi kimi, gənc nəslin belə proseslərdə iştiraka cəlb edilməsi tamamilə zəruridir.

Bu hadisədən sonra Azərbaycandan nümunə götürən ölkələr növbəti iclasa 30-a yaxın uşaq göndərmişdilər.

E.Süleymanova 2002-cı ildə Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkil seçiləndən sonra da Uşaqdan Uşağa Sülh Şəbəkəsi, Liderlik məktəbi ilə sıx əlaqə şəraitində Uşaq dünya hərəkatında öz liderlik fəaliyyətini davam etdirir. Onun bu fəaliyyəti bütün dünyada rəğbətlə qarşılanır. O, demək olar kı, planetimizin hər yerində mühüm məsələlərin həll edildiyi all məclislərdə, konfranslarda Vətənimizi ləyaqətlə təmsil edir, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırır.

Nyu-York Elmlər Akademiyasının üzvü (1997) Elmira Süleymanova görkəmli alim, ixtiraçı, kımya elmləri doktoru, professor kimi də məşhurdur. Onun 40-dan çox ixtirası, yüzlərlə elmi məqaləsi və əsəri Azərbaycan elminə gözəl töhfədir.







*Fərid Mehdi oğlu Dadaşov*

Bakıda ziyalı ailəsində dünyaya göz açıb. Fərəhli uşaqlıq dövrü keçirib. Yaxşı oxuyub, rus, ingilis, türk dillərini mükəmməl öyrənib. Professor nənəsi Elmira Süleymanovanın böyük, xeyirxah işləri onun dünyaya yenı təfəkkür tərzində baxışının formalaşmasına çox kömək edib. O, hələ kiçik yaşlarından nənəsinin yanında ictimai fəaliyyətə başlayıb. Nənəsi ilə birlikdə qaçqın düşərgələrində, Azərbaycanın bölgələrində və digər xarici ölkələrdə keçirilən tədbirlərdə iştirak edib. Onun 1999-cu ildə Azərbaycan nümayəndə heyətinin tərkibində Haaqada Beynəlxalq Sülh Konfransında Azərbaycan uşaqları adından dünya ictimaiyyətinə sülh çağırışı ilə müraciəti hərarətlə qarşılanmışdır. 2000-ci ildə Nyu-Yorkda Beynəlxalq Sülh Bürosu və UNİCEF-in təşkil etdiyi "XXI əsrdə Haaqa Sülh və Ədalət Rroqramı", BMT- nin "Biz insanlar" adlı Minilliyin forumda. 2002-ci ildə BMT-nin Baş Assambleyasının uşaq hüquqları üzrə xüsusi sessiyasında, Gənclər forumunda iştirak etmişdir. O, BMT-nin Baş Assambleyasının üç hazırlıq (May 2000, yanvar 2001, iyun 2002) sessiyasının hər birinə qoşulmuş yeganə gənc iştirakçısı olmuşdur ki, bu da BMT rəhbərliyi və müxtəlif ölkə nümayəndələri tərəfindən yüksək qiymətləndirilmişdir. Burada Fərid Azərbaycan millı seminarlarda ingilis dilində məruzə etmiş, müharibə, yoxsulluq və zorakılıqdan əzab-əziyyət çəkmiş məcburi köçkün uşaqların taleyindən söz açmış, suallara cavab vermiş və seminar iştirakçılarını Azərbaycana qarşı təcavüzə son qoyulmasına çağırmışdır. BMT-nin baş katibinin müavini Olara Otunnu Fəridə göndərdiyi məktubunda yazırdı: "Sülh naminə çalışmaqla sən çox böyük iş görürsən. Hər bir kəs sülh üçün çalışsa, dünyada müharibə olmaz".



***BMT-nin Uşaq Hüquqları üzrə Baş Assambleyasında Fərid nənəsi ilə iştirak edərkən. Nyu-York, 2002.***

2000-ci ilin may ayında Uşaqdan Uşağa Sülh Şəbəkəsi və onun nəzdində Lıderlik məktəbinin yaradılmasında və işində Fərid böyük fəallıq göstərmişdir. Adı UNİCEF-in Baş iqamətgahının nəşr etdiyi "Dünya uşaqlarının vəziyyəti-2002" liderlər kitabında qeyd edilmişdir.

Fərid təhsilini artırmaq üçün 2006-cı ildə Türkiyənin Bilkend Universitetinin Biznes İnformasiya Menecmenti fakultəsinə qəbul olunmuşdur.



*Faiq Bahadur oğlu Ağayev*

**Bakıda anadan olmuşdur. 1991-cı ildə 5 yaşında sorğu ilə Bakıdakı 159 saylı məktəbin I sinfinə qəbul edilmiş, 2001-ci ildə orta təhsilini əla qiymətlər**lə başa vurmuşdur. O, V sinifdən başlayaraq hər il riyaziyyat fənni üzrə rayon olimpiadalarının qalibi, XI sinifdə isə respublika üzrə keçirilən olimpiadada II yeri tutmuşdur. X və XI siniflərdə rayon üzrə "İstedadlı şagird" adına layiq görülüb.

Faiq məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakultəsinə daxil olmuş, 2005-ci ildə "İnformatika" ixtisası üzrə bakalavr, 2007-ci ildə isə maqistr pilləsini fərqlənmə diplomu ilə bitirmiş, elə həmin il ikinci ixtisas almaq üçün BDU-nun hüquq fakultəsinə qəbul olunmuşdur.

Faiq 2001-ci ildən Azərbaycan Uşaqdan Uşağa Sülh Şəbəkəsinin üzvüdür. 2002-ci ildə burada Liderlik məktəbini bitirmişdir. O, UNİCEF-in 180 ölkədə keçirdiyi "Uşaqlara Hə deyin!" kampanıyasına qoşulmuş konsertlərdə, teatrlarda, küçələrdə imzalar toplamış, bu səsləri kompüterə köçürmüşdür.

Faiq 2006-cı ildən UNİCEF-in dəstəyilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) yanında yaradılan Uşaq hüquqları Mərkəzində işləyir. Onun bu fəaliyyəti bir sıra təşkilatlar tərəfindən qiymətləndirilərək diplom və fəxri fərmanlara layiq görülmüşdür.



Lalə Adil qızı Haşimli

Gözəl ziyalı ailəsində böyüyən, hələ körpəlikdən müəllim anası Ofelya xanımdan yüksək mənəvi keyfiyyətlərə yiyələnən bu istedadlı qız 7-ci sinfə qədər 20 saylı liseydə, sonra fizika-riyaziyyat və informatika təmayüllü liseydə orta təhsilini əla qiymətlərlə başa vurub. 2007-ci ildə Türkiyədə - İstanbul Universitetinin hüquq fakültəsinə qəbul olunmuşdur.

Lalə bütün fənlərə, elmə böyük maraq göstərir. Təhsil illərində riyaziyyatla və ingilis dili ilə xüsusi məşğul olub. Ədəbiyyatı çox sevir. Mütaliə etməyi xoşlayır. Kompüterlə iş onun gündəlik həyatında mühüm yer tutur. Onun özünəməxsus dünyabaxışı, mühakiməsi, fikri və maraq dairəsi var. İdmanı da çox sevir. Üzgüçülük və gimnastika ilə məşğul olub.

Yüksək erudisiyaya malik olan bu nəcib, bacarıqlı qız dünyada baş verən hadisələri maraqla izləyir, qəzetləri müntəzəm oxuyur. Hərdən də öz düşüncələrini, fikirlərini vərəqlərə köçürüb bədii nümunələr yazmaqda öz qələmini sınayır.

Arzusu bakalavr və magistr təhsili alandan sonra İngiltərəyə gedib, doktoranturada oxuyub, elmi tədqiqat işi yazıb alim olmaqdır.

Anasını dünyalar qədər sevir.

*Ulduzlar aləmində nənənin və nəvələrin sevinci.*

*Sağdan: Günay, Aytac, Aytən, Əjdər, Camal, Rafael, Mikayıl.*



Sitarə Rəhimova 40 ildən çoxdur ki, bədii tikmə və miniatür ustası kimi tanınmışdır. Rəssamlıq təhsili görmüş bu istedadlı qadının al-əlvan xırda muncuqlarla, qiymətli qaşlarla tikdiyi gözəl rəsm əsərləri dünya şöhrəti qazanmışdır. Onun nəvələri də bu sənətin vurğunudurlar. Onlar hər gün nənənin yanında təlim keçirlər. Nənənin sənətinin sirlərini öyrənir, öz ilk əsərlərini yaradırlar.

Günay Rzayeva (1997) Bakıdakı 134 saylı məktəbdə, 6-cı sinifdə oxuyur. O, dərslərini yaxşı və əla qiymətlərlə oxumaqla yanaşı, nənəsi kimi bədii tikmə sənətinə böyük maraq göstərir. Onun rəngbərəng ipək saplarla və xırda muncuqlarla tikdiyi "At", "Quşlar", "Mələklər" əl işləri göz oxşayır.



Günay: Kəpənək

Aytac Rzayeva (1998). O da həmin məktəbdə yaxşı və əla qiymətlərlə oxuyur. 4-cü sinif şagirdidir. İngilis dili, riyaziyyat, informatika fənlərini və incəsənəti sox sevir. Rəssamlığın origamiya növü ilə maraqlanır. Rəngli kağızlardan cürbəcür gül-çiçək və fiqurlar düzəldir. Yaxşı rəqs edir. İpək saplarla tikmələri də gözəl fantaziyaya malik olduğunu göstərir.



Aytən: Kompozisiya

Aytən hələ 6 yaşındadır. Amma o, nənəsinin əl işlərinin incəliklərinə hələ körpə yaşlarından bələddir. İpək saplarla tikməyi 2 yaş 8 ayından öyrənməyə başlayıb. İndi xırda muncuqlarla bədii tikmə ilə məşğul olur. Artıq gül-çiçəklərdən bəhs edən 4 bədii tikməsi vardır.

Sitarə nənənin nəvələri rəssamlıq, zərgərlik, bədii tikmə sənəti mühitində boy atırlar.



Aytac: Mələklər







Günay Kirman qızı Abdinova

Bu istedadlı qız gözəl bir rassam ailəsində dünyaya göz açıb.

Binəqədi qəsəbəsindəki 40 saylı orta məktəbi bitirib. Hazırda Azərbaycan Neft Akademiyasının II kurs tələbəsidir. Elmə, incəsənətə böyük marağı var. Kiçik yaşlarından şeir yazmağa, rəsm çəkməyə başlamışdır. Təbiəti, vətəni tərənnüm edən şeirlər yazmağı çox sevir. Bu şeirlərin bir qismi mətbuatda dərc edilmişdir.

Günay əsasən kompüter qrafikası ilə məşğul olur. Bu sahəyə meylinin artmasında rəssam atasının böyük rolu olmuşdur.

Günay təbiətin böyük möcüzəsi olan əlvan rənglərdən məharətlə istifadə edir, gözəl, mənalı rəsimlər çəkir. Çəkdiyi rəsmləri sərgilərdə göstərilir. O, "Narkomaniya və biz" adlı respublika rəsm sərgisində I mükafata layiq görülmüşdür.

Günayın böyük uğurları hələ qabaqdadır.

### SABAH NƏDİR?

Sabah nədir?
Sabah - vaxtı itirməkdir.
Sabah nədir?
Vaxtı boş-boş keçirməkdir.
Tənbəl üçün bəhanədir.
Sabah nədir?
İşləməyib,
Qoy sabaha qalsın-deyib,
Ömrü başa vuranlar
Heç nə, heç şey edə bilməz.
Sabahlara aldananlar.
Bu sözdə hikmətlər var.
Bunu yaxşı söyləyib,
Bizim müdrik nur babalar.

*Günay Abdinova*



Yunis Novruz



Hələ kiçik yaşlarından maraqlı rəsmlər çəkən bu istedadlı oğlanın uşaq bağçasında, oxuduğu məktəbdə, T.İsmayılov adına Respublika Uşaq və Yeniyetmələrin Yaradıcılıq Mərkəzində Bakı şəhər uşaq şəkil Qalereyasında, Sabunçu Mədəniyyət sarayında sərgiləri təşkil edilmiş, rəsmləri Azərbaycan televiziyasının "Yurdun mın bir naxışı" verilişində nümayiş etdirilmişdir.



2004-cü ilin mayında Uşaq hüquqları üzrə Konvensiyaya dair divar rəsmləri tədbirində iştirak edən Yunis diploma layiq görülmüşdür. Vorld Vision təşkilatının rəhbəri, ABŞ-ın ölkəmizdəki keçmiş səfirinin xanımı Lesli Harnis diplomu Yunisə verərkən demişdir: - o gün olsun ki, sənin rəsm əsərlərindən ibarət sərgiyə mənim ölkəmdə baxaq.



Yunis hazırda Sabunçu qəsəbəsindəki 191 saylı məktəbin 9-cu sinfində oxuyur. Emosional təbiətə malik bu oğlan çalışqanlığı, nümunəvi tərbiyəsi və gözəl rəsmləri ilə hamının sevimlisinə çevrilmişdir. O, 2000-ci ildən Sabunçu Mədəniyyət sarayının təsviri sənət studiyasında sevdiyi sənətin incəliklərinə yiyələnir.

Arzusu rəssam olmaqdır.



*ABŞ-ın ölkəmizdəki keçmiş səfirinin xanımı L.Harnis Yunisə diplom verir.*



Aydan və Ləman

Ömürlərini elmə, təhsil işinə həsr etmiş Mikayılzadələrin nurlu ocağında Aydan və Ləman adında iki fidan bala böyüyür. Aydanın beş, Ləmanın iki yaşı var. Nijad babanın Pərvin qızından olan bu gözəl nəvələr ağıllı və istedadlı balalardır. Onlar dünyaya göz açandan kitablar aləminə düşmüşlər. Tibb Universitetinin dosenti Nijad babadan hər gün elmə, mədəniyyətə, tibbə aid hikmətli sözlər eşidirlər. İndidən kitaba, şəkil çəkməyə, musiqiyə maraq göstərirlər. Aydanın həm də gözəl musiqi duyumu və hafizəsi var. O, bül-bül kimi cəh-cəh vuran müğənninin səsini eşidəndə deyir ki, bu Motsartın "Sehirli fleyta" operasındandır. P.İ.Çaykovskinin "Sonalar gölü" və "Şelkunçik" baletlərinə baxır, Şubertin "Ave Mariya"sına, Ü.Hacıbəyovun, L.V.Bethovenin musiqisinə həvəslə qulaq asır. Azərbaycanın şairləri N.Gəncəvini, M.Füzulini, R.Rzanı, rus yazıçıları L.N.Tolstoyu, M.Qorkini tanıyır. A.S. Puşkinin, Krılovun, Marşakın şeirlərindən əzbər bilir. Şəkil çəkməyi çox sevir, şahmat və domino oynayır. Deyir ki, anası və nənəsi kimi həkim olacaq: "Elə indi də həkiməm". Babasının dərmanını görəndə "Simbioflor" kimi mürəkkəb adını deyib: "Elaza nənəm bu dərmandan mənə də verir". Aydanı bir dəfə görən şairə Rafiqə Nuray ona valeh olub, aşağıdakı şeiri həsr etmişdir.

### AYDAN

*Aya, ulduza taysan,*
*Ev dolu hay-haraysan,*
*Tanrının bəxş etdiyi*
*Şirin-şəkər bir paysan.*
*Doymaq olmur bu paydan,*
*Zərif çiçəkdir Aydan.*

*Gözəllər gözəlisən,*
*Dəcəllər dəcəlisən,*
*Səndən incimək olmur-*
*Duzlusan, məzəlisən.*
*Doymaq olmur bu paydan,*
*Zərif çiçəkdir Aydan.*

*Ağıllı, kamallısan,*
*Hər kəlməsi ballısan,*
*Söz də çatdırmaq olmur,*
*Min sorğu-suallısan.*
*Doymaq olmur bu paydan,*
*Zərif çiçəkdir Aydan.*

*Ay nur saçsın yoluna,*
*Düş xoşbəxtlik toruna,*
*Qoy tanrı səadətdən*
*Qolbaq taxsın qoluna.*
*Doymaq olmur bu paydan,*
*Zərif çiçəkdir Aydan.*



**Nuray Rəşadət qızı Cəfərova**

Sumqayıt şəhərində anadan olub. Hazırda Xaçmazda yaşayır. Ağıllı baxışları, şirin dili və mehribanlığı ilə hamını özünə cəlb edən bu balaca fidan bala müəllim ailəsində hamıdan çox istədiyi nənəsinin, anasının qayğıları əhatəsində və uşaq baxçasının tərbiyə alır. Vaxt gələcək o da qurub-yaradan yurdumuzun balalarına qoşulub, doğma vətənimizin tərəqqisinə çalışacaq. Onun indidən öz istəyini, qabiliyyətini, bacarığını bildirən cücərtilər bunu deməyə ümid verir. Nədir onlar? Şərqiyyə nənəsi onun haqqında deyir: Nuray ən çox şəkil çəkməyə meyl edir. A.Şaiqin "Tıq-tıq xanım" və "Əlifba" kitabındakı bütün nağılları, şeirləri əzbər bilir. Azərbaycanın dövlət himni dilindən düşmür. Azərbaycan, rus, ingilis dillərində xeyli söz, 10-a qədər saymağı öyrənib. Baxçada hazırlanan səhnəciklərdə çıxış edir.

Arzusu hələ müəyyən olunmayıb. Gah atası kimi polis, gah da anası kimi müəllim olmaq istəyir. Bu göyçək qızın adında da bir məna var. Valideyinləri xoşbəxt gələcəyini görmək istəyilə ona Nuray adı vermiş, həyat yollarının işıqlı və yaxşı həkim kimi xeyirxah bir insan olmasını arzulamışlar.







**Maqsud Qulubəyov**

Atasının polad biləkləri arasına sığınmış bu xoşbəxt balalar məşhur Qulubəyovlar nəslinin davamçılarıdır. Bakıda nəcib bir ziyalı ailədə dünyaya göz açmışlar. Maqsud balanın beş, Musa balanın üç yaşı var. Onlar hələlik "Səma" uşaq baxçasına gedirlər. Çox çəkməz ki, işıqlı məktəb yollarına çıxacaqlar. Evdə analan Aytən xanımın böyük qayğısı və tərbiyəsilə böyüyürlər. Yaşıdlarına görə yaxşı inkişaf etmişlər. Maqsud kitablara, idman oyunlarına maraq göstərir. Atası kimi güclü olmaq istəyir. O, polkovnik-leytenant olan atası ilə fəxr edir. Bu, heç də təsadüfü deyil. Onun atası Mamay Qulubəyov Azərbaycan Prezidenti tərəfindən "Vətən uğrunda" və "Hərbi xidmətlərinə görə" medalları ilə təltif olunmuşdur.

Kim bilir, belə vətənpərvər, mədəni ailədə böyüyən Maqsud da, Musa da gələcəkdə vətən qarşısında xidmətlərinə görə daha böyük mükafatlara layiq görüləcəklər!

**Toğrul Qulubəyli**



Gəncədə Rəhimbəy Qulubəyovu hamı bu gün də böyük ehtiramla xatırlayır, minnətdarlıq duyğusu ilə yad edir. Qori Müəllimlər Seminariyasının məzunu olan bu maarifpərvər ziyalı bütün ömrünü doğma xalqının tərəqqisi işinə həsr etmiş, Goranboyda məktəb açmış, balalara savad və bilik öyrətmişdir. Bu işıqlı babanın ocağında bu gün onun adını, ruhunu şərəflə doğruldan nəvələr, nəticələr, kötükcələr böyüyürlər. Onlardan biri də Toğrul Qaray oğlu Qulubəylidir. O, Gəncədə anadan olmuş, 4 saylı orta məktəbi əla qiymətlərə qurtarıb, ali təhsilini Çin Xalq Respublikasının Quançou şəhərindəki Cənubi Çin Kənd Təsərrüfatı Universitetində iqtisadiyyat və menecment ixtisası üzrə davam etdirmiş, maqistranturanı bitirmişdir. Bu istedadlı gənc öz ana dili ilə yanaşı ingilis, rus, çin, türk dillərini də mükəmməl öyrənmişdir. Bu dillərdə sərbəst yazıb-oxumaq bilən Toğrulun arzusu aspiranturanı da bitirib, elm sahəsində çalışmaqdır.



Foto: Mirnaili Həsən oğlu və Nariq Məmmədov. 1998

# MƏDƏNİYYƏT XƏZİNƏMİZDƏN SƏTİRLƏR




### *Tarixi abidələrimiz hıqqında nə bilirsiniz?*

Bız qədım və gozəl yurdumuzun tarıxı-memarlıq abidələri ilə fəxr edirik. Azərbaycanın demək olar ki, hər guşəsında qədım mədaniyyətimizin yadigarlarını yaşadan çoxlu tarıxi abıdə vardır. Qobustan qaya təsvırları, Bisutun kıtabəsi, Ordubaddakı "Qəmiqaya" rəsmləri, Bakıdakı "Qız qalası", Şirvanşahlar saray kompleksi, Mərdəkan və Ramana qəsrləri, Suraxanı "Atəşgahı", Atəşpərəstlik dövründən qalmış digər ibadətgahlar, Naxçıvandakı Möminə xatun türbəsi, Gəncədəki qədım qala divarı, "Şah Abbas məscidi", Şəkidəki Xan sarayı, Dəvəçidəki "Çıraqqala", Bərdədəkı "Nüşabə qalası", Qəbələnin cənub divarlarının qalıqları, Şabran xarabalıqları, müxtəlif müqəddəs ocaqlar, pirlər, körpülər və başqa tikililər xalqımızın ulu keçmişindən xəbər verir.

Alımlərımızin böyük zəhmətilə tərtib edilmış və Bakı Kartoqrafiya fabrikində hazırlanmış və çap olunmuş "Azərbaycan tarixı atlası"nda gözəl əksini tapmış bu xəritədə bunun əyani təsvirini görürük.

Həmin abidələrin bır qismı haqqında toplumuzda oxuya bilərsiniz.











### *"Kitabi-Dədə Qorqud" dastanı Avropaya necə gedib çıxmış və onu elm aləminə ilk dəfə kim çıxarmışdır?*

1052-ci ildə yazıya köçürülmüş 12 boydan ibarət olan "Kitabi-Dədə Qorqud" dastanının əlyazma nüsxəsinin surəti Almaniyanın Drezden kitabxanasında, 6 boy və bir müqəddimədən ibarət olan əlyazma nüsxəsi İtaliyada Vatikan kitabxanasında saxlanılır. Bunlar həmin kitabxanalara necə düşmüşdür? Görkəmli tədqiqatçı alim Şamil Cəmşidov yazır ki, 1565-1585-ci illərdə Güney Qafqazda hakimiyyət sürmüş Osmanlı qoşunları komandanı Osman Paşa Əzdəmirzədənin xəzinəsi ilə bərabər "Kitabi-Dədə Qorqud" dastanı da Avropaya aparılmışdır. Bu nadir sənət əsərinin Drezden kitabxanasına necə düşməsi hələlik məlum deyildir.

Almaniyada "Kitabi-Dədə Qorqud" dastanı haqqında ilk elmi fikir söyləyən alman şərqşünası Fridrix fon Dits olmuşdur. O, 1815-ci ildə bu qəhrəmanlıq eposu haqqında məlumat verməklə bərabər "Basatın Təpəgözü öldürdüyü boy"u alman dilinə tərcümə etmişdir.



**Rəssam: F.Əliyev "Kitabi - Dədə Qorqud" dastanının qəhrəmanları**



**"Dədə Qorqud" filmindən fraqment**



*Hanı, dediyim bəy ərənlər?!*
*Rəssam: V.Hüseynov*

### *"Kitabi-Dədə Qorqud" dastanı haqqında hansı dillərdə əsərlər nəşr edilib?*

"Dədə Qorqud" dastanının nəşri, tədqiqi və bu böyük xəzinənin mövzusu ilə bağlı mətbuatda Azərbaycan dilində 922 məqalə çap edilmişdir. Bədii ədəbiyyatda bu möhtəşəm dastanın mövzusunda 29 poema, pyes, hekayə yazılmışdır. Bu ölməz sənət incisi dünyanın bir çox dilinə tərcümə edilmiş, Ankarada, İstanbulda, Sankt-Peterburqda, Londonda, Sürixdə və b. yerlərdə nəşr olunmuşdur.

"Dədə Qorqud" mövzusu ilə bağlı rus dilində 208 elmi, publisistik məqalə və bədii əsər yazılmışdır. Dastan 13 dəfə rus dilində nəşr edilmişdir. Türk dilində dastan 74 dəfə, dastan haqqında 182 məqalə və tədqiqat işi, alman dilində 23, ingilis dilində 16, fransız dilində 8, italyan dilində 5, fars dilində 9, qazax dilində 13, türkmən, qaraqalpak, serb, Litva, talış, polyak, gürcü və b. dillərdə onlarla məqalə çap edilmişdir.

### Nə üçün Nəsiminin dərisini soydular?

Azərbaycan poeziyasının sönməz ulduzlarından biri olan İmadəddin Nəsiminin taleyi parlaq və sonda faciəli olmuşdu. Bu müdrik insan, mütəfəkkir şair 1369-cu ildə Şamaxıda dünyaya göz açmış, ömür kitabının son səhifəsi 1417-ci ildə Suriya ərəb torpağında - Hələb şəhərində bağlanmışdı. İlk təhsilini qədim Şamaxı şəhərində almış, elmlərin, dinlərin tarixini, məntiq, riyaziyyat və astronomiyanı öyrənmişdi. Bu elmlər onu fəlsəfi fikir dəryasına aparmış, müdrikləşdirmiş, poeziya gülşənində öz nəfəsi, ruhu, əqidəsi ilə parlayan işıqlı bir ulduza çevirmişdir. Bu yaradıcı insanın, yeni söz və fikir dühasının yetişməsində dövrünün də böyük rolu olmuşdur. O, yaradıcılıq aləminə qədəm qoyanda Bağdad mərkəz olmaqla müsəlman dünyasında yeni cərəyanlar, yeni təriqətlər yaranmış, sufi görüşləri beyinləri silkələyir, müəllimi Fəzlullah Naiminin hürufilik təlimi Nəsimini fanatizmə, cəhalətə qarşı mübarizəyə hazırlayırdı. 1394-cü ildə müəllimi Naimi edam ediləndə onun yolunu, əqidəsini Nəsimi davam etdirmiş, şeirlərində insanın varlığını, ağlını, qüdrətini hər şeydən uca tutmuşdu. Nəsiminin şeirlərindəki fəlsəfi mənalar, sxolastik baxışları tənqid edən fikirlər, hər cür zülmə, ədalətsizliyə qarşı etiraz nidaları, müəllimi Naiminin "Vəsiyyətnamə"-sinə əsasən Təbrizə, oradan da Anadoluya gedib hürufiliyi yayması hakim zümrəni, fanatik din



Rəssam: M. Abdullayev

"xadimləri"ni çox narahat edirdi. Əqidəsinə görə Nəsimi dəfələrlə zındana salınmışdı. Ömrünün son illərini Hələbdə yaşayan şair həbs olunmuş, "kafir", "dinsiz" elan edilmiş. Misir sultanının əmri ilə diri-diri dərisi soyulmuşdur.



*Azərbaycan alimləri.*
*Rəssam: O.Sadıqzadə*

***"Məndə sığar iki cahan,***
***mən bu cahana sığmazam,***
***Gövhəri laməkan mənəm,***
***kövnü- məkana sığmazam"***

- deyən mütəfəkkir şairi cahillər orta əsrlərin ən ağır işgəncəsi ilə bu cahanda dərisini soyub öldürdülər. Amma onun azad səsi, ana dilimizdə yazdığı gözəl poeziya inciləri, bütün dünyaya səpələndi. Özünün dediyi kimi, bu dünyaya gövhər baxş edən nurlu bir insan kimi müqəddəsliyə ucaldı.







### Füzuli fəlsəfi görüşlərini ən çox hansı əsərində əks etdirmişdir?

Azərbaycan və eləcə də türk dünyasının böyük mütəfəkkiri, Şərq poeziyasının sönməz ulduzu Məhəmməd Füzuli həm də böyük filosof idi. Onun bütün əsərlərində bədii-poetik, fəlsəfi fikir görkəmli yer tutur. Ərəb dilində yazdığı "Mətləül-etiqad" əsərində isə sırf fəlsəfi məsələlər öz geniş şərhini tapmışdır. Azərbaycanın görkəmli şərqşünas alimi, akademik Həmid Araslı yazır: "...bilik, elm, onların istər din, istərsə də ayrı-ayrı fəlsəfi məktəblər tərəfindən qiymətləndirilməsi, dünyanın yaranması, ilk yaradılış, yunan filosoflarının bununla əlaqədar görüşləri, Allahın varlığı, onun sifətləri, peyğəmbərlik, bu barədə Şərq və Qərb filosoflarının mülahizələri, xeyir və şər problemi, məhşər, sual-cavab, haqq-hesab, dünyanın axırı, insanların günah və savablarının ölçülməsi ilə əlaqədar görüşlər müxtəsər şəkildə bu əsərdə öz əksini tapmışdır".

### Azərbaycanın böyük alimi Nəsirəddin Tusi elmdə hansı ilk nəzəri fikirləri söyləmişdir?

Nəsirəddin Tusi (1201-1274). Həmədan, bəzi mənbələrə görə Tus şəhərində anadan olmuşdur. Tusi ləqəbi təhsil aldığı Tus şəhərinin adı ilə əlaqədardır. N.Tusinin ilk müəllimi atası olmuşdur.

N.Tusi nəinki şərqdə, eləcə də dünyada tanınmış böyük ensiklopedik alim, filosof idi. O, elmdə bir sıra ilk nəzəri fikirlər söyləmiş, riyaziyyata, astronomiyaya, tibbə, minerologiyaya, fəlsəfəyə, ədəbiyyata, məntiqə, etikaya, optikaya və digər elmlərə aid yüzdən çox əsər, traktat yazmışdır. "Zic Elxani" əsərində planetlərin geosentrik orbitinin əsas elementlərini vermiş, onların sutkalıq orta hərəkəti öz dövrünə və hətta XVII əsr astronomiya müşahidələrinə nisbətən daha dəqiq təyin etmişdir.

Bu əsərində N.Tusi çoxlu riyazi, astronomik və coğrafi cədvəllər vermişdir. Onlardan ən mühümləri sinus və tangensin 60-lıq say sistemində üçrəqəmli triqonometriya cədvəlləri və XIII əsrdə məşhur olan 256 şəhərin coğrafi kordinatlar cədvəlidir. Kolumbun müəllimi Toskanelli bu cədvəldən istifadə etmişdir. Cədvəl Londonda (1652) və Oksfordda (1711) ərəb və latın dillərində çap olunmuşdur.

N.Tusinin "Təhriri-Öqlidis" (Evklidin şərhi) əsəri həndəsənin inkişafına təkan vermiş, ingilis riyaziyyatçısı C.Vallisin və italyan alimi C.Sakkerinin elmi işlərinə böyük təsir göstərmişdir.

N.Tusi fizikaya dair əsərlərində təbiətdə maddənin saxlanması və çevrilməsi haqqında ilk fikir söyləmişdir.

N.Tusinin ədəd anlayışı müasir təsəvvürə uyğun gəlir və o, bu sahədə Avropa riyaziyyatçılarını 400 il qabaqlamışdır (ASE. 1983. c.VII səh.231).

N.Tusinin fəlsəfi fikirləri də orijinaldır. Varlıq təlimi, idrak nəzəriyyəsi və məntiq onun fəlsəfi sistemində bir-biri ilə üzvi surətdə bağlıdır.

N.Tusi Bağdada səfəri zamanı vəfat etmiş, burada "Cəlil Məscid"də dəfn olunmuşdur. Qəbrinin üstündə belə yazılmışdır: "Elmin hamısı elm ölkəsinin şahı, dövr anası belə oğlu hələ doğmamışdır".



N.Tusi

Rəssam: Nəcəfqulu

### Şərqdə astronomiya elminin inkişafında böyük rol oynamış Marağa rəsədxanası nə vaxt və kim tərəfindən yaradılmışdır?

Güney Azərbaycanın Marağa şəhərində rəsədxana 1259-cu ildə yaradılmışdır. N.Tusinin ən böyük xidmətlərindən biri olan bu astronomiya elmi mərkəzdə onun onlarla şagirdi, görkəmli alim məşğul olmuşdur. N.Tusi burada özünün ən qiymətli kəşflərini etmiş, Azərbaycan və dünya elmi xəzinəsinə töhfə olan "Zic elxani cədvəlləri", "Kəsişmələr şəkli", "Astrolyabiya", "Cavahirnamə", "Əxlaqi-Nasiri", "Mövcudatın bölgüsü və onun qismləri", "İqtibasın əsası" və s. əsərlərini yaratmışdır.

Marağa rəsədxanası dövrünə görə ən dəqiq və həssas cihazlarla təchiz edilmişdir. Burada Günəşin və Ayın tutulmalarını qabaqcadan xəbər vermək üçün xüsusi cədvəllər tərtib olunmuşdur.

Marağa rəsədxanasında aparılan elmi tədqiqat işləri Özbəkistan, Hindistan, Çin və hətta Qərbi Avropa ölkələrində olan rəsədxanaların elmi fəaliyyətinə böyük təsir göstərmişdir.

### Azərbaycanda orta əsrlərdə nə qədər filosof və mütəfəkkir alim olmuşdur?

Onların sayı onlarladır. Orta əsr Şərq bədii-estetik, elmi-fəlsəfi fikrinin zənginləşməsində Şərq alimləri ilə birlikdə Azərbaycanın poeziya ulduzları ilə yanaşı filosofları və mütəfəkkirlərinin də böyük xidmətləri olmuşdur. Tarixçi alim Zakir Məmmədov 1986-cı ildə nəşr etdirdiyi "Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri" kitabçasında 26 belə şəxsiyyət haqqında məlumat vermişdir. Onların bir çoxunun adını qeyd edirik: "Əbubəkir Əhməd Bərdiçi (?-914), Əbusəid Əhməd Bərdəi (?-929), Məhəmməd Bərdəi (?-961), Məhəmməd Bakuvi (?-1037), Əbülhəsən Bəhmənyar (?-1066), Əbusəid Urməvi (XI-XII əsrlər), Əbunnəcib Sührəvərdi (1097-1168), Beynəlqüzat Miyanəçi (1099-1131), Şihabəddin Yəhya Sührəvərdi (1154-1191), Əminəddin Təbrizi (1163-1224), Tacəddin Urməvi (1177-1255), Nəcməddin Naxçıvani (?-1253), Siracəddin Urməvi (1198-1283), Nəsrəddin Tusi (1201-1274), Şihabəddin Xoylu (1229-1294), Səfiəddin Hindi Urməvi (1246-1315), Səid Yəhya Şirvani Bakuvi (?-1462), Muhyiddin Məhəmməd Bərdəi (?-1521), Kamaləddin Ərdəbili (1475-1543), Əhməd Ərdəbili (?-1583).

### Tusini zindandan kim azad etmişdir?

Dünya şöhrətli bu dahi insan mütərəqqi fikirlərinə, elmi, dini-fəlsəfi, hüquqi baxışlarına görə orta əsr mühafizəkar dairələrin iradına, təqibinə məruz qalırdı. Onun böyük dühası qarşısında aciz olanlar cəbr üsuluna da əl atırdılar. Kuhistanda olarkən N.Tusi həbs olunmuş, Ələmut qalasında zindana salınmışdı. Böyük alim bu ağır şəraitdə də elmlə məşğul olmuş, İbn-Sinanın "İşarələr və qeydlər" adlı əsəri üzərində işləmişdir.

Monqol sərkərdəsi Hülakü xan bu qalanı alanda N.Tusinin böyük ağlına, biliyinə yüksək qiymət verib, onu zindandan azad edib, özünə məsləhətçi götürmüşdür. N.Tusi bu zaman minlərlə günahsız alim və müdrik insanları monqol qılıncından xilas edə bilmişdir. Hülakü xanın vəfatından sonra (1265) isə Nəsirəddin Tusi onun oğlu Abaqa xanın vəziri təyin edilmişdir (1265-1274).

### 20 yaşında elm dalınca payi-piyada Təbrizdən Şama gedən Azərbaycanın böyük alimi kim olub?



Bu sualların geniş cavabını M.Mahmudovun "Xətib Təbrizinin həyat və yaradıcılığı" (B. 1972), "Piyada... Təbrizdən Şama qədər" (B., 1982) tədqiqat əsərlərindən öyrənmək olar. Biz isə qısaca bunları qeyd edirik: - Xətib Təbrizi - Yəhya Əli oğlu 1030-cu ildə Təbrizdə anadan olmuş, 1109-cu ildə Bağdadda vəfat etmişdi. İlk təhsilini Təbrizdə alan X.Təbrizi 20 yaşında Suriyanın Şam (Dəməşq) şəhərinə gedib, məşhur şair-filosof Əbulla Məarridən dil, ədəbiyyat, tarix, fəlsəfə və ilahiyyat elmlərini öyrənmiş, Suriya və Misirin görkəmli alimləri ilə görüşmüşdür. 1067-ci ildə Bağdadda "Nizamiyyə" mədrəsəsi açılanda Xətib Təbrizi ora müəllim kimi dəvət olunmuş və ömrünün axırına kimi burada çalışmış, zəngin kitabxanaya başçılıq etmiş, tədqiqat işi ilə məşğul olmuşdur. Ensiklopedik biliyə malik olan Xətib Təbrizi bir sıra poeziya nümunələri yaratmış, ədəbiyyat, dil, etnoqrafiya, fəlsəfə və ilahiyyat elmləri üzrə maraqlı araşdırmalar, o cümlədən "İslah əl-Məntiq"in düzəlişi", "Nəhvə giriş", "Quran" da hal şəkilçiləri" və s. Yaxın Şərq xalqlarının ədəbi fikrinin inkişafında mühüm rol oynayan elmi əsərlər müəllifi kimi şöhrət qazanmışdır.





### Əsası XIII əsrdə qoyulmuş Təbriz miniatür məktəbinin ən parlaq dövrü nə vaxt olub? Bu dövrün ən görkəmli rəssamı kim idi?

Sultan Məhəmməd (1470-1555) dünya rəngkarlıq sənətinin klassiki, Yaxfın və Orta Şərq xalqları miniatür sənətinin inkişafında böyük rol oynamış, adı əfsanəvi Mani və Behzadla yanaşı çəkilən qüdrətli Azərbaycan rəssamıdır. O, Təbrizdə anadan olmuş, orada da vəfat etmişdir. XVI əsrin rəssamı, xəttatı və sənət tarixçisi Dust Məhəmməd "Həlat-e-Hənərvəran" təzkirəsində, XVII əsr tarixçisi İskəndər Münşi öz salnaməsində Sultan Məhəmmədin yaradıcılığına yüksək qiymət vermiş, onu əsrin zirvəsi adlandırmışlar.

Sultan Məhəmmədin ilk müstəqil yaradıcılığı 1510-1520-ci illərə təsadüf edir. Həmin illərdə o, Şah İsmayılın saray kitabxanasının bədii emalatxanasının baş rəssamı işləmişdir. Burada o, Şah İsmayılın oğlu I Təhmasibə rəssamlıq sənətini öyrətmişdir.

Rəssamın hələlik bəlli olan ən görkəmli əsərləri: "Şahnamə" (1537), Hafizin "Divan"ı (1530) və 1539-1543-cü illərdə Şah Təhmasib üçün hazırlanmış Nizami Gəncəvi "Xəmsə" -sinin məşhur əlyazma nüsxəsində toplanmışdır. Bundan əlavə Peterburqda Saltıkov-Şedrin adına kitabxanada, İstanbul, London, Paris, Vaşinqton, Krakov və bir çox başqa şəhərlərin muzey və kitabxanalarında rəssamın portret əsərləri, süjetli miniatürləri, kitab rəsmləri saxlanılır.





### Nizami muzeyinin milli naxışlarla bəzədilmiş eyvanında ucaldılmış heykəllərin müəllifləri kimlərdir?

Azərbaycanın dahi şairi M.Füzulinin heykəlini xalq rəssamı Fuad Əbdürrəhmanov, M.P. Vaqifin heykəlini xalq rəssamı Cəlal Qaryağdı düzəltmişlər. M.F.Axundovun abidəsini görkəmli heykəltəraş P.Sabsay, şairə X.B.Natəvanın heykəlini Y.Tripolskaya, "Molla Nəsrəddin" satirik ədəbi məktəbinin banisi C. Məmmədquluzadənin heykəlini Ovsyannikov və böyük dramaturq C.Cabbarlının abidəsini isə S.Klyatski hazırlamışdılar.

### Sultan Məhəmmədin ardıcılları olmuşdurmu?

Sultan Məhəmmədin çoxlu tələbəsi və davamçısı olmuşdur. Buna görədir ki, ilk mənbələrdə onun adının önündə "ustad" sözü yazılmışdır. Bu böyük ustadın ən yaxşı tələbələrindən oğulları Mirzə Əli və Məhəmmədi, bacısı oğlu Mir Zeynalabdini, Mir Seyid Əlini və başqalarını göstərmək olar.

Sultan Məhəmmədin tələbələri və ardıcılları sənətkarın üslubunu, bədii ənənələrini davam etdirərək İran, Türkiyə, Orta Asiya və Hindistanda miniatür sənətinin inkişafında əhəmiyyətli rol oynamışlar. ("Soltan Məhəmməd-500", Təqvim B., 1991)

### Klassik musiqimizin görkəmli xadimi Səfiəddin Urməvi ölümdən necə xilas oldu?

XIII əsrdə yaşamış, lakin özündən sonra Şərq musiqi tarixində böyük rol oynamış mahir musiqi ifaçısı, bəstəkar, musiqi nəzəriyyəçisi Səfiəddin Urməvi Azərbaycan xalqının yetirdiyi böyük şəxsiyyətlərdən biridir. O, 1230-cu ildə Urmiyada anadan olmuş. Bağdadda mədrəsədə mükəmməl təhsil almış, ədəbiyyatı, musiqini, tarixi və xəttatlığı öyrənmişdi. S.Urməvi xəlifənin saray kitabxanasında gözəl xətlə əlyazmaların üzünü köçürməklə məşğul olarkən ud alətində musiqi çalarmış. O zaman Bağdadda Lihaz adlı bir qadın müğənni vardı. Onun gözəlliyi və ifası xəlifə Müstəsəm Billahı məftun etmişdi. Bir gün sarayda təşkil olunmuş məclisdə Lihaz gözəl bir mahnı oxudu. Mahnı xəlifənin xoşuna gəldi. Lihazdan soruşdu: - Mahnı kimindir?



Müğənni fərəhlə dillandı: - Ustadım Səfiəddinindir. Xəlifənin göstərişi ilə Səfiəddin ud çalğı aləti ilə saraya çağırıldı. Xəlifə çalmağı Səfiəddinə əmr etdi. Çalğı və musiqi xəlifənin o qədər xoşuna gəldi ki, Səfiəddini sarayın nədimi (nədim ərəb dilində həmsöhbət deməkdir. Keçmişdə hökmdarı, xəlifəni gülməli sözlər və lətifələrlə əyləndirən adam) təyin etdi.

Çox keçmədi ki, monqolların hücumu başladı. Hər şey alt-üst oldu. Hər yerdə ölüm-itim. Səfiəddini də ölüm haqlamışdı. Monqol hökmdarı Hülaku xanın əsgərləri bir gün küçədən keçərkən gözəl musiqi səsi eşitdilər. Onlar bunu dərhal xana çatdırdılar. Xan dərhal Səfiəddinin gətirilməsini əmr etdi.

Səfiəddin Urməvi öz ud alətini götürüb Hülaku xanın hüzuruna gəldi. Xanın tələbi ilə Səfiəddin udunu dillandirdi. Xan gözəl musiqi eşidib xoşhal oldu və onu əfv etdi.

Təhlükə belə sovuşdu (L.Kərimov, "Azərbaycan" jurnalı, 1965, № 7).

### Səfiəddin Urməvi tarixdə necə iz və irs qoymuşdur?

Səfiəddin Urməvi monqol qılıncından xilas olub Təbriz şəhərinə - Elxanilərin baş vəziri şair Şəmsəddin Məhəmmədin yanına gəldi. Onun oğlunun tərbiyəsi ilə məşğul oldu, musiqi təhsili verdi. Elmi yaradıcılığını davam etdirdi. "Risaleyi Şərəfiyyə" adlı əsərini yazdı. Şərqdə ilk dəfə not yazısı icad etdi.

1252-ci ildə "Kitabi əl-Ədvar" ("Musiqi dövrləri haqqında kitab") məşhur əsərini yazdı.

Bütün şərq, eləcə də şifahi ənənəyə malik Azərbaycanın peşəkar musiqisinin əsasını təşkil edən səs komponentlərinin sistemləşdirilməsi S.Urməvinin musiqi nəzəriyyəsi sahəsində böyük nailiyyətidir. Bu sistemə əsaslanaraq o, risalələrində daha mükəmməl tabulatura (tabulatura fransızca tablature, almanca - tablatur, latınca - tabula - lövhə, cədvəl, orta əsrlərdə Qərbi Avropada solo instrumental musiqinin hədəf və rəqəmlər vasitəsilə qeydə alınma sistemi) vasitəsilə 12 əsas məqam (dövr), 6 törəmə məqamının (avaz) səs düzümünü vermişdi.

Səfiəddin Urməvi "Nüzhə" (əyləncə), "Muğni" (sövt verən) adlı yeni musiqi alətləri də icad etmişdi. "Nüzhə" arfa və kanon formasında olub 81 simli alət idi. "Muğni"nin isə 33 simi vardı.

Səfiəddin Urməvinin musiqi sahəsində xidmətləri Avropa alimlərinin də diqqətini cəlb etmişdi. Məşhur ingilis şərqşünası Henri Corc yazırdı: "... XIII əsrdə musiqi səmasında parlaq bir ulduz zühur etdi. Onun adı Səfiəddin Əbdülmömin Urməvidir... Onun yazdığı "Kitabi əl-Ədvar" və "Risaleyi Şərəfiyyə" adlı əsərini mütaliə edərkən demək olar ki, Fərabidən, sonra musiqi sənətinin üsul və qaydalarını tədqiq edən ən böyük alim olmuşdur...".

XVIII-XIX əsrlərdə Fransa musiqişünası J.B.Labürd, alman alimləri R.G.Gize Viter, H.Riman, holland musiqişünası J.N.Land və b. Səfiəddin Urməvinin əsərlərinə dair qiymətli fikirlər söyləmiş, onun nəzəriyyəsindən istifadə etmişlər (L.Kərimov, "Azərbaycan" jurnalı, 1965, № 7).





### Rusiyada şərqşünaslıq elminin əsasını qoyan ilk azərbaycanlı alim kim olub?



Mirzə Kazım bəy (1802-1870)

Akademik V.Bartold özünün "Şərqi və Rusiyanı Avropada öyrənmə tarixi" adlı əsərində yazır ki, Mirzə Kazım bəy Rusiyada şərqşünaslıq elminin əsasını qoyan böyük alimlərdən biridir. O, professor O.I.Senkovski ilə bütöv bir rus şərqşünaslıq məktəbini yaratmışdır.

Mirzə Məhəmməd Əli Hacı Qasım oğlu Mirzə Kazımbəy Rəşt şəhərində anadan olmuş və Sankt-Peterburq şəhərində vəfat etmişdir. O, 1826-1845-ci illərdə Kazan Universitetində professor, 1845-ci ildən ömrünün axırınadək Peterburq Universitetində dekan, professor, kafedra müdiri və s. vəzifələrdə çalışmış, böyük tədqiqat işləri aparmış, əsərlər yazmışdır. Mirzə Kazım bəy Böyük Britaniya Kral Asiya Cəmiyyətinin həqiqi üzvü (1829), Peterburq EA-nın müxbir üzvü (1835), Kopenhagen Şimal Nadir Sənədlər Kral Cəmiyyətinin üzvü (1843), Kazan Vətən Dilləri Cəmiyyətinin üzvü (1849), Rusiya Coğrafiya Cəmiyyətinin həqiqi üzvü (1850), Fransa Asiya Cəmiyyətinin ordenator üzvü (1850), Boston Şərqşünaslar Cəmiyyətinin (ABŞ) müxbir üzvü (1851), Amerika Fəlsəfə Cəmiyyətinin üzvü (1862), Almaniya Şərqşünaslıq Cəmiyyətinin üzvü (1862) seçilmişdi. Elm üzrə üç dəfə Demidov mükafatına layiq görülmüşdür.

Mirzə Kazım bəy müsəlman hüququnun Rusiyada ilk tədqiqatçısı, Azərbaycan dilinin ilk elmi qrammatikasının yaradıcısı olmuşdur.

### Görkəmli fransız yazıçısı A.Düma Qafqaza səfəri zamanı X.B.Natəvana nə hədiyyə etmişdi?

Nizami adına Azərbaycan ədəbiyyatı muzeyində Xurşud Banu Natəvana məxsus dörd ədəd şahmat fiquru (inv.2233) saxlanılır. Bu fiqurları Natəvanın nəticəsi Leyla xanım Usmiyeva muzeyə hədiyyə etmişdir... Həmin şahmat dəsti məşhur fransız yazıçısı A.Düma (ata) 1858-ci ildə Qafqaza səfəri zamanı X.B.Natəvana vermişdi.

Natəvanın birinci əri Dağıstan knyazı Avropada təhsil almış, fransız dilini mükəmməl bilən general-mayor Xasay Usmiyev öz ailəsi ilə birlikdə Qarabağdan Bakıya gəlmiş. A.Düma ilə görüşmüşdür. Həmin tarixi görüşdən yadigar qalmış şahmat fiqurları fil sümüyündən düzəldilmişdir. Fiqurların yarısı fil sümüyü rəngində Avropa hökmdarlarının ordusunu, ikinci yarısı isə mavi rəngdə Şərq hökmdarlarının ordusunu təmsil edir. Fiqurların ölçüləri şah - 80x20 mm, top 70x30x20 mm, piyada - 65x20x15 mm-dir. Burada topun yelkənli qayıq şəklində təsviri nəzəri cəlb edir. Görünür, bu fiqurlar Rusiyada hazırlanmışdır. Düma Qafqaza gələnə qədər Peterburqda və Moskvada olmuşdur.

### Koroğlunun Rusiya və Avropa səfərləri olubmu?

Bu sualın cavabını belə vermək olar: Koroğlunun özü yox, onun şöhrəti, dastanı Avropaya da, Rusiyaya da gedib çıxıb. Bu, belə olmuşdur. XIX əsrin əvvəllərində etnoqraf-tarixçi I.Şopen Qafqazda işləyərkən "Koroğlu" dastanı ilə maraqlanıb, onun bəzi boylarını 1840-cı ildə rus dilinə tərcümə edib çap etdirmişdir. Koroğlunun rus oxucuları ilə ilk görüşü belə olub.



D e y i r l ə r "Koroğlu" dastanının ən qədim variantı Parisin Milli Əlyazmalar Fondunda saxlanılır. Onu polyak ş ə r q ş ü n a s ı A.Xodzko ingilis dilinə tərcümə edib 1842-ci ildə Londonda kitab halında çap etdirmişdir. Güney A z ə r b a y c a n aşıqlarının ifasından yazıya alınmış bu variant o dövr üçün dastanın ən dolğun nəşri sayılmışdı. A.Xodzko yazır ki, "Əgər şairin şöhrəti onu sevənlərin miqdarı ilə ölçülərsə, Firdovsinin Koroğludan üstünlüyü çox da böyük olmaz".

"Koroğlu" rus oxucuları ilə ikinci dəfə 1856-cı ildə S.Peninin tərcüməsində Tiflisdə çıxan "Kafkaz" qəzetinin 8 sayında olmuşdur. N.Q.Çernışevski dastanın rus dilində nəşri ilə əlaqədar

"Sovremennik" jurnalında məqalə ilə çıxış etmiş, ona yüksək qiymət vermişdir.

Ukraynalı tədqiqatçı N.İ.Qulak 1885-ci ildə "Kafkaz" qəzetində dərc etdirdiyi məqaləsində yazırdı ki, görkəmli fransız yazıçısı Jorj Sandı "Koroğlu" dastanı öz orijinallığı ilə elə sehirləmişdir ki, o, dastanın bütün hekayələrini (boylarını) fransız dilinə tərcümə etmişdir.

Bu da Koroğlunun fransız oxucuları ilə görüşü. Avropada belə görüşlərin sayını bir çox yerlərdə də tapmaq olar. Məsələn, "Koroğlu" 1966-cı ildə Kembric Universiteti nəşriyyatında ingilis dilində çap edilmiş, dünyanın bir çox kitabxanalarına gedib çıxmışdır.

### *Qarabağın tarixinə aid neçə "Qarabağnamə" yazılmışdır.*

Qarabağ tarixini öyrənmək üçün əlimizdə çoxlu mənbələr vardır. Alimlərimiz bunlara əsaslanaraq maraqlı tədqiqat işləri aparırlar. Qarabağ həqiqətlərini ətraflı öyrənmək işində əslən qarabağlı olan müəlliflərin yazdıqları "Qarabağnamə"-lər bir mənbə kimi əhəmiyyət kəsb edir. Onları gözəl tədqiqatçı Nazim Axundov toplayıb 1991-ci ildə böyük bir kitab halında çap etdirmişdir. Həmin əsərlər bunlardır: Mirzə Yusif Qarabaği "Tarixi-səfi", Xəzani Mir Mehdi "Kitabi-tarixi-Qarabağ", Rzaqulu bəy Mirzə Camal oğlu "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri", Mirzə Rəhim Fəna "Tarixi-cədidi-Qarabağ", Baharlı "Əhvalati-Qarabağ", Həsən İxfa Əlizadə "Şuşa şəhərinin tarixi", Həsənəli Qaradaği "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları".

Kitaba geniş "Son söz" yazmış Nazim Axundov qeyd edir ki, XIX əsr Azərbaycan tarixşünaslığında Qarabağ xanlığının tarixini işıqlandırmağa meyl güclü idi. Müqayisə üçün deyək ki, Quba, Şəki, Gəncə xanlıqlarının hər birinin tarixindən cəmi bir əsər yazıldığı halda, Qarabağ xanlığından 7 kitab yazılmış, saysız məqalələr, sənədlər çap olunmuşdur. Rus hərbi xadimi Platon Zubov "Qarabağ astroloqu və Şuşa qalasının 1752-ci ildə əsasının qoyulması" adlı kitabını 1843-cü ildə Moskvada çap etdirmişdir. XIX əsrin 40-cı illərində Mirzə Adıgözəl bəyin Azərbaycan dilində "Qarabağnamə" (1845) Mirzə Camal Cavanşir Qarabağının "Qarabağ tarixi" (1847) əsərləri yazılmışdır.

### *Mirzə Şəfinin şeirləri Avropaya necə gedib çıxdı, necə yayıldı və sonra onları kim öz adına çıxdı?*


*Mirzə Şəfi Vazeh (1794-1852)*

Azərbaycanın müdrik şairi, gözəl lirik şeirlərin müəllifi Mirzə Şəfi Vazeh (1794-1852) Gəncə şəhərində anadan olmuş, mədrəsə təhsili görmüş, türk, ərəb və fars dillərini mükəmməl öyrənmiş, Gəncədə Şah Abbas məscidi yanındakı mədrəsədə müəllimlik etmiş, poeziya gülşənində müdrik, fəlsəfi şeirləri ilə şöhrət qazanmışdır.

1840-cı ildə o, cahillərin təzyiqinə, təqibinə dözməyib Tiflisə köçmüş, keçmiş tələbəsi M.F.Axundovun köməyi ilə qəza məktəbində Azərbaycan və fars dilləri müəllimi vəzifəsinə təyin olunmuşdur. Burada cəmi 6 il yaşamış, bu illərdə də onun taleyinə F. Bodenştedtlə bağlı qəribə səhifələr yazılmışdır. F. Bodenştedt kimdir? O zaman Şərqə böyük maraq göstərən, Şərqin mənəvi sərvətlərindən faydalanmaq istəyənlərdən biri də şeir həvəskarı, alman F.Bodenştedt idi. O, Mirzə Şəfinin qılığına girmiş, onun alicənablığından istifadə etmiş, Şərq poeziyasını öyrənmiş, şairin məhəbbətini qazanmışdır. Mirzə Şəfi öz şeirlərinin əlyazmalarını ona hədiyyə etmiş, o da bu Şərq incilərini alman dilinə tərcümə edib 1846-cı ildə Almaniyada "Şərqdə min bir gün" adında kitab halında çap etdirmişdir. 1851-ci ildə o, yenə M.Şəfinin şeirlərini, həyat və yaradıcılığını əks etdirən "Mirzə Şəfinin şərqiləri" adlı alman dilində kiçik bir kitab nəşr etdirmişdir. Bu kitab Almaniyada çox sürətlə yayılmış, sevilmiş müəllifinə böyük şöhrət gətirmişdir. Az sonra M.Şəfinin əsərləri almancadan, ingilis, fransız, italyan, çex, hətta qədim yəhudi dilinə tərcümə olunub yayılmışdır. Buna səbəb əlbəttə Azərbaycan şairinin gözəl, lirik, fəlsəfi şeirləri olmuşdur. Bunu görən F. Bodenştedt M.Şəfinin ölümündən sonra bu şeirləri öz adına çıxıb, 1873-cü ildən başlayaraq çap etdirmişdir.

Sadəlövh, təmiz qəlbli insan olan M.Şəfi Vazehin əlyazmaları ona görə vətəndə qalmamış, yalnız sovet dövründə şairin bir neçə şeirinin orijinalı tapılmışdır. Bodenştedtin ədəbi oğurluğu isə tədqiqatçılar tərəfindən aşkar edilmişdir.





### *Azərbaycan dramaturgiyasının banisi kim olub?*


*Mirzə Fətəli Axundov (1812-1878)*

Azərbaycanın görkəmli yazıçısı, dramaturqu, filosof və ictimai xadimi Mirzə Fətəli Axundov Şərq və qərb mədəniyyətinin qarşılaşdığı bir məkanda dünyaya göz açmış, M.Şəfi Vazehin məktəbində dünyəvi elmlərin ilk açarını əldə etmiş, gözəllik və ülviyyətə üz tutmuş bu mütəfəkkir insan nəyinki Azərbaycan, eləcə də Şərq müsəlman dünyasında bir sıra yeniliklərin əsasını qoymuşdur. Onlardan biri də dramaturgiyamızın, milli teatrımızın banisi olmasıdır.

Bədii yaradıcılığa şeirlə başlayan Mirzə Fətəli Səbuhi təxəllüsü ilə yazıb-yaratmış Azərbaycan ədəbiyyatı tarixində ilk dramaturq şərəfli adı ona nəsib olmuşdur. O, 1850-1855-ci illərdə bir-birinin ardınca "Hekayəti-Molla İbrahimxəlil kimyagər" (1850), "Sərgüzəşti-vəziri-xani-Lənkəran" (1850), "Hekayəti-xırs quldurbasan" (1851), "Hacı Qara" (1852), "Mürafiə vəkillərinin hekayəti" (1855) adlı komediyalarını yazmışdır. Bu əsərlər XIX əsr Azərbaycan həyatının, məişətinin tipik aynasıdır. Burada təsvir olunan ruhani, tacir, mülkədar, bəy, xan, məmur, kəndli, nökər, qulluqçu və b. obrazlar öz rəngarəngliyi ilə bədii bir qalereya təşkil edir.

### *Milli mətbuatımızın banisi kim olub?*

Görkəmli maarifçi, demokrat, təbiətşünas, darvinist alim, publisist, pedaqoq və ictimai xadim kimi Azərbaycan mədəniyyəti tarixində xüsusi yer tutan H.B.Zərdabi öz xalqını, millətini tərəqqi etdirmək üçün nələr etməmişdi?! O, bir alim kimi Azərbaycanda elmi fikirlərin, bir pedaqoq kimi maarifçilik ideyalarının yayılmasına, bir publisist kimi ana dilimizdə ilk mətbuatımızın əsasının qoyulmasına böyük səy göstərmişdi. Onun 1875-1877-ci illərdə buraxdığı "Əkinçi" qəzeti Azərbaycan milli mətbuatının ilk qaranquşu olmuşdur. Bu qəzet XIX əsrin ikinci yarısında Azərbaycan həyatının, ictimai-siyasi mühitin bir aynası idi. Çox böyük çətinliklərlə, təzyiqlərlə üzləşsə də, başının üstündə çar senzurunun durmasına baxmayaraq, H.B.Zərdabi və onun redaktoru olduğu "Əkinçi" qəzeti öz demokratik, maarifçi fikirlərini xalqa çatdırırdı. O zaman Bakıya gəlmiş bir fransız jurnalisti H.B. Zərdabıyə demişdi: "Doğrusu Siz əsl qəhrəmansınız! Bizim Fransada belə bir yoxsul qəzet üçün işləmək istəyən adam tapmaq olmazdı. Sizin qüvvənizə heyrət edirəm. Belə məlum olur ki, Siz öz xalqınızı çox istəyirsiniz".


*Həsənbəy Məlikov Zərdabi (1837-1907)*

H.B.Zərdabi öz xalqına fayda verə biləcək hər şeyə böyük ümidlə, inamla girmişdi. Azərbaycanda peşəkar teatrın bünövrəsini qoyan ilk tamaşa - "Hacı Qara"nın səhnədə göstərilməsi, ilk müsəlman xeyriyyə cəmiyyəti açmaq təşəbbüsü, Bakı realnı məktəbdə müəllimlik, rus mətbuatında əməkdaşlıq, yoxsul camaat arasında pulsuz vəkillik etmək və s. bu kimi nəcib işlər bunu bir daha təsdiq edir.

### *Milli mətbuatımızın ilk qaranquşu "Əkinçi" niyə bağlandı?*

Görkəmli yazıçımız Qılman İlkin "Çık-çık" qəzetində (1996, noyabr) yazır: "Həsənbəy Zərdabi "Əkinçi" qəzetini yaradan zaman "Azərbaycan mürəddibləri" yox idi. Buna görə Həsənbəy ermәni Minasovu işə qəbul edir. Ancaq erməni ki, erməni. 1877-ci ildə Minasov Həsənbəyə ağır zərbə vurur. Bu barədə Həsənbəy yazırdı: "Bir gün Nəcəfbəy Vəzirovun məqaləsini ki, Moskvadan göndərmişdi, vermişdim düzəlməyə. Maqələdə bir dərviş bazarda, dükanların qabağında qəsidələr oxuyub, onları elm, təhsil etməyə çağırırdı. Qəzet çap olunub yayılandan sonra qubernatorun əmrinə görə qəzeti bağlayıb, məni istədilər. Gəldim gördüm ki, mənim Minasovum ordadır. Qubernator buyurdu ki, Minasov deyir ki dərvişin sözlərinin qeyri mənası var. Ona görə qəzeti bağlayıb, sənə hökm edirəm ki, bir qeyri nömrə çap edəsən. Cavab verdim ki, qeyri nömrə çıxara bilmərəm..."

Minasovun satqınlığından sonra Həsən bəy təqib olunur. Hətta dərs dediyi gimnaziyanın direktoru Həsənbəyə deyir ki, sərdarın əmrinə görə o, Yekaterinburqa müəllim getməlidir. Həsənbəy imtina edir və işdən çıxır. Qəzet də bağlanır.

### M.Ə.Sabirin "Hophopnamə"si necə işıq üzü gördü?



Mirzə Ələkbər Sabir (1862-1911)

Bütün əsrlərin böyük xalq şairi M.Ə.Sabir sağlığında maddi imkanı olmadığı üçün şeirlər kitabını çap etdirə bilməmişdi. 1911-ci ildə ağır xəstə yatarkən də öz şeirlərinin taleyi onu düşündürmüşdü. Dostu A.Səhhətə deyirmiş ki, eyb etməz, mən ölsəm də şeirlərimi kitab halında siz çap etdirərsiniz.

M.Ə.Sabirin ölüm xəbəri elə həmin il bütün Qafqaza yayıldı. Bu xəbərdən məyus olan Azərbaycanın tərəqqipərvər ziyalıları, hətta kasıblıq içində yaşayan fəhlələr onun əsərlərinin toplanıb çap olunmasını istəyirdilər. Həmin günlərdə "Məlumat" qəzetində M.Ə.Sabirə xüsusi səhifə həsr edilmişdir. Burada "Sabirə heykəl" adlı məqalədə deyilirdi ki, Sabirə ən yaxşı heykəl onun şeirlərini kitab halında çap etdirməkdir. Görkəmli maarifçi M.B.Mahmudbəyov M.Ə.Sabirin şeirlərini toplamaq üçün Şamaxıda Abbas Səhhətə xəbər göndərdi. Abbas Səhhət şairin dağınıq halda olan əsərlərini birtəhər toplayıb, tərtib etdi. Amma vəsait yox idi, ona görə ziyalılar qəzetlər vasitəsilə xalqa müraciət edib ianə toplamağa başladılar. İlk təşəbbüslə dramaturq N.B.Vəzirovun qızı, müəllimə Sara xanım "Kaspi" mətbəəsinə 5 manat pul göndərdi, onun ardınca başqa xeyirxah adamlar - Ə.Mustafayev, Balaxanı fəhləsi İ.Əfəndiyev, şair A.Səhhət, Aşqabaddan S.Mümtaz, Naxçıvandan Q.Şərifov və b. müəllimlər, fəhlələr, hətta məktəb şagirdləri öz cib xərclərindən kasıb qəzet redaksiyalarına göndərdilər. Xeyriyyə müsamirələri təşkil edib yığılan pulları M.Ə.Sabirin kitabının çapı üçün yolladılar. Nəhayət, 1912-ci ilin axırlarında xeyirxah adamların maddi köməyi ilə ölməz şairimizin şeirləri "Hophopnamə" adında kitab halında nəşr edildi.

Bax, beləcə böyük sənətkarımızın yeganə kitabı işıq üzü gördü. Ancaq bu bir kitab yüzlərcə əsərə dəyər. Bu bircə kitab ədəbiyyatımız tarixində yeni ədəbi məktəb, Azərbaycan poeziyasında böyük bir epoxa yaratdı.

### M.Ə.Sabirin şeirləri cəhalətpərəstlərdən necə xilas oldu?

M.Ə.Sabir 1911-ci ildə vəfat edəndə Şamaxı mollaları, mövhumatpərəstlər onun şeirlərini məhv etmək istəmişlər. Bu faciəli günü şairin böyük qızı Səriyyə xanım Tahirzadə 1936-cı ildə "Şərq qadını" jurnalında dərc etdirdiyi xatirəsində belə təsvir edirdi: "Onun vəfatı günü əsərlərindən müəyyən hissəsi evimizdən yox oldu. Qalan hissələrindən axundlar, mollalar, əqrəbamızın vasitəsilə "Molla və dinə toxunan parçaların" çıxarılmasını tələb etmişdilərsə də, Mirzə Abbasqulunun göstərişi ilə biz (mən və yoldaşım) buna razılıq verməyib kitabı gizlətdik (yəqin şerlər olan qovluğu - red.). Sonradan yenə Mirzə Abbasqulunun vasitəsilə qalan hissə anamız Billurmisənin adından nəşr edildi".

### Bakıda ilk heykəl kimin şərəfinə ucaldılmışdır?

Azərbaycan satirik şeirinin böyük ustadı, bütün dövrlərin şairi Mirzə Ələkbər Sabirin şərəfinə ucaldılmışdı. Qədim İçərişəhərin çöl divarı yanında Sabir bağında 1922-ci ildə ucaldılmış bu heykəli görəndə bəzi bədxahlar, milli mədəniyyətimizə xor baxanlar, o cümlədən urjumlu proletar tribunu S.M.Kirov narahat olmuş, ağız büzmüşdü. N.Nərimanov onun sözünü ağzında qoyaraq M.Ə.Sabirin böyük xalq şairi olduğunu bildirmişdi. 1958-ci ildə həmin yerdə köhnə, balaca heykəl yenisi ilə, görkəmli heykəltəraş C.Qaryağdının düzəltdiyi daha gözəl, əzəmətli heykəli ilə əvəz olundu. Bu, Azərbaycan xalqının M.Ə.Sabirə olan böyük məhəbbətinin ifadəsi idi.







### Azərbaycanda ilk satirik "Molla Nəsrəddin" jurnalı necə yaranıb və yaradıcısı kim olub?



C.Məmmədquluzadə

Bu suala C.Məmmədquluzadə "Xatirələrim" əsərində özü belə cavab verir: "...Yadımdadır ki, qələm azadlığı o yerə çatdı ki, bir gün bazarda qəzet satan uşaqları "Kukureku" çağıra-çağıra şəkilli bir jurnal satan gördüm. Jurnalın üz səhifəsində xoruz şəkili çəkilmişdi. Xoruzun başı əsrin padşahı Nikolayın başı, boğazı və bədəni xoruz idi...

Şəkli alıb qaçdım yoldaşımın yanına.

- Faiq, hələ durmusan? Məgər fürsəti fövt etməkmi olar? Burada padşahı xoruza oxşadırlar, amma bizi indiyədək qoymayıblar ki, nəinki padşahın şəklini çəkək, qoymuyublar onun ismini dua və sənasız zikr edək. İndi padşahı istehza edirlər. Amma, indiyədək bizi qoymayıblar adi bir dərvişin hoqqabazlığını tənqid edək...".

C.Məmmədquluzadə daha sonra cəhalətpərəstləri ifşa etməyin vaxtı çatdığını söyləyərək yazırdı: "Belə gülünc bir zamanda, belə qulibiabanı bir insanların tarixini yazmaq üçün, əhval və ətvarını təsvir etmək üçün məgər "Molla Nəsrəddin"in yaranmağı təbii deyil?

"Molla Nəsrəddin"i təbiət özü, zəmanə özü yaratdı".

Beləliklə, cəhalət, səfalət içində boğulan müsəlman dünyasında böyük əks-səda yaradan "Molla Nəsrəddin" jurnalı 1906 cı il aprel ayının 7-də işıq üzü gördü.




"Molla Nəsrəddin" jurnalı 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr olunmuşdur. 25 il ərzində jurnalın 748 nömrəsi (340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda) çıxmışdır.

### Əlibəy Hüseynzadə kim olmuşdur? O, Azərbaycan mədəniyyəti tarixində necə iz qoymuşdu?



Ə.B.Hüseynzadə (1864-1940)

Əlibəy Hüseynzadə nəinki xalqımızın, bütün türk dünyasının ən böyük ideoloqlarından biridir. O, türkləşmək, islamlaşmaq və müasirləşmək nəzəriyyəsinin və hərəkatının banisidir.

Əlibəy XX əsrin əvvəllərində Azərbaycan və Türk dünyası mühitində parlamış böyük mütəfəkkir, alim, yazıçı-publisist, filosof, diplomat, ictimai xadim, rəssam, tərcüməçi-müəllim və musiqişünas idi.

Ə.B.Hüseynzadə Salyanda dünyaya göz açmış, Qafqaz şeyxülislamı olan babası axund Əhmədin himayəsində böyümüş, Tiflisdə gimnaziya təhsili almış (1885), Peterburq Universitetini, sonra İstanbul Alı Hərbi Tibb Universitetini bitirmişdir.

Ə.B.Hüseynzadənin ədəbi, elmi irsinin gözəl tədqiqatçısı Ofeliya Bayramlı yazır ki, Əlibəyin ən böyük xidməti bu idi ki, o, əsərlərində müstəmləkəçi dövlətləri insanlığın ən qəddar düşmənı kimi ifşa etməklə yanaşı, türk xalqlarını vahid ideya ətrafında birləşməyə çağırırdı.

Ə.B.Hüseynzadə "Həyat", "Kaspi" qəzetlərinin, "Füyuzat" jurnalının redaktoru olmuş, "Siyasəti-fürusət", "Qərbin iki dastanında türk", "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar", "Türklər kimdirlər və kimlərdən ibarətdir" elmi-nəzəri əsərlər, çoxlu publisist, ədəbi-tənqidi məqalə, şeir, hekayə yazmış, dünya ədəbiyyatından tərcümələr etmişdir. O bir rəssam kimi də incəsənət tariximizə yağlı boya ilə çəkdiyi mənzərə, portret, "Bibiheybət məscidi"nin görünüşü və b. əsərlərini yadigar qoymuşdur.



Ə.B.Hüseynzadə bir qrup ziyalı dostları ilə

### Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyov şəxsiyyəti tədqiqatçı alimlərin əsərlərində necə təsvir edilir?



Üzeyir Hacıbəyov

Üzeyir Hacıbəyovun həyatı, hərtərəfli yaradıcılığı, ictimai, elmi, pedaqoji fəaliyyəti o qədər zəngin olmuşdur ki, onun haqqında onlarla tədqiqatçı alim, yazıçı, publisist, ictimai xadim qiymətli fikirlər söyləmişdir. Üzeyir bəy haqqında ilk elmi monoqrafiyanı Azərbaycanın gözəl pedaqoqu Xədicə xanım Ağayevanın qızı Xurşud xanım (1906-1953) yazmışdır. 1943-cü ildə əməkdar incəsənət xadimi adına layiq görülmuş Xurşud Ağayeva bu əsərində Azərbaycan professional musiqisinin inkişafında Üzeyir bəyin böyük xidmətlərindən, onun musiqi dünyasından geniş bəhs etmişdir.

Bu gün Azərbaycanda "Üzeyirşünaslıq"la məşğul olan musiqişünasların, alimlərin, yazarların artıq bir neçə nəsl numayəndəsi vardır ki, onların da bu istiqamətdə səmərəli axtarışlarını, maraqlı elmi tədqiqatlarını fərəhlə qeyd etmək olar. Onlardan biri də Səadət xanım Mirzəyeva - Qarabağlıdır. O, 17 ildir ki, dahi bəstəkarımızın həyat və yaradıcılığının bütün təfərrüatını səbr və mətanətlə əldə etmiş, öyrəndiklərini cilalayıb ciddi elmi əsər kimi ortaya çıxarmışdır.

### Şərqdə ilk operanı və operettanı kim yaratmışdır?

Üzeyir Hacıbəyov. O, H.B.Zərdabinin "...sən elə bir teatr tamaşası yarat ki, orada aktyorlar oxusunlar" tövsiyyəsini və özünün hələ Şuşada uşaq olarkən ürəyindən keçən arzusunu sonralar xatırlayaraq "Leyli və Məcnun"dan "Koroğlu"ya qədər" (1938) məqaləsində yazırdı: "Leyli və Məcnun" operası necə meydana gəldi? Bu opera üzərində işləməyə hələ 1907-ci ildən başlamışdım. Lakin opera yaratmaq fikri hələ 1897-1898-ci illərdə başıma gəlmişdi. O zaman mən 13 yaşlı uşaq ikən Şuşada həvəskarlar tərəfindən göstərilmiş "Məcnun Leylinin qəbri üstündə" tamaşanı görmüşdüm. Bu tamaşa məndə o qədər dərin təsir buraxmışdı ki, bir neçə il sonra Bakıya gələndə operaya bənzər bir şey yazmaq qət etdim".

Şərqdə ilk muğam operası "Leyli və Məcnun" M.Füzulinin eyni adlı poeması əsasında yazılıb, Bakı səhnəsinə çıxarıldı. Bu hadisə 1908-ci il yanvarın 12-də baş verdi. Azərbaycan milli opera teatrımızın ilk qaranquşu musiqi baharımızın müjdəsini gətirdi.

Bundan ruhlanan Üzeyir bəy bir-birinin ardınca 1909-cu ildə "Şeyx Sənan", 1911-ci ildə "Rüstəm və Söhrab", 1912-ci ildə "Şah Abbas və Xurşudbanu", yenə həmin ildə "Əsli və Kərəm", 1915-ci ildə "Harun və Leyla" operalarını yaratdı.

Azərbaycanda və eləcə də Şərqdə musiqili komediya janrının əsasını da Üzeyir Hacıbəyov qoydu. O, 1909-cu ildə "Ər və arvad", bir il sonra isə məşhur "O olmasın, bu olsun" musiqili komediyalarını yaratdı.

1913-cü ildə musiqi tariximizin şah əsərlərindən olan "Arşın mal alan" operettası səsləndi. Onun səsi nəinki küçələrdən, Bakı səhnəsindən, eləcə də dünyanın 120 teatr səhnəsindən, kinoekranından eşidildi.

Üzeyir bəyin muğam sədalarından başlanan operamızın inkişaf yolu "Koroğlu" operasında əzəmətli klassik musiqi zirvəsinə yüksəldi. Üzeyir bəy həm də "Azərbaycan xalq musiqisinin əsasları" əsəri ilə musiqimizin elmi-nəzəri əsasını yaratdı.

### Ü.Hacıbəyov daha hansı fəaliyyəti ilə mədəniyyət tariximizdə iz qoyub?

Üzeyir Hacıbəyov həm də gözəl publisist olmuşdur. O, XX əsrin əvvəllərində Azərbaycan mətbuatının təşəkkül tapmasında və inkişafında öz dəsti-xətti, şirin, bamazə, gülməzəli üslubu, eyhamlı qələmi ilə böyük rol oynamışdır. Mirzə Cəlil kimi Üzeyir bəyin də publisistikasının fərdi üslubunun əsasını müasirlik, millilik, müdrik xalq düşüncəsi və bədiiliyi, mövzu rəngarəngliyi təşkil etmişdir.O, XX əsrin əvvəllərində Azərbaycanda nəşr edilən "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "İqbal", "Yeni iqbal", "Həqiqət", "Açıq söz", "Azərbaycan" qəzetlərində, bir sözlə 15-dən çox qəzet və jurnalda, 64 gizli imza ilə ("Filankəs", "Bir şəxs", "Bəhmənkəs", "U", "Ü", "Bisavad" və s. iki mindən çox məqalə və felyeton çap etdirmişdir.

Üzeyir bəy bir redaktor kimi də fəaliyyət göstərmiş "Yeni İqbal", "Həqiqət", "Tərəqqi", "Azərbaycan" qəzetlərinə başçılıq etmişdir.





### Hüseyn Cavid nə vaxt, harada əbədiyyətə qovuşmuş, cəsədi doğma yurduna kimin təşəbbüsü ilə gətirilmişdir?



Hüseyn Cavid

Hüseyn Cavid XX əsrin otuzuncu illərinin repressiya tufanının qurbanı olmuş, səkkiz il azadlıqdan məhrum edilərək 1939-cu ildə Uzaq Sibirə sürgün edilmişdir. Sibirin şaxtalı, çovğunlu, əzab və iztirablı mühitinə tab gətirməyən şair burada 1943-cü ildə işıqlı dünyaya göz yummuşdur.

Şairin qızı Turan xanım "Vəfa" jurnalına yazdığı "Cavidin böyük xeyirxahı" adlı məqaləsində qeyd edir ki, "...Hüseyn Cavid 19 illik repressiya həyatından sonra 1956-cı ildə bəraət aldı. Əslində isə 1956-cı ildə sanki Cavidin yaradıcılığı deyil, sadəcə şəxsiyyəti bəraət almışdı. Bütünlükdə Cavid, yalnız və yalnız 1981-ci ildə, anadan olmasının 100 illiyi münasibətilə 1982-ci il oktyabrın 26-da Cavidin həbsindən 45, ölümündən 41 il sonra Heydər Əliyevin böyük səyi nəticəsində Vətəninə qaytarıldı. Həmin ilin noyabrın 2-də, saat 12-də Cavidin cənazəsi Sibirdən onun Bakıdakı evmuzeyinə gətirildi. Heydər Əliyev də gəldi. Qısa görüşdən sonra Cavidin cənazəsi Naxçıvana aparıldı. Bunun böyük mənası bu idi ki, qədim mədəniyyət mərkəzi Naxçıvanda Hüseyn Cavidə əzəmətli məqbərə ucaldılsın. Ancaq o zaman bu arzu baş tutmadı. Məqbərə 1996-cı ildə ucaldıldı. H.Əliyev məqbərənin açılışında nitq söylədi.

### Azərbaycanın uşaq dramaturgiyasının banisi kimdir?



Abdulla Şaiq

Uşaqların ən sevimli yazıçısı Abdulla Şaiq Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olan Abdulla Şaiq Mustafa oğlu Talıbzadə (1881-1959) Tiflisdə anadan olmuş, Xorasanda təhsil almış. 1901-ci ildən ömrünün axırınadək Bakıda yaşamış, müəllimlik etmiş, ədəbi-bədii yaradıcılıqla məşğul olmuş, şeirlər, hekayələr, romanlar, dram əsərləri yazmışdır. A.Şaiq ədəbiyyat tariximizdə uşaq yazıçısı kimi şərəfli yer tutur. Onun "Tülkü həccə gedir", "Tıq-tıq xanım" və s. mənzum hekayələrində təvazökarlıq, doğruçuluq təbliğ edilir.

A.Şaiq Azərbaycan uşaq dramaturgiyasının banisidir. Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür (1940).

### Azərbaycan musiqi alətləri hansılardır?

Azərbaycan xalqı qədim xalq olduğu kimi onun musiqi mədəniyyəti, çalğı alətləri də, uzaq keçmişlərdən xəbər verir. Qobustanda aşkar edilmiş qavaldaş, Mingəçevir ərazisindən tapılmış balabana oxşar musiqi aləti və s. hələ e.ə. Azərbaycan ərazisində musiqi alətlərinin olduğunu göstərir.

"Kitabi-Dədə Qorqud" dastanında qopuz, zurna, nağara, davul, kus və s. musiqi alətlərinin adına rast gəlirik. Yazılı məlumatlara əsasən orta əsrlərdə Azərbaycanda qopuz, rübab, tənbur, setar, çahartar, şeştar, bərbət, çəng, santur (simli), musiqar, kərranay, nəfir, şeypur, ney, ərğənun (nəfəs), təbil, nağara, qaval, dümbək, dayrə, xalqal, sinc, zəng, kasə (zərb) və s. musiqi alətləri olmuşdur.

Sonrakı dövrlərdə bir sıra musiqi alətləri tədricən aradan çıxmış, bəziləri isə təkmilləşdirilərək daha geniş yayılmışdır. Hazırda Azərbaycanda saz, tar, ud, qanun (kanon), kamança, tütək, balaban, zurna, nağara, qoşanağara, qaval, dəf, qarmon və s. alətlərdən istifadə edilir.





### Sazın neçə növü və havası vardır?

Saz mızrabla çalınan qədim Azərbaycan musiqi alətidir. Bu gözəl, milli musiqi alətinin ecazkar səsi həmişə igidlərimizi cəngə, savaşa ruhlandırmış, el şənliklərinə, toy-düyünlərimizə coşqunluq, şadyanalıq və rövnəq gətirmişdir. Qorqud dədəmiz, ulu ozanlarımız sazın ruhu oxşayan havaları ilə babalarımızın yaratdıqları dastanları, şeir-sənət incilərini, müdrik kəlamları el-oba içində yaymış, xalqı birliyə səsləmişlər.

Saz-qopuz türk xalqlarının ən sevimli musiqi aləti olmuşdur. Sazın ulu babası qopuz XV əsrədək mövcud idi. Dutar, setar da saz çalğı alətilə əlaqədar olmuşdur.

Aşıq Qurbaninin dövründə ( XV əsrin axırı-XVI əsrin əvvəlləri) 300-ə yaxın saz havaları varmış. İndi Azərbaycanda 150-yə yaxın aşıq havası - melodiyası ifa edilir.

Tut, ərik, qoz ağaclarından hazırlanan sazın ölçülərinə görə üç növü vardır. Kiçik saz - cürə saz, orta saz - qolluq sazı, böyük saz - tavar. Sazın simləri üç qrupa ayrılır: zil, bəm, dəm.

Saz havaları beş kökdə (şah pərdə, dilqəmi, urfanı, bayatı, ayaq divanı) çalınıb-oxunur.

### Ney musiqi aləti necə yaranmışdır?



Ney nəfəslə çalınan ən qədim musiqi alətidir. Ney qarğı, qamış deməkdir. Qədim əcdadlarımız bu musiqi alətini necə yaratmışlar? Belə rəvayət edirlər ki, küləkli gündə bir müdrik qoca qamışlığın yanından keçərkən həzin bir səs eşidir. Sən demə, külək qamışlara toxunarkən qarğıların borusuna dolub-boşaldıqca səs əmələ gəlirmiş. Həmin qoca qarğılardan bir neçəsini götürüb üfüləməyə başlamış və görmüşdü ki, doğurdan da qamışın içindən uğultuya oxşar səs gəlmişdi. Qoca qarğının üstündə əvvəlcə bir deşik açmış, üfüləmiş və görmüşdü ki, səs bir qədər ayrı cür çıxmışdı. Sonra qarğının üstündə bir neçə deşik açıb üfüləmiş, hiss etmişdi ki, artıq həzin bir hava səsi gəlir. Beləliklə, bataqlıqda bitən qamış ilk musiqi alətin - Neyin yaranmasına səbəb olmuşdur. Yadınızdadırsa N.Gəncəvinin "İskəndərnamə" əsərində çobanın quyu başında bitən qamışdan bir ney düzəldib çalanda guya səs gəlir ki, "İskəndərin buynuzu var..."

Qarğıdan, qamışdan çobanlarımız tütək düzəldib çalmaları indi də məlumdur.

Ney musiqi aləti başqa xalqlarda da olmuşdur. Amma adları başqa idi. Neyin qədimliyi haqqında ilk məlumatlara biz Qətran Təbrizinin, Xaqaninin, Hafizin, Xəyyamın, Füzulinin əsərlərində də rast gəlirik.

Gövdəsinə 6-9 deşik açılmış ney musiqi alətinin müxtəlif ölçülərdə növləri vardır. Bizə elə gəlir ki, məşhur fleyta musiqi alətinin əcdadı Ney, qarğı tütəyi olmuşdur.

### Kamançanın neçə növü olub?

Azərbaycan xalq çalğı alətləri arasında incə, həzin səs çıxaran kamançanın xüsusi yeri var. Dahi bəstəkarımız Üzeyir Hacıbəyov kamançanı hətta tardan üstün tutmuşdur. Azərbaycan ruhunu, zövqünü musiqi duyumunda gözəl əks etdirən müasir kamança dörd simli - kamanlı alətdir. Amma kamança qədimdə belə olmayıbmış. Sənətşünas S.Abdullayeva 1970-ci ildə "Elm və həyat" (№ 8) jurnalında "Kamança" adlı məqaləsində yazır ki, qədim kamança bir simli olub. Uzun qola və dayanacağa malik idi. Nisbətən kiçik kududan, hind qozundan, ya da ağacdan düzəldilər və fil sümüyü ilə bəzədilərdi, çanağın üzərinə ilan dərisi çəkilərdi. Vaxtı ilə kamança Yaxın və Orta Şərq ölkələrində geniş yayılmışdı. Alman musiqi tarixçisi Avqust Ambrosa görə ərəblərin 14 növ kamançası varmış.

N.Gəncəvinin, M.Füzulinin və s. klassiklərin əsərlərində kamançanın adı çəkilir.







### XIX əsrin ortalarında Şamaxıda üç məşhur rəqqasə olub. O zaman Şamaxıya gəlmiş fransız səyyahı Moan və yazıçı A.Düma bu rəqqasələr haqqında nə yazmışlar?

Rus rəssamı Q.Q.Qaqarin XIX əsrdə Bakı, Şamaxı, Gəncə şəhərlərində olarkən bir sıra rəsmlər çəkmişdir. Onlardan biri də "Şamaxı rəqqasələri" tablosudur. XIX əsr rus mənbələrində Azərbaycan mədəniyyətinin izlərini araşdıran Rasimə xanım Məlikova "Qobustan" toplusunun 1969-cu il birinci sayında çap etdirdiyi məqaləsində maraqlı məlumatlar vermişdir.

1858-ci ildə Şamaxıda Mahmud ağanın qonağı olmuş fransız səyyahı Moan burada gözəl rəqs edən qızları görəndə onların istedadına heyran olmuşdur.

Həmin il fransız yazıçısı A.Düma da Şamaxıda olmuş, yol qeydləri yazmışdı. Həmin qeydlər 1861-ci ildə rus dilinə tərcümə edilib, "Qafqaz" adı ilə Tiflisdə kitab halında çap olunmuşdur. Yazıçı Şamaxı rəqqasələrinə məftun olduğunu söyləyir, onların böyük istedadı haqqında yazırdı ki, bütün Şamaxıda üç rəqqasə qalıb, iki qadın və qıza oxşayan bir oğlan. Həmin oğlan Şamaxını tərk etmiş məşhur Sonanı əvəz edir.

A.Düma Sonadan sonra rəqqasə Nisənin el-oba içində məşhur olduğunu qeyd edərək yazırdı: "Mən Əlcəzairdə, İstanbulda, Tunisdə, Tripolidə şərq rəqslərinə tamaşa etmişəm. Şamaxılı Nisənin ifasındakı rəqs bunların hamısından üstündür".



### Azərbaycanda ilk peşəkar-notlu xalq çalğı alətləri orkestri nə vaxt və kim tərəfindən yaradılmışdır?

1931-ci ildə Azərbaycan Radio Verilişləri Komitəsi yanında böyük bəstəkarımız Üzeyir Hacıbəyov tərəfindən yaradılmışdır.



Qara Qarayev



Fikrət Əmirov

### Bu yolun sonu harada qurtarır?

Qara Qarayev Azərbaycan musiqi mədəniyyəti tarixində yeni məktəbdir, yeni yoldur. Bu yolun sonu harada qurtarır? Demək çətindir. Onun şaxələri Yer kürəsinin sanki boynuna dolanmışdır.

Qara Qarayev 1918-ci ildə ziyalı ailəsində anadan olmuş, mükəmməl təhsil almış, musiqi biliyi, istedadı, yaradıcı palitrası ilə dünya səviyyəsinə qalxmışdır. SSRİ xalq artisti (1959), Sosialist Əməyi Qəhrəmanı (1978), akademik (1959), Dövlət mükafatı laureatı (1946, 1948) və s. bu adlar, mükafatlar onun şöhrətini bütün dünyaya yaymışdır. Onun gözəl musiqisi "Yeddi gözəl", "İldırımlı yollarla" baletləri, "Leyli və Məcnun" simfonik poeması, "Üçüncü simfoniyası", manilalar, fleyta üçün 24 prelud silsiləsi, skripka ilə fortepiano üçün konserti, kantataları, rapsodiyaları, kinofilmlərə yazdığı musiqi əsərləri və bu sənət incilərindəki xalq ruhu, zövqü melodizmi onu yüksək zirvəyə qaldırmışdır.

### Şərq simfonizmini daha da inkişaf etdirmiş simfonik muğamların ilk yaradıcısı kim olmuşdur?

Azərbaycanın böyük bəstəkarı, dövlət mükafatları laureatları (1949, 1974), xalq artisti, Azərbaycanda Üzeyir bəy məktəbinin ən gözəl davamçısı Fikrət Əmirov 1922-ci ildə Gəncə şəhərində tarzən Məşədi Camilin ailəsində dünyaya göz açmış, musiqi ab-havasında böyümüş, Gəncə musiqi məktəbinin tar sinifində, 1938-1939-cu illərdə Bakı musiqi məktəbində oxumuş, 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq bölməsini bitirmişdir.

Fikrət Əmirov musiqinin bütün janrlarında gözəl əsərlər bəstələmişdir. Onun "Ürəkçalanlar" (1944), "Gözüm aydın" (1946) musiqili komedi-

# AZƏRBAYCAN BEYNƏLXALQ İDMAN MƏRKƏZLƏRİNDƏN BİRİNƏ ÇEVRİLMİŞDİR



Ölkəmiz müstəqillik qazanandan cəmi üç il sonra respublikamızda idman ümumxalq hərəkatı səviyyəsinə qalxmışdır. Azərbaycan Prezidenti Heydər Əliyev idmana və bədən tərbiyəsi işinə böyük əhəmiyyət verərək, 1996-cı il iyunun 29-da XXVI Yay Olimpiya Oyunlarında iştirak edəcək idmançılarımızla görüşündə qeyd etmişdir ki, ilk dəfədir dünya Olimpiya Oyunlarında Müstəqil Azərbaycanın yığma komandası iştirak edir. Gələcək Olimpiya yarışlarında idmançılarımızın sayı daha çox olacaq... İdman hərəkatı ölkəmizdə daha geniş vüsət alacaqdır. Yurdumuza, ordumuza fiziki və mənəvi cəhətdən sağlam, qüvvətli övladlar lazımdır...

Ulu öndərimizin diqqəti və qayğısı sayəsində respublikamızda az vaxtda idmanın inkişafı üçün hər cür şərait yaradılmışdır. Azərbaycanda Milli Olimpiya Komitəsi yaradılmış, 2000-2007-ci illərdə Bakıda, Gəncədə, Naxçıvanda, Şəkidə, Qubada, Lənkəranda və s. yerlərdə 13 Olimpiya idman kompleksi tikilmiş, tezliklə onların sayı 23-ə çatacaqdır. Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin böyük səyləri nəticəsində Azərbaycanda əsl Olimpiya hərəkatı başlamış, gənclər, yeniyetmələr, uşaqlar bu idman komplekslərinə, klublara, cəmiyyətlərə axışmışlar. Öz ustalıqlarını artıran idmançılarımız 1996-cı ildə ABŞ-ın Atlanta şəhərində XXVI, 2000-ci ildə Avstraliyanın Sidney şəhərində XXVII, 2004-cü ildə Qədim Ellada torpağında keçirilən XXVIII Afina Olimpiya oyunlarında idmanın müxtəlif növləri üzrə yarışlarda qaliblər sırasına çıxmış, vətənə qızıl, gümüş, bürünc medallarla qayıtmışlar.

Gənc nəslin fiziki və sağlamlığının inkişafı sahəsində görülən işlər, ölkə və beynəlxalq yarışlarda qazanılan nailiyyətlər Azərbaycanı beynəlxalq idman mərkəzlərindən birinə çevirmişdir. Bədii gimnastika, boks, güləş, voleybol və başqa növlər üzrə Azərbaycanda keçirilən beynəlxalq yarışlar bunu bir daha təsdiq edir. İdman tariximizi əks etdirmək və idmanın inkişafını təbliğ etmək məqsədilə 2008-ci il yanvarın 22-də Azərbaycan prezidenti İlham Əliyev "Azərbaycanda Olimpiya hərəkatı və idman muzeyinin yaradılması haqqında" sərəncam imzalamışdır. Tezliklə Bakıda idman tarixi muzeyi tikiləcəkdir.

### *İdman qələbələrimizin sorağı Pekin Olimpiya yarışlarından da gəldi!*

XXIX Pekin Olimpiadası dünyanın, o cümlədən Müstəqil Azərbaycanımızın həyatında ən təntənəli beynəlxalq hadisələrindən biri oldu. Bu möhtəşəm yarışlara idmançılarımız yaxşı hazırlaşmışlar. Afina Olimpiadasında 38 idmançımız yarışırdısa, Pekində 44 idmançımız öz məharətlərini göstərmişlər. Kiçik bir ölkə üçün bu böyük nailiyyətdir. Olimpiadanın açılışı mərasimində üç rəngli bayrağımızı komandamızın kapitanı, dünya çempionu Fərid Mansurov qürurla aparırdı. Pekin Olimpiadasında atçılıq üzrə yarışlarda ilk dəfə olaraq Camal Rəhimov təmsil edirdi. 16 pəhlivanımız yunan-roma və sərbəst güləş üzrə yarışlarda öz güclərini göstərmişlər. Boks, cüdo, taekvondo, atletika, ağırlıqqaldırma, üzgüçülük, bədii gimnastika, stend atıcılığı üzrə keçirilən yarışlarda ən yaxşı idmançılarımız çıxış etmiş, sevindirici nəticələrə nail olmuşlar.







Azərbaycan Prezidenti İlham Əliyev respublikamızın Pekin Olimpiya iştirakçılarını belə hərarətlə təbrik etmişdir.



Bu şəkillər 2004-cü ildə qədim Ellada torpağında XXVIII Yay Olimpiya oyunları zamanı çəkilmişdir. Azərbaycan pəhlivanımız Fərid Mansurov Afinada ilk qızıl medala layiq görülmüşdür. Afina olimpiadasında Azərbaycan idmançıları 1 qızıl, 4 bürünc medal qazanmışlar.

### *Pekin Olimpiadaçılarımızı Sizə təqdim edirik!*

***Yunan-Roma güləşi üzrə:*** [illegible], Rövşən Bayramov, Vitali [illegible], [illegible] Abbasov, Anton Votok, Silva [illegible].

***Sərbəst güləş üzrə:*** Emin [illegible], Zəlimxan Hüseynov, [illegible], Qazyumov, Cəmaləddin [illegible], Namiq Sevdimov.

***Qadın güləşçilərimiz:*** [illegible], Yelena Kamarova, Mariya [illegible].

***Cüdo üzrə:*** Kifayət Qasımova, Ramil [illegible], Elnur Məmmədli, [illegible], Elxan Məmmədov, Movlud Miraliyev.

***Taekvondo üzrə:*** Rəşad [illegible].

***Boks üzrə:*** Şahin İmranov, Samir Məmmədov.

***Bədii gimnastika üzrə:*** Aliya Qarayeva, Dinara Gimatova. Qrup hərəkətləri üzrə: [illegible] Hüseynova, Anna [illegible], [illegible], Anastasiya [illegible], [illegible], [illegible] Qorina.

***Atletika üzrə:*** Ramil [illegible], [illegible] Abbasov.

***Üzgüçülük üzrə:*** [illegible], Tural Abbasov.

***Atçılıq üzrə:*** [illegible].

***Stend atıcılığı üzrə:*** Zemfira [illegible].

***Ağırlıqqaldırma üzrə:*** [illegible], Turan Mirzəyev, [illegible], Bayramov, İntiqam Zairov.

### İlanlar rəqs edirmi?

Bəli. Özü də döyüşdən qabaq rəqs edirlər. Başlarını vahiməyə doğuran bir ədə ilə qaldırıb, boyunlarını səlis hərəkətlərlə bükərək məharətlə irəli atılırlar. Bu, rəqib erkək ilanların rəqsidir.

İlanlar döyüşən zaman bir-birlərini dişləmirlər. Adama elə gəlir ki, ilanlar ciddi savaşmırlar. Elə bil rəqs edirlər, bir-birinin kürəyini yerə vurmağa çalışırlar. Kim daha çevik olursa, o döyüşdə qalib çıxır. Rəqsin başlanğıcında rəqiblər bir-birini öyrənib, bələd olurlar. Sonra hər ikisi baş-başa verib yenə səlis hərəkətlə dairə ətrafında sürünür. Rəqsin bu başlanğıcı beş dəqiqəyə qədər davam edir. Əsl mübarizə hələ qabaqdadır. İlanlar geriyə çəkilib tənəffüsdən sonra rəqiblər başlarını yerdən yarım metr qaldırır, yenidən bir-birinə yaxınlaşırlar. Onlar oynaq və elastik boyunlarını bir-birinə dolayıb açır, başlarını o tərəf bu tərəfə yelləyir, ayrılıb yenidən tutaşırlar. Onların hərəkətlərində özlərinə məxsus bir ahəng vardır.

Qalib gələn ilan məğlub etdiyi rəqibini yerə qısnayıb onu möhkəmcə tutur, ancaq dişləmir. Beləcə, oyun qurtarır. Qalibi qıraqda çox nəvazişlə duran dişi ilan gözləyir ("Elm və həyat" jurnalı, 1962, №5)

### Dünyada ən zəhərli ilan hansıdır?

Avstraliyada yaşayan Parademansia Mikrolentodas adlı ilanın yer üzərində ən zəhərli ilan olduğu aşkar edilmişdir. Həmin ilanın zəhəri zınqırovlu ilanlarınkından 13 dəfə, kobranınkından isə 20 dəfə güclüdür.

Bu ilan həm də təkcə zəhərinin güclü olması ilə yox, zəhər ehtiyatına görə də başqa ilanlardan fərqlənir. Adi ilanlar bir dəfəyə orta hesabla 45 milliqram zəhər verdikləri halda, bu ilanın bəzilərindən 110 milliqrama qədər zəhər ala bilirlər. Onu da qeyd edək ki, ən qorxulu, zəhərli su ilanlarının ancaq bir milliqram zəhəri olur.

### Dünyada ən böyük su heyvanı hansıdır?

Balina dünyada ən böyük və ən güclü dəniz heyvanıdır. Onun çəkisi 25 filin, yaxud 150 öküzün çəkisinə bərabərdir. Lakin o suda çevik hərəkət edir. Çünki balinanın əzələ enerjisi 1700 at gücünə bərabərdir.

Balinanın daxili orqanlarının ölçüləri də qəribədir. Ürəyinin uzunluğu 1,5 m, çəkisi 700 kq-dır. Bağırsaqları 250 metrdir. 3 metr uzunluğunda olan mədəsi yarım tondur. Qara ciyərinin çəkisi iri öküzün çəkisi qədərdir. Başı üç ton, dili isə ton yarımdır. Ən maraqlısı budur ki, 30 ton ağırlığında olan balinanın cəmi 5 kq. beyini vardır.

### Balıqlar nə qədər yaşayırlar?

Növlərindən asılı olaraq balıqlar müxtəlif ömür sürürlər. Nərə cinsli balıqlar 10-15 ildən sonra hədd-büluğa çataraq 40-50 il yaşayırlar. Durna balığı isə 100 ilə yaxın ömür sürür.

Balıqların yaşını onların pulcuqları və sümükləri ilə müəyyən etmək olar. Pulcuqların üzərində olan halqaların sayı onların yaşını göstərir.



### Kəpənək kompası əvəz edə bilərmi?

Müşahidələr göstərir ki, kəpənək çiçəklərin üstünə qonanda, o qanadlarını dik tutub dincəlir. Bu vaxt göydə Günəş öz yerini dəyişirsə, kəpənək də istiqamətini dəyişir. Dincələn kəpənəyin qanadları, bir qayda olaraq, səhər tezdən şərqə, günorta-cənuba, axşam isə qərbə tərəf çevrilmiş olur. Yaxşı müşahidəçi kəpənəyin duruş vəziyyəti ilə kompassız cəhətləri təyin edə bilər. Bu da təbiətin maraqlı sirlərindən biridir.





# DÜNYADA NƏ QƏDƏR MÜHARİBƏLƏR OLUB?

### Şeyx Şamil kim idi? O kimə qarşı mübarizə aparmışdı?



Şeyx Şamil Dağıstan xalqlarının əfsanəvi qəhrəmanı, azadlıq rəmzi idi. XIX əsrin əvvəllərində Qafqazı işğal etmiş Rus imperiyasına qarşı azadlıq mübarizəsi aparan çeçen və Dağıstan xalqları Şamili özlərinə imam seçmiş (1835) onun sərkərdəliyi altında ölümdirim savaşlarına qoşulmuşdular.

Şamil 1797-ci ildə avar kəndli ailəsində dünyaya göz açmış, ruhani təhsili və təlimi görmüş, ağıllı, müdrik, öz dininə, əqidəsinə sadiq bir igid idi. O, XIX əsrin 20-ci illərindən Qazi Məhəmmədin, sonra isə Həmzətbəyin silahdaşlarından olmuş, böyük qəhrəmanlıqlar göstərmişdi. Şamil Dağıstan xalqlarını birləşdirib böyük Rus imperiyasına qarşı ayağa qaldırmış, 20 minlik qoşunu ilə 30 ildən artıq mübarizə aparmışdır.

Şamilin şəxsi katibi olmuş Məhəmməd Tahirin "Şeyx Şamil" adlı xatirələr kitabına "Son söz" yazmış yazıçı Əlisa Nicat qeyd edir ki, "Böyük Şamilin kafirlərə qalib gəldiyi döyüşlər çox olub. Onların ən parlağı 1851-ci il Darqo döyüşüdür. Burada mühasirəyə alınan Qafqazın canişini general Vorontsov rusların rəsmi məlumatına görə 3 general, 28 yüksək rütbəli, 158 orta rütbəli, 3433 aşağı rütbəli zabit və döyüşçü itirdi. Ağlasığmaz olsa da faktdır. Baş komandan özü sandığın içində gürcü İlyanın belində ac və susuz güclə canını qurtardı".

1859-cu ildə general Baratinskinin 360 minlik ordusu hücuma keçib Şeyx Şamilin mövqelərini tutmağa başladı. Şamil 400 müridi ilə Qunib aulunda mühasirəyə düşdü, avqustun 26-da fəxri şərtlərlə təslim oldu.

İmperator II Nikolay bu yenilməz insanın igidliyi, kişiliyi qarşısında heyrətə gəlib, ona öz adına layiq cəza verdi, onu ailəsilə birlikdə Kaluqaya fəxri sürgünə göndərdi. Amma azadlıq aşiqi dağ qartalı əsirlikdə yaşaya bilərdimi? Şamil 1870-ci ildə Məkkə ziyarətinə getmək üçün çardan icazə aldı. "Deyilənə görə Məkkədə onu tanıyanlar gözlərinə inanmayıb, ondan xahiş etmişlər ki, Kəbənin üstünə çıxsın, hamı onu görə bilsin.

Bu, artıq dünya tarixinə düşmək üçün vəsiqə idi".

1871-ci ildə Şeyx Şamil Mədinə şəhərində vəfat etdi.

### Keçmiş müharibələrdə nə qədər insan tələf olub?

Bu suala hələ heç kəs dürüst cavab verməyib. Bu, heç mümkün də deyil. Ən qədim dövrlərdən bəri minlərcə müharibə olub. Həmin müharibələrdə ölən insanların sayı məlum deyil. Amma nisbətən yaxın zamanlardan, yəni XVII əsrdən bəri təkcə Avropada olmuş müharibələr zamanı ölən, yaralanan, xəstəliklərə düçar olmuş insanların sayı qismən məlumdur.

XVII əsrdə baş vermiş müharibələrdə 3,3 milyon, XVIII əsrdə 5,4 milyon, XIX əsrdə və XX əsrin əvvələrində (Birinci Dünya müharibəsinə qədər) - 5,7 milyon adam həlak olmuşdur.

1914-1918-ci il Birinci Dünya Müharibəsində ölən, yaralanan, əlil olan insanların sayı 9 milyondan çoxdur.

### İkinci Dünya Müharibəsinin ağır nəticələri necə olmuşdur?

1939-1945-ci illərdə dünya xalqlarını müsibətlərə düçar etmiş İkinci Dünya müharibəsinin ağır nəticələri haqqında onlarca kitab, elmi iş yazılmışdır. Bu suala cavab verərkən cəmi bir neçə faktı və rəqəmi də göstərsək, onun necə fəlakətlər törətdiyinin şahidi olarıq.

★ 22 milyon kvadratmetr böyük bir ərazidə altı il çəkən bu dağıdıcı müharibə bəşəriyyət tarixində ən qanlı, ən kədərli iz qoymuşdur. Bu dəhşətli müharibəyə dünya əhalisinin 80 faizi yaşayan 60 dövlət cəlb olunmuşdur, 110 milyon adam silaha sarılmışdır.

★ İkinci Dünya Müharibəsi cəbhələrində 54 milyon 800 min əsgər və dinc əhali həlak olmuşdur.

★ Amansız döyüşlərdə 90 milyondan artıq adam yaralanmışdır ki, bunun da 28 milyonu həmişəlik əlil qalmışdır.

★ Bombardman və güclü atəşlərin nəticəsində 21 milyon yaşayış binası dağılmış, 10 milyonlarla adam öz doğma yurdundan, isti ocağından məhrum olmuşdur.

★ Müharibənin getdiyi ölkələrə 3 trilyon dollar məbləğində maddi ziyan dəymişdir.

### *BMT NECƏ YARADILIB?*

On milyonlarla insana əzab, fəlakət gətirmiş İkinci Dünya Müharibəsindən sonra dövlətlər arasında sülhü qorumaq üçün yollar axtarılmağa başlandı. Birləşmiş Millətlər Təşkilatı yaratmaq ideyası meydana çıxdı. BMT-nin yaradılması mərhələləri belə olmuşdur:

ABŞ-ın prezidenti Franklin Ruzvelt və Birləşmiş Krallığın baş naziri Uinston Çerçil Atlantik okeanında hərbi gəmidə gizli görüş keçirdilər. 1941-ci il avqustun 14-də bu iki siyasi xadim Atlantik Nizamnamə adlanan sülh planı ilə çıxış etdilər.

1942-ci ilin yanvarın 1-də 26 ölkənin nümayəndəsi Vaşinqtonda görüşüb BMT-nin Bəyannaməsini imzaladı. Onlar müharibədə qalib gəldikdən sonra Atlantik Nizamnaməsini qəbul etməyi vəd etdilər.

1943-cü ilin oktyabrında Çinin, Sovet İttifaqının, Birləşmiş Krallığın və ABŞ-ın nümayəndələri Moskvada görüşdülər və sülhü qorumaq üçün millətlərdən ibarət təşkilat yaradılması barəsində razılığa gəldilər.

1944-cü ilin yazı və payızında Vaşinqton Konfransı beynəlxalq təşkilatın ilkin dəqiq planını işləyib hazırladı.

1945-ci ilin fevralında üç müttəfiq dövlətin rəhbərləri Sovet İttifaqında görüşərək Təhlükəsizlik Şurasında səsvermə sistemi barəsində razılığa gəldilər.

1945-ci ilin aprel, may, iyun aylarında 50 ölkənin nümayəndələri San-Fransiskoda konfransa toplaşdılar. Nümayəndələr BMT-nin Nizamnaməsini və Yeni Beynəlxalq Ədalət Məhkəməsinin qanunlarını hazırladılar və yekdilliklə qəbul etdilər.

1945-ci il oktyabrın 24-də bütün nümayəndələr BMT Nizamnaməsini bəyəndikdən sonra Birləşmiş Millətlər Təşkilatı rəsmi surətdə yaradıldı. Buna görə də oktyabrın 24-ü bütün dunyada BMT günü kimi qeyd olunur.

### *BU TƏŞKİLAT HAQQINDA NƏ BİLİRSİNİZ?*

BMT dünyada sülh uğrunda çalışmaq üçün könüllü birləşmiş dövlətlərin təşkilatıdır. BMT-nin dörd əsas məqsədi var:

1.Bütün dünyada sülhü qorumaq. 2. Millətlər arasında dostluq əlaqələrini möhkəmləndirmək; 3.Birgə səylərlə dünyada yoxsulluğu, xəstəlikləri və savadsızlığı ləğv etmək, hər bir insanın hüquqlarına və azadlığına hörmətli artırmaq üçün çalışmaq və 4. bu məqsədlərə nail olmaq üçün millətlərə yardım göstərən Mərkəz kimi fəaliyyət göstərməkdir.

BMT-nin ana yazısı olan Nizamnaməsi var.

BMT-nin Baş Qərargahı ABŞ-ın Nyu-York şəhərindədir.

BMT-də bütün işlər 6 əsas orqan tərəfindən həyata keçirilir:

1. Baş məclis (BMT-nin mərkəzi orqanıdır).
2. Təhlükəsiz Şurası (15 üzvü vardır. Onun beşi-Çin, Fransa, Rusiya Federasiyası, Birləşmiş Krallıq və ABŞ daimi üzvlərdir).
3. İqtisadi və Sosial Şura (EKOSOS) - 54 ölkə bu şuranın üzvüdür. Onlardan biri də UNİCEF-Beynəlxalq Uşaq fondudur.
4. Hamilik,
5. Beynəlxalq Ədalət Məhkəməsi və
6. Katiblik.

BMT-də 6 rəsmi- ərəb, çin, ingilis, fransız, rus və ispan dilləri işlənir.

### *BU GÜN BMT-NİN GÖZÜ QARŞISINDA DÜNYANIN SİYASİ HƏYATINDA NƏLƏR BAŞ VERİR?*

Bir tərəfdən dəhşətli təbiət hadisələri, digər tərəfdən günü-gündən artan terrorçuluq, separatçılıq, dini və milli zəminda münaqişələr. İnsanlar fəlakətlə üzləşmişlər. Dünyada baş verən qanlı hadisələr planetimizin siyasi həyatına narahatlıq gətirir. İnsanların dinc həyatı pozulur. Dünyada milyonlarla qaçqın və məcburi köçkün axını əmələ gəlmişdir. Bu faciələrin ən ağır zərbələri uşaqlara və qadınlara dəyir.

UNİCEF-in verdiyi məlumata görə son illərdə olmuş qanlı hadisələr zamanı iki milyon uşaq ölmüş, altı milyon yaralanmış, həmişəlik şikəst olmuşdur. Minlərlə uşaq evsiz qalmışdır. Bir milyon uşaq ata-anasını itirmiş, ailəsindən ayrı düşmüşdür.

Bu müsibətlərdən qurtarmaq üçün insanlar müdriklik göstərib BMT-nin sülh, əmin-amanlıq uğrunda apardığı mübarizəyə qoşulmalı, dünyamızda əbadi dinclik və firavanlıq olmasına çalışmalıdırlar.



## YURDUMUZA XAİN GÖZLƏ BAXANLAR

### *Ermənilər haqqında V.L.Veliçko "Qafqaz" əsərində nə yazmışdır?*

Tarix boyu qonşularının hesabına yaşayan ermənilərin mənfi xüsusiyyətləri haqqında fransızcadan rus dilinə tərcümə olunmuş "Musulmanskaya renosans" kitabında da bəhs edilmişdir. Bu kitab sovet dövründə ermənilərin etirazı ilə tezliklə mağazalardan götürülmüşdür.

Məşhur rus publisisti, Tiflisdə çıxan "Qafqaz" qəzetinin redaktoru V.L.Veliçko "Kafkaz" (S.Peterburq, 1904.) adlı kitabında ermənilərin bütün məkrli sifətini açıb göstərmişdir. Həmin kitabda oxuyuruq: "Onlarda ticarətə, sələmçiliyə, acgöz qazanca böyük irqi həvəs var". "Gücsüzlər yanında lovğalıq, qəddarlıq, güclülər yanında isə qul kimi quyruq bulama, nəhayət, özlərini reklam eləmək üçün müstəsna bacarıq və hədsiz şöhrətpərəstlik... ermənilərdə daha kobud və nəzərəçarpacaq dərəcədədir" (səh. 48).

"Onlarda xalq mənəviyyatının göstəricisi olan güclü bir poetik əsər yoxdur və olmayıb" (səh.51).

"Ermənilər gürcü abidələrini öz adlarına çıxmış, gürcü xalqına məxsus olan milli-mənəvi sərvətləri daşıyıb (oğurlayıb) öz kilsələrinə gətirmişlər. (Onlar Azərbaycan xalqına məxsus olan maddi-mədəniyyət abidələrini, musiqini, milli xörəkləri, xalçaları və s. öz adlarına çıxmışlar).

"Ermənilər üçün "bağırmaq" sözü olduqca səciyyəvidir. Onlara toxunan bir şey olanda hər cür bəhanə tapıb həyasızcasına bağırırlar (səh.53).

Fransız səyyahı Qraf de Şale ermənilər haqqında deyir: "Ermənilərin yoxsulluğuna və əzab-əziyyət çəkməsinə yazığım gəlməsinə baxmayaraq, onların haramzadalığı, kələkbazlığı o dərəcədə iyrənc... o qədər hiddətləndirici idi ki, məni heç zaman, heç bir şey onlara bağlaya bilmədi".

"Bir yunanın iki yəhudini, bir erməninin isə iki yunanı aldada bilməsi haqqında zərb-məsəl hər yerdə özünü doğruldur. Əgər Anadoluda sizi bir yerdə aldatmışlarsa, deməli, onda ancaq ermənilərlə əlaqədə olmusunuz".

Elə həmin müəllif yazır: "Mən türklə bir iş barəsində şərtləşəndə yazılı müqavilə bağlamadan da kifayətlənirəm, çünki o, söz verdi, qurtardı. Yunanla, yaxud başqa bir levantinlə yazılı şərt kəsirəm,... ermənilərlə isə hətta yazılı surətdə də heç bir iş görmürəm, ona görə ki, onların yalançılığı və fitnə-fəsadları hətta yazılı şərti də poza bilir" (səh. 54).

### *Güney Qafqaza, xüsusilə Azərbaycan torpaqlarına ermənilərin köçürülməsi haqqında N.İ.Şavrov, N.Dubrov, S.Qlinka və başqa rus məmurları və s. müəlliflər nə yazmışlar? Rəsmi dövlət sənədlərində bu hadisələr necə qeyd olunmuşdu?*

Bunları qısaca olaraq belə qeyd etmək olar 1823-cü ildə Qarabağda azərbaycanlı ailələrin sayı 15729, erməni ailələrinin sayı 4366 idi. Erməni ailələrinin sayını bildirən bu rəqəm onların ilk illər Qarabağa köçürülməsi hesabına olmuşdu. Halbuki, o zaman Qarabağda erməni əhalisi çox az idi.

1826-1828-ci illər Rus-İran müharibəsi başa çatandan sonra iki il ərzində İrandan 4000, Türkiyədən 84000 erməni Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarına köçürülmüşdür. N.İ.Şavrov 1911-ci ildə yazırdı ki, Güney Qafqazda ermənilərin sayı çox cüzi idi. Köçürülən ermənilər üçün 200 000 desyatin dövlət torpağı ayrılmışdı. Qarabağın dağlıq hissəsində və Göyçə gölü ətrafında yerləşdirilən ermənilər ən gözəl yaylaq yerlərində məskunlaşdırılmışdı.

Türkmənçay müqaviləsindən sonra ermənilərin Güney Qafqaza axını kütləvi hal aldı. Az vaxtda 200 000-dən çox erməni ən yaxşı məhsuldar torpaqlarda yerləşdirildi.

Köçürmə siyasəti XIX əsrin sonunadək davam etmişdi. Krım müharibəsi zamanı köçürülən ermənilər qeydiyyata alınmamışdılar. Rus-Türk müharibəsi (1877-1879) illərində Güney Qafqaza daha 85 min erməni gətirilmişdi. Ən çox köçmə 1893-1894-cü illərdə baş vermişdir. Təkcə 1894-cü ildə Türkiyədən 90 min, 1897-ci ildə isə 100000 erməni çayırtka axını kimi Güney Qafqaza dolmuşdu. Çar Rusiyasının rəsmi sənədlərində 1896-cı ilə aid statistik məlumatda artıq köçürülmüş ermənilərin sayı 900000-i ötmüşdür. 1908-ci ildə Güney Qafqaza gəlmə ermənilərin sayı 1 300 000 nəfərə çatmışdır.

N.İ.Şavrov onu da qeyd edirdi ki, ermənilər saxtakarlıq edərək məmurları müxtəlif vasitələrlə aldadaraq geniş bir ərazidə dövlət torpaqlarını ələ keçirmişlər.

Çar Rusiyası Qafqazda öz mövqeyini möhkəmlətmək və yerli Azərbaycan xalqını sıxışdırmaq məqsədilə başqa millətlərdən olanları da

Azərbaycan torpaqlarında məskunlaşdırmışdır Əgər Qarabağ, Gəncə, İrəvan, Borçalı zonaları köçgün ermənilərlə doldurulmuşdursa, Lənkəran, Astraxanbazar bölgəsi malakan rusları üçün böyük bir koloniyaya çevrilmişdi. Gəncənin yaxınlığında 1819-cu ildə köçürülmüş almanlar üçün Yelendorf (indiki Göy-göl rayonu) şəhərciyi salınmışdı.

N.İ.Şavrov yazır ki, Güney Qafqaza çar hökuməti 17264 polyak, 20041 çex, 4561 latış, 2724 moldovan, 82043 yunan, 30890 yəhudi, 5241 eston, 5028 aysor (cəmi 1 147 972) köçürmüşdür.

Budur, rus imperiyasının qəsbkarlıq siması. Bundan istifadə edən erməni şovinistləri daha qəddar, mürtəce, insanlığa yaraşmayan siyasi oyunlara girmiş, bu gün də öz iyrənc hərəkətlərini davam etdirirlər.

### Qərbi Azərbaycanda yurddaşlarımızın yer-yurd adları qalıbmı?

Yox. Erməni faşistləri əsrlər boyu qurub-yaradılmış yer-yurd adlarımıza, qədim abidələrimizə də qəsd etmişlər. Toponimlərimiz mənəvi soyqırıma məruz qalmışdır. Sovet dövründə onlar yüzlərlə kənd, qəsəbə adlarını qondarma erməni adları ilə əvəz etmişlər.

Erməni müəllifi Z.Korkodyan 1932-ci ildə nəşr etdirdiyi "Sovet Ermənistanının əhalisi" kitabında yazır ki, XIX əsrin əvvəllərində İrəvan quberniyasında toponimlər türk mənşəli idi. XX əsrin əvvəllərində 2.310 toponimdən 2000-i türk mənşəli olmuşdur. 1971-ci ildə İrəvanda "Hayastan" nəşriyyatı "Ermənistan SSR-in inzibati ərazi bölgüsünün 1 may 1971-ci ilə aid 4-cü buraxılışı bülletenini çap etmişdir. Bu rəsmi dövlət sənədində əlifba sırası ilə verilmiş 414 kəndin, qəsəbənin, bölgənin azərbaycanca adı dəyişdirilib erməniləşdirilmişdir. Sonralar bu rəqəm daha da böyümüşdür və azərbaycanlılar silah gücü ilə sıxışdırılıb qovulmuşlar.

Yer-yurd adları xalqın tarixini, mənşəyini göstərən ən mötəbər mənbədir. İndi görün bu vandal haylar xalqımızın tarixi izini itirmək üçün nə böyük cinayətlərə əl atmışlar.

### Azərbaycanlıların soyqırımı nə vaxtdan başlanır?

Erməni millətçiləri 200 ildən artıqdır ki, qonşuları, xüsusilə də Azərbaycan türkləri ilə düşmənçilik edirlər. Özləri Qafqaza gəlmə olduqları halda yalandan tarix yaradaraq Azərbaycan xalqına şər atmış, fitnə-fəsad törədərək torpaqlarımızı zaman-zaman özününküləşdirməyə cəhd etmişlər. Onların mənfur niyyətlərini, milli xarakterini, Qafqazda törətdikləri soyqırımını açmaq, ona siyasi qiymət vermək üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1998-ci il 26 mart tarixli Fərman vermişdir. Burada göstərilir ki, çarizmin Güney Qafqazda yeritdiyi ayrı-seçkilik siyasəti nəticəsində ermənilər daha da həyasızlaşaraq, bu ölkədə vaxtaşırı qırğınlar, zorakılıqlar törətməklə, torpaq sahələri zəbt etməklə məşğul olmuşlar. Bu soyqırımların kökü 1813, 1828-ci il Qafqaz uğrunda müharibələrdən başlanır. "1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə erməni millətçiləri və onları dəstəkləyən böyük dövlətlərin mürtəce qüvvələri tərəfindən Zaqafqaziya miqyasında azərbaycanlı əhaliyə qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri" Fərmanda açılır.

Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisi bu məsələni müzakirə edib Bəyanat qəbul etmişdir. Həmin rəsmi sənəddə deyilir ki, 1905-1907-ci illərdə silahlanmış mütəşəkkil erməni dəstələri etnik zəmində soyqırımı kimi dəhşətli bir cinayətin Qafqazda ilk müəllifləri olmuşlar. Onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda kütləvi şəkildə azərbaycanlılara divan tutmuş, şəhər və kəndləri yandırmış, uşaqları, qadınları, qocaları qəddarlıq və vəhşiliklə öldürmüşlər. Həmin dövrdə təkcə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 73 Azərbaycan kəndi yerlə-yeksan edilmiş, İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsi viran edilmişdir...".

1917-ci il inqilabından sonra imperiyanın dağılmasından istifadə edən ermənilər yenidən baş qaldırmış, 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda ermənilər 50 mindən çox azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, on minlərlə adamı öz yurdlarından didərgin salmışlar. Bakıda 30 minə yaxın soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmiş, Şamaxı qəzasının 58 kəndi dağıdılmış, 7 min nəfərədək adam, o cümlədən 1653 qadın, 965 uşaq öldürülmüş, Quba qəzasının 122 müsəlman kəndi yerlə-yeksan edilmişdi.

Qarabağın dağlıq hissəsində 150-dən çox, Zəngəzur qəzasında 115 Azərbaycan kəndi vəhşicəsinə dağıdılmış, əhaliyə divan tutulmuşdur. İrəvan quberniyasında 211, Qars vilayətində - 92 Azərbaycan kəndi dağıdılmış, yandırılmış və talan edilmişdir...

1948-1950 və 1988-1989-cu illərin zorakı deportasiyaları nəticəsində Ermənistandan yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların bütün əmlakı talan olunmuşdur.





### Bakıda azərbaycanlıların soyqırımı nə vaxt olub?

Erməni millətçilərinin Azərbaycan xalqına qarşı apardığı soyqırımı siyasətinin ən qanlı səhifələrindən biri 1918-ci il mart ayında - Novruz bayramı günlərində Bakıda olmuşdur.

Qafqaza Sovet Rusiyası tərəfindən komissar təyin edilmiş S.Şaumyan Bakıya ayaq basan gündən burada yaşayan ermənilər fəallaşaraq, Bakı kommunasında rəhbər mövqeləri ələ keçirərək azərbaycanlılara divan tutmaq üçün özlərinə arxa-dayaq tapdılar. S.Şaumyan ordudan qayıdan, qaçan əli silahlı erməni döyüşçüləri öz qanadı altına alıb azərbaycanlıların üstünə göndərdi. Gözləri qızmış bu döyüşçülər qan tökmək üçün bəhanə axtarırdılar. Üzdə bolşeviklərin tərəfinə keçən, ürəkdə isə daşnaksütyun partiyasının əqidə və mənafeyi ideyasını həyata keçirən bu haylar 1918-ci il martın 18-də müsəlmanların Xeyriyyə Cəmiyyətinə yığışıb öz taleləri haqqında düşündükləri bir vaxtda bundan təşviş keçirən daşnaklar Bakı şəhər polis idarəsinin rəisi Hayk Mikaelyanı göndərib fitnə-fəsad törətməyi ona tapşırdılar. Erməni silahlı dəstələri ertəsi gün səhər müsəlman məhəllələrinə hücum edib günahsız adamları atəşə tutdular. Hərbi gəmilər ermənilərin fitvası ilə müsəlman məhəllələrinə mərmilər yağdırdılar. Gözləri qanla dolmuş ermənilər getdikcə azğınlaşaraq həyətlərə, evlərə silahlı basqın etmiş, bir neçə günün içində 15 mindən çox azərbaycanlını öldürmüşdülər. Münxen şəhərində nəşr edilən "İstiqlal" qəzeti 1918-ci ildə daşnakların törətdikləri cinayətlər haqqında yazırdı: "Yandırılan bir tək "İsmailiyyə" binası deyildi. Türklərə, azərbaycanlılara məxsus bütün mətbəələr, mətbuat idarəxanaları, məktəblər, xəstəxanalar, camilər... dağıdılmış və yandırılmışdı". ("İstiqlal" qəzeti, 1933, №31).

Daşnaklar qocaya, qadına, uşağa məhəl qoymadan qabağına keçəni qılıncdan keçirir, süngü ilə bədənlərini deşik-deşik edirdilər. Təkcə bir çaladan burun və qulaqları kəsilmiş, qarınları yırtılmış 57 müsəlman qızının meydi tapılmışdı. Bu qanlı hadisənin şahidləri söyləyirdilər ki, ermənilər qadınları təhqir etmək üçün qadınların hörüklərini bir-birinə bağlayaraq, başı açıq, ayaqyalın qabaqlarına qatıb küçələrə qovur, işgəncə verərək öldürürdülər. Onları lüt-üryan oynamağa məcbur edirdilər.

Bu cür alçaqlıq, vəhşilik bəşər tarixində görünməmişdi.

### 1992-1993-cü illərdə erməni təcavüzkarları tərəfindən Azərbaycanın hansı rayonları işğal edilmişdir?

**BU TARİXLƏRİ UNUTMAYIN!**

| | |
|---|---|
| Xocalı | 1992, 26 fevral |
| Şuşa | 1992, 8 may |
| Laçın | 1992, 18 may |
| Kəlbəcər | 1993, 2 aprel |
| Ağdərə | 1993, 28 iyun |
| Ağdam | 1993, 23 iyul |
| Füzuli | 1993, 23 avqust |
| Cəbrayıl | 1993, 26 avqust |
| Qubadlı | 1993, 31 avqust |
| Zəngilan | 1993, 28 sentyabr |

### Dağlıq Qarabağı Ermənistana birləşdirmək uğrunda erməni işğalçılarının apardıqları elan olunmamış müharibə zamanı Azərbaycana dəymiş ziyanın miqyası necə olmuşdur?

Hayesların ayaqları Qafqaza dəyəndən bu cənnət məkanda dinclik, əmin-amanlıq pozulub. Onlar böyük dövlətlərə nökərçilik edərək, öz iyrənc mənafeyləri naminə yaltaqlanaraq, satqınlıq edərək Qafqazı yadellilərə nişan vermiş, Qafqaz xalqlarının mədəni sərvətlərini riyakarcasına öz adlarına çıxmışlar. M.Qorbaçov kimi avantüristlərə arxalanaraq 1988-ci ildən başlayaraq Azərbaycanın dilbər guşəsi Qarabağı ələ keçirmək üçün misli görünməmiş cinayətlərə əl atmış, qanlı qırğınlar, müharibə törətmişlər. Elan olunmamış bu müharibə nəticəsində Azərbaycanın 12 rayonu, (Ağdərə, Şuşa, Xocavənd, Əsgəran, Hadrut, Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı, Füzuli, Ağ

dam və Cəbrayıl) 20 faiz ərazisi düşmənin əlinə keçmiş, 1 milyona yaxın dinc azərbaycanlı əhali öz ev-eşiyindən, el-obasından silah gücünə qovulmuşdur. Döyüşlərdə 20 mindən çox azərbaycanlı həlak olmuş, 100 mindən artıq yurddaşımız yaralanmışdır. 700-dən çox yaşayış məntəqəsi, 6000-ə yaxın sənaye, kənd təsərrüfatı və digər sahə müəssisələri, ümumi sahəsi 9 milyon kv.m. olan 107000-dən çox yaşayış evi, 4366 sosial-məişət obyekti, 690 orta məktəb, 855 məktəbəqədər tərbiyə ocağı, 397 xəstəxana, 10 poliklinika, 10 doğum evi, 76 aptek, 4 sanatoriya, 10 məscid talan edilmiş, dağıdılmış, yandırılmışdır. Maldarlarımız yaylaqların 70 faizini itirmişlər. Su və hidrotexniki qurğular, dəmiryolu və avtonaqliyyat yolları sıradan çıxarılmışdır. 72400 hektar əkin sahəsi Ağdam, Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl, Kəlbəcər, Laçın rayonlarının 34600 hektar üzüm və meyvə bağları təcavüzkarların tapdağı altında qalmışdır. Bu bölgələrdə işğala qədər 63000 iribuynuzlu, 244000 xırda buynuzlu mal-qara olmuşdur. İşğal olunmuş ərazilərdə təbiətin 200-dən artıq qiymətli paleontoloji, fauna və geoloji abidələr vardır. Torpaq, meşə və heyvanlar aləminə vurulan ziyan milyardlarla ABŞ dolları həcmindədir. Şuşa kimi şəhər muzeyimiz dağıdılmış, xalqımızın mədəni sərvətləri amansızcasına talanmışdır. Mədəniyyət və incəsənət ocaqlarına, o cümlədən 368 kluba, 927 kitabxanaya, 85 musiqi məktəbinə, 22 muzeyə, 4 şəkil qalereyasına, 10 mədəniyyət və istirahət parkına, 6 dövlət teatrına böyük ziyan dəymişdir. Təcavüzkarlar muzeylərdən 40000 eksponatı oğurlayıb aparmışlar.

Budur, işğalçıların sifəti!

### *Bəs Xocalı soyqırı nə vaxt, necə olmuşdur? Onun dəhşətləri haqqında dünya nə bilir?*

İnsanlığa qarşı ən dəhşətli cinayətlərdən biri-Xocalı soyqırımı XX əsrin Xatın, Lidiçe, Babi Yar kimi ağır faciələrdən də betər olmuşdur.

1992-ci il fevralın 26-da olmuş Xocalı soyqırımı haqqında 15 ildən çoxdur ki, xalqımız haray çəkir. Ancaq dünya susur və bunu sanki görmür. 2007-ci ildə bu dəhşətli qətliamın 15 illiyi münasibətilə Azərbaycan Respublikası Milli Məclisi bu qanlı hadisəni geniş müzakirə edib. Bəyanat qəbul etmişdir. Həmin rəsmi sənəddə deyilir ki, Xocalı qırğınından əvvəl erməni işğalçıları Qarabağın İmarət Qərvənd, Tuğ, Sələkətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərini dağıtmış, əhalisini amansızlıqla qətlə yetirmişlər.

Azərbaycanın qədim yaşayış və mədəniyyət mərkəzlərindən olan Xocalıda yeddi minə yaxın əhali yaşayırdı. Ermənistandan ata-baba torpaqlarından zorla qovulub didərgin salınmış azərbaycanlıların bir hissəsi və 1989-cu ildə Fərqanədən qovulmuş məhsəti türklərinin 54 ailəsi də burada məskunlaşmışdı.

Xocalı şəhərinin yer üzündən silinməsi və əhalisinin kütləvi surətdə qətlə yetirilməsi planı qabaqcadan hazırlanmışdı. 1991-ci ilin noyabr ayından şəhər blokadaya alınmışdı. Xocalının xarici aləmlə əlaqəsi ancaq radiotelefon və mülki vertalyotlar vasitəsilə həyata keçirilirdi. 1992-ci ilin yanvarın 28-də "Azərbaycan Hava Yolları" Dövlət Konserninə məxsus MI-8 markalı mülki vertalyot Dağlıq Qarabağ səmasında erməni hərbi birləşmələri tərəfindən vurulmuş, vertalyotun sərnişinləri olan 47 azərbaycanlı həlak olmuşdu. Bundan sonra şəhərlə hava əlaqəsi də kəsilmişdi...

Fevralın ikinci yarısından başlayaraq Xocalı Ermənistan silahlı birləşmələri tərəfindən tam mühasirəyə alınmışdı...

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıya hücum başdandı. Hücumda Ermənistan Respublikasının hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni terror dəstələri və keçmiş sovet ordusunun Xankəndində yerləşən 366-cı motoatıcı alayı iştirak edirdi. Heç bir hərbi zərurət olmadan şəhər bir neçə saatın içərisində yerlə yeksan edildi. Xocalı sakini olan 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın işgəncə ilə öldürüldü. 8 ailə bütövlüklə məhv edildi. 487 nəfər şikəst edildi. 1275 sakin - qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz təhkirlərə, zülmə və həqarətə məruz qaldılar. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Xocalı soyqırımı zamanı azğınlaşmış cəlladlar insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri basdırmış və ya yandırmış, cəsədlərin bir qismini minalamışlar. Yanan şəhərdən çıxıb qaçmaq istəyən insanlara aman verilməmiş, dinc sakinləri yollarda, meşələrdə pusqu quran erməni hərbçiləri xüsusi amansızlıqla qətlə yetirmişlər...

Bu cür vəhşilikləri bəşər tarixində heç bir işğalçı, heç bir düşmən etməmişdi.

Xocalı soyqırımı xalqımızın qan yaddaşından heç vax silinməyəcək!



### *KİTABIN İÇİNDƏKİLƏR*


Ön söz ..... 3
İlahi kəlamlar ..... 5
Kainat ..... 10
Bizim doğma planetimiz ..... 16
Asiya ..... 24
Avropa ..... 29
Şimali Amerika ..... 31
Cənubi Amerika ..... 33
Afrika ..... 35
Avstraliya və Okeaniya ..... 37
Yaxın Şərq və Ərəb dünyası ..... 39
Misir ..... 42
Çin ..... 45
Yunanıstan ..... 48
Hindistan ..... 51
Roma ..... 53
Türk dünyasından soraqlar ..... 55
Ən qədim şəhərlər ..... 66
Dünyanın böyük kəşfləri ..... 71
Elm korifeyləri ..... 76
Kim? Nə? Necə? Nə üçün? Harada? Nə vaxt? Hansı? ..... 80
Qadın Günəş, Cocuq Ay, Nuru Ay Günəşdən... ..... 95
İncəsənət ..... 99
Musiqi ..... 109
Azərbaycan ..... 115
Gözəlliklər diyarı ..... 125
Əsrlərin yaddaşından qalan izlər ..... 130
Azadlıq yollarında ..... 152
Ümidimiz, Gələcəyimiz ..... 161
Mədəniyyət xəzinəmizdən soraqlar ..... 192
Azərbaycan Beynəlxalq İdman Mərkəzlərindən birinə çevrilmişdir ..... 215
Təbiətin ağ ciyəri ..... 219
İnsanlar quşlara niyə həsəd aparırlar ..... 221
İnsanlar nə üçün heyvanlara xüsusi münasibət bəsləmişlər ..... 223
Dünyada nə qədər müharibələr olub? ..... 225
Yurdumuza xain gözlə baxanlar ..... 227

Kitabda gedən materialların içində və arxasında mənbələr göstərildiyi üçün ədəbiyyat siyahısı verməyə ehtiyac duyulmadı. Bu toplunun ərsəyə gəlməsində bizə köməyi olmuş həmin zəngin ədəbiyyatın, illüstrasiya və fotoların müəlliflərinə - Rasim Sadıqova, Fərman Bağırova, rəssamlarımıza, kitabın rəngli və ağ-qara şəkillərinin işlənib qaydaya salınmasında xeyirxah əməyi olmuş Emin Talışxanova, Xalirə Musayevaya, rəssam Vəfa İbrahim qızına, dizayner Aygün Hüseynovaya, kitabı korrektə etmiş Rəmayə Talışxanovaya, Ülviyyə və Günel Aşırovalara, "Azərbaycan" nəşriyyatının rəhbərliyinə - nəşriyyatın baş direktoru, Ağabəy Əsgərova, həmçinin Basti İsmayılovaya, İlqar Əliyevə, Nazim Rzaquliyevə, Elmar Qafarova, Cəmilə Abbasovaya, Təranə Dadaşovaya, Vahan Məmmədova, Telman Rəhimova, Vidadı Bayramova və cild sexinin bütün əməkdaşlarına böyük ehtiram hissilə təşəkkür edirəm.

**Bu ensiklopedik topludan istifadə edərkən müəlliflik hüququna əsasən müəllifin və tərtibçinin adı, soyadı, kitabın adı, nəşr tarixi bir mənbə kimi mütləq göstərilməlidir.**

SABİR GƏNCƏLİ-MƏMMƏDOV

**777 sual...**

(ensiklopedik toplu)

Redaktoru və bədii tərtibi: **Sabir Gəncəli**
Rəssam: **Vəfa İbrahim qızı**
Kompyuter dizaynı: **Aygün Hüseynova**
Korrektorlar: **Rəmayə Talışxanova**
**Ülviyyə Aşirova**
**Günel Aşirova**

Çapa imzalanmışdır 14.10.2008. Kağız formatı 84x108 1/8. Ofset kağızı. Qarnituru Times.
Fiziki çap vərəqi 29,0. Şərti çap vərəqi 48,72. Tirajı 450. Sifariş 2100. Müqavilə qiyməti ilə

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
Az1073 Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.
Tel.: (99412) 4380010. Faks: (99412) 4380014.
E-mail: azerbneshr@yahoo.com